# Gömrük işi

**Hazırladı: L.M.Hüseynova**

1. Gömrük tarixi.

Suallar:

1.Azərbaycanın qədim dövrlərdən XVIII əsrin əvvəllərinə qədərki xarici siyasəti.

2. Azərbaycanın rus imperiyasının tərkibində olduğu müddət ərzindəki gömrük tarixi (1807-1918).

3.Azərbaycanın XX əsrin dövründəki gömrük tarixi.

4.Azərbaycan Respublika müstəqillik qazandıqdan sonra olan müddətdə gömrük tənzimlənməsi xüsusiyyətləri.

5.Müasir dövrdə gömrük işinin mahiyyəti, dövlət tənzimlənməsində onun rolu və əhəmiyyəti.

Azərbaycanın xarici ticarət əlaqələri çox qədim dövrlərə gedib çıxır. Bizim eradan əvvəl ikinci minilliyin ikinci yarısında yerli tayfalar Assur. Fələstin və Misir ölkələri ilə xammal və məhsullar mübadiləsi aparar, həmin ölkələrdən isə bəzək əşyaları və müxtəlif soyuq silahlar gətirərdilər.

Atropatenanın ərazisində olan Təbriz, Ərdəbil, Urmiya, Marağa, Miyana, Zəncan, Naxçıvan, Maku və digər şəhərlər ölkə daxilində mühüm ticarət mərkəzlərinə çevrilmişdilər. Bu şəhərlər başqa dövlətlərlə təkcə quru ilə deyil, həm də dəniz yolu ilə ticarət əlaqələri yarada bilmişdilər. Məşhur "Böyük ipək yolu" vasitəsilə Orta Asiya, Çin, Hindistan, Kiçik Asiya ölkələri, İberiya, Qafqaz Albaniyası ilə ticarət əlaqələri formalaşmışdı.

Ölkədə hazırlanmış xalçalar, bəzək şeyləri, yün məmulatları və s. ixrac olunaraq əvəzində lazım olan istehlak malları idxal olunurdu. Bu zaman satış üçün müxtəlif vergilər alınırdı ki, bu da müasir dövrdə gömrük vergiləri və rüsumları adlanır.

Bizim eranın əvvəllərində indiki Şimali Azərbaycanın və Cənubi Dağıstanın ərazisini əhatə edən Albaniya dövləti yarandı. Tarixi mənbələrdə bu ərazidə neft, təbii

qaz, dəmir, mis və s. kimi qiymətli ehtiyatların olduğu göstərilirdi ki, bunlar da sonradan ticarət subyektlərinə çevrilirdilər.

Şirvanda (Bakıda) neft və duz məhsullarının üzərinə vergi qoyulmuşdur ki, bu da müasir dildə mədən vergisi və aksiz vergisi kimi dəyərləndirilir.

Mənbələrin yazdığına görə, Azərbaycan ərazisində dövlət tərəfindən gömrük vergiləri rəsmi olaraq IX əsrin əvvəllərindən müəyyən edilməyə başlamışdır. Bəlkə IX əsrdən qabaq da bu vergilər mövcud olmuşdur, lakin bu barədə olan məlumatlar Ərəb xilafəti dövründə yandırıldığı üçün, bu barədə ancaq mülahizə yürütmək olar. Çünki artıq iri şəhərlərdə - Ərdəbil, Muğan, Naxçıvan, Bərdə, Beyləqan, Qəbələ, Şəki, Şəmkir, Dərbənd (Bab-əl-Əbvab), Şabran, Şamaxı və digərlərində ticarət məhəllələri (o zamanlar "ravad" adlanırdı) yaranmışdı.

Xarici ölkələrdən Azərbaycana müxtəlif parçalar, metal məmulatları, ətriyyatlar, ədvalar, xəzlər və s. gətirilir, ölkədən isə xam ipək, ipək parçalar, pambıq, xalçalar, boyalar, neft, mal-qara, atlar və s. ixrac edilirdi. Ticarətə qoyulan gömrük vergi və rüsumları ölkə xəzinəsinin mühüm gəlir mənbəyinə çevrilmişdi.

XI-XII əsrlərdə karvan və ticarət yollarının bir-biri ilə və xarici ölkələrlə birləşdiyi Azərbaycan şəhərlərindən daxili və xarici bazarlara neft, pambıq, ipək, duz, meyvə, balıq, boyaq, ədviyyat və s. göndərilir, Şərq və Qərblə ticarət əlaqələri saxlayırdılar.

Monqollara qədərki Azərbaycanın iqtisadi vəziyyəti məhsuldar qüvvələrin artması, ticarətin və mal-pul münasibətlərinin genişlənməsi ilə səciyyələnir.

XI-XII əsrlərin vergiləri əvvəlki dövrlərin qayda - qanunlarının çoxunu mühafizə etmişdir. O dövrün vergi sistemi haqqında ətraflı məlumat verən tarixçi Ravəndi yazırdı ki, vergilər dəftərlərdə xüsusi qeydlər aparılmaqla həyata keçirilirdi.

Eyni zamanda Ravəndi qanunsuz vergilərdən (yəni, müasir dildə rüşvətdən) "dəstərqə" (hədiyyə kimi qəbul edilən vergi növü), "şərab-baha" (içki üçün yığılan pul - indiki "aksiz" vergisi) və sairlərinin də adını çəkir.

XII-XIII əsrlərdə Dərbənddən İran körfəzinə, Şərqdən Avropaya gedər beynəlxalq karvan yolları Təbrizdə kəsişirdi. Azərbaycanın xam ipəyi Şamaxıdan Şimali İtaliya şəhərlərinə, həmçinin Fransaya ixrac olunurdu. Volqaboyu, Rusiya və Şərqi Avropanı

İran körfəzi ilə əlaqələndirən beynəlxalq karvan yolunun üstündə yerləşən şəhər Şamaxı idi.

XI-XIII əsrin əvvəllərində Dərbənddən sonra ikinci mühüm liman şəhəri, ağ neft və duz istehsalı mərkəzi Bakı şəhəri idi.

Monqol əsarəti dövründə Azərbaycanda monqol vergi toplayanları (baskaklar) çox qəddarlıq edirdilər. Məhz monqollar ilk dəfə olaraq tacirlər üçün yeni vergi növü - "tamqa" tətbiq etmişdilər (qeyd etmək lazımdır ki, rus dilində işlənən "tomodnya" sözü də buradan götürülmüşdür). Məhz bu vergi növünün tətbiqindən sonra XIII əsrin axırlarında Azərbaycanın xarici ticarəti tənəzzülə uğramışdır.

Azərbaycan dövlətçiliyi tarixində, məmurların (чиновник) özbaşınalığını məhdudlaşdırmaq, iqtisadiyyatı yüksəltmək və xəzinəni doldurmaq üçün ilk vergi islahatını XV əsrdə Səfəvilər dövlətinin başçısı Uzun Həsən həyata keçirmişdir.

Ağqoyunlu dövlətinin banisi Uzun Həsən Trabzon-Yunan dövləti ilə dostluq əlaqəsi yaratmışdı. O, Trabzon imperatorunun qızı Dəspinə (Feodra) Xatunla evlənmişdi. Uzun Həsən Trabzon şəhərində böyük bir körpü saldırmışdır. Çünki Trabzonun Ağqoyunlular üçün böyük ticarət əhəmiyyəti var idi. Belə ki, bu şəhər Ağqoyunlu tacirləri üçün Qara dənizə əlverişli çıxış yolu idi. Müasirlərinin "Sultani-adil" (yəni "ədalətli sultan") adlandırdıqları Uzun Həsən ilk vergi məcəlləsini –"Qanunnamə"ni hazırlamışdır. Maraqlıdır ki, bu "qanun" nəinki XV əsrdə, elə XVI əsrdə də, həm Səfəvilərdövləti ərazisində, həm də əvvəllər Ağqoyunlular dövlətinin tərkibində olmuş Osmanlı imperiyasının şərq vilayətlərində də qüvvədə idi.

1475-ci ildə Rusiyanın knyazı III İvan öz nümayəndəsi Markı Uzun Həsənin yanına ticarət və diplomatik münasibətləri genişləndirmək üçün göndərmişdi. Səfəvilər dövlətinin hökmdarı I Təhmasib sənətkarlığın və ticarətin inkişafını genişləndirmək məqsədilə 1565-ci ildə vilayətlərin hər birindən alınan 80 min tümənlik tamğa vergisini ləğv etdi. Şamaxıdan Rusiya, İran, Suriya ölkələrinə və İrəvan şəhərinə tranzit ticarət yolları gedirdi.

XVI əsrdə Şamaxıda daimi İngiltərə-Moskva şirkəti təşkil edilmişdi. XVI əsrdə Cənubi Qafqazda ipək istehsalı əsas yer tutmuş və ticarətin hamısı Şamaxı və Ərəşdə cəmləşmişdi.

XVI-XVII əsrlərdə Azərbaycan Moskva dövləti, Avropa və Asiya ölkələri ilə iri miqyaslı xarici ticarət aparırdı. Azərbaycandan Moskva dövlətinə və digər ölkələrə parçalar, xalçalar, neft, duz, zəfəran, düyü, boyaq maddələri, soyuq silah ixrac edilirdi. Qızıl və gümüş məmulatları, ləl-cəvahirat, ədviyyat, ətir və s. isə idxal edilirdi.

Azərbaycan XVIII əsrin sonu, XIX əsrin əvvəllərinə qədər, yəni Azərbaycan Çar Rusiyası tərəfindən işğal olunana qədər sərbəstolunana qədər sərbəst vergi və gömrük siyasəti yetirmişdir. Vergi və rüsumların yığılması vəzifəcə naibin səlahiyyətə daxil idi.

**2**.XVIII əsrin sonu XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazda daşa fəal siyasət yeritməsi 1801-ci il Şərqi Gürcüstanın Rusiyaya birləşməsi ilə nəticələndi. Rusiyanın niyyəti Azərbaycanı tutmaq idi. General Sisyanovun bu işğal planında ilk hədəf Car-Balakən oldu (1803-cü il). Sonra Gəncə xanlığı (1804-cü il), Qarabağ xanlığı (1805-ci il), Bakı xanlığı (1806-cı il), Quba xanlığı (1806-cı il), Talış xanlığı (1809-cı il) Rusiya imperiyasının tərkibinə qatılır. 1804-cü ildə başlamış Rusiya-İran müharibəsi 1813-cü ilin oktyabr ayının 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Gülüstan müqaviləsi Azərbaycanın Rusiya və İran arasında iki yerə bölünməsinin başlanğıcını qoydu.

1828-ci ildə bağlanan "Türkmənçay" müqaviləsindən sonra Azərbaysanın şimal ərazisi Rusiyanın, cənub ərazisi isə İranın tərkibində qaldı. İndiyə qədər də bu tarixi haqsızlıq davam edir. Azərbaycanı işğal edən Rus imperiyası İran və Türkiyə ilə həmsərhəd olan əraziləri tam nəzarətə götürmək üçün təcili tədbirlər planı hazırladı. Həmin tədbirlər planında Bakı şəhərində gömrükxananın açılması məsələsi də göstərilmişdir.

Bakı şəhərində gömrükxana İmperator 1 Aleksandr tərəfindən Rusiya İmperiyası Senatına 25 yanvar (9 fevral) 1807-ci il tarixində təqdim olunmuş "Bakı şəhərində gömrükxananın təsis edilməsi barədə" 434 saylı Fərmanı ilə təsis edilmiş və Həştərxan gömrük dairəsinin tərkibinə daxil edilmişdi. Həmin fərmanda gömrükxananın ştatı təsdiq olunmuş, Bakı limanına gətirilən mallardan rüsum tutularkən 1751-ci ildə qəbul olunmuş rüsum dərəcələrindən istifadə olunması haqqında qərar qəbul edilmiş, habelə işçilərin

əmək haqqlarının yığılacaq gömrük ödənişləri hesabına həyata keçirilməsi barədə göstəriş verilmişdir.

"Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələrindən sonra Azərbaycanda Rusiyanın gömrüklə bağlı qərarları qüvvəyə mindi. Həmin vaxt Rusiya ərazisində 1811-ci ildə qəbul olunmuş gömrük tarifləri qüvvədə idi.

1813-cü ildə Bakı gömrükxanasında reyestr üzrə aşağıdakı gömrük kitablarında qeydiyyatlar aparılırdı:

1) dəniz ilə gətirilən mallar və tutulan rüsumların yazıldığı kitab;

2) quru yolu ilə gətirilən mallar və tutulan rüsumların yazıldığı kitab;

3) dəniz ilə aparılan mallar və tutulan rüsumların qeydiyyatı kitabı;

4) quru yolu ilə aparılan mallar və tutulan rüsumların qeydiyyat kitabı;

5) dəniz gəmiləri ilə gələn sərnişinlərin qeydiyyat dəftəri;

6) quru yolu ilə gələnlərin qeydiyyatının aparıldığı dəftər və s.

Bakı gömrükxanası "Qafqaz və Zaqafqaziyada gömrük idarəetməsi barədə Əsasnamə"yə görə, 31 iyul 1831-ci il tarixindən Zaqafqaziya gömrük dairəsinin tabeliyinə verilmiş və 1832-ci ildən etibarən "Bakı anbar gömrükxanası" adını almışdır.

Bakı gömrükxanası 4 may 1847-ildə Zaqafqaziya Karantin - Gömrük dairəsinin tabeliyində olan Bakı Karantin-Gömrük idarəsinə çevrilir.

Qafqaz canişini – General-Feldmarşal Knyaz Baryatinski tərəfindən 31 mart 1861 ci ildə təsdiq edilmiş "Qafqaz və Zaqafqaziyada Karantin - gömrük hissəsinin yenidən təşkili və idarə edilməsi barədə Əsasnamə"yə görə, Bakı Karantin - Gömrük idarəsi Bakı Karantin-Gömrük kontoruna çevrilmiş və yeni yaradılmış Bakı Karantin-Gömrük dairəsinə tabe edilmişdir. Dairənin idarə edilməsi üçün 3 (Dairənin rəisi, tapşırıq üçün məmur və katib) ştat ayrılmışdır.

Bakı Karantin-Gömrük kontoru 1-ci dərəcəli hesab edilməklə bərabər, 18 ştat (rəis, karantin üzrə direktor-həkim, katib-xəzinadar, 2 rüsum yığan, nəzarətçi, tərcüməçi, gəmi baxıcısı və 10 gömrükxana yoxlayıcısı) ayrılmışdır.

Əsasnamənin 5-ci paraqrafına görə Bakı Karantin-gömrük Dairəsi iki sahəyə ayrılır:

1. Cəbrayıl - Erivan Quberniyasından İran sərhəddi boyu Astara çayına qədər olan məsafə buraya aid edilir;

2. Bakı - Bakı Quberniyasının Xəzər dənizinin sahili boyu Astara çayından başlayaraq Dağıstan Vilayətinə qədər olan sərhəd məsafəsi buraya aid edilir.

Bakı sahəsinə aşağıdakı gömrük təşkilatları daxil edilir:

1) Astara Karantin-gömrük Zastavası - birnci dərəcəli;

2) Nizova Karantin-gömrük Zastavası - üçüncü dərəcəli;

3) Karantin-gömrük Zastavası - üçüncü dərəcəli:

Kür deltası zastavası;

Salyan zastavası;

Pereval zastavası;

Lənkəran zastavası.

4) Apşeron Daimi karantin-gömrük Postu;

5) Bakı ayırıcı karantin-gömrük Postu.

Əsasnamənin 11 bölməsində Naxçıvan Baş Karantin-gömrük Kontoru və Culfa Karantin gömrükxanasına gömrük işlərini həyata keçirmək və karantin işlərini təşkil etmək üçün 150 ştat ayrılmışdır. Bu ştatlardan yalnız 12-si (bunlardan 9 nəfəri gömrükxana işçisi, 3 nəfəri isə karantin işçisidir) Erivan transit postuna ayrılmışdır. Bakı sahəsi üçün isə 255 ştat (bunlardan 200 nəfəri gömrük məmuru kimi, 55 nəfəri isə karantin xidmətinin işçisi kimi nəzərdə tutulmuşdur) ayrılmışdır.

"Gömrük tarifi" (1891) və "Gömrük nizamnaməsi" (1892) qəbul olundu. Yeni nizamnaməyə görə Rusiyanın Avropa və Asiya hissəsində gömrük işlərinin tənzimlənməsində vahid qaydalar tətbiq olundu. Eyni zamanda, sahil zonası və dəniz sahilindən 3 dəniz milində yerləşən sular da gömrük zonası elan edildi.

1897-ci il dekabr ayının 8-də "Rusiyanın Avropa hissəsi və Qafqazda gömrük təşkilatlarının ştatları" barədə qanuna əsasən Bakı Karantin - Gömrük kontoru Bakı Gömrük dairəsi idarə heyəti tabeliyində Bakı gömrükxanasına çevrilir.

XX əsrin əvvəllərində, Rusiya dövlətinin gəlirləri içərisində gömrük yığımları spirtli içkilərin icarətindən əldə olunan gəlirlərdən sonra ikinci yeri tuturdu. Bu dövrdə rusiyada inqilabı hərəkat gücləndiyi üçün gömrük orqanlarının işi ikiqat artmışdır.

Gömrüyün funksiyalarına həm də, yoluxucu xəstəliklərin müəyyən edildiyi tədbirdə bütün sərnişinlərin və gəmi heyətinin sahildə müəyyən olunmuş müddətlərdə təcrid edilməsi də daxil idi.

**3**.Azərbaycan Xalq Cümhuriyyəti (ADR) hakimiyyətə gəldikdən sonra gömrük işinin təşkilində ciddi dəyişiklik baş vermədi. Azərbaycan Demokratik Respubllikasının (1918-1920-ci illər) vaxtında bu sahədə konkret bir iş görülməsə də, dövlətçilik baxımından bütün siyasi addımlar atılmışdı. Bütün vergi siyasətinə maliyyə naziri Nəsib bəy Yusifbəyli rəhbərlik etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti (ADR) hakimiyyətə gəldikdən sonra gömrük işinin təşkilində ciddi dəyişiklik baş vermədi. Yalnız gömrük idarəsi Maliyyə Nazirliyinə tabe edilmiş və dəftərxana işlərində müəyyən dəyişiklik baş vermişdir. Amma yenə də sənədləşmə rus dilində aparılmışdır. Bu bəlanın əsas səbəbi isə əvvəlki dövrlərdə yerli kadrların qəsdən hazırlanmaması və hüquqi bazanın ancaq rus dilində olması idi. Eyni problemlə Azərbaycan müstəqilliyin ilk illərində də (1991-1996-cı illər arası) qarşılaşmışdı.

ADR hakimiyyəti ilk aylarında mövcud vəziyyəti araşdırmaq, problemlərlə tanış olmaq, ölkənin milli maraqlarına uyğun olan iqtisadi siyasət formalaşdırmaq, gömrük vergi və rüsumlarına yenidən baxmaq, yeni gömrükxanalar və gömrük postları açmaq, ölkənin Rusiya, Gürcüstan və Ermənistan olan dövlət sərhədlərini nəzarətə götürmək, gömrük orqanı işçilərinin sosial vəziyyətini yaxşılaşdırmaq, ölkədən çıxarılan milli sərvətlərin və tarixi əsərlərin qaçaqmalçılığının qarşısını almaq, keçmişdən miras qalmış üsul-idarəni dəyişdirmək, ölkənin dünya ölkələri tərəfindən tanınmasını təşkil etmək, milli maraqlara cavab verən qanunvericilik bazası yaratmaq, sərhəd zastavalarını artırmaq və onları milli kadrlarla təmin etmək, ölkədaxili hərcmərcliyi aradan qaldırmaq, dövlət büdcəsinin formalaşdırılması üçün yeni mənbələr tapmaq, ölkənin müstəqilliyini qorumaq üçün milli ordunu formalaşdırmaq, müstəqill milli şüur və milli ideologiyanın yaradılması üçün milli konsepsiyalar hazırlamaq və s. məsələlərlə məşğul olmağa başladı. Problemlərin çoxluğu və çətin həll olması ilk vaxtlar ciddi çətinliklər yaratsa da, tədricən məsələlər bir-bir həll edilməyə başladı.

28 aprel dövlət çevrilişindən sonra Rusiyanın Azərbaycana olan marağı yenidən gündəmə gəldi. Artıq 1921-ci ilin əvvəllərində Azərbaycanın gömrük orqanları bütünlüklə Rusiyanın tabeçiliyində idi.

1921-ci ilin əvvəllərində Bakı gömrükxanasının strukturu aşağıdakı kimi idi:

1) Dəftərxana;

2) Müsadirə şöbəsi;

3) Mühasibat;

4) Gəmi kontoru.

Azərbaycan, 1922-ci il 31 mart tarixli dekretə görə 8 gömrük ərazisinin birinə - Zaqafqaziya dairəsinə daxil edilmişdir.

Hakimiyyətə gələn bolşeviklər uzun müddət ölkənin iqtisadi siyasəti, xüsusilə də gömrük işinin təşkili və idarə edilməsi işi ilə məşğul olmadılar. Çünki onların əksəriyyətinin nə dövlətçilik təcrübəsi, nə də təhsilləri var idi. Ölkənin gömrük siyasəti sahəsindəki bütün hüquqları alınaraq Rusiya Federasiyasına verilir. Moskvanın bu siyasəti ötən əsrin 90-cı illərinə qədər davam etmişdir.

1924-cü il dekabr ayının 22-də SSRİ Xalq Komissarları Sovetinin 151/t saylı əmri ilə Zaqafqaziya gömrük idarəsinin adı dəyişilərək "SSRİ Xarici Ticarət Xalq Komissarlığı Baş Gömrük İdarəsinin Zaqafqaziya bölməsi" adlandırıldı.

SSRİ XTXK-nın təsdiq etdiyi gömrük təşkilatları statusuna görə aşağıdakı kimi idi:

İrəvan gömrükxanası - II dərəcəli

Alışar gömrükxanası - III dərəcəli

Şahtaxtı gömrükxanası - III dərəcəli

Naxçıvan gömrükxanası - III dərəcəli

Culfa gömrükxanası - I dərəcəli

Ordubad gömrükxanası - III dərəcəli

Mehri gömrükxanası - III dərəcəli

Mincivan gömrük postu

Xudafərin gömrük postu

Cəbrayıl gömrükxanası - III dərəcəli

Maralyan gömrük postu

Bəhram-Təpə gömrükxanası - III dərəcəli

Biləsuvar gömrükxanası - III dərəcəli

Arus gömrük postu

Kilvəz gömrükxanası - III dərəcəli

Astara gömrükxanası - I dərəcəli

Lənkəran gömrükxanası - III dərəcəli

Qızıl-Ağac gömrük postu

Kür-Dili gömrük postu

Bakı gömrükxanası - I dərəcəli

(XTK-nın 28.01.1925-ci il 21 saylı əmri ilə təsdiq edilmişdir).

Siyahıdan göründüyü kimi Azərbaycan ərazisində 3 birinci dərəcəli gömrükxana yəni Gömrük İdarəsi (Culfa, Astara və Bakı), bir ikinci dərəcəli (İrəvan), 10 üçüncü dərəcəli gömrükxana və 6 gömrük postu fəaliyyət göstərmişdir.

Gömrük işinin təşkili ilə əlaqədar SSRİ-nin qəbul etdiyi ilk böyük sənət 25 oktyabr 1924-cü ildə SSRİ MİK Prezidumımın tərəfindən təsdiq edilmiş "SSRİ-nin Gömrük Nizamnaməsi" idi. Bu Nizamnamə SSRİ MİK və XK Sovetinin 6 fevral 1925-ci ildə təsdiq edilmişdi.

SSRİ Xarici Ticarət Xalq Komissarlığı 2 fevral 1925-ci il tarixli 22 saylı qərarı ilə Gömrük İdarələrinin vahid ştat cədvəli təsdiq olundu.

Yeni ştat cədvəlinə görə gömrük idarələrinin strukturu aşağıdakı kimi olmalı idi:

Gömrük İdarəsi:

1. Tarif şöbəsi
2. Smeta-hesablaşma şöbəsi
3. İnzibati-təsərrüfat şöbəsi
4. Statistika şöbəsi
5. Operativ-məhkəmə şöbəsi
6. Qaçaqmalçılıqla mübarizə üzrə şöbə
7. Nəzarət şöbəsi.

SSRİ-nin Yeni Gömrük Nizamnaməsi 53 maddədən ibarət idi.

Baş Gömrük İdarəsinin vəzifələrinə aşağıdakılar daxil idi:

1) gömrük orqanlarının fəaliyyətinin təşkili və idarə edilməsi;

2) gömrük işi ilə əlaqədar beynəlxalq müqavilələr və konvensiyaların hazırlanmasında iştirak etmək;

3) gömrük tarifinin hazırlanması;

4) qaçaqmalçılığa qarşı mübarizə tədbirlərini hazırlamaq və həyata keçirmək;

5) gömrüklə əlaqədar bütün qanun və təlimatların icrasına nəzarət;

6) gömrük statistikasının aparılması.

1929-cu ildən gömrükxanaların fəaliyyəti Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Şurasının 19 dekabr 1928-ci il tarixli müvafiq qərarı ilə tənzimləndi və əsas məsələlər kimi aşağıdakılar nəzərdə tutulurdu:

a) sərhədi keçən sərnişinlərin, baqajların, yüklərin və nəqliyyat vasitələrinin müayinəsi və onların buraxılması;

b) xarici ticarət inhisarçılığı haqqında qanunun yerinə yetirilməsinə faktiki nəzarət;

c) qaçaqmalçılığın müəyyən edilməsi və tutulması; qaçaqmalçılıq barədə işlərin həll edilməsi;

ç) yük və sərnişinlərin dövlət sərhədini keçdiyi anda gömrük rüsum və yığımlarının hesablanması və tutulması.

1946-cı ilin əvvəlində Bakı gömrükxanasının strukturu genişləndirildi və aşağıdakı kimi oldu:

1) Ümumi şöbə;

2) Mühasibat;

3) Məhkəmə - müsadirə şöbəsi;

4) Yük şöbəsi; 5) Poçt sərnişin şöbəsi;

6) Gəmi şöbəsi.

1955-ci ildə gəmi və yük şöbələri birləşdirilərək, vahid gəmi-yük şöbəsi oldu, məhkəmə - müsadirə şöbəsi isə bəzi funksiyalarını itirərək, qaçaqmalçılığa qarşı mübarizə qrupuna çevrildi. 1956-88-ci illərdə də Bakı gömrükxanasının strukturunda, funksiyalarında, adında və tabeçiliyində bir sıra dəyişikliklər baş vermişdir.

5 may 1964-cü ildə SSRİ Ali Soveti Rəyasət heyətinin Fərmanı ilə yeni "Gömrük Məcəlləsi" təsdiq olunmuş və bu məcəllə 1991-ci ilə qədər fəaliyyət göstərmişdir.

İlk dəfə olaraq 1989-cu ilin birinci yarısında SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Dövlət Gömrük Nəzarəti Baş İdarəsinin razılığı və onun əmri ilə (17 saylı, 27 yanvar 1989-cu il) Azərbaycan ərazisində, bütün respublikaya nəzarət edən Respublika Gömrük İdarəsi yaradıldı.

1991-ci ildə SSRİ-nin "Gömrük Məcəlləsi" və "Gömrük tarifi haqqında" qanunları qəbul olundu.

Qəbul olunmuş yeni Məcəllənin müddəalarına görə, Dövlət Gömrük Nəzarəti Baş İdarəsi - Dövlət Gömrük Komitəsinə çevrildi. Eyni zamanda Gömrük-Tarif Şurası və narkotik maddələrin dövriyyəsinə qarşı Beynəlxalq Koordinasiya (əlaqələndirmə) Şurası yaradıldı. 18 oktyabr 1991-ci ildə Azərbaycan öz müstəqilliyini qazandı və Müstəqillik haqqında Konstitusiya aktı qəbul olundu.

**4.** 30 yanvar 1992-ci ildə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 561 saylı Fərmanı ilə Gömrük Komitəsi yaradıldı. Komitə əsasən keçmiş Azərbaycan Respublikası Gömrük İdarəsinin bazasında yaradılmışdı.

Azərbaycan Respublikası Prezidentinin həmin Fərmanı əsasında Azərbaycan Respublikası Nazirlər Soveti 1 iyun 1992-ci ildə 301 saylı "Azərbaycan Respublikası Gömrük Komitəsinin məsələləri" haqqında qərar verdi. Bundan sonra NK 19 yanvar 1994-cü il tarixli qərarı ilə Gömrük Komitəsinin məsələlərinin və ona tabe təşkilatların siyahısı həll edildi və onun maddi-texniki bazası yaradıldı. Son verilən bu qərarda Gömrük Komitəsinin maddi-texniki təchizat məsələləri ilə yanaşı, yeni gömrük postlarının açılması da öz əksini tapmışdır. O zaman Azərbaycan Respublikası Gömrük Komitəsinə Naxçıvan MR Gömrük Komitəsi, Bakı Baş Gömrük İdarəsi, 12 gömrükxana, Mərkəzi laboratoriya, avtomobil təsərrüfatı və təsərrüfat hesablı "Azərterminalkompleks" xarici iqtisadi birliyi daxil idi.

Ölkəmizin seçdiyi dövlət quruluşu və inkişaf istiqamətləri iqtisadiyyatımızı xarici müdaxilənin zərərli təsirlərindən qorumağa, milli istehsalı müdafiə etməyə qadir olan və bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyin təmin edə biləcək orqanın yaradılmasını, ilk

növbədə təsis edilməli olan dövlət idarəetmə sisteminin aparıcı elementlərindən birinin təşkilini labüdləşdirdi.

Xarici iqtisadi fəaliyyətin dövlət inhisarında saxlanıldığı keçmiş SSRİ-nin tərkibində olmuş Azərbaycan üçün bu sahədəki strateji və taktiki tədbirlər tamamilə yeni olmaqla, demək olar ki, sıfır səviyyəsindən başlanılmalı idi. Bu tədbirlər kompleks xarakterli olmalı və onların həyata keçirilmə mərhələləri müəyyənləşdirilməli idi. Lakin, o zaman Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət nəticəsində köklü tədbirlər planının işlənib hazırlanmasına, mütərəqqi və səmərəli gömrük siyasətinin aparılmasına nail olunmadı.

Ölkə daxilində və dövlət sərhədlərində iş qabiliyyətli gömrük orqanları şəbəkəsinin yaradılması və onların texniki təminatı, gömrük xidməti kadrlarının hazırlanması, gömrük qanunvericiliyinin hazırlanması, qəbul edilməsi və tətbiqi, gömrük işçilərinin sosial məsələlərinin həlli kimi mühüm tədbirlər ön plana çəkilmədi.

Müstəqil Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsinin birinci sədri Maqsud Məmmədov (30.01.1992, 562 saylı fərman) olmuşdur. Daha sonra isə Tofiq Kərimov (04.06.1992, 825 saylı fərman),

İbrahim Vəliyev (05.10.1992, 692 saylı fərman) və Tahir Əliyev (30.07.1993, 693 saylı fərman) olmuşlar.

Azərbaycan Respublikası 24 sentyabr 1993-cü ildə Müstəqil Dövlətlər Birliyinə daxil oldu. Respublikamız MDB-nin yaratdığı iqtisadi ittifaqa üzv olsa da, Gömrük İttifaqına daxil olmamışdır (Dövlət Gömrük Komitəsi 13 mart 1992-ci ildə imzalanmış “Gömrük şurası haqqında Əsasnaməyə qoşulmaqdan imtina etmişdir).

Azərbaycan MDB üzvi kimi 1995-ci ilin 10 fevral tarixində Alma-Atada imzalanmış “MDB ölkələrinin gömrük qanunvericiliyinin əsasları haqqında” sazişə qoşulmuşdur. Buna əsas səbəb isə MDB Nizamnaməsinə (1992) görə “üzv ölkələrə eyni qanunvericilik bazasına malik olmalıdırlar” bəndidir. 1997-ci il 25 iyul tarixində Milli Məclis tərəfindən qəbul olunmuş “Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”nin əsasını da məhz həmin sazişdəki müddəalar təşkil edir. AR Beynəlxalq təşkilatlardan Ümumdünya Ticarət Təşkilatında müşahidəçi statusunda, Ümumdünya Gömrük Təşkilatında isə daimi üzv statusunda iştirak edir.

Sonuncu təşkilatda ölkəmizi DGK təmsil edir(представляет). DGK ÜGT-nin Maliyyə Komitəsinin (1998) və Siyasi Şurasının (2000) üzvüdür.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin uyğun olaraq Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasının beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün digər dövlətlərlə beynəlxalq hüquq normalarına uyğun sazişlər, protokollar və memorandum layihələri hazırlanmasında yaxından iştirak edir.

1992-ci ildən bu günə qədər Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Azərbaycan Respublikasında dövlətin xarici və daxili siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin həyata keçirilməsi sayəsində Komitənin beynəlxalq əlaqələri daha da genişlənmiş və keyfiyyətcə yeni səviyyəyə çatmışdır.

Komitənin ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərə üstünlük verməsi gömrük sisteminin təkmilləşdirilməsində öz bəhrəsini verir.

Türkiyə Respublikası, İran İslam Respublikası, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Livan, Bolqarıstan respublikaları və Ukrayna gömrük orqanları ilə gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalanmışdır. MDB Gömrük Xidmətləri Rəhbərləri Şurası çərçivəsində və İqtisadi Əməkdaşlıq təşkilatına üzv olan ölkələrlə çoxtərəfli sazişlər mövcuddur. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardım haqqında memorandum 7 iyul 1997-ci il tarixdə imzalanmışdır.

Dövlət Gömrük Komitəsi Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası əsasında vahid gömrük tarifinin işlənib hazırlanması, gömrük rüsumlarının alınması, tətbiq edilməsi, malların mənşə ölkəsinin təyin edilməsini, gömrük məqsədləri üçün malların qiymətləndirilməsi də daxil olmaqla MDB üzvü olan ölkələrin gömrük siyasətinin əsas istiqamətləri üzrə təkliflərin hazırlanıb təqdim edilməsini təmin edir.

DGK, həmçinin gömrük orqanları üçün kadrların hazırlanması, avtomatlaşdırılmış informasiya sistemi, gömrük statistikası, beynəlxalq əməkdaşlıq sahələrində MDB gömrük xidmətləri ilə əməkdaşlıq edir.

BMT-nin İnkişaf Proqramı ilə Memorandum imzalanmışdır.

ÜGT ilə bir Memorandum və bir niyyət protokolu imzalanmışdır.

Ümumdünya Gömrük Təşkilatlarının Baş Katibi Mişel Danenin müraciət məktubuna əsasən Azərbaycan Respublikası “Malların təsviri və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında Beynəlxalq Konvensiya”ya qoşulmuş və bu Konvensiya Milli Məclisdə ratifikasiya olunmuşdur. 2001-ci ilin yanvarından Azərbaycan bu konvensiyaya qoşulan 101-ci dövlətdir.

DGK Tasis proqramı çərçivəsində Avropa Gömrüyü ilə sıx əlaqələr yaradılması barədə intensiv iş aparır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Avropa Gömrüyü, Tasis proqramı çərçivəsində Alman Gömrüyü ekspertləri tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün narkotiklərin müəyyən edilməsi, riskin təyin edilməsi, yükün nəzarətdən keçirilməsi və gəmilərin yoxlanılması, Hava və Dəniz limanlarında, dəmir yolunda, gömrük sənədlərində nəqliyyat vasitələrinə nəzarətə dair, nəzəri və praktiki seminarlar təşkil olunmuşdur.

Avropa İttifaqının Tacis proqramı üzrə Azərbaycan Respublikasının milli və dövlətlərarası proqramları və Avropa İttifaqı Komissiyasının Texniki Yardım Proqram çərçivəsində (1996-ci il oktyabr) Daşkənd şəhərində Avropa Gömrüyü və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında Tasis proqramı çərçivəsində “Təhsil”, “İdarəetmə və Təşkil” Layihələri üzrə müqavilələr imzalanmışdır və layihələrdə nəzərdə tutulanlar mərhələlərlə həyata keçirilir.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına həsr edilmiş Beynəlxalq Konfransa hazırlıq üçün Bakı şəhərində keçirilən iştirakçı dövlətlərin işçi qruplarının üzvlərinin iclasında gömrük əməliyyatları və sənədləşdirilmənin aparılması üzrə Əsas Sazişin texniki əlavəsinin layihəsi hazırlanmışdır. DGK Avropa-Qafqaz-Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə imzalanmış “Çoxtərəfli Əsas Saziş”in gömrük prosedurası və sənədlərin işlənməsi üzrə texniki əlavədə nəzərdə tutulan müddəaların icrası ilə əlaqədar tədbirlərin həyata keçirilməsi işini davam etdirir.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN dövlət başçısı kimi gömrük siyasəti sahəsindəki faliyyətini iki mərhələyə bölmək olar:

1. 1969-1987-ci illəri əhatə edən sovet dönəmi;

2. 1993-2003-cü illəri əhatə edən müstəqillik illəri.

Ölkədəki problemləri zərgər dəqiqliyi ilə bir-bir həll edən möhtərəm H.Əliyev cənabları, 1995-ci ildən başlayaraq gömrük orqanlarının işinin yenidən qurmağa başladı. Əvvəlcə Dövlət Gömrük Komitəsinin rəhbərliyini dəyişdirdi. Dövlət Gömrük Komitəsinə Heydər Əliyevin 17 yanvar 1995-ci il tarixli 295 saylı Fərmanı ilə təyin olunan Kəmaləddin Heydərov Ümummilli Liderin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətinin gömrük sistemini yenidən qurdu və onu dünya standartları səviyyəsinə gətirib çıxartdı.

Azərbaycanın gömrük tarixində ilk dəfə olaraq gömrük xidməti sahəsində general rütbəsinə məhz K.Heydərov layiq görülmüşdür. Ona 17 yanvar 2002-ci il tarixli 640 saylı Fərmanları ilə gömrük xidməti general-polkovniki rütbəsi (41 yaş) verilmişdir. O. Azərbaycan dövlətçiliyi tarixində bu yaşda general-polkovnik rütbəsini almış yeganə şəxsdir.

Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi" və "Gömrük Tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Məcəllədə, gömrük orqanlarının qarşısında qoyulan vəzifələrdən çıxış edilərək, gömrük işinin əsas prinsipləri müəyyənləşdirildi. Məhz gömrük orqanları bu Məcəllənin müddəalarına görə, hüquq-mühafizə orqanı statusu aldı.

Gömrük tarifi və valyuta tənrzimlənməsi haqqında qəbul edilən qanunlar, gömrük orqanlarına valyuta nəzarətini həyata keçirmək hüququnu verdi, habelə gömrük rüsumlarının dəqiq hesablanması və vaxtında yığılaraq dövlət büdcəsitnə köçürülməsi tələbini qoydu.

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 27 oktyabr 1998-ci il tarixli 6 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında" Əsasnamə mühüm yer tutur. Əsasnaməyə görə Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən Mərkəzi İcra Hakimiyyəti orqanıdır.

Gömrük işinin təşkil edilməsi və gömrük siyasətinin formalaşdırılması ilə bağlı Ümummilli liderimiz H.Ə.Əliyevin imzası ilə aşağıdakı sənədlər qəbul edilmişdir:

QANUNLAR

1. "Gömrük tarifi haqqında" qanunun təsdiq edilməsi barədə( No 1064 / 20.06.1995)

2. "BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında" gömrük Konvensiyasının təsdiq edilməsi barədə (No 33-IQ / 12.03.1996)

3. Yoxlama və attestasiya məqsədilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında Sazişin təsdiq edilməsi barədə (No 171-IQ / 08.10.1996)

4. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında (No 304 -IQ / 10.06.1997)

5. Azərbaycan Respublikası Hökumət və Qazaxıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlış haqqında Sazişin təsdiq edilməsi barədə (No 338-IQ / 26.06.1997)

6. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə (No583-IQD / 11.12.1998)

7. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə (No 768-IQ / 07.12.1999)

8. "Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında" Sazişin təsdiq edilməsi barədə (No 793-IQ / 01.02.2000)

9. "Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə (No 803-IQ / 08.02.2000)

10. "Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya qoşulmaq barədə (No 810-IQ / 11.02.2000)

11. "Yol nəqliyyat vasitələrinin ticarət və kommersiya məqsədi ilə müvəqqəti idxalının Gömrük Konvensiyası"na qoşulmaq barədə (No 813-IQ / 11.02.2000)

12. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik

vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə (No 118-IIQ /03.04.2001)

13. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında sərhədlərdən qanunsuz keçirilən mədəni sərvətlərin tutulub saxlanması və qaytarılması məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə (No 119-IIQ / 03.04.2001)

14. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında əməkdaşlıq və gömrük sənədlərinin və gömrük təminatlarının qarşılıqlı tanınması haqqında" Sazişin təsdiq edilməsi barədə (No 120-IIQ /03.04.2001)

15. Azərbaycan Respublikası Gömrük orqanlarının tanınma nişanı haqqında (No 134-IIQ /01.06.2001)

16. Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında (No 135-IİQ /01.06.2001)

17. Tütün və tütün məmuoatı haqqında (No 138-IIQ / 08.06.2001)

18. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və vitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə (No 257-IIQ / 12.02.2002)

19. "Tərkibində əqli mülkiyyət obyektləri olan malların gömrük sərhədindən keçirilməsi üzərində gömrük nəzarəti Qaydaları haqqında" Qərarın təsdiq edilməsi barədə (No 259-IIQ / 12.02.2002)

20. "Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" Beynəlxalq Konvensiyaya və onun I-X Əlavələrinə qoşulmaq barədə (No267-IIQ / 19.02.2002)

21. Azərbaycan Respublikası Hökuməti və Niderland Krallığı Hökuməti arasında "Gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım haqqında" Sazişin təsdiq edilməsi barədə (No 295-IIQ / 09.04.2002) və s.

Azərbaycan R-da gömrük işinin təşkili və gömrük siyasəti.

Suallar:

1. Gömrük sisteminin təyinatı və funksiyaları.
2. Az R-nın gömrük siyasəti və onun məqsədləri.
3. Gömrük qanunvericiliyi.
4. Azərbaycan Respublikası gömrük orqanlarının təşkilat strukturu.
5. Az R-sı gömrük orqanlarının vəzifələri və hüquqları.
6. Gömrük işinin təşkil etdirilməsində gömrük infrastrukturunun rolu.

Heydarov.K. "Gömrük işinin əsasları" cild 1.

Gömrük işi – gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri barəsində gömrük-tarif tənzimlənməsi tədbirlərindən, xarici ticarətin iştirakçıları tərəfindən gömrük qanunvericiliyi ilə müəyyənləşdirilmiş qadagalara və məhdudiyyətlərə riayət olunmasını təmin edən üsullar toplusundan, gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrindən ibarətdir. (maddə 2) Gömrük tənzimlənməsi dedikdə gömrük sərhədindən malları və nəqliyyat vasitələrini keçirmək hüququndan istifadə edən şəxslərin riayət etməli olduğu norma və qaydaların müəyyən olunması başa düşülür.

Azərbaycan r-nın gömrük xidməti ölkə iqtisadiyyatının dövlət tənzimetmə sisteminin əsas tərkib hissələrindən biridir. Gömrük sisteminin məqsədi və təyinatı – Azər R-nın strateji milli-dövlət mənafələrinin təmin edilməsindən, milli iqtisadiyyatın sosial-iqtisadi səmərəliliyini və rəqabətə davamlığını stimullaşdırmaqdan, ölkənin milli təhlükəsizliyinin lazımı səviyyədə saxlanılmasından, xarici iqtisadi fəaliyyət sahələri üçün əlverişli şəraitin təmin edilməsindən ibarətdir.

Əvvələr Azərbaycan Respub-nın SSRİ tərkibində olduğundan onun müstəqil gömrük xidməti olmamışdır. Bununla yanaşı respublika ərazisində SSRİ-yə məxsus gömrük orqanları fəaliyyət göstərirdi, idxal-ixrac əməliyyatlarına nəzarət İttifaq orqanları tərəfindən yerinə yetirilirdi.

Milli iqtisadiyyat xarici iqtisadi əlaqələr sistemindən son dərəcə asılıdır. İqtisadiyyatın tənzimlənməsində məqsəd onun təkmilləşmə və inkişaf üçün zəruri olan strukturunun fasiləsiz olaraq dəyişdirilməsini, milli təsərrüfatın

sistem kimi bütövlüyü üçün təhlükə yaradan uyğunsuzluğun aradan qaldırılmasını təmin edən dinamik tarazlığın saxlamasından ibarətdir.

Azər. Dövlət Gömrük Komitəsi respublikanın inkişaf xüsusiyyətlərini nəzərə alaraq, müvafiq strategiyanı işləyib hazirlayarkən aşağıdakı əsas vəzifələri müəyyən etmişdir:

- təhvil verilmə üsulundan asılı olmayaraq bütün malların gömrük rəsmiləşdirilməsinin təmin olunması;
- gömruk proseduralarının sadələşdirilməsi və rəsmiləşdirilmə müddətinin qısadılması;
- gömrük nəzarətinin müasır mütərəqqi texnoloğiyalarının tətbiqi;
- gömrük ödənişləri texnologiyasının təkmilləşdirilməsi və onların büdcəyə daxil olmasına nəzarət;
- yüklər və yük göndərənlər haqqında ilkin məlumatların əldə edilməsi;
- gömrük qanunvericiliyi pozuntularının qarşısının alınması;
- valyuta nəzarəti;
- nəzarət işlərinin təkmilləşdirilməsi, nəzarətin müxtəlif formalarından istifadə edilməsi, ayrı-ayrı identifikasiya və sənədli baxış texnologiyasının tətbiqi;
- gömrük sənədlərinin beynəlxalq tələblərə uyğun olaraq daha da unifikasiyalaşdırılması;
- qeyri-tarif tənzimləmə tədbirlərinə riayət olunmasına nəzarət texnologiyasının təkmiləşdirilməsi;
- bütövlükdə gömrük xidmətinin və onun struktur bölmələrinin işinin effektivliyinin vaxtaşırı təhlili.

Bütün şəxslər mal və nəqliyyat vasitələrini bərabər əsaslarla Az.R-sı ərazisinə gətirmək və bu ərazidən apara bilmək hüququna malikdirlər. Malların və nəql.vasitələrinin respublikaya gətirilməsi və aparılması, o cümlədən xarici iqtisadi fəaliyyətin həyata kecirilməsi hüququ Az R sı Konstitusiyasi ilə təstiq edilmişdir.

Gömrük Məcəlləsi və digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, hec kəsin Az-na mal və nəqliyyat vasitələri gətirməsi və ya aparması hüququ əlindən alına və ya məhdudlaşdırıla bilməz.

Qanunvericilik aktı malların və nəqliyyat vasitələrinin aparılıb-getirilməsi hüququnun reallaşdırılmasına münasibətdə müəyyən məhdudiyyətlər

nəzərdə tuta bilər. Belə məhdudiyyətlər, bir qayda olaraq, ictimai asayişi və cəmiyyətin əxlaqi dəyərlərinin müdafiəsi məqsədini güdür.

Gömrük işinin predmeti – mallar, gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi əməliyyatlarıdır, XİF tənzimlənmə tədbirləridir. Mallar dedikdə - gömrük sərhədindən keçirilən valyuta, valyuta sərvətləri, qaz, neft, elektrik enerjisi də daxil olmaqla, istənilən daşınar əmlak, o cümlədən malların daşınmasında istifadə olunan nəqliyyat vasitələri istisna olmaqla, nəqliyyat vasitələri.

2. Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən institutların məcmusu, həmçinin onun həyata keçirilmə metodları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi metodlarının istifadə qaydası gömrük siyasəti mexanizmi anlayışını təşkil edir.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük prosedurasını müəyyən edilməsi vasitəsi ilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir və dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət etməlidir.

Iqtisadi təhlükəsizlik məsələləri iqtisadiyyatın Az R-nın sosial, siyasi, müdafiə qabiliyyətinin və mütərəqqi inkişafının kifayət edəcək səviyyəsini təmin edə bilən vəziyyətini, tarazlaşdırma problemlərinin həlli yollarını, mümkün xarici və daxili təhlükələrə, onun iqtisadi maraqlarının xarici təsirlərdən asılı olmaması və kifayət qədər xətərdən qorunması qabiliyyətini nəzərdə tutur.

Gömrük siyasətini mahiyyəti öz əksini gömrük-tarif qanunvericiliyində, müxtəlif istiqamətli beynəlxalq gömrük birlikləri və münasibətləri yaradılmasında, sərbəst gömrük və ticarət zonalarının təşkil edilməsində tapır. Gömrük siyasəti dövlətin iqtisadi və xarici ticarət siyasətinin ayrılmaz hissəsidir və buna görə də hökümətin ümumi iqtisadi strategiyasının məqsəd və vəzifələrdən asılıdır.

Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi və daxili istehsalcıların beynəlxalq rəqabət qabiliyyətindən asılı olaraq xarici iqtisadi siyasətin, o cümlədən də gömrük siyasətinin nisbətən dəqiq konturlara malik olan aşağdakı növləri müşahidə edilir:

- proteksionizm;
- sərbəst ticarət.

Bu istiqamətlər, eyni zamanda ölkə iqtisadiyatının xarici iqtisadi müdaxilələrə açıqlıq dərəcəsini nümayiş etdirir. Proteksionist gömrük siyasəti yerli inkişafı üçün daha əlverişli şərait yaradılmasına yönəldilib. Onun əsas məqsədləri idxal edilən mallara gömrük vergiqoymasının daha yüksək səviyyəsini tətbiq etməklə əldə edilir.

Proteksionist siyasətdən fərqli olaraq sərbəst ticarət siyasəti gömrük rüsumlarının daha aşağı – minimum səviyyəsini nəzərdə tutur və daxili bazara xarici malların daha çox cəlb edilməsinə təhrik edir.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələri gömrük rüsumları, yığımları, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti əməliyyatları, xarici ticarətin lisenziyalaşdırılması və kvotalaşdırılması təcrübəsi ilə bağlı olan müxtəlif gömrük məhdudiyyətləri və rəsmiyyətdir.

Gömrük siyasəti müxtəlif hüquq normaları və gömrük qaydaları əsasında həyata keçirilməlidir və bu da gömrük hüququ məfhumu meydana çıxarır.

Gömrük siyasətinin dəqiq hüquqi əsaslandırılmaları ilk növbədə ona görə vacibdir ki, sahibkarlıq fəaliyyətinin bu və ya digər istiqamətlərini imperativ tənzimləyərkən onun həyata keçirmə vasitələri istər-istəməz mülkiyyət münasibətləri sferasına müdaxilə etmiş olur. Bundan başqa gömrük siyasətinin xarici münasibətlərə təsiri dövlət üçün beynəlxalq – hüquqi xarakterli öhdəliklər yaradığından onun normalaşdırılması zəruri olur.

3. Gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin keçirilməsi prinsiplərini nizama salan və rəsmiləşdirilmə əməliyyatlrının yerinə yetirilməsi üçün mövcüd qanunvericiliyə əməl olunmasını təmin edəcək olan dövlət tərəfindən müəyyənləşdirilmiş hərəkət qaydaları gömrük-hüquq normaları adlanır. Belə qaydaların məcmusu gömrük hüququnu əmələ gətirir ki, bu da Azərbaycan Respublikası Ganunvericiliyinin mühüm tərkib hissələrindən biridir.

Gömrük hüququn mənbəyini ixtiyari hüquqi akt deyil, yalnız elə akt təşkil edir ki, gömrük işinin ümumi qaydalarını əks etdirə bilsin. Gömrük hüququ mənbələrini sistem xarakterlı olub aşağıdakl əsas elementlərdən

ibarətdir: a) daxili gömrük qanunvericiliyi; b) gömrük münasibətlərinə aid olan və Azərbaycan R-nın tərəf-müqabil olduğu beynəlxalq müqavilə və sazişlər.

Gömrük işi haqqında Azərbaycan Res-nın Qanunvericiliyi Konstitusiyasından, Gömrük Məcəlləsindən, Gömrük Tarifi haqqında Qanundan, onlara uyğun olaraq qəbul edilmiş digər normativ hüquqi aktlardan və Az R-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir (maddə 4).

Aşağıdakılar istisna olunmaqla, gömrük qanunvericiliyindən başqa digər qanunvericilik aktlarına gömrük ödənişləri və gömrük nəzarəti məsələləri daxil edilə bilməz:

- Az R-nın İnzibatı Xətalar Məcəlləsində nəzərdə tutulan gömrük münasibətlərinə aid inzibati xətalar haqqında müddəalar;
- Az R-nın Cinayət Məcəlləsində nəzərdə tutulan müvafiq cinayətlər haqqında müddəalar;
- Büdcə qanunvericiliyində gömrük ödənişləri ilə bağlı müddəalar;
- Ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda nəzərdə tutulan müddəalar.

Gömrük Məcəlləsi və Gömrük Tarifi haqqında qanun gömrük münasıbətlərinin hüquqi tənzimlənməsində baş mövqədə durur və qömrük praktikasında meydana çıxan bütün əsas hüquqi məsələləri əhatə edir. Hüquqi qüvvəsinə görə onlar yalnız Konstitusiyadan geriyə qalır və əsasında bütün gömrük qanunvericiliyinin qurulduğu və inkişaf etdirildiyi hüquqi bazasını təşkil edirlər. Bu gömrük qanunlarının əlahiddə normalarının tətbiq edilmə xüsusiyyətləri Az R-sı prezidentinin 25 iyul 1997-ci il tarixli 616 saylı fərmanı ilə müəyyən edilmişdir.

Hal-hazırda gömrük münasibətlərini tənzimləyən qanun qüvvəli aktların aşağıdakı əsas növləri tətbiq edilməkdədir:

1). Konstitusiyanın 99-cu maddəsinə əsasən Az R-da İcra Hakimiyyətinin Prezidentə mənsub olması ilə əlaqədar olaraq:

Xarici siyasətin, o cümlədən də onun tərkib hissəsi olan xarici iqtisadi və gömrük siyasətinin strateji istiqamətlərinin müəyyənləşdirilməsi Prezidentin fərman və sərəncamları ilə öz həllini tapmış olur. “Azərbaycan

Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidenrinin 24 iyun 1997-ci il tarixli 609 saylı Fərmanı ilə idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları təstiq edilmişdir.

2). Nazirlər Kabinetinin qərarları ilə, adətən, gömrük siyasəti və gömrük hüququnun mühüm məsələləri tənzimlənir və daha yüksək statusa malik aktların icra mexanizmi müəyyən edilir.

3). Bir necə dövlət orqanı tərəfindən birgə qəbul edilən qanun qüvvəli aktlar.

Öz səlahiyyətləri çərçivəsində yerli gömrük orqanları da hüquqi aktlar yarada bilər. Belə aktlar, adətən, fərdi xarakter daşıyır. Məsələn, struktur bölmələrin əsasnamələr, gömrük əməkdaşlarının vəzifə təlimatları, daxili əmrlər və s.

Dövlət süverenliyi hər dövlətin gömrük məsələlərinin birtərəfli qaydada daxili qanunvericiliklə tənzimlənməsi zərurətini meydana çıxarır. Əgər hər hansı bir dövlət, gömrük məsələlərinin həlli zamanı digər dövlətlərin maraqlarını nəzərə alınmırsa və ya onların mənafeyinə zərbə vura bilən siyasət yeridirsə, xarici iqtisadi əlaqələri və bütövlükdə beynəlxalq əlaqələri mürəkkəbləşdirən konfliktlər meydana çıxa bilər.

Gömrük –hüquq normalarının tətbiq edilməsinin məkan hüdudlarının təyini üçün gömrük ərazisi və gömrük sərhədi anlayışlardan istifadə olunur.

Azərbaycan Res-nın ərasizi vahid gömrük ərazisidir. Gömrük Məcəlləsinin 3 maddəsinə əsasən gömrük ərazisinə Az r-nın quru ərazisi, daxili suları, Xəzər dənizinin (gölünün) Az R-na mənsub olan bölməsi (o cümlədən, orada yerləşən adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanı daxildir. Gömrük sərhədi dedikdə gömrük ərazisinin perimitri – bu ərazinin konturlarını hüdudlandıran xətt başa düşülür. Gömrük sərhədi həndəsi bölgü xarakterlı, yer üzərindəki real xətt olan dövlət sərhədindən fərqli olaraq hüquqi funksiya hesab edilir. Bələ təsvir bəzi hallarda gömrük sərhədinin dövlət sərhədi ilə üst-üstə düşməyə biləcəyi variantların mümkünlüyünü göstərir.

4. Az R-da gömrük işi gömrük orqanları tərəfindən yerinə yetirilir. Gömrük xidmətinin inzibati bölməsi olan və vahid sistem təşkil edən gömrük

orqanları hüquq mühafizə orqanlarıdır. Gömrük orqanlarının fəaliyyəti qanunun aliliyi,

Gömrük orqanlarının vahid sisteminə aşağdakılar daxildir:

Az R-nın Dövlət Gömrük Komitəsi:

1. Naxçıvan Muxtar R-sı DGK-si; NaxçıvanTerminalKompıeks; Naxçınav Gömrük İdarələri (5 idarə).

2.Gömrük idarələri (12):

Gömrük postları (29). (maddə 7)

Gömrük sisteminə daxil olmayan, lakin DGk-nin tabeçiliyində olan qurumlar aşağıdakıladır:

- gömrük məqsədləri üçün malların ekspertizasına və tədqiqini aparmaqdan ötrü yaradılan gömrük laboratoriaları;

- gömrük işi sahəsində elmi-tədqiqat işlərinin aparılması, kadr hazırlığı və onların ixtisasının artırılması məqsədi ilə yaradılan elmi-tədqiqat müəssisələri, peşəyönümlü təhsil-tədris müəssisələr;

- gömrük fəaliyyətinin yerinə yetirilməsinə kömək edən hesablama mərkəzləri, poliqrafiya, tikinti-istismar idarələri və digərləri (məsələn, gömrük anbarları, müvəqqəti saxlanc anbarları)

- Mərkəzi Gömrük Ekspertiza İdarəsi;

Tədris Mərkəzi;

Avtomobil təsərrüfatı;

AzərTerminal kompleks Birliyi;

Gömrük mühafizə xidməti;

Gömrükçü İdman-Sağlamlıq mərkəzi;

Tibbi Xidmət İdarəsi;

Kinoloji Mərkəz.

Gömrük işinə bilavasitə rəhbərlik Dövlət Gömrük Komitəsi tərəfindən həyata kecirilir. Basqa sözlə Dövlət Gömrük komitəsi Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanıdır.

DGK-nin idarəçilik fəaliyyəti ilk növbədə tabeli gömrük orqanları ilə qarşılıqlı münasibətlərdə öz əksini tapır. Bəzi hallarda DGK fiziki şəxslər və vəzifəli şəxlərlə bilavasitə ünsiyyətdə olur. Gömrük orqanlarının ümumi məsələlərədən başqa DGK gömrük xidmətinə rəhbərlik və gömrük işinin inkişafı ilə əlaqədar olan spesifik məsələləri həll edir. Azərbaycan dövlət Gömrük Komitesi: tabeli orqanların, müəssisələrin, qurumların mülkiyyətinin idarə edilməsində mülkiyyətçi hüquqlarını həyata keçirir; gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq, gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulması halları barədə işlərin icraatında prosessual normalara əməl edilməsinə nəzarət edir, belə pozuntular barədə verilmiş şikayət və protestlərə baxır. Azərbaycan Respublikasının gömrük işini bilavasitə həyata kecirən orqanlar DGK-nin təstiq etdiyi əsasnamələrə uyğun fəaliyyət göstərirlər. DGK-nin fəaliyyətinə Sədr rəhbərlik edir. Respublika Prezidenti Komitə sədrini vəzifəyə təyin və vəzifədən azad edir. Gömrük işinə rəhbərliyin mühüm məsələləri DGK Kollegiyasının iclaslarında müzakirə edilir. DGK-nin mərkəzi aparatı, əsasən operativ tədbirlər həyata kecirir, gömrük sisteminin işləmə mexanizmini yaradılır, müvafiq normativ aktların hazırlanmasını təmin edir, məlumatların yığılması və analizi, idarəetmə qərarların mərhələlərinin hazırlanması və yerli gömrük orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təşkil edir.

DGK-nin idarə və şöbələri gömrük xidmətinin mərkəzi orqanı səviyyəsində qərarlar qəbul edilməsini təmin edir və bu qərarların yerlərdə yerinə yetirilməsini təşkil edir. DGK-nin idarə və şöbələri öz səlahiyyətləri çərçivəsində gömrük işinin bəzi məsələlərini müstəqil həll edir və yerli gömrük orqanlarının fəaliyyətinin konkret sahələrini istiqamətləndirirlər.

DGK-nin idarə struktur bölmələrinin iş prinsipinin əsasını funksional fəaliyyət təşkil edir, yəni hər bir idarə və şöbənin fəaliyyəti DGK-nə həvalə edilmiş funksiyaların yerinə yetirilməsini təmin etmək məqsədi güdür.

Dövlət Gömrük Komitəsinin əsas funksiyaları aşağıdakılardır:

1. Azərbaycan Respublikasında gömrük işini təşkil etmək və onu təkmilləşdirmək;

2. Azərbaycan Respublikasının gömrük siyasətini həyata keçirmək;

3. Öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;

4. Öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük ərazisinin vahidliyini təmin etmək;

5. Azərbaycan Respublikasında qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil etmək;

6. İcrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş gömrük işinə dair və digər qanunvericiliyinə əməl olunmasını təmin etmək;

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ona həvalə edilmiş funksiyalara əsasən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

1. Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi üçün hüquqi, iqtisadi, təşkilati mexanizmlər hazırlayır və onların həyata keçirilməsini təmin edir;

2. Azərbaycan Respublikasında gömrük işinin inkişafı proqramını hazırlayır və həyata keçirir;

3. Gömrük nəzarətinin həyata keçirilməsini və təkmilləşdirilməsini təşkil edir, bu cür nəzarətin səmərəliliyinə zərər vurmadan onun sadələşdirilməsi və təkmilləşdirilməsi üçün tədbirlər görür;

4. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar barəsində qiymətlərin tənzimlənməsi və digər qeyri-tarif tədbirləri də daxil olmaqla, iqtisadi proqramların işlənib hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində onların həyata keçirilməsini təşkil edir;

5. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan vergilərin, gömrük rüsumlarının, aksizlərin, habelə digər gömrük ödənişlərinin alınmasını, beynəlxalq avtomobil daşımalarını yerinə yetirən xarici ölkələrin nəqliyyat vasitələrinə sərhəddə «İcazə» blanklarının verilməsinə görə dövlət rüsumunun tutulmasını təşkil edir;

6. Malların gömrük dəyərinin düzgün müəyyən olunması üzərində nəzarət sistemini təşkil edir;

7. Gömrük rüsumlarının, müvafiq dövlət rüsumlarının, vergilərin vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsini təmin edir;

8. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda lisenziya və ya ixtisas attestatları verir, onları ləğv edir, yaxud geri alır, reyestrinin aparılmasını təmin edir;

9. Mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən müvafiq gömrük prosedurаlarından səmərəli istifadəni təmin edir;

10. Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə dair qaydaların işlənib hazırlanmasını təşkil və onların icrasını təmin edir;

11. Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsini təşkil edir, onun təkmilləşdirilməsi və sadələşdirilməsi üçün tədbirlər görür;

11-1. malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarının (şəhadətnamələrinin) yoxlanılmasını, sərhəddə həmin mallar üzərində baytarlıq, fitosanitar, sanitariya nəzarətini həyata keçirir;

11-2. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan qonşu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə keçən nəqliyyat vasitələrini baytarlıq qanunvericiliyində müəyyən edilmiş qaydada və müddətdə məcburi dezinfeksiya edir;

12. Müstəqil surətdə, yaxud zəruri olduqda digər hüquq-mühafizə orqanları cəlb edilməklə gömrük nəzarəti zonası rejiminə riayət olunmasına nəzarəti təmin edir, gömrüyün infrastruktur obyektlərinin mühafizə sistemini təşkil edir, Azərbaycan Respublikasının gömrük sərhədinin qorunması məqsədi ilə digər tədbirlər də həyata keçirir;

13. İcrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş gömrük işi üzrə və digər qanunvericilik aktlarına əməl olunmasını təmin edən tədbirlər sistemini hazırlayır və həyata keçirir;

14. Rezident və qeyri-rezident tərəfindən milli və xarici valyutanın, eləcə də digər valyuta sərvətlərinin müvafiq qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilməsinə, habelə

Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş digər hallarda valyuta nəzarətini həyata keçirir;

15. Qaçaqmalçılığa və gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə aparılmasını təşkil edir. Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən bu cür cinayətlər üzrə qüvvədə olan qanunvericilik aktlarına müvafiq olaraq təhqiqat ibtidai istintaq aparılmasını və əməliyyat-axtarış fəaliyyəti həyata keçirilməsini təmin edir;

16. Narkotik vasitələrin və psixotrop maddələrin, silahların, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, habelə digər malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə tədbirlər sistemi hazırlayır və həyata keçirir;

17-1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində bioloji sərvətlərdən səmərəli istifadə edilməsi və onların qorunması üzrə dövlət siyasətinin hazırlanıb həyata keçirilməsində iştirak edir, öz səlahiyyətləri daxilində bioloji sərvətlərin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi zamanı mövcud qanunvericiliyin tələblərinin yerinə yetirilməsi üzərində nəzarəti təmin edir

18. Azərbaycan Respublikasının dəmir yolu vağzallarında, hava və dəniz limanlarında beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarına köməklik göstərir;

20. Azərbaycan Respublikasının xarici ticarətinin gömrük və xüsusi gömrük statistikasının aparılmasını təşkil edir;

21 Öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir;

22. Gömrük işi həyata keçirilərkən fiziki şəxslərin və təsərrüfat subyektlərinin hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;

23. Şikayətlərə və müraciətlərə vaxtında və tam baxılmasını təmin edir; fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulmasını yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlər görür;

24. Öz səlahiyyətləri daxilində gömrük işi üzrə mühüm hüquqi aktların nəşrini təmin edir;

25. Konkret mallarla və ya təsərrüfat əməliyyatları ilə əlaqədar gömrük işi haqqında qanunvericilik aktlarının tətbiqi məsələləri üzrə öz qərarlarının qəbulu və fəaliyyət göstərməsini təmin edir;

26. Gömrük işi məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların işində iştirak edir; Azərbaycan Respublikasının gömrük işinə dair beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir;

27. Xarici dövlətlərin gömrük və digər səlahiyyətli orqanları ilə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti həyata keçirir;

28. Xarici dövlətlərin gömrük siyasətini və bu dövlətlərdə gömrük işinin vəziyyətini öyrənir və təhlil edir;

29. Müvafiq sahədə kadr hazırlığını təmin edir, həmçinin mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görür;

30. Gömrük idarələri, gömrükxanalar, gömrük postları, gömrük laboratoriyaları, elmi-tədqiqat və tədris müəssisələri, hesablama mərkəzləri yaradır və ləğv edir;

31. Azərbaycan Respublikası gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını, fəaliyyət göstərməsini və təkmilləşdirilməsini təmin edir;

32. Azərbaycan Respublikasında gömrük işinin inkişafı üzrə həyata keçirilən tədbirləri maliyyələşdirir;

33. Müəyyən olunmuş qaydada Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf Fondunu idarə edir və onun üzərində sərəncam verir;

34. Gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçiliyində olan digər idarə, müəssisə və təşkilatların maddi-texniki və sosial bazasını inkişaf etdirir;

35. Gömrük orqanlarının vəzifəli şəxslərinin, gömrük laboratoriyalarının, həmçinin tabeliyindəki digər idarələrin, müəssisələrin, təşkilatların işçilərinin dövlət və sosial müdafiəsini, fiziki hazırlığını təmin edir, onların tibbi təminatını həyata keçirir;

36. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona həvalə edilmiş digər vəzifələri yerinə yetirir.

Ərazi gömrük idarələri öz fəaliyyətlərini DGK-nin ümumi rəhbərliyi altında həyata keçirirlər. DGK-si gömrük idarələrin fəaliyyət zonasının hüdudlarını müəyyən edir. Gömrük idarələrin tabeçiliyində işin xarakterindən və həcmindən asılı olaraq gömrük postları yaradılır. Gömrük idarələrin fəaliyyət zonalarının sərhədləri respublikanın ərazi-bölgü prinsipi ilə müəyyən edilmiş bölgələrin inzibati sərhədləri ilə üst-üstə düşməyə bilər.

Gömrük idarələrə, onlara həvalə edilmiş vəzifə və funksiyaların yerinə yetirilməsini təmin etmək üçün geniş profilli hüquqlar verilmişdir:

- mal və nəqliyyat vasitələrinin müəyyən edilmiş gömrük proseduru altında yerləşdirilməsinə icazə vermək;
- gömrük müayinəsi və gömrük nəzarətinin müxtəlif formalarını həyata keçirmək;
- mal və nəqliyyat vasitələrinin gömrük nəzarəti altında eyniləşdirilməsini aparmaq;
- gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinin aparılması üçün nəqliyyat vasitələrinin qayanacaq yerlərindən yola düsmələrinə icazə verilməsi;
- Az R-nın gömrük ərazisini gömrük orqanlarının icazəsi olmadan tərk etmiş nəqliyyat vasitələrini dayanmağa məcbur etmək, hava və dəniz gəmilərini geriyə qaytarmaq (xarici gəmilər və digər dövlətlərin ərazisində olan gəmilərdən başqa);
- gömrük məqsədləri üçün prob və nümunələrin götürülməsi və tədqiqatı;
- deklarant və gömrük qaşıyıcılarından gömrük rəsmiləşdirilməsi icraatında və gömrük nəzarətinin kecirilməsindəköməklik göstərilməsini tələb etmək;
- mal və nəqliyyat vasitələri buraxıldıqdan sonra gömrük nəzarəti həyata keçirmək;

- öz səlahiyyətləri daxilində gömrük ödənclər müddətinin uzadılması barədə qərar qəbul etmək;
- gömrük qaydalarının pozulmasına görə şəxsləri məsuliyyətə cəlb etmək;
- ödənilməmiş gömrük ödənclərini mübahisəsiz almaq;
- gömrük idarələrinin struktur bölmələrinin fəaliyyət yerini, onların iş vaxtını müəyyən etmək.

Gömrük postları öz fəaliyyətini gömrük idarələrin bilavasitə rəhbərliyi altında həyata keçirir. Ehtiyac olduqda bilavasitə DGK-nə tabe olan gömrük postları da yaradıla bilər. Qəbul edilmiş ümumi qaydalara görə gömrük postları, adətən, hüquqi şəxs statusuna malik olmur, amma DGK-nin qərari ilə belə status müəyyən edilə bilər. Bu halda gömrük postunun müstəqil balansı, banklarda hesablaşma və digər hesabları yaradılır və post dövlət mülkiyyəti olan, ona verilmiş mülkiyyət üzərində operativ idarəetmə hüququ alır.

Gömrük postlar üçün, əsasən, aşağıdakı vəzifələr və funksiyalar müəyyən edilir:

- gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin həyata keçirməsi;
- - qaçaqmalşçılıq və gömrük sahəsində digər hüquqpozma və cinayətlərə qarşı mübarizə aparılması.

Mövcüd qanunvericiliyin tələblərinin yerinə yetirilməsini təmin etmək üçün ixtisaslaşdırılmış gömrük postları yaradıla bilər. Məsələn, Komitə sədrinin 20 fevral 1998-ci il tarixli 002 saylı əmri ilə Respublika Nazirlər Kabinetinin 22 mart 1997-ci tarixli 24 saylı qərarının tələblərinə müvafiq olaraq, respublika ərazisinə idxal edilən aksizli malların mərkəzləşdirilmiş qaydada gömrük rəsmiləşdirilməsini təmin etmək, aksiz markalarının tətbiqinə nəzarəti gücləndirmək, aksiz vergilərinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada düzgün hesablanıb tutulmasını və vaxtında dövlət büdcəsinə köcürülməsini təmin etmək məqsədi ilə DGK-nə bilavasitə tabe olmaqla, Bakı şəhərində, fəaliyyət zonası bütövlükdə Az R-nın gömrük ərazisi olan – Aksiz Gömrük postu yaradılmışdır, sonra Aksiz Gömrük İdarəsi statusunu almışdır.

“Azərterminalkompleks” fəaliyyətinin məğzi və məqsədləri aşağıdakılardır:

-xarici iqtisadi əlaqələrin yeni formalarının inkişaf etdirilməsi üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi, Azərbaycan Respublikasının müəssisələrinə, idarələrinə, təşkilatlarına xarici-iqtisadi fəaliyyətin həyata keçirilməsində kommersial əsaslarda yardım göstərilməsi;

-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada idxal-ixrac əməliyyatları üçün sənədlərin hazırlanması, yüklərin, həmçinin gömrük nəzarəti altında olan yüklərin qorunmasını və salamatlığını təmin etmə üzrə xidmətlər göstərilməsi;

-dünya əmtəə və xidmətlər bazarının konyunkturasının öyrənilməsi və ondan istifadə edilməsi;

-xarici-iqtisadi fəaliyyət iştirakçılarının və vətəndaşlarının gömrük qanunvericiliyi və gömrük işini və xarici-iqtisadi fəaliyyəti tənzimləyən normativ aktlar barədə məlumatlandırılması, bu sahədə konsaltinq xidmətlərinin göstərilməsi;

-Xarici ticarət yüklərinin daşınmasının təşkili və təkmilləşdirilməsi üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi;

-gömrük brokerliyi fəaliyyətinin həyata keçirilməsi;

**-** Dünya əmtəə və xidmətlər bazarının konyunkturasını öyrənir və əldə edilmiş məlumatlardan istifadə etməklə kommersial əsaslarda marketinq, konsaltinq və məlumatlandırma xidmətlərini həyata keçirir:

**-** Azərbaycan Respublikasının gömrük orqanlarının zəruri tikililər, nəqliyyat, təşkilati-texniki vasitələri və avadanlıqla təchiz edilməsinə yardım göstərir:

- Gömrük orqanları tərəfindən müsadirə edilmiş malların və əşyaların realizə edilməsi üçün gömrük auksionları təşkil edir.

- Sənaye, inşaat, nəqliyyat, rabitə, kənd təsərrüfatı, ictimai-iaşə, mədəniyyət, elm və digər sahələrdə xidmətlər, pərakəndə və topdansatış ticarəti, ticarət-tədarük və vasitəçilik xidmətləri göstərmək:

- Müqavilə və həvaləetmə əsasında baş podratçı və baş tədarükçü funksiyalarını yerinə yetirmək:

- Əmtəə, fond, valyuta birjaları təşkil etmək və onların işində iştirak etmək

- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə zidd olmayan yuxarıda göstərilən fəaliyyət növlərini tamamlayan və inkişaf etdirən fəaliyyət növləri ilə məşğul etmək.

"Azərterminalkompleks"ə Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada aşağıdakı hüquqlar verilir:

- Azərbaycan Respublikasında, həmçinin xaricdə idarələrlə, müəssisələrlə, təşkilatlarla, cəmiyyətlərlə, şirkət və ortaqlıqlarla və ayrı-ayrı şəxslərlə sövdələşmələr və digər hüquqi aktlar, o cümlədən xidmət göstərilməsi, alqı-satqı, sığorta, saxlanc, tapşırıq, komissiya və digər hüquqi fəaliyyət növlərinin həyata keçirilmək, hərraclarda, müsabiqələrdə iştirak etmək, zəmanətlər vermək:

- Azərbaycan Respublikasında, həmçinin xaricdə öz fəaliyyətini həyata keçirmək üçün yardımçı müəssisələr yaradıb təsis etmək, hər cür daşınar və daşınmaz əmlak əldə etmək, özgələşdirmək, icarəyə götürmək və icarəyə vermək:

- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin razılığı ilə müəyyən edilmiş qaydada öz filiallarını, kontorlarını, şöbələrini, nümayəndəliklərini, agentliklərini təsis etmək, eləcə də fəaliyyətləri öz vəzifələrinə uyğun olan hər növ təşkilatlarda iştirak etmək, öz fəaliyyətini həyata keçirmək üçün müəssisələr, ortaqlıqlar, o cümlədən ticarət evləri, banklar, birgə müəssisələr yaratmaq:

- Konsaltinq, məsləhət xidmətləri, eləcə də xarici-iqtisadi fəaliyyət üçün zəruri olan sənədlərin tərtib olunması idxal, ixrac və tranzit yüklərinin və malların digər gömrük rejimləri üzrə bəyan edilməsi, şəxsi bəyannamə doldurulması üzrə xidmətlər göstərmək:

- Blankların, arayışların və gömrük orqanları üçün zəruri olan digər sənədlərin, gömrük qanunvericiliyinin, gömrük işini və xarici ticarəti tənzimləyən normativ aktların, göstərilən sahələrdə digər ədəbiyyatın çoxaldılması üzrə istehsalatlar təşkil etmək:

- Məhkəmələrdə, arbitraj məhkəmələrində iddiaçı və cavabdeh kimi çıxış etmək, müqavilə əsasında digər müəssisələrin, idarələrin və təşkilatların mənafelərini məhkəmə və dövlət idarəetmə orqanlarında təmsil etmək:

5. Az R-sı gömrük orqanlarının vəzifələri və hüquqları.

Gömrük orqanlarının vəzifələri aşağıdakılardır (maddə 8):

- Az R-nın Gömrük siyasətinin formalaşdırılmasında iştirak və bu siyasətin həyata keçirilməsini təmin etmək;
- icrasına nəzarət gömrük orqanlarına həvalə edimiş qanunvericilik aktlarına riayət olunmasını təmin etmək;
- gömrük Məcəlləsinin və gömrük işi üzrə digər qanunvericilik aktlarının pozulması hallarının qarşısını almaq və müvafiq araşdırmalar aparmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada Az R-nın iqtisadi və milli təhlükəsizliyini təmin etmək;
- gömrük nəzarətini və rəsmiləşdirilməsini həyata keçirmək və təkmilləşdirmək;
- mallar və nəqliyyat vasitələri gömrük sərhədindən keçirilərkən gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi qaydalarına riayət olunmasını təmin etmək;
- gömrük rüsumlarının, müvafiq vergiləri və digər gömrük ödənişlərini almaq;
- malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin sürətləndirilməsi üçün əlverişli şərait yaratmaq;
- gömrük sərhədindən keçirilən mallar barəsində ticarət siyasəti tədbirlərinin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
- gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydaları əleyhinə inzibatı xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparmaq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozondağıdıcı maddələrin, xalqların mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət hüquqları obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin, başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq;
- Az R-nın dəmiryol vağzallarında, dəniz, çay limanlarında, habelə digər yerlərdə beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə digər hüquq mühafizə orqanlarına yardım göstərmək;

- milli təhlükəsizliyi, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması sahəsində tədbirlərin həyata keçirilməsində müvafiq dövlət orqanlarına yardım göstərmək;

- insan alverçilərinin, habelə insan alveri qurbanlarının gömrük sərhədindən keçməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almaq;

- Az R-da xarici ticarətin gömrük statistikasını və xüsusi gömrük statistikasını beynəlxalq standartlara və təcrübəyə uyğun aparmaq və təkmilləşdirmək;

- gömrük ərazisinə gətirilən mallara münasibətdə istehlakçılarının hüquqlarının müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsinə müvafiq dövlət orqanlarına yardım göstərmək;

- gömrük işini həyata keçirərkən şəxslərin hüquqlarının və maraqlarının qorunması üzrə tədbirlər görmək;

- milli və xarici valyutanın, digər valyuta sərvətlərinin gömrük sərhədindən müvafiq qanunvericiliyə uyğun olaraq keçirilməsinə nəzarət etmək, habelə Gömrük Məcəllə ilə müəyyənləşdirilmiş hallarda valyuta nəzarətini həyata keçirmək;

- gömrük işi ilə əlaqədar beynəlxalq müqavilələrin layihələrinin işlənib hazırlanmasında iştirak, orada nəzərdə tutulmuş beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

- qanunvericilikdə nəzərdə tutulmuş qaydada ixrac nəzarətini həyata keçirmək;

- dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən mallar üzərində qanunvericiliyə uyğun olaraq baytarlıq, fitosanitar və sanitariya nəzarətini həyata keçirmək;

- beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə dövlət sərhədinin buraxılış məntəqələrində qanunvericiliyə uyğun olaraq İcazə blanklarını vermək;

- gömrük işi sahəsində yeni informasiya sistemlərinin və texnologiyalarının layihələrinin hazırlanmasını və tətbiqini təmin etmək;

- müasir texnologiyalardan və avadanlıqdan istifadə etməklə, gömrük işi sahəsində risklərin idarəetmə sistemi əsasında gömrük nəzarətini təkmilləşdirmək;

- xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının aparılması ilə əlaqədar müvafiq tədbirlər görmək;

- gömrük işi sahəsində elmi tədqiqatlar aparmaq və bu sahəyə aid məsləhətlər vermək;

- dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə Az R-nın Nazirlər Kabinetin Az R-nın Prezidenti ilə razılaşdırmaqla, müəyyən etdiyi qaydada məlumat vermək;

- dövlət orqanları ilə, xarici ticarətin iştirakçıları və səlahiyyətli iqtisadi operatorlarla məlumatların elektron formada mübadiləsini həyata keçirmək;

- müvafiq qanunvericiliklə müəyyənləşdirilmiş qaydada malların idxalı və ixracı barədə məlumatların digər dövlətlərin gömrük xidmətləri ilə elektron formada mübadiləsi, gömrük rəsmiləşdirilməsi və nəzarəti müddətinin mümkün qədər qısaldılması, beynəlxalq ticarət-təchizat zəncirinin kompleks idarə edilməsində iştirak etmək yolu ilə beynəlxalq ticarətin asanlaşdırılmasına şərait yaratmaq;

- digər dövlət orqanları ilə əməkdaşlıq etmək, həmçinin müvafiq məqsədlərə nail olmaq üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda onların fəaliyyətini əlaqələndirmək;

- qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Gömrük Məcəllə və digər qanunvericiliklə həvalə olunmuş vəzifələrini yerinə yetirmək üçün gömrük orqanları aşağıdakı hüquqlara malikdirlər:

- gömrük qanunvericiliyinə riayət olunması məqsədi ilə müvafiq tədbirlər həyata keçirmək;

- Gömrük Məcəlləyə və gömrük işi üzrə digər qanunvericilik aktlarına əsasən gömrük orqanlarına təqdim olunması nəzərdə tutulan sənəd və məlumatları şəxslərdən tələb etmək;

- gömrük orqanlarına təqdim edilən məlumatların, sənədlərin və bəyannamələrin düzgünlüyünü araşdırmaq;

- şəxslərin xarici ticarət əməliyyatlarının gömrük auditini aparmaq;

- dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin sənədlərini, o cümlədən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarını (şəhadətnamələrini) qanunvericiliyə uyğun olaraq yoxlamaq;

- malların və nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin bunlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərini yerinə yetirilməsini yoxlamaq, gömrük

prosedurlarına nəzarət həyata keçirmək, hüquqpozmaların operativ surətdə qarşısını almaq, əməliyyat-axtarış fəaliyyətini sürətləndirmək və digər məqsədlər üçün gömrük orqanlarının sistemi daxilində mobil qruplar təşkil etmək;

- təhqiqatı və istintaqı gömrük orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxsləri müəyyənləşdirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

- cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhqiqat və ibtidai istintaq aparmaq;

- müvafiq qanunvericiliyə uyğun olaraq inzibati xətalarla bağlı işlər üzrə icraatı aparmaq, bu işlərə baxmaq və inzibati xətalar törətmiş şəxsləri məsuliyyətə cəlb etmək;

- gömrük işi sahəsində cinayətlərin qarşısını almaq, belə cinayətləri törətmiş, habelə törədilməsində şübhəli bilinən şəxslərin saxlanılması və ya təqib edilməsi məqsədi ilə idarə, müəssisə və təşkilatlara (xarici dövlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat, rabitə vasitələri istisna edilməklə) məxsus olan rabitə və nəqliyyat vasitələrindən son zərurət vəziyyətində istifadə etmək;

- müstəqil surətdə, yaxud digər hüquq mühafizə orqanları cəlb edilməklə, gömrük nəzarəti zonasında rejim qaydalarına riayət olunmasına nəzarət etmək, gömrük xidmətinin infrastruktur obyektlərinin mühafizə sistemini təşkil etmək, gömrük sərhədinin qorunması məqsədi ilə başqa tədbirləri həyata keçirmək;

- malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi, həmçinin gömrük nəzarəti altında yerləşdirilən malların daşınması, saxlanılması, onlar üzərində yük əməliyyatlarının aparılması ilə bağlı faktları və hadisələri sənədləşdirmək, audio yazılarını, video və foto çəkilişlərini aparmaq;

- Gömrük Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvədən, xüsusi vasitələrdən (o cümlədən texniki vasitələrdən) və odlu silahdan istifadə etmək;

- öz funksiyalarını yerinə yetirmək məqsədi ilə şəxslərə gömrük qanunvericiliyinin pozulmasının aradan qaldırılması üçün yazılı formada xəbərdarlıqlar göndərmək və tələblərinin yerinə yetirilməsinə nəzarət etmək;

- digər ölkələrin gömrük orqanları ilə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək; gömrük rəsmiləşdirilməsinin və nəzarətinin müasir metodlarının və vasitələrinin tətbiqi məsələləri üzrə xarici ticarət iştirakçıları ilə əməkdaşlıq etmək məqsədi ilə onlarla rəsmi münasibətlər yaratmaq, məsləhətləşmələr aparmaq;

- Gömrük Məcəllədə və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş başqa hüquqlardan istifadə etmək.

6. Gömrük infrastrukturunun təşkili və inkişafı – gömrük orqanları vahid sisteminin ayrılmaz atributu, gömrük işinin həyata keçirilməsində onun səmərəli olmasını şərtləndirən əsas amillərdən biridir.

"İnfrastruktura" latın sözu olub – (infra- altında, struktur- quruluş, təşkilat) "yardımçı quruluş" mənası daşıyır. Beləliklə, infrastruktura – orqanın normal fəaliyyət göstərməsini təmin edən istehsal, qeyri-istehsal, elmi sahələr kompleksidir.

Gömrük sistemini normal fəaliyyətini təmin edən infrastruktura təminatı elementlərini üç əsas qrupa ayrımaq olar.

1 qrupa mal və nəqliyyat vasitələrinin keçirilməsi, saxlanması və anbar emalı üçün, həmçinin sərnişinlərə xidmət etmək üçün şərait yaradan elementlər daxildir. Başqa sözlə bu, gömrük orqanlarının maddi-texniki bazası (inzibatı binalar, keçid-buraxılış məntəqələri, anbar təsərrüfatı, nəqliyyat vasitələri, sosial təyinatlı obyektlər, vağzal və hava limanlarında gömrük nəzarəti zonaları və s.) hesab edilir.

2 qrupa gömrük əməliyyatlarının aparılmasını, prosesin gedişi və alınmış nəticələr barədə məlumatın ötürülməsini təmin edən sistem, vasitə və fəaliyyət növləri (gömrük nəzarətinin texniki vasitələri, gömrük ekspertizası vasitələri, rabitə, gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sistemi, kömpyüter avadanlığı və s.) daxildir.

3 qrupa orqanları kadrlarının normal həyat fəaliyyətinin bərpası üçün maddi, məişət, mədəni və digər şəraitin yaradılmasına xidmət edən sosial infrasruktura aid edilir. Bu sfera gömrük işçilərin peşə hazırlığının və

hərtərəfli inkişafının təmin edilməsi üçün qeyri-istehsal xarakterli tələbatın ödənilməsini təmin etməlidir.

Beləliklə, gömrük infrasruktura dedikdə, XİF-in gömrük tənzimlənməsi şərtlərini, gömrük sisteminin bütövlükdə fəaliyyət göstərməsini təmin edən, gömrük nəzarəti, ekspertizası, rabitəsi, məlumat sistemi, gömrük orqanlarının maddi-texniki bazası, texniki vasitələri, institusional, sosial struktur və fəaliyyət növləri kompleksi başa düşülməlidir.

Az R-sı gömrük sisteminin infrastrukturunun təkmilləşdirilməsi və inkişaf etdirilməsində DGK-nın təklifi ilə qəbul edilmiş Az R-sı Nazirlər Kabinetinin 25 dek1997-ci tarixli 140 saylı qərarı mühüm addımdır. Bu qərarla gömrük vəzifələrini uğurla həyata keçirmək üçün Az R-sı gömrük sisteminin büdcədənkənar inkişaf fondu təsis edilmişdir.

Gömrük sisteminin inkişaf fondu aşağıda göstərilən mənbələr hesabina yaradılır:

- Az R-nın gömrük sərhədindən əmtəə şəkilində keçirilən nəqliyyat vasitələri, eləcə də müşayiət olunmayan yük, kommersiya məqsədləri üçün nəzərdə tutulmayan beynəlxalq poçt daşımaları, eləcə də nəqliyyat vasitələri ilə daşınan yüklər və mallar daxil olmaqla gömrük rəsmiləşdirilməsinə görə alınmış gömrük yığımları;
- mütəxəssislərə gömrük rəsmiləşdirilməsi üçün ixtisas attestatlarının verilməsinə və ixtisas attestatının bərpasına, gömrük ödəmələrinin ödənməsinə zəmanət verən bankların və digər kredit təşkilatlarının rejestrə daxil edilməsinə görə alınan yığımlar;
- gömrük işi sahəsində, qacaqmalçılığa və gömrük qaydalarının pozulması işinə görə müəyyən edilmiş qaydada Az R-nın mülkiyyətinə keçirilən malların, nəqliyyat vasitələrinin və digər predmetlərin satışından əldə olunan vəsaitlər;
- girov əşyası hesab olunan malların və nəqliyyat vasitələrinin herraclarda satışından əldə olunan dövlət büdcəsinə köçürülən vəsaitdən artıq olan məbləğ;
- Az R-sı gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən iqtisadi hüquq pozuntularına, gömrük qaydalarının pozulmasına görə müsadirə edilmiş malların, nəqliyyat vasitələrinin satışından əldə olunan rüsumlar, cərimələr, vəsaitlər;

- valyuta tənzimlənməsi haqqında mövcüd qanunvericilik və normativ aktların pozulmasına və ya gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən hüququpozmalara görə Az R-nın gömrük orqanları tərəfindən müsadirə edilmiş valyuta;
- gömrük sisteminin inkişaf fondu vəsaitlərinin bank hesablarında və digər kredit orqanlarının hesablarında yerləşdirilməsindən və saxlanmasından əldə olunan mənfəət;
- qabaqcadan qəbul olunmuş qərarlara görə ödəmələr;
- Az R-nın gömrük qanunvericiliyində nəzərdə tutulmuş maddi ziyana görə ödənmiş məbləğ və digər gömrük ödəmələri;
- Az R-nın maliyyə nazirliyi ilə razılaşdırılmış digər daxilolmalar.

Gömrük sisteminin inkişaf fondunun vəsaitlər aşağıdakı tədbirlərin maliyyələşdirilməsinə yönəldilir:

- Az R-da vergi siyasətinin hazırlanması və həyata keçirilməsi, Az R-nın iqtisadi maraqlarının təmin edilməsinə və həyata keçirilməsinə nəzarət;
- Az R-sı gömrük orqanlarına tapşırılan mövcüd qanunvericiliyə riayət edilməsi;
- xarici iqtisadi fəaliyyətin və onun ayrı-ayrı bölmələrinin inkişaf etdirilməsi, Az R-nın istehsal üzrə beynəlxalq kooperasiyasında iştirakına kömək edilməsi;
- gömrük işi sahəsində qanunun pozulmasına qarşı mübarizə;
- Gömrük Məcəlləsinə görə Az R-nın beynəlxalq əməkdaşlığının təmin edilməsi;
- gömrük idarələrinin normal işinin və inkişafının təmin edilməsi;
- gömrük sisteminin maddi-texniki bazasının və sosial sahəsinin möhkəmləndirilməsi;
- gömrük kadrlarının hazırlanması və təkmilləşdirilməsi tədbirlərinin maliyyələşdirilməsi, eləcə də DGK-nin tədris müəssisələrinin saxlanması, inkişaf etdirilməsi və əlavə xərclərin maliyyələşdirilməsi;
- Az R-sı DGK sisteminə daxil olan müəssisə və təşkilatların yaranması və fəaliyyəti ilə bağlı xərclərin maliyyələşdirilməsi;
- gömrük orqanlarının aldığı kredit borcların qaytarılması və s.

3. Gömrük nəzarətinin təşkili.

Suallar:

1. Gömrük nəzarəti anlayışı.
2. Gömrük məqsədləri üçün tələb olunan sənəd və məlumatlar.
3. Gömrük nəzarəti formaları və onların tətbiqinin əsas xüsusiyyətləri.
4. Gömrük nəzarətinin həyata keçirilməsi prosesində gömrük orqanlarının fəaliyyətinin əsas istiqamətləri.
5. Gömrük nəzarəti altında olma müddəti.
6. Şəxslərin ayrı-ayrı kateqoriyaları üçün gömrük güzəştləri.

1.Gömrük nəzarəti gömrük hüququnun ən mühüm institutlarından biridir. Gömrük Məcəlləsinə görə **gömrük nəzarəti –** gömrük işi üzrə Az Res-sı Qanunvericiliyinə, həmçinin, icrasına nəzarətin Az Res-sı gömrük orqanlarına həvalə olunduğu Az Res-nın digər qanunvericiliyinə və beynəlxalq müqavilələrinə riayət olunmasını təmin etmək məqsədi ilə həyata keçirilən tədbirlərin məcmusudur.

Mal və nəqliyyat vasitələrinə gömrük nəzarəti bir birindən seçilir. Gömrük nəzarəti birdəfəlik və təkrar ola bilər. Birdəfəlik gömrük nəzarəti o vaxt nəzərdə tutulurki, gömrük sərhədi ancaq bir istiqamətdə keçirilir.

Gömrük nəzarəti onun həyata keçirilməsinin qayda və metodlarının məcmusudur. Bu metodlardan aşağıdakıları göstərmək olar:

- mal və nəqliyyat vasitələri gömrük məntəqəsinə gətirilərkən həyata keçirilən **adi** gömrük nəzarəti;
- nəqliyyat vasitəsinin hərəkəti zamanı həyata keçirilən gömrük nəzarəti;

- gömrük nəzarətinin müəyyən formalarında azad etmə halları istisna olmaqla, nəzarətin bütün formalarının istifadə olunduğu tam nəzarət;
- seçmə gömrük nəzarəti.



Beynəlxalq müqavilələrdə nəzərdə tutulduqda, gömrük nəzarət gömrük ərazisindən kənar ərazidə də həyata keçirilə bilər. Gömrük nəzarətinin formaları milli və beynəlxalq səviyyədə işlənib hazırlanmış meyarlar əsasında risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və qarşısının alınması üzrə zəruri tədbirlərin həyata keçirilməsi məqsədi ilə risklərin idarə olunması təcrübəsinə əsaslanmalıdır.

Gömrük nəzarətinin növ, forma və metodları onların praktiki tətbiqində bir-biri ilə sıx bağlıdır.

2. Mal və nəqliyyat vasitələrini gömrük sərhədindən keçirən, yaxud gömrük orqanlarının nəzarət sahəsinə aid fəaliyyətlə məşğul olan şəxslər gömrük nəzarəti üçün tələb olunan sənəd və məlumatları təqdim etməlidirlər.

Gömrük nəzarəti üçün tələb olunan məlumatları gömrük orqanları vergi və digər nəzarət orqanlarından da ala bilərlər. Qanunvericilik gömrük orqanlarına bank və digər kredit idarələrindən mal və nəqliyyat vasitələrini gömrük sərhədindən keçirən şəxslərin, gömrük brokerlərinin, yaxud nəzarəti gömrük orqanlarına həvalə edilmiş sahələrdə fəaliyyət göstərən digər şəxslərin apardığı əməliyyatlar, hesabatlarının vəziyyəti barədə arayış və məlumatlar almaq hüququ verir.

Gömrük nəzarəti üçün lazım olan sənədlərin və məlumatların siyahısı, həmçinin onların təqdim edilmə qaydaları müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən müəyyən edilərək rəsmi nəşrlərdə dərc olunur və müvafiq icra hakimiyyəti orqanlarının (Nazirlər Kabineti, DGK) rəsmi internet saytlarında yerləşdirilir.

Gömrük nəzarəti üçün tələb olunan sənədlər təyinatına görə aşağıdakı qruplar üzrə təsnifatlandırılır.

1. Ticarət sənədləri. Bu sənədlərə müqavilə, hesab, faktura, spesifikasiya, invojs, qablaşdırma sənədləri və s. aiddir.

2. Nəqliyyat sənədləri. Nəqliyyat sənədləri: konosament, qaimə, dəmiryol nəqliyyatı üçün – yol-daşınma cədvəlləri, vaqon vərəqi, təhvil cədvəlləri, baqaj qəbzləri.

3. Gömrük sənədləri: gömrük bəyannamələri, gömrük təminatları altında daşınmaya buraxılmış nəql. vasitələrinin şəhadətnaməsi, lisenziyalar, ixtisas attestatları. Belə sənədlər gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən verilir və şəhadətləndirilir.

4. Digər sənədlər: XİF-lə məşğul olmaq hüququ verən təsisat sənədləri, uyğunlug və keyfiyyət sertifikatları, karantin, icazə sənədləri, sərhəd buraxılış vərəqləri və s.

Sadalanan sənədlər mal və nəqliyyat vasitələrinin seçilmiş gömrük prosedurunun tələblərinə uyğun olaraq buraxılması və istifadə olunmasına qədər gömrük orqanının vəzifəli şəxsləri tərəfindən diqqətlə yoxlanılır. Sənədlərin yoxlanılmasının məqsədi, onların mövcud qanunvericilik qaydalarına uyğun olması və sənədləşməni tam əhatə etməsinə əmin olmaqdır.

Gömrük orqanının vəzifəli şəxsinin deklarantdan gömrük məqsədləri üçün əlavə sənədlər tələb etmək hüququ var. Belə sənədlərin siyahısı gömrük orqanları tərəfindən gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin məqsədlərindən asılı olaraq müəyyən edilir, deklarantlar və digər maraqlı şəslərin nəzərinə çatdırılır.

Gömrük nəzarətindən keçməli olan mallara dair sənədlərə və məlumatlara malik olan şəxslər onların Gömrük Məcəllə və müvafiq qanunvericilikdə nəzərdə tutulmuş qaydada saxlanılmasını təmin etməlidirlər. (Maddə 95) Saxlanma üsulundan asılı olmiyaraq, gömrük sərhədindən keçirilən mallara dair sənədlər və məlumatlar, həmin malların gömrük nəzarəti altında olan mallar statusunu itirməsindən sonrakı 3 il ərzində saxlanılmalıdır.

Şəxs gömrük orqanlarının vəzifəli şəxslərinin sənədləri və məlumatları əldə etməsinə şərait yaratmalı, bununla baglı onların suallarını cavablandırılmalı, tələb olunduqda, sənədlərin surətlərini onlara təqdim etməlidir.

Məlumatlar elektron formada saxlandıqda, şəxs gömrük nəzarətindən keçməli olan mallara dair sənədlər və məlumatlarla tanışlıq üçün gömrük orqanlarının vəzifəli şəxslərini lazımi avadanlıqla təmin etməlidirlər.

Mallar sərbəst dövriyyəyə buraxıldıqda, yaxad ixrac məqsədi ilə bəyan edildikdə, yüxarda qeyd olunan müddətin hesablanması sərbəst dövriyyə üçün buraxılışla və ixracla

bağlı gömrük bəyannamələrinin təstiq edildiyi ilin sonundan başlanır. Mallar digər gpmrük proseduru yərləşdirildikdə yüxarda qeyd olunan müddətin hesablanması gömrük prosedurunun başa çatdığı ilin sonundan başlanır.

3. Gömrük orqanları malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olmasını, bu ərazidən çıxmasını, tranzitini, daşınmasını və son istifadəsini tənzimləyən gömrük qanunvericiliyinə, həmçinin icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş digər qanunvericiliyə və beynəlxalq müqavilələrə riayət olunmasını təmin etmək məqsədi ilə gömrük nəzarətini həyata keçirirlər. Gömrük nəzarəti həyata keçirilərkən müasir texnologiya və avadanlıqdan istifadə edilir. Gömrük orqanlarının vəzifəli şəxsləri gömrük nəzarətini aşağıdakı formalarda həyata keçirilər:

- malların və nəqliyyat vasitələrinin yoxlanılması;

- şəxsi yoxlama;

- gömrük məqsədləri üçün lazım olan məlumatların, elektron və ya kağız üzərində yazılı formalarda sənədlərin, o cümlədən Az R-nın dövlət sərhəlinin buraxılış məntəqələrindən keçirilən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarla (şəhadətnamələrlə) müşayiət olunmasının yoxlanılması;

- mal və nəqliyyat vasitələrin uçotu və uçot və hesabat sisteminin yoxlanılması;

- fiziki və vəzifəli şəxslərin şifahi sorğusu;

- gömrük nəzarətindən keçməli olan mallara və nəqliyyat vasitələrinə, onların yerləşdiyi ərazilərə və binalara, müvəqqəti saxlanc və gömrük anbarlarında, sərbəst zonalarda yerləşən ərazilərə və binalara, həmçinin icrasına nəzarət gömrük orqanına həvalə edilmiş fəaliyyətin həyata keçirildiyi digər yerlərə gömrük baxışının keçirilməsi;

- keşik çəkmənin (patrulluğun ) və gömrük müşahidəsinin aparılması.

Gömrük nəzarətinin həyata kecirilməsinnin əsası yük gömrük bəyannaməsidir. Gömrük nəzarətinin həyata kecirilmə prosedurası bütövlükdə şərti olaraq beş mərhələyə bölünür.

Birinci mərhələdə YGB-də göstərilən məlumatlara formal-məntiqi nəzarət həyata keçirilir. Bunun üçün yük şöbəsi tərəfindən bəyannamənin bütün qrafalarının doldurulmasının düzgünlüyü yoxlanılır, bəyan edilmiş gömrük proseduruna və malların adına müvafiq olaraq gömrük nəzarəti üçün tələb olunan sənədlərin mövcudluğu müəyyən edilir. YGB yoxlanıldıqdan sonra ona nömrə verilir və aşkar edilmiş səhvlərin düzəldilməsi üçün deklaranta qaytarılır.

Ikinci mərhələdə YGB-də göstərilən xarici valyutada ödənc-hesablaşma əməliyyatları nəzarət predmeti olur. Eyni zamanda xarici-iqtisadi fəaliyyət iştirakçısı tərəfindən valyuta nəzərəti qanunvericiliyinə riayət olunması yoxlanılır.

Üçüncü mərhələdə gömrük ödənclərinin hesablanma dəqiqliyi, gömrük güzəştləri verilməsinin qanuna müvafiqliyi yoxlanılır, ödənclərin gömrük orqanlarının hesabına daxil olmasına nəzarət edilir.

Dördüncü mərhələdə statistika şöbəsi gömrük statistikası üçün mühüm olan qrafaların doldurulmasını yoxlayır.

Nəhayət, beşinci mərhələdə yük şöbəsinin səlahiyyətli vəzifəli şəxsi malın gömrük müayinəsi barədə qərar qəbul edir. Gömrük nəzarətinin bütün mərhələləri bitdikdən sonra yük cənədinə “Buraxılışa icazə verilir” ştampı vurulur. Bu ştamp və YGB-nin nömrəsi şəxsi nömrəli möhürlə təstiqlənir.

Gömrük nəzarəti formaları seçilərkən Gömrük Məcəllənin 100.2-ci maddəsində müəyyən edilmiş qaydada yaradılan riskin idarə edilməsi sistemindən istifadə olunur. Müvafiq icra hakimiyyəti orqanı gömrük nəzarətinin təşkili məqsədi ilə Gömrük Məcəlləyə uyğun olaraq aşağıdakıları müəyyən edir: gömrük nəzarətinin həyata keçirilməsi qaydalarını; ümumi risklərin idarə edilməsi qaydalarını; ümumi meyarların və prioritet nəzarət sahələrinin müəyyən edilməsi üzrə qaydaları; aidiyyəti orqanlarla birlikdə risklərə dair məlumatların və gömrük kəşfiyyatı məlumatlarının mübadiləsini tənzimləyən qaydaları.

Gömrük nəzarəti həyata keçirilərkən, insanların həyat və saqlamlığı, heyvanlar və bitkilər üçün təhlükəsiz olan, həmçinin mallara və nəqliyyat vasitələrə zərər vurmayan

texniki vasitələr tətbiq edilə bilər. Gömrük nəzarətinin həyata keçirilməsi zamanı şəxslərə, onların mallarına və nəqliyyat vasitələrinə qanunsuz zərər vurulmasına yol verilmir.

Qanunsuz zərər vurmuş Az R-nın gömrük orqanları və onların vəzifəli şəxsləri Az R-sı qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar. Az r-sı gömrük orqanlarının vəzifəli şəxslərinin qanuna uyğun hərəkətləri ilə vurulmuş zərər ödənilmir.

Az R-nın gömrük orqanları lazım olduqda, Gömrük Məcəlləsinin 84-ci maddəsində göstərilən hallar istisna edilməklə, Gömrük Məcəllədə nəzərdə tutulan gömrük nəzarətinin bütün formalarından istifadə edə bilərlər.

Gömrük Məcəlləsi gömrük orqanlarının gömrük nəzarəti formalarının verilmiş hal üçün daha məqsədəuyğun olanı seçmək və istifadə etmək hüququnu müəyyən edir.

Konkret hal üçün kifayət etmə prinsipi normativ aktlarda öz əksini tapmırsa, yetərli gömrük nəzarəti forması gömrük orqanının vəzifəli şəxsləri tərəfindən seçilir. Gömrük nəzarəti formalarının seçilməsinə dövlət təhlükəsizliyinə və ictimaiyyətin maraqlarına zərər vurmadan yol verilə bilər.

Digər tərəfdən gömrük nəzarətinin kifayət etmə prinsipi insan hüquq və azadlığı normalarını pozmamalıdır. Elə buna gorə də şəxsi müayinə qanunvericilikdə “Gömrük nəzarətinin **müstəsna** forması kimi” nəzərdə tutulur.

Gömrük nəzarətini müstəsna forması olan şəxsi yoxlama Az R-nın gömrük sərhədindən keçən və ya gömrük nəzarəti zonasında, yaxud beynəlxalq təyyarə limanının tranzit zonasında fiziki şəxsin icrasına nəzarət Az R-nın gömrük orqanlarına həvalə edimiş Az R-sı qanunvericiliyinin və Az R-nın beynəlxalq müqavilələrinin pozulmasının obyekti olan malları üstündə gizlətməsi və təhvil verməməsi haqqında kifayet qədər əsas olduqda, Az R-sı gömrük orqanının rəisinin və ya onu əvəz edən şəxsin qərarı ilə aparəla bilər.

Şəxsi yoxlama başlamazdan əvvəl Az R-sı gömrük orqanının vəzifəli şəxsi Az r-sı gömrük orqanı rəisinin və ya onu əvəz edən şəxsin, şəxsi yoxlama aparılması haqqında qərarını fiziki şəxsə bildirməli, bu cür yoxlama keçirilərkən onu hüquq və vəzifələri ilə

tanış etməli və gizlətdiyi malları və ya əşyaları könüllü olaraq təhvil verməyi təklif etməlidir.

Şəxsi yoxlama, sanitar-gigiena tələblərə cavab verən təcrid olunmuş yerdə iki həmcins hal şahidinin iştirakı ilə eyni cinsdən olan Az R-sı gömrük orqanının vəzifəli şəxsləri tərəfindən aparılmalıdır. Başqa fiziki şəxslərin bu yerlərə daxil olmasına və şəxsi yoxlama aparılmasını müşahidə etməsinə yol verilmir. Şəxsin bədən üzvlərini yalnız tibb işçisi yoxlamalıdır.

Şəxsi yoxlama aparılması haqqında Az r-nın gömrük işini aparan icra hakimiyyəti orqanının müəyyən etdiyi formada protokol tərtib olunur.

Protokol, şəxsi yoxlamanı aparan Az R-sı gömrük orqanının vəzifəli şəxsi, yoxlanılan fiziki şəxs, hal şahidləri və bədən üzvləri yoxlanıldıqda isə, həmçinin tibb işçisi tərəfindən imzalanır. Barəsində şəxsi oxlama aparılmış fiziki şəxs həmin rotokolda öz rəyini bildirmək hüququna malikdir.

Gömrük nəzarətinin müəyyən formalarından azadetmə (Maddə 84).

Qanun və ya beynəlxalq müqavilələrlə mal və nəqliyyat vasitələrinin ayrı-ayrı növlərinin gömrük nəzarəti sferasından çıxarılmasının konkret halları müəyyən edilə bilər. Gömrük nəzarətinin müəyyən formalarından azadetmə Gömrük Məcəllə, gömrük işi üzrə digər qanunvericilik aktları və beynəlxalq müqavilələrlə müəyyən olunur. Azərbaycan Respublikası Prezidentinin və onunla birlikdə gedən ailə üzvlərinin şəxsi baqajı gömrük yoxlamasından azaddır.

Xidməti vəzifələrinin icrası ilə əlaqədar gömrük sərhədindən keçən Azərbaycan Respublikası Baş nazirinin, onun müavinlərinin, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının rəhbərlərinin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının və Azərbaycan R-nın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) şəxsi baqajları gömrük yoxlamasından azaddır.

Öz yoluna davam edən xarici hərbi gəmilərin, hərbi hava gəmilərinin, eləcə də digər hərbi texnikanın gömrük yoxlamasından azad edilməsi dövlətlərarası sazişlərlə tənzimlənir.

Beynəlxalq müqavilələrə uyğun olaraq gömrük nəzarətinin müəyyən formalarından azadetmə bu sazişlər təsdiq edildikdən (ratifikasiya olunduqdan) sonra həyata keçirilir.

4. **Gömrük nəzarətinin həyata keçirilməsi prosesində gömrük orqanlarının fəaliyyətinin əsas istiqamətləri:**

- Gömrük nəzarəti zonaları;
- "Yaşıl" və "Qırmızı" dəhlizlərin quruluşu və fəaliyyət göstərməsi.
- Gömrük nəzarətinin həyata kəşirilməsinə kömək göstərilməsi üçün mütəxəssis və ekspertlərin cəlb edilməsi.
- Malların, nəql.vasitələrinin, binaların və başqa yerlərin eyniləşdirilməsi.
- XİF iştirakçılaırnın maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması
- Risklərin idarə edilməsi.

Gömrük nəzarəti zonaları (Maddə 93.)

Gömrük sahələrində, gömrük sərhədi boyunca, gömrük rəsmiləşdirilməsi yerlərində, sərbəst zonalarda, gömrük anbarlarında, malların yükləmə-boşaltma və müvəqqəti saxlanc yerlərində, gömrük nəzarəti altında olan malların daşınmasını həyata keçirən nəqliyyat vasitələrinin dayanacağında, gömrük orqanlarının olduğu yerlərdə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi digər yerlərdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən gömrük nəzarəti zonaları yaradılır və rejim qaydaları müəyyən edilir.

Gömrük nəzarəti zonalarının yaradılması və onların nişanlanması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Gömrük nəzarəti zonasının rejimi yüklərin yer dəyişdirilməsi və onlarla davranışda qaydaların daha ciddi reqlamentasiyası ilə fəqrlənir. Qanunda nəzərdə tutulan hallar istisna olmaqla, gömrük nəzarəti zonalarında istehsal və digər kommersiya fəaliyyətinin həyata keçirilməsinə, malların, nəqliyyat vasitələrinin, şəxslərin, o cümlədən dövlət orqanlarının vəzifəli şəxslərinin bu zonaların

sərhədini keçməsinə və daxilində hərəkətinə yalnız gömrük orqanlarının icazəsi və onların nəzarəti altında həyata keçirilə bilər.

Vizual müşahidə - gömrük zonalarının konkret şəraitində müəyyən və qeyri-müəyyən şəxslərin dövranışı barədə məlumat əldə edilməsini təmin etmək üçün tətbiq edilir. Məqsəd – gömrük nəzarətindən predmet və malların gizlədilməsi, hər hansı predmetlərin digər şəxslərə verilməsi, müəyyən şəxslərin (liman, aeroport, dəmiryol işçilərin,yükləjicilərin) gömrük nəzarəti prosedураlarına qeyri-adi maraqı faktlarını və s. aşkar etməkdir. Vizual müşahidənin operativ şəraitdə beynəlxalq hava limanlarında, dəniz və çay vagzallarında, avtostansiya və dəmiryol vagzallarında, bəzi yük anbarlarında xüsusi əhəmiyəti var. Belə yerlər daxili gömrük zonaları adlanır.

Beynəlxalq sərnişindaşınma məntəqələrindəki gömrük nəzarəti zonalarında ikikanallı gömrük nəzarəti tətbiq edilə bilər.

“Yaşıl” və “Qırmızı” dəhlizlərin quruluşu və fəaliyyət göstərməsi prinsipi Ümumdünya Gömrük Təşkilatının 8 iyun 1971-ci ildə qəbul edilmiş “İkikanallı sistem əsasında aviasərnişinlərə sadələşdirilmiş gömrük nəzərəti barədə” tövsiyələrində öz əksini tapmışdır. Bu tövsiyələrin meydana çıxması zərurəti beynəlxalq turizmin dinamik inkişaf etdiyi bir dövrdə səmərəli gömrük nəzarətinin və artan sərnişin axınının sərhəddən qısa müddətdə buraxılmasını təmin etmək vəzifəsindən irəli gəlirdi.

Ikikanallı metodla gömrük nəzarətinin təşkili sərnişinlər tərəfindən gömrük zonasının “yaşıl” və “qırmızı” dəhlizlı tərk edimәsini nəzərdə tutur. “Yaşıl” dəhlizdən istifadə etməyə o şəxslərə icazə verilir ki, yanında apardığı əşyalar rüsumsuz rəsmiləşdirilə bilsin, xüsusi icazə tələb olunmasın və s. Qalan digər hallarda sərnişinlər “qırmızı” dəhlizi seçməli və gömrük bəyannaməsi təqdim etməlidirlər. Iki dəhlizdən hansının seçilməsi barədə qərarı sərnişin özü qəbuk edir. Belə seçim bəyanetmə aktı mənasını daşıyır və əgər gömrük nəzarəti həyata keçirilərkən, “yaşıl” dəhlizin seçilməsinin qetri-qanuni olduğu aşkara çıxarsa, sərnişin hüquqi məsuliyyətə cəlb edilə bilər.

Əgər “yaşıl” və ya “qırmızı” dəhlizin seçilməsi mərhələsində sərnişində şübhə, sual yaranarsa, o, “qırmızı” dəhlizi seçməli və orada bəyanetmə anınadək lazım olan məlumatı almalıdır.

“Yaşıl” dəhlizin seçilməsi və istifadə olunması bu dəhlizdən keçən sərnişinlərə gömrük nəzarətinin həyata keçirilməsinin mümkün olmaması demək deyildir. Bu halda gömrük nəzarəti diferensial olaraq həyata keçirilir və seçmə xarakter daşıyır. Nəzarət subyektləri gömrük əməkdaşı tərəfindən təcrübə əsassında seçilir.

“Yaşıl” və “qırmızı” dəhlizlərin tətbiqi sistemi sərnişinlərin gömrük qanunvericiliyinin tələbləri barədə kifayət qədər məlumandırılmasını nəzərdə tutur.

Ikikanallı metodla gömrük nəzarətinin təşkili sərnişinlər tərəfindən gömrük zonasının “yaşıl” və “qırmızı” dəhlizlı tərk edimməsini nəzərdə tutur. Mütəxəssis və ekspertlərin cəlb edilməsi ilə bağlı xərclər, gediş-gəliş, otaqların kirayəsi, sutkalıq xərclər və zəhmət haqqı, əgər bu iş mütəxəssislərin xidməti vəzifələrinə daxil deyilsə, gömrük orqanları tərəfindən ödənilir. Gömrük orqanının çağırışı ilə dövlət mütəxəssislərinin ekspert sifətində çalışdığı müddətdə, orta aylıq əmək haqqı saxlanılır.

Gömrük orqanlarının vəzifəli şəxsləri xidməti vəsiqə əsasında istənilən əraziyə və istənilən əraziyə və istənilən bağlı sahəyə - əgər bu yerlərdə gömrük nəzarətinə cəlb ediləcək mal və nəqliyyat vasitələri, gömrük nəzarəti üçün lazım olan sənədlər yerləşirsə, yaxud nəzarəti gömrük orqanlarına həvalə olunmuş fəaliyyət göstərilirsə - daxil olmaq hüququna malikdirlər.

Məsələn, gəminin gömrük yoxlaması zamanı gömrük orqanı nümayəndələrinin tələbi ilə həmin gəminin kapitanı (onu əvəz edən şəxş) gəmidə olan bütün sahələri, bölmələri, otaqları acmağa borcludur.

Gömrük əməkdaşları – gömrük anbarlarına, müvəqqəti saxlanc anbarlarına, rüsumsuz ticarət mağazalarına və s. maneəsiz girə bilərlər.

Bir sıra hallarda gömrük orqanlarının vəzifəli şəxslərinin gömrük nəzarətinə cəlb edilən fəaliyyət həyata keçirilən yerlərdə bilavasitə iştirakı normativ aktlarda birbaşa

nəzərdə tutulur. Gömrük nəzarətinə cəlb ediləcək mal və nəqliyyat vasitələrinin olduğu yerlər və həmçinin gömrük nəzarəti altında olan yerlər, gömrük nəzarəti predmetlərinin özləri gömrük orqanları tərəfindən eyniləşdirilə bilər. Plomb, möhür qoyulması, rəqəmli, hərfli və digər növ markalanma, eyniləşdirilmə işarələri, ştamp vurulması, prob və nümünələrinin götürülməsi, mal və nəqliyyat vasitələrinin təsvir edilməsi, mal müşayiət sənədlərindən istifadə edilməsi və s. əsas eyniləşdirmə vasitələri hesab edilir.

Gömrük nəzarəti bitdikdən sonra gömrük orqanının vəzifəli şəxsləri gömrük, nəqliyyat və mal müşayiət sənədlərinə müvafiq imza, ştamp, möhür qoymaqla, mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilərək yoluna davam etməsinə icazə vermiş olurlar.

Ayrı-ayrı yük bağlamalarına, nəqliyyat vasitələrinin yük hissələrinə, konteynerlərə gömrük təminatı atributları qoyulmalıdır.

Gömrük təminatları aşağıdakı tələblərə cavab verməlidirlər:

- möhür, ştamp, markalanma, imza izlərinin saxtalaşdırılması qeyri-mümkün olmalıdır;
- gözlə görünən izlər qoyulmadan gömrük təminatlarının tamlığının pozulması mümkün olmamalıdır;
- ştempellər, izqoyan materiallar, yazı vasitələri xarici iqlim təsirlərinə davamlı olmalıdır;
- gömrük təminatları atributlarının izləri və qeyd edilən yazılar aydın olmalıdır;
- sənəd və bağlamalara gömrük təminatı atributlarının vurulması və qeydlər edilməsi minimum vaxt almalıdır.

Beləliklə daxili gömrük tranziti prosedurası üzrə malların daşınmassı zamanı plombların, möhürlərin və digər gömrük təminatlarının mövcüdlüğü ümumi tələblər sırasındadır. Mallar elə bağlamalarda, nəqliyyat vasitələrində və ya konteynerlərdə daşınmalıdır ki, onların daşındığı vasitələrdən çıxarılması, yaxud həmin vasitələrə nəyinsə qoyulması iz qoymadan, gömrük təminatlarını zədələmədən mümkün olmasın.

Malgöndərən və daşıyıcın plomblarından da istifadə edilməsinə müəyyən şərtlərlə yol verilir.

Eyniləşdirilmə vasitələri yalnız gömrük orqanları tərəfindən, yaxud onların icazəsi ilə dəyişdirilə və məhv edilə bilər. Bu qayda mal və nəqliyyat vasitələrini məhv edilməsi, itirilməsi üçün real təhlükə olduqda və kifayət qədər xarab olması hallarına şamil edilmir.

Aksızli mallara tətbiq edilən aksiz markaları da eymiləşdirilmə vasitələri hesab edilir. Aksiz markalarının tətbiq edilmə qaydaları Az R-sı Nazirlər kabinetinin 22 mart 1997-ci il tarixlı 24 saylı qərarı ilə təsdiq edilmişdir.

Mal və nəqliyyat vasitələrini gömrük sərhədindən keçirən şəxslərin, gömrük brokerlərinin, yaxud nəzarəti gömrük orqanlarına həvalə olunmuş fəaliyyətlə məşğul olan digər şəxslərin **maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması** – gömrük məqsədləri üçün lazım olan sənəd və məlumatların yoxlanılması kimi gömrük nəzarəti formalarından biridir.

Icrasına, nəzarətinin gömrük orqanlarına həvalə olunduğu Az R-sı Qanunvericiliyinin və Az-nın iştirakçısı olduğu beynəlxalq müqavilələrin şərtlərinin riayət edilmədiyini güman etməyə kifayət qədər esas olduqda maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasından istifadə olunur.

Qanunvericilik maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması zamanı gömrük orqannının vəzifəli şəxslərinə aşağıdakı səlahiyyətləri verir:

- gömrük işinə və gömrük orqanlarının funksiyalarına aid olan xarici iqtisadi və digər təsərrüfat fəaliyyəti barədə istənilən sənədlər (bank sənədləri daxil olmaqla) və məlumatın əvəzsiz təqdim edilməsini tələb etmək və onlarla tanış olmaq;
- vəzifəli şəxslərdən və digərlərindən arayış yazılı və şifahi izahat almaq;
- müəyyən edilmiş formada tətbiq edilən akt əsasında sənədləri - əgər onların yoxlanılması başqa bir yerdə həyata keçiriləcəksə - götürmək.

Gömrük yoxlamasına məruz qalan malları, nəqliyyat vasitələrini, sənədləri və şəxsləri, habelə bu cür yoxlamanın dərəcəsini müəyyən etmək üçün gömrük orqanları riskləri təhlil edir və bu təhlilin nəticəsinə əsaslanaraq, gömrük nəzarətinin formasını

müəyyən edir. (maddə 101) gömrük orqanları sistemində risklərin idarə edilməsi sisteminin tətdiqi qaydaları və formaları Az P-nın DGK tərəfindən müəyyən olunur.

Risklərin təhlilinin adekvatlığını təmin etmək məqsədilə, DGK-si gömrük orqanlarından, o cümlədən müvafiq beynəlxalq müqavilə əsasında digər ölkələrin gömrük xidmətlərindən malların və nəqliyyat vasitələrinin göndərişləri haqqında ilkin elektron məlumatlar alırlar.

Beynəlxalq ticarət-təchizat zəncirində yüklərin etibarlı və fasiləsiz hərəkətinə, informasiya mübadiləsinin dəqiq və vaxtında həyata keçirilməsinə əlverişli şərait yaratmaq məqsədi ilə gömrük orqanları arasında risklərin idarə edilməsi gömrük orqanlarına riskləri daha səmərəli idarə etmək, beynəlxalq ticarət-təchizat zənciri haqqında daha dolğun və ətraflı informasiya əldə etmək imkanı verir.

5. Malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti altında olma müddəti . (maddə 83).

Gömrük nəzarəti predmeti mal və nəqliyyat vasitələrinin istənilən növü ola bilər. Mallar – istənilən daşınan əmlak, o cümlədən, valyuta, valyuta sərvətləri, elektrik və digər enerji növləri və s. ola bilər.

Sərnişin və malların beynəlxalq daşımalarından istifadə olunan, konteyner və digər nəqliyyat avadanlığı da daxil olmaqla bütün vasitələr – nəqliyyat vasitəsi sifətində gömrük nəzarəti obyekti olur.

Digər məqsədlə üçün gömrük sərhədindən kecirilən nəqliyya vasitələri əmtəə kimi gömrük nəzarətinə cəlb edilir.

Bir qayda olaraq mal və nəqliyyat vasitələri gömrük nəzarətinin başlandığı andan onun seçilmiş gömrük proseduruna uyğun olaraq bitməsinə qədər gömrük nəzarəti altında yerləşir. Başqa sözlə mal və nəqliyyat vasitələrinin gömrük nəzarəti altında yerləşməsi müddəti bilavasitə seçilmiş gömrük prosedurundan asılıdır.

Gömrük ərazisinə gətirilən mallar və nəqliyyat vasitələri gömrük sərhədini keçdiyi andan başlayaraq aşağıdakı hallardan biri baş verənədək gömrük nəzarəti altında olurlar:

- sərbəst dövriyyəyə buraxılanadək;

- məhv edilənədək;

- dövlətin xeyrinə imtina olunanadək;

- malların dövlət mülkiyyətinə keçirilməsi, yaxud Gömrük Məcəllənin 330-cu maddəsinə müvafiq olaraq onlar barəsində sərəncam verilməsinədək;

- mallar və nəqliyyat vasitələri gömrük ərazisindən faktiki çıxarılanadək.

İxrac gömrük proseduru, daxili tranzit və ya xaricdə emal xüsusi gömrük prosedurları üçün bəyan edilən daxili mallar və nəqliyyat vasitələri müvafiq gömrük bəyannaməsi gömrük orqanı tərəfindən təsdiq olunduğu vaxtdan başlayaraq, gömrük ərazisindən aparılana, dövlətin xeyrinə imtina ya məhv edilənə, yaxud gömrük bəyannaməsinin Gömrük Məcəllənin 154-cü maddəsinə (gömrük bəyannaməsinin ləğvi) uyğun olaraq ləğvinədək gömrük nəzarəti altında olurlar.

Son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar Gömrük Məcəllənin 195-ci maddəsində nəzərdə tutulmuş müddətdə gömrük nəzarəti altında olurlar.

Gömrük nəzarəti altında olan mallar və nəqliyyat vasitələrindən istifadə olunmasına və onlar barəsində sərəncam verilməsinə Gömrük Məcəllə ilə müəyyənləşdirilmiş qaydada və şərtlər daxilində yol verilir. Əvvəllər gömrük ərazisindən çıxarılmış malların və nəqliyyat vasitələrinin, yaxud emal məhsullarının gömrük qanunvericiliyinə əsasən mütləq qaydada geri qaytarılması nəzərdə tutulduğu hallarda, gömrük orqanları həmin malların və nəqliyyat vasitələrinin, yaxud emal məhsullarının geri gətirilməsinə dair öhdəliklərin şəxslər tərəfindən Gömrük Məcəllədə göstərilən qaydada, gömrük prosedurlarının şərtlərinə uyğun olaraq yerinə yetirilməsinə nəzarəti həyata keçirirlər.

Mal və nəqliyyat vasitələrinin gətirilməsi zamanı gömrük nəzarətinin başlanğıcı onların Az R-nın gömrük sərhədindən kecdiyi an hesab edilir.

Mal və nəqliyyat vasitələrinin ölkədən çıxarılması zamanı gömrük nəzarəti – gömrük bəyanaməsinin təqdim edildiyi andan başlanır. Az R-nın gömrük sərhədindən kənara aparılan mallar və nəqliyyat vasitələri buraxılarkən, onlar Az r-nın hömrük sərhədini kecdiyi andan gömrük nəzarəti başa catır.

Gömrük nəzarəti altında malların yerləşdirilməsinin minimum müddətlərinin müəyyən edilməsi DGK-nin səlahiyyətinə daxildir.

Təqdim edilmiş gömrük bəyannaməsinin, mal və nəqliyyat vasitələrinə gömrük nəzarəti üçün tələb olunan digər sənədlərin yoxlanılması üçün mövcüd qanunvericilik maksimum müddət olaraq 10 gün müəyyən edir. Bu müddəti başlanğıcı olaraq gömrük bəyannaməsinin qəbul edildiyi və lazımi sənədlərin təqdim olunduğu gün hesab edilir.

Bu müddətin azadılması gömrük əməkdaşlarının hazırlıq səviyyəsindən və tətbiq edlən müasır texniki nəzarət vasitələrinin effektivliyindən asılıdır.

Belə vasitələrdən ən səmərəli inspeksiya-müayinə kompleksidir (İMK). İMK-lar gömrük zonalarında ayrıca yerləşmiş bina-boks ola bilər. İMK konteynər yük maşınları boşaltmadan az müddətdə şüalandırmaqla daxilini “görməyə” imkan verir. Müasir avadanlıq telemonitorunda müxtəli elektron-rəngləmə vasitələri ilə üzvi (narkotiklər, partlayıcı maddələr) və qeyri-üzvi materialları bir-birindən ayırmaga, şübhəli əşyaları və boşlqları aşkara çıxarmağa imkan verir.

6. Gömrük nəzarətinin müəyyən formalardan azadetmə Gömrük Məcəllə, gömrük işi üzrədigər qanunvericilik aktları və beynəlxalq müqavilələrlə müəəyən olunur. (maddə 84)

Diplomatik (konsul) kuryerin şəxsi baqajı gömrük baxışından azad edilir. Lakin, baqajda kuryerin şəxsi istifadə üçün nəzərdə tutlmayan mallar, yaxud gətirilməsi (aparılması) mövcüd qanunvericiliklə qadağan edilən malların olması gümanına əsas varsa, o zaman kuryerin baqajı müayinə edilə bilər.

Ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrlə gömrük güzəştləri əsasən aşağıdakı təşkilatların və onların təmsilçiliklərinin heyətinə, həmçinin onların ailə üzvlərinənəzərdə tutulur:

- Birləşmiş Millətlər Təşkilatı;
- Beynəlxalq Valyuta Fondu;
- Beynəlxalq Rekonstruksiya və İnkişaf Bankı;
- Beynəlxalq Qırmızı Xac Komitəs;i
- Beynəlxalq Miqrasiya Təşkilatı;
- Digər beynəlxalq təşkilatlar.

Xarici dövlətlərin Az R-nın ərazisində olan diplomatik nümayendəlikləri Az R-nın gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsinin nəzərdə tutulmuş qaydasına riayər edilməsi şərtilə, gömrük rüsumlarından, vergilərindən və digər gömrük ödənişlərindən azd edilməklə nümayendəliyin rəsmi istifadəsi üçün nəzərdə tutulan malları Az R-nın ərazisinə gətirə və Az R-nın ərazisindən apara bilərlər.

Gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrinin yerləşdirilə biləcəyi prosedurların xarakteristikası.

Suallar:

1. Gömrük proseduru (rejimi) anlayışı.
2. Sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal, ixrac, təkrar ixrac gömrük prosedurların xarakteristikası.
3. Tranzit prosedurlarının əhatə dairəsi.
4. Saxlanc (müvəqqəti saxlanc və gömrük anbarlarında saxlanc) prosedurlarının əhatə dairəsi.
5. Sərbəst zona.
6. Xüsusi istifadəni nəzərdə tutulan gömrük prosedurları (müvəqqəti idxal və son istifadə).
7. Emal prosedurlarının tətbiqi.
8. Malların məhv edilməsi və dövlətin xeyrinə maldan imtina əməliyyatlarının həyata keçirilmə qaydaları.

1. Mal və nəqliyyat vasitələrinin Az R-nın gömrük sərhədindən keçirilməsi bəyan edilən gömrük prosedurunun tələblərinə uyğun olaraq icra edilməlidir.

Gömrük proseduru anlayışı xarici iqtisadi əlaqələrin inkişafına dövlət təsirini həyata keçirildiyi gömrük tənzimlənməsi vasitələrinin kompleks şəkildə tətbiqinə kömək edən xüsusi tədbirlər sistemi və metodların məcmusu kimi başa düşülməlidir.

Gömrük proseduru aşağıdakıları müəyyən edir:

- keçirilməsi məqsədlərindən asılı olaraq malların konkret yerdəyişmə qaydasını;
- gömrük ərazisində və ondan kənarda malların yerləşdirilməsi və onlardan istifadənin mümkünlüyü şərtlərini;
- gömrük qanunvericiliyinə görə mallardan istifadə və onlar üzərində sərəncam vermək səlahiyyəti olan şəxslərin hüquq və vəzifələrini;
- mal və nəqliyyat vasitələrinə və şəxslərin hüquqi statusuna tələbləri.

Gömrük proseduru - Gömrük Məcəllənin müddəalarına uyğun olaraq gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrinin yerləşdirilə biləcəyi ixrac, təkrar ixrac, müvəqqəti ixrac, sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal və xüsusi gömrük prosedurlarından biridir (1.0.18.).

Gömrük Məcəlləsinə görə gömrük prosedur sahibi - gömrük bəyannaməsini hazırlayan və ya adından gömrük bəyannaməsi hazırlanan şəxs, yaxud həmin şəxsin gömrük proseduru ilə bağlı hüquq və öhdəliklərinin ötürüldüyü şəxs.

Gömrük tənzimlənməsi məqsədi ilə gömrük prosedurların aşağıdakı növləri tətbiq olunur:

- sərbəst dövriyyə üçün buraxılış;
- təkrar idxal;
- tranzit (beynəlxalq, daxili);
- gömrük anbarı;
- daxildə emal;
- xaricdə emal;
- müvəqqəti idxal (ixrac);
- sərbəst gömrük zonası;
- son istifadə;
- müvəqqəti saxlanc;
- ixrac;

- təkrar ixrac;
- məhv etmə;
- dövlətin xeyrinə maldan imtina.

Öz roluna və yerinə görə ümumi təsərrüfat fəaliyyətində gömrük prosedurları şərti olaraq iki qrupa bölmək olar.

Birinci qrupa tənzimləmə metodları və gömrük vasitələrinin tam həcmdə tətbiq edildiyi ümumi xarakterli olan, nisbətən müstəqil və bitmiş kommersiya əməliyyatları kimi fəaliyyət göstərir. (1, 2,11,12)

Ikinci qrupa tənzimlənmənin gömrük-hüquq normalarından daha çevik istifadə ediməsi ilə fərqlənən və bir növ onların xarici iqtisadi fəaliyyət iştirakçılarının tələblərinə uyğunlaşdırılmasıının nəticəsi kimi səviyyələnən gömrük prosedurları aiddir. Bu növ gömrük prosedurları müəyyən iqtisadi mənfəət müəyyənləşdirməklə malların yalnız ciddi müəyyən edilmiş məqsədlərlə istifadəsinə yol verir. Belə prosedurların tətbiqinə icazə yalnız nəzərdə tutulmuş əməliyyatların keçirilməsinin iqtisadi əsasları olduqda verilə bilər.

Gömrük prosedurlarının istifadəsinin hüquqi mexanizmi gömrük orqanlarına obyektiv olaraq kifayət qədər səlahiyyət verilməsini nəzərdə tutur. Bu ilk növbədə öz əksini gömrük orqanı tərəfindən konkret malın müəyyən edilmiş gömrük proseduru altında yerləşdirilməsi barədə qərar verməsində tapır. Başqa sözlə hər bir konkret halda xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin ümumi konsepsiyası baxımından bu əməliyyatın mümkünlüyü və məqsədəuyğunluğu nəzərə alınmaqla arzu edilən gömrük əməliyyatına icazə verilməsinə və ya icazə verilməsindən imtina edilməsinə qərar verir.

Tranzit xüsusi gömrük proseduru istisna olmaqla, icazə sahibi, prosedur sahibi, habelə sərbəst zonada malların saxlancı, istehsalı, emalı, alğı-satqısı ilə məşğul olan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada öz əməliyyatlarının uçotunu aparmalıdırlar.

Aparılan uçot gömrük orqanları tərəfindən müvafiq gömrük proseduruna, o cümlədən həmin gömrük proseduru altında yerləşdirilmiş malların eyniləşdirilməsinə, onların gömrük statusunun müəyyənləşdirilməsinə və daşınmasına nəzarətin həyata keçirilməsinə imkan yaratmalıdır.

Tranzit xüsusi gömrük prosedurundan başqa, xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar və ya emal olunmuş məhsullar növbəti gömrük proseduru altında yerləşdirildiyi, gömrük ərazisindən aparıldığı, tullantılar qalmadan məhv edildiyi və ya dövlətin xeyrinə imtina edildiyi zaman xüsusi gömrük proseduru başa çatır.

Tranzit xüsusi gömrük proseduru, göndərən gömrük orqanına və təyinat gömrük orqanına təqdim olunan məlumatların gömrük orqanları tərəfindən müqayisəsi əsasında onun düzgün yerinə yetirildiyi müəyyən edildikdən sonra başa çatır.

Xüsusi gömrük proseduru başa çatmadıqda, gömrük orqanları müvafiq mallarla bağlı vəziyyətin tənzimlənməsi üçün bütün lazımi tədbirləri həyata keçirirlər.

Tranzit xüsusi gömrük proseduru istisna olmaqla, digər xüsusi gömrük prosedurları altında yerləşdirilmiş mallarla əlaqədar prosedur sahibinin hüquqları və öhdəlikləri müvafiq gömrük proseduru üçün müəyyən edilmiş şərtlərə əməl edən digər şəxslərə də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada verilə bilər.

**2**. Gömrük Məcəlləsinin 164 maddəsinə görə daxili bazarda satılma, istifadə və ya istehlak üçün nəzərdə tutulan xarici mallar sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilir.

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru aşağıdakıları şərtlər daxilində həyata keçirilə bilər:

- qanunvericiliklə müəyyən olunmuş gömrük ödənişlərinin ödənilməsini;

- ticarət siyasəti tədbirlərinin tətbiqini;

Sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilən xarici mallar daxili mallar gömrük statusunu alırlar.

Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.(136)

**Təkrar idxal** - ixrac olunmuş mallar ixrac edildiyi vaxtdan 3 (üç) il ərzində eyni vəziyyətdə, yəni xarici ölkədə heç bir emala məruz qalmadan gömrük ərazisinə tam və bir hissəsi qaytarıldıqda, onların idxal gömrük rüsumlarından və vergilərdən tamamilə azad edilməklə və ticarət siyasəti tədbirləri tətbiq edilmədən, sərbəst dövriyyəyə buraxılışıdır. (165)

Malların gömrük ərazisinə qaytarılması onları aparmış şəxs tərəfindən deyil, başqa şəxs tərəfindən həyata keçirildiyi zaman gömrük orqanları malların təkrar idxalına DGK tərəfindən müəyyən edilmiş hallarda icazə verir.

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə onların ixracı zamanı geri qaytarılması ehtimalı barədə gömrük orqanlarına bildirib bildirilməməsindən asılı olmayaraq icazə verilir.

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə nəzarətin təmin edilməsi məqsədi ilə gömrük orqanlarının təkrar idxal olunan malların gömrük ərazisindən aparıldığı gömrük orqanına təqdim olunmasını tələb etmək hüququ vardır.

Daxili malların ixracı (127).

Gömrük ərazisindən kənarda daimi qalması üçün aparılan daxili mallar ixrac gömrük proseduru altında yerləşdirilir.

Ixrac gömrük proseduru altında yerləşdirilməsi aşağıdakı mallara tətbiq edilmir:

- son istifadə və ya xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara;

- daxili tranzit xüsusi gömrük proseduru altında yerləşdirilmiş və ya bu Məcəllənin 130-cu maddəsinə uyğun olaraq, gömrük ərazisindən müvəqqəti ixrac olunan mallara.

Xarici mallar gömrük ərazisindən aparıldıqda, gömrük orqanları onların ixrac rəsmiləşdirilməsini həyata keçirir və digər səlahiyyətli gömrük orqanlarına təqdim etmək üçün təkrar ixrac bildirişi verirlər.

Bu şərtlər aşağıdakı mallara tətbiq edilmir:

- gömrük ərazisindən beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək keçirilən mallara;

- sərbəst zona daxilində bir nəqliyyat vasitəsindən digərinə boşaldılıb yüklənmiş, yaxud sərbəst zonadan birbaşa təkrar ixrac edilən mallara;

- müvəqqəti saxlanc yerlərindən birbaşa təkrar ixrac edilən, müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara.

Təcrübədə malların təkrar ixracı ömrük prosedurunun iki tipindən istifadə edilir:

- bəyan edilmiş təkrar ixrac;
- faktiki təkrar ixrac.

Bəyan edilmiş təkrar ixracda mallar ilk dəfə Az-nın gömrük ərazisinə gətirilərkən, gömrük orqanlarına bilavasitə və yalnız təkrar ixrac üçün gətirildiyi bəyan edilir. Bu halda idxal rusum və vergiləri tutulmur, iqtisadi siyasət tədbirləri tətbiq edilmir.

Faktiki təkrar ixrac tipində Az-nın gömrük ərazisinə gətirilən malların təkrar ixrac üçün gətirilmiş olması bəyan edilmir. Onlar əvvəlcə digər gömrük prosedurları altında yerləşdirilə bilər, bir şərtlə ki, onlar xarici mallar olaraq qalırlar. Malların milli gömrük ərazisinə bu cür gətirilməsi zamanı gömrük rusum və vergiləri ödənilmişsə, bu məbləğlər təkrar ixrac zamanı aşağıdakı şərtlər daxilində geri qaytarılır:

- təkrar ixrac olunan mallar, təbii aşınma və normal şəraitdə daşınma zamanı ola biləcək təbii itkilər nəzərə alınmaqla, gətirilmə anındakı halda olmalıdır;
- təkrar ixrac gətirilmə anından keçən iki il müdətində həyata keçirilməlidir;
- təkrar ixrac edilən mallar qazanc məqsədi ilə istifadə edilməmiş olmalıdır.

Adətən, təkrar ixraca icazə gömrük ödənclərinin, mal və nəqliyyat vasitələrinin girov qoyulması, bank və digər kredit təşkilatlarının zəmanəti, tələb olunan məbləğin depozitə qoyulması yolu ilə ödənilməsinin təmin edilməsi şərti ilə verilir.

Az-nın gömrük ərazisinə gətirilən, gömrük rəsmiləşdirilməsi zamanı təkrar ixrac məqsədləri üçün gətirildiyi bəyan edilən malların təkrar ixrac gömrük proseduru altında yerləşdirilməsinə aşağıdakı tələblərə riayət edilməsi şərti ilə icazə verilə bilər:

-malların bilavasitə və yalnız təkrar ixrac məqsədi ilə gətirildiyini təsdiq edən müqavilələrin gömrük orqanına təqdim edilməsi (iki xarici ticarət kontraktı- idxal və ixrac üçün);

- maraqlı şəxsin malların gömrük ərazisindən çıxarılacağı barədə öhdəliyi;

- təkrar ixrac məqsədi ilə malları gətirən təşkilatın həmin malların müəyyən edilən müddətdə çıxarılacağı, malların Az-nın gömrük ərazisində qalacağı təqdirdə tələb edilən rüsum və vergilərin ödəniləcəyi barədə zamənət məktubunun gömrük orqanına təqdim edilməsi(zəmanət öhdəliyi forması əlavə edilir).

Təkrar ixrac məqsədi ilə gətirilməsi bəyan edilmiş mallar, onların təcili aparılması mümkün olmayan hallarda – yalnız gömrük anbarlarında və gömrük anbarı prosedurunun tələbləri yerinə yetirilməklə saxlanıla bilər. Təkrar ixrac məqsədilə gətirilmiş malların gömrük rəsmiləşdirilməsi zamanı malı gətirən şəxs müvafiq gömrük orqanına müraciət etməlidir. Az-can R-nın gömrük ərazisinə təkrar ixrac üçün gətirilmiş malların bu ərazinin hüdudlarından kənara aparılması DGK tərəfindən "İcazə vərəqəsi" verildikdən sonra rəsmiləşdirilir.

"İcazə vərəqəsi" almaq üçün DGK-nə edilmiş müraciətlə birgə aşağıdakı sənədlər təqdim edilməlidir:

- təkrar ixrac məqsədilə gətirilmiş malların idxal yük-gömrük bəyannaməsi;
- yol-nəqliyyat sənədləri (qaimə);
- invoys;
- bağlanmış müqavilə;
- malın keyfiyyət və mənşə sertifikatları;
- malın dəyərinin qabaqcadan ödənilməsi və ya akkreditiv açılması barədə bank sənədi;
- təkrar ixrac məqsədilə gətirilmiş malı rəsmiləşdirilmiş gömrük əməkdaşının şəxsi nöməli möhürü ilə təsdiq olunmuş yazılı rəyi;
- malların təkrar ixracına icazə verilməsi üçün lazım olan digər sənədlər.

Sərbəst dövriyyəyə buraxılışından 1 (bir) il ərzində gömrük ərazisindən təkrar ixrac olunan mallar müvafiq icra hakimiyyəti orqanının (Nazirlər Kabineti) müəyyən etdiyi şərtlərə cavab verdikdə, həmin malların idxalı üçün ödənilmiş gömrük rüsumları və vergilər qaytarılır.

Malların təkrar ixrac gömrük proseduru altında yerləşdirilməsi qaydalarını Nazirlər Kabineti müəyyən edir.

Gömrük ərazisindən malların aparılması üçün gömrük bəyannaməsi və ya təkrar ixrac bildirişinin tələb olunmadığı hallarda gömrük orqanlarına qısa ixrac bəyannaməsi təqdim edilməlidir.

Riskin təhlili və gömrük nəzarətinin düzgün tətbiqi üçün zəruri olan məlumatları özündə əks etdirən qısa ixrac bəyannaməsinin formasını və təqdim olunması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Qısa ixrac bəyannaməsi məlumatların elektron emalı üsulundan istifadə olunmaqla, elektron sənəd formasında təqdim edilir.

Qısa ixrac bəyannaməsi gömrük orqanlarına kağız üzərində yazılı formada da təqdim edilə bilər. Həmin bəyannamə risklərin idarə olunmasını, məlumatların gömrük orqanları arasında mübadiləsini elektron formada verilən qısa ixrac bəyannaməsinə analoji səviyyədə təmin etməsi şərti ilə gömrük orqanları tərəfindən təsdiq olunur.

Qısa ixrac bəyannaməsi aşağıdakı şəxslərdən biri tərəfindən təqdim edilə bilər:

- malları gömrük ərazisindən aparan və ya onun daşınmasına görə cavabdeh olan şəxs;

- malları ixrac edən və ya göndərən, yaxud bu şəxsin adından çıxış edən digər şəxs;

- malları səlahiyyətli gömrük orqanına təqdim edən və ya təqdim etməli olan istənilən şəxs.

Müvəqqəti ixrac

Təkrar idxal üçün nəzərdə tutulmuş daxili mallar müvəqqəti ixrac proseduru altında yerləşdirilir. Bu mallardan Gömrük Məcəlləsində nəzərdə tutulmuş qaydalara uyğun olaraq gömrük rüsumlarından və vergilərdən tamamilə, yaxud qismən azad edilməklə, habelə ticarət siyasəti tədbirləri tətbiq edilmədən gömrük ərazisindən kənarda istifadə olunur.

Malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi qaydalarını Gömrük Məcəllənin tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Həmin qaydalarda malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi şərtləri, onların bu prosedur altında qalma müddəti müəyyən edilməlidir.

Müvəqqəti idxal (ixrac) proseduru elə tələblər müəyyən edir ki, onlara riayət edilməsi xarici malların Az-can gömrk ərazisində, Az-can mallarının isə ondan kənarda müvəqqəti istifadəsinə, iqtisadi siyasət tədbirləri tətbiq etmədən və gömrük rüsum və vergiləri ödəmədən yol verilmiş olsun.

Müvəqqəti idxalın (ixracın) müstəril gömrük proseduru kimi əhəmiyyəti beynəlxalq əməkdaşlığın ticarət və digər formalarının inkişafına olan tələblərlə müəyyən edilir.

Bu gömrük proseduru altında yerləşdirilmiş malların statusu və eləcə də prosedurunun məzmunu, malların gömrük ərazisində və kənarda yerləşməsi və istifadəsinin müvəqqəti xarakteri ilə müəyyən edilir. Həmçinin müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsum və vergilərindən tamamilə və ya qismən azad edilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu hal təbii olaraq baxılan prosedurunun tətbiq edilməsi sahəsinə müəyyən sərhədlər qoyulmasını tələb edir. Elə sərhədlər ki, onlardan kənarda prosedurunun tətbiqi ölkə iqtisadiyyatı üçün mənfi nəticələrə gətirib çıxara bilər. Belə ki, xarici malların gömrük ərazisinə, hətta zamanla məhdudlaşdırılmış buraxılışı, məsələn, emal əməliyyatlarında istehsal vasitələri və ya komplektləşdirici kimi istifadə edilməsi –

istehsalçıların mənafeyinə zərbə vuraraq iqtisadiyat daxilikonyunkturaya his olunacadərəcəə təsir göstərə bilər.

Belə əməliyyatların aparılması qanunvericiliklə qadağan olunmur. Lakin onlar bu iş üçün məxsusi müəyyən edilmiş prosedu – emal prosedurunun çərçivəsində nəzərdə tutulur.

Müvəqqəti idxal (ixrac) prosedurlarının tətbiqi müəyyən güzəştlər verməklə, xarici ölkələrlə iqtisadi, mədəni, qumanitar əlaqələrin inkişafı üçün əsaslandırılmamış əngəlləri aradan qaldırmağa imkan verir. Eyni zamanda milli iqtisadiyyatın müdafiəsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi məsələləri bu prosedurundan istifadə edilməsinin dəqiq hüquqi qəliblərinin (модель) müəyyən edilməsini tələb edir.

Təbii aşınma və ya mallardan istifadə edilməsi nəticəsində dəyişikliklər, habelə normal şəraitdə daşınma və saxlanc itkiləri istisna edilməklə, müvəqqəti idxal (ixrac) edilən mallar dəyişməz halda geri qaytarılmalıdır. Nazirlər Kabineti:

- müvəqqəti idxala (ixracına) icazə veriməyən malların kateqoriyalarını;

- müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsumları və vergilərinin ödənilməsindən tamamilə və ya qismən azad edilməsi qaydalarını müəyyən edir.

DGK bu prosedur üzrə aşağıdakı səlahiyyətləri yerinə yetirir:

-geri aparılma barədə öhdəliklər verilməsi və gömrük ödənclərinin ödənilməsinin təmin edilməsi hallarını müəyyən edir;

- müvəqqəti idxal (ixrac) əməliyyatlarına icazə verilməsi qaydalarını müəyyən edir;

-bəzi kateqoriyalı mallar üçün müvəqqəti idxalın (ixracın) hüdud müddətlərini dəyişdirir.

Gömrük Məcəlləsinə görə müvəqqəti idxalın (ixracın) müddəti iki ildən artıq olmamalıdır. Gömrük orqanları malların bu gömrük prosedurun altında yerləşdirilməsinə icazə verərkən, konkret müddət müəyyən edir. Bu müddət ərzində mallar onlarn daşınmaında məqsədləri və şəraiti nəzərə alınmaqla, müvəqqəti olaraq gömrük ərazisində (ya ondan kənarda) qala bilərlər. Bununla belə müvəqqəti idxal (ixrac) üçün müddətin uzadılması imkanı nəzərdə tutulur. Müddətin uzadılması qaydası DGK tərəfindən müəyyən olunur. Ayrı-ayrı mal kateqoriyaları üçün daha az və daha çox müddət müəyyən edələ bilər.

Gömrük Məcəlləsi müvəqqəti idxal (ixrac) prosedurunun iki tipini müəyyən edir: gömrük rüsum və vergilərindən tam azad edilməklə və qismən azad edilməklə tətbiq edilən gömrük proseduru.

Müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsum və vergilərindən qismən azad edilməsinin mexanizmi aşağıdakıları nəzərdə tutur:

-hər ay (natamam ay) ümumi məbləğin, yəni, əgərmüvəqqəti idxal proseduru ilə rəsmiləşdirilmiş mal sərbəst dövriyyə üçün buraxılma gömrük proseduru altında yerləşdirildiyi zaman olsaydı, benefisiarın ödəməlu olduğu gömrük rüsum və vergilərinin yekun miqdarının 3 faizi qədər (dövri ödənc) ödənilir;

-göstərilən məbləğ idxal (ixrac) gününə qüvvədə olan vergiqoyma stavkalarına əsasən müəyyən edilir;

müəyyən edilmiş gömrük ödəncləri ödənc gününə olan kursa görə ABŞ dolları ilə hesablnır və qabaqcadan, müvəqqəti idxala (ixraca) icazə verən gömrük orqanının müəyən etdiyi müddətdə, lakin 3 aydan artıq olmayaraq, ödənilir;

-dövri ödənilən (hər ay 3 faiz) gömrük ödəncləri müəyyən müddətdən sonra sərbəst dövriyyəyə buraxılış gömrük proseduru üçün nəzərdə tutulmuş ödənclərin məbləği ilə bərabərləşsə və əgər. müvəqqəti idxal (ixrac) prosedurunda rəsmiləşdirilmiş mallar iqtisadi siyasət tədbirləri tətbiq edilməsi nəzərdə tutulmursa, həmin mallar avtomatik olaraq sərbəst dövriyyə üçün buraxılmış sayılır;

-dövri gömrük ödənclərinin ödənilməsinə görə məsuliyyəti malları gətirən (aparan) şəxs daşıyır.

Gömrük Məcəlləsi müvəqqəti idxal (ixrac) prosedurunun tətbiqinin icazəvermə qaydasını müəyyən edir. Həmcinin mühüm əhəmiyyə kəsb edən məhdudlaşdırma tədbiri müəyyən edilir: malların eyniləşdirilməsini təmin etmək mümkün olmadıqda, bu prosedurun tətbiqinə icazə verilmir.

**3.** Beynəlxalq tranzit (174) xüsusi gömrük proseduru xarici malların gömrük rüsumları, əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan gömrük nəzarəti altında bir yerdən başqa yerə daşınmasıdır.

Malların beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək daşınması aşağıdakı qaydada həyata keçirilir:

- malların daşınması gömrük ərazisindən kənarda başlanır, yaxud başa çatır;

- malların daşınması gömrük ərazisinin iki məntəqəsi arasında gömrük ərazisindən kənar ərazidən keçməklə baş verir.

Yuxarda qeyd edilən daşınma aşağıda göstərilənlər əsasında həyata keçirilir:

- beynəlxalq tranzit xüsusi gömrük proseduru;

- beynəlxalq gömrük tranziti üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr;

- mallar Ümumdünya Poçt İttifaqının Aktları əsasında hüquqlara malik olan və öhdəliklər daşıyan subyektlər (poçt rabitəsi operatorları) tərəfindən və ya onlar üçün beynəlxalq poçt göndərişlərinin daşınmasında vasitəçilik edən şəxslər tərəfindən daşındığı halda, bu aktlara müvafiq olaraq beynəlxalq poçt göndərişlərinin mübadiləsi sistemi.

Daxili malların beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilməsi hallarını və şərtlərini Nazirlər Kabineti müəyyənləşdirir.

Xarici dövlətlərin və beynəlxalq təşkilatların rezidentlərin mənafeyinə zərər vuran ayrı-seçkilik və digər iqtisadi siyasət tədbirlərinə cavab kimi, müvafiq icra hakimiyyəti orqanı həmin dövlətlərin və müvafiq beynəlxalq təşkilatlara daxil olan dövlətlərin mallarının gömrük ərazisindən beynəlxalq tranzitinə qadağalar və məhdudiyyətlər tətbiq edə bilər.

Malların beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək daşınması gömrük orqanlarının icazəsi əsasında həyata keçirilir.

Daxili tranzit (175) xüsusi gömrük proseduru daxili malların statusunu dəyişmədən gömrük ərazisinin bir yerindən başqa yerinə daşınmasıdır. Qeyd edilən daşınma poçt sistemi daxilində daşınan mallara da şamil edilir.

Malların daxili tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək daşınması gömrük orqanlarının icazəsi ilə həyata keçirilir.

**4.** Saxlanc xüsusi gömrük prosedurunun (176) əhatə dairəsi.

Saxlanc xüsusi gömrük proseduru müvəqqəti saxlanc və gömrük anbarı prosedurlarından ibarətdir. Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Xarici mallar saxlanc xüsusi gömrük proseduru altında idxal gömrük rüsumları, idxal üzrə əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan gömrük və müvəqqəti saxlanc anbarlarında gömrük nəzarəti altında yerləşdirilir.

Daxili mallar da gömrük qanunvericiliyinə müvafiq olaraq gömrük anbarı proseduru və ya sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirilə bilər.

Daxili malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirildiyi halları və şərtləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Saxlanc xüsusi gömrük prosedurunun sahibi aşağıdakılara görə cavabdehdir:

- müvəqqəti saxlanc və ya gömrük anbarı xüsusi gömrük prosedurları altında yerləşdirilmiş malların gömrük nəzarətindən yayındırılmasına;

- malların saxlancından irəli gələn öhdəliklərinin yerinə yetirilməməsinə;

- gömrük və ya müvəqqəti saxlanc anbarlarının təsisi ilə əlaqədar verilmiş lisenziyada müəyyən edilən şərtlərə əməl edilməməsinə.

Prosedur sahibi malların müvəqqəti saxlanc və ya gömrük anbarı xüsusi gömrük prosedurları altında yerləşdirilməsindən irəli gələn öhdəliklərini yerinə yetirməməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Müvəqqəti saxlanc xüsusi gömrük proseduru (178).

Başqa gömrük proseduru altında yerləşdirilməsi üçün bəyan edilmə halları istisna olmaqla, mal sahibi tərəfindən gömrük orqanlarına təqdim edilmiş aşağıdakı xarici mallar onun tərəfindən müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilərək bəyan edilir:

- sərbəst zonaya  birbaşa gətirilmə istisna olmaqla, gömrük ərazisinə gətirilən mallar;

- sərbəst zonadan gömrük  ərazisinin digər hissəsinə gətirilən mallar;

- barəsində beynəlxalq  tranzit xüsusi gömrük proseduru başa çatmış mallar.

Malların müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi üçün gömrük orqanları tərəfindən gömrük bəyannaməsi kimi qısa idxal bəyannaməsi və ya onu əvəz edən tranzit sənədi qəbul edilir.

Gömrük orqanları prosedur sahibindən yarana biləcək gömrük borcuna görə təminat tələb etmək hüququna malikdirlər.

Malları müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirmək və ya həmin prosedur altında saxlamaq mümkün olmadıqda, gömrük orqanları mallarla bağlı vəziyyəti tənzimləmək  üçün təxirə salınmadan bütün zəruri tədbirləri həyata keçirirlər.

Malların müvəqqəti saxlanc gömrük proseduru altında qalma  müddəti onların və istifadə olunan nəqliyyat vasitəsinin xüsusiyyətləri nəzərə alınmaqla, gömrük bəyannaməsinin təqdim olunması üçün lazım olan vaxt nəzərə alınmaqla gömrük orqanı tərəfindən müəyyən edilir. Prosedur sahibinin  əsaslandırılmış müraciəti olduqda, gömrük

orqanı həmin müddəti Gömrük Məcəllənin maddələrində göstərilən müddət çərçivəsində uzadır.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrı-ayrı malların xassələrindən və xüsusiyyətlərindən asılı olaraq daha qısa müddət müəyyən edildiyi hallar istisna olmaqla, malların müvəqqəti saxlanc gömrük proseduru altında qalma müddəti 4 (dörd) aydan çox olmamalıdır.

Mallar müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatanadək başqa gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilməli və ya gömrük anbarında yerləşdirilməlidir.

Müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilən malların mövcud vəziyyətdə qalmasını təmin etmək üçün onlar adi əməliyyatlara məruz qala bilərlər. Belə hallarda malların xarici görünüşünün və texniki göstəricilərinin dəyişdirilməsinə yol verilmir.

Müvəqqəti saxlanc anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair tələbləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Xarici mallar gömrük anbarı (181) xüsusi gömrük proseduru altında müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş lisenziyası olan şəxslərin gömrük anbarlarında gömrük orqanlarının nəzarəti ilə yerləşdirilə və saxlanıla bilər.

Gömrük anbarı istənilən şəxs tərəfindən istifadə edilə bilən açıq tipli və ya müəyyən malların saxlanılması üçün nəzərdə tutulan qapalı tipli ola bilər.

Başqa mallara ziyan vura bilən və ya xüsusi saxlanc şəraiti tələb olunan mallar anbarın xüsusi avadanlıqla təchiz edilmiş yerlərində saxlanmalıdır.

Gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar gömrük anbarından müvəqqəti çıxarıla bilər. Fors-major halları istisna edilməklə, həmin malların gömrük anbarından müvəqqəti çıxarılılması üçün gömrük orqanlarının icazəsi tələb olunur.

Gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair tələbləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada gömrük anbarında aşağıdakıların həyata keçirilməsinə icazə verirlər:

- daxili malların saxlancına;

- malların daxildə emal və ya ***son istifadə*** xüsusi gömrük prosedurları altında yerləşdirilərək, həmin prosedurlar üçün müəyyən edilmiş şərtlərə uyğun olaraq emalına.

Mallar gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilərək 3 (üç il) müddətində saxlanıla bilər.

Müvafiq icra hakimiyyəti orqanı bu müddəti malların ayrı-ayrı kateqoriyaları üzrə məhdudlaşdıra bilər.

Bu müddət başa çatanadək mallar başqa gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilməlidir. Bu müddət başa çatdıqdan sonra qeyd olunan tələb yerinə yetirilmədikdə, həmin mallar barəsində müəyyən edilmiş qaydada sərəncam verilir.

Gömrük anbarında saxlanc müddəti başa çatmış malların və nəqliyyat vasitələrinin Gömrük Məcəlləyə uyğun olaraq satışından əldə edilən məbləğ onların daşınması, saxlancı və satışı ilə bağlı xərclər və ödənilməli olan gömrük ödənişləri çıxıldıqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada mal sahibinə verilir.

5. Sərbəst zonanın müəyyən edilməsi (184).

Müvafiq icra hakimiyyəti orqanı (Az R-nın Prezidenti) gömrük ərazisində sərbəst zona yarada və ləğv edə bilər.

Az R-nın Prezidenti hər bir sərbəst zonanın sahəsini, onun giriş və çıxış məntəqələrini müəyyənləşdirir.

Sərbəst zona qapalı olmalıdır. Onun sahəsinin perimetrləri, giriş və çıxış məntəqələri gömrük orqanlarının nəzarəti altında olur.

Sərbəst zonaya daxil olan və oranı tərk edən şəxslər, mallar və nəqliyyat vasitələri Gömrük Məcəllədə və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada gömrük nəzarətindən keçməlidirlər. Gömrük orqanlarının icazəsi əsasında sərbəst zonaya gətirilmiş mallarla adi əməliyyatlar, o cümlədən onların qorunması, qablaşdırılması, keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə qablaşdırma yerlərinin qruplaşdırılması, çeşidlənməsi, markalanması və yenidən qablaşdırılması həyata keçirilə bilər.

Sərbəst zonada tikinti işləri gömrük orqanlarının icazəsi ilə aparılır. Sərbəst zonada kommersiya və digər fəaliyyət növləri gömrük orqanlarına müəyyən edilmiş formada əvvəlcədən məlumat verilməklə, onların icazəsi ilə həyata keçirilir.

Az R-nın Prezidenti malların xassələrini və xüsusiyyətlərini, gömrük nəzarətinin tələblərini, təhlükəsizlik və mühafizə tədbirlərini nəzərə almaqla, müəyyən fəaliyyət növlərinə qadağa və məhdudiyyətlər müəyyən edə bilər.

Sərbəst zonaya gətirilmiş mallar aşağıdakı hallarda gömrük orqanlarına təqdim edilir və müvafiq gömrük rəsmiləşdirilməsindən keçirilir:

- gömrük ərazisindən kənar yerdən birbaşa sərbəst zonaya gətirildikdə;

- digər xüsusi gömrük prosedurları altında yerləşdirilməsi başa çatan mallar sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirildikdə;

- idxal gömrük rüsumlarının qaytarılmasına və ya həmin rüsumların ödənilməsindən azad edilməyə əsas vermiş qərarın tətbiqi məqsədi ilə sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirildikdə.

Daxili mallar sərbəst zonaya gətirilə, orada saxlanıla, daşına, istifadə və emal oluna, habelə istehlak edilə bilərlər. Belə hallarda mallar sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirilmiş hesab edilmir.Yuxarda qeyd olunmuş hallar istisna edilməklə, sərbəst zonaya gətirilən mallar aşağıda göstərilən vaxtdan sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirilmiş hesab edilir:

- mallar sərbəst zonaya daxili olduğu vaxtdan, əgər onlar artıq digər gömrük proseduru altında yerləşdirilməyibsə;

- tranzit proseduru başa çatdığı vaxtdan, əgər mallar dərhal növbəti gömrük proseduru altında yerləşdirilməyibsə.

Malların sərbəst zona xüsusi gömrük proseduru altında qalması müddəti məhdudlaşdırılmır.

Şəxslərin müraciəti əsasında gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aşağıdakı malların daxili mallar gömrük statusunu təsdiq edirlər:

- sərbəst zonaya gətirilən daxili malların;

- sərbəst zona daxilində emal əməliyyatlarına məruz qalmış daxili malların;

- sərbəst zona daxilində sərbəst dövriyyəyə buraxılmış malların.

Xarici mallar sərbəst zonada olduğu müddətdə sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru, daxildə emal, müvəqqəti idxal və ya son istifadə xüsusi gömrük prosedurları altında yerləşdirilə bilər. Belə hallarda mallar sərbəst zona xüsusi gömrük proseduru altında yerləşdirilmiş hesab edilmir.

Sərbəst zonada yerləşən mallar gömrük ərazisindən ixrac və təkrar ixrac edilə və ya gömrük ərazisinin digər hissəsinə gətirilə bilər.

Mallar sərbəst zonadan gömrük ərazisinin digər hissəsinə gətirildikdə və ya başqa gömrük proseduru altında yerləşdirildikdə, onların daxili statusu Gömrük Məcəllənin maddələrinə müvafiq olaraq və ya qanunvericiliklə müəyyənləşdirilmiş hər hansı sənədlə təsdiq edilənədək xarici mallar hesab edilir.

Qanunvericilik aktları ilə nəzərdə tutulmuş hallarda ixrac gömrük rüsumlarının alınması və ya malların ixracı ilə bağlı ticarət siyasəti tədbirlərin tətbiq edilməsi məqsədi ilə mallar, onların daxili statusunun olmadığı müəyyənləşdirilənə qədər, daxili mallar hesab edilir.

Sərbəst zona ləğv edildikdə, şəxslərə malların gömrük ərazisində yerləşən digər sərbəst zonaya aparılması və ya başqa gömrük proseduru altında yerləşdirilməsi üçün kifayət qədər vaxt verilməlidir.

**6.** Müvəqqəti idxal xüsusi gömrük proseduru və onun əhatə dairəsi. (192).

Təkrar ixrac üçün nəzərdə tutulmuş xarici mallar müvəqqəti idxal proseduru altında yerləşdirilir. Bu mallardan Gömrük Məcəlləsində nəzərdə tutulmuş qaydalara uyğun olaraq gömrük rüsumlarından və vergilərdən tamamilə, yaxud qismən azad olunmaqla, habelə ticarət siyasəti tədbirləri tətbiq edilmədən gömrük ərazisində istifadə olunur.

Mallar Gömrük Məcəlləsində nəzərdə tutulmuş qaydalara uyğun olaraq gömrük rüsumlarından tamamilə azad olunduğu halda, onlar həmçinin, əlavə dəyər vergisindən və aksizlərdən də azad edilirlər.

Müvəqqəti idxal xüsusi gömrük prosedurundan yalnız aşağıdakı şərtlər daxilində istifadə olunur:

- müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallardan normal istifadə nəticəsində baş verən dəyişikliklər istisna olmaqla, onların hər hansı başqa dəyişikliyə məruz qalması nəzərdə tutulmadıqda;

- müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar təkrar ixrac edildiyi zaman, onların eyniləşdirilməsini təmin etmək mümkün olduqda;

- gömrük qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, prosedur sahibi gömrük ərazisindən kənarda təsis edildikdə.

Malların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Həmin qaydalarda beynəlxalq müqavilələrin müddəaları, malların xassələri və xüsusiyyətləri, onlardan istifadə şərtləri nəzərə alınmalıdır.

Müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların təkrar ixracının və ya növbəti gömrük proseduru altında yerləşdirilməsinin müddətini gömrük orqanları müəyyənləşdirirlər. Bu müddət müvəqqəti idxal xüsusi gömrük prosedurunun məqsədi üçün kifayət qədər olmalıdır.

Malların eyni məqsəd üçün və eyni şəxsin məsuliyyəti altında olmaqla, müvəqqəti idxal proseduru altında yerləşdirilə biləcəyi maksimum müddət 24 (iyirmi dörd) ay təşkil edir. Müvafiq icra hakimiyyəti orqanı müxtəlif kateqoriyadan olan mallar üçün daha az və daha çox müvəqqəti idxal müddətləri müəyyən edə bilər.

Şəxs göstərilən müddət ərzində müvəqqəti idxal xüsusi gömrük prosedurunun məqsədinə nail olmadıqda, gömrük orqanları onun əsaslandırılmış müraciəti üzrə həmin müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada 12 (on iki) aya qədər uzadır.

Nəzərdə tutulmuş müddət başa çatanadək, müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar təkrar ixrac edilməli və ya başqa gömrük proseduru altında yerləşdirilməlidir.

Gömrük rüsumlarından və vergilərdən qismən azad edilməklə müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara tətbiq olunan gömrük rüsumları və vergilər üzrə aylıq ödənişlərin məbləği, onların müvəqqəti idxal proseduru altında yerləşdirildiyi tarixdə sərbəst dövriyyəyə buraxılışı üçün ödənilməli olan gömrük rüsumlarının və vergilərin məbləğinin 3 (üç) faizi miqdarında müəyyən edilir.

Gömrük rüsumlarından, vergilərdən qismən azad edilməklə müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara görə alınan gömrük rüsumlarının və vergilərin ümumi məbləği, onların müvəqqəti idxal proseduru altında yerləşdirildiyi tarixdə sərbəst dövriyyəyə buraxılışı üçün ödənilməli olan gömrük rüsumlarının, vergilərin məbləğindən artıq olmamalıdır.

Müvəqqəti idxal edilən malların gömrük rüsumlarından və vergilərdən tamamilə və ya qismən azad edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

***Son istifadə xüsusi gömrük proseduru (195).***

Son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar bu prosedurun məqsədinə uyğun olaraq gömrük rüsumlarından və vergilərdən azad edilməklə sərbəst dövriyyəyə buraxılır. Bu zaman həmin mallar gömrük nəzarəti altında qalır.

Son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar üzərində gömrük nəzarəti aşağıdakı hallarda başa çatır:

- mallar gömrük rüsumlarından və vergilərdən azad edilmənin tətbiqi üçün qanunvericiliklə müəyyən edilmiş məqsədlərə istifadə olunduqda;

- mallar ixrac və ya məhv edildikdə, yaxud onlardan dövlətin xeyrinə imtina olunduqda;

-. mallardan gömrük rüsumlarından və vergilərdən azad olunmanın məqsədləri üçün istifadə edilmədiyi aşkar olunduqda və bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş gömrük rüsumları və vergilər tam ödənildikdə;

- mallar gömrük idxal rüsumları, vergilər alınmadan və ticarət siyasəti tədbirləri tətbiq edilmədən gömrük ərazisində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi yerlərdə (beynəlxalq hava və dəniz limanlarında və başqa yerlərdə) və qaydada yaradılan və fəaliyyət göstərən rüsumsuz ticarət mağazalarında gömrük nəzarəti altında satıldıqda.

Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını Nazirlər kabineti müəyyən edir.

**7.** EMAL

Gömrük orqanları emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat normasını və ya orta hasilat normasını müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydada müəyyənləşdirirlər.

Hasilat norması və ya orta hasilat norması emal əməliyyatlarının həyata keçirildiyi və ya həyata keçirilməli olduğu faktiki şərait əsasında müəyyənləşdirilir.

Daxildə emal xüsusi gömrük proseduru və onun əhatə dairəsi.

Daxildə emal proseduru altında yerləşdirilən xarici mallar aşağıda göstərilənlər tətbiq olunmadan gömrük ərazisində bir və ya bir neçə emal əməliyyatında istifadə edilir:

- idxal gömrük rüsumları;

- malların idxalı üzrə qanunvericilikdə nəzərdə tutulmuş əlavə dəyər vergisi və aksizlər;

- ticarət siyasəti tədbirləri.

Malların təmiri və məhv etmə halları istisna olmaqla, daxildə emal prosedurundan yalnız o halda istifadə etmək olar ki, istehsal materiallarından istifadə edilməsinə

baxmayaraq daxildə emal proseduru altında yerləşdirilmiş malları emal məhsulları ilə eyniləşdirmək mümkün olsun.

Aşağıda göstərilən mallar da daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilə bilər:

- sərbəst dövriyyə üçün buraxılış gömrük prosedurunun texniki şərtlərinə uyğunluğunun təmin edilməsi məqsədi ilə emal əməliyyatlarına məruz qalmalı olan mallar;

- bu malların qorunması, xarici görünüşünün və keyfiyyətinin yaxşılaşdırılması, satış və daşınma üçün hazırlanması məqsədi ilə adi işləmə formalarına məruz qalmalı olan mallar.

Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük orqanı daxildə emal xüsusi gömrük prosedurunun başa çatma müddətini müəyyənləşdirir. Bu müddət 2 (iki) ildən artıq olmamalıdır.

Bu müddət xarici malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirildiyi tarixindən başlayır və emal əməliyyatlarının, habelə bu prosedurun başa çatdırılması üçün tələb edilən vaxtı əhatə edir.

Şəxsin əsaslandırılmış müraciəti olduqda, gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada bu müddətin uzadılması barədə qərar qəbul edir. Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi üçün gömrük orqanlarının verdiyi icazədə onun başlama və sona çatma müddətləri göstərilməlidir.

Gömrük orqanının verdiyi icazəyə uyğun olaraq daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar, yaxud onların bir hissəsi, habelə emal edilmiş

məhsullar emalı davam etmək məqsədi ilə xaricdə emal xüsusi gömrük prosedurunun şərtlərinə müvafiq olaraq gömrük ərazisindən kənara müvəqqəti təkrar ixrac edilə bilər.

Xaricdə emal xüsusi gömrük proseduru və onun əhatə dairəsi (200).

Xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilən daxili mallar emal üçün gömrük ərazisindən müvəqqəti ixrac edilir. Bu mallardan əldə edilən emal məhsulları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada idxal gömrük rüsumlarından və vergilərdən tam və ya qismən azad edilməklə sərbəst dövriyyəyə buraxılır.

Aşağıdakı daxili malların xaricdə emalına icazə verilmir:

- ixracı idxal gömrük rüsumlarının və vergilərin geriyə qaytarılmasına və ya qanunvericilikdə nəzərdə tutulmuş hallarda onlardan azad olunması ilə nəticələnə biləcək mallar;

- təmiri üzrə əməliyyatların aparıldığı hallar istisna olmaqla, ixracdan əvvəl son istifadə ilə əlaqədar gömrük rüsumlarından və vergilərdən tam və ya qismən azad edilməklə sərbəst dövriyyəyə buraxılmış mallar;

-. ixrac edilməsi ixrac üzrə gömrük ödənişlərinin geriyə qaytarılması ilə nəticələnən mallar.

Ödənişsiz təmir edilmiş mallar və əvəzləyici məhsullar kateqoriyasına aid etmədiyi və advalor gömrük rüsumunun tətbiq edildiyi hallarda idxal gömrük rüsumlarının və vergilərin məbləği gömrük ərazisindən kənarda həyata keçirilmiş emal əməliyyatlarına çəkilən xərclər əsasında hesablanır. Bu hesablamanın aparılması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük orqanı müvəqqəti ixrac edilmiş malların emal olunduqdan sonra gömrük ərazisinə təkrar idxal edilərək, sərbəst dövriyyəyə buraxılması müddətini müəyyən edir. Bu müddət 2 (iki) ildən artıq olmamalıdır. Mallar bu müddət ərzində təkrar idxal

edildikdə, idxal gömrük rüsumlarından və vergilərdən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tamamilə və ya qismən azad olunurlar. Prosedur sahibinin əsaslandırılmış müraciəti olduqda, bu müddət növbəti 1 (bir) ilədək uzadılır. Malların xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Xaricdə emal edilərək gömrük ərazisinə qaytarılan malların müqavilədən irəli gələn zəmanət öhdəlikləri, yaxud istehsal və ya material qüsurları ilə əlaqədar gömrük ərazisindən kənarda ödənişsiz təmir edildiyi müvafiq sənədlərlə təsdiq edildikdə, onlar idxal gömrük rüsumlarından və vergilərdən tam azad edirlər.

Standart mübadilə sistemi çərçivəsində idxal edilmiş məhsul (əvəzləyici məhsul), Gömrük Məcəllənin maddələrinə müvafiq olaraq emal məhsulunu əvəz edə bilər.

Gömrük orqanları standart mübadilə sistemindən istifadəyə emal əməliyyatları qüsurlu daxili malların təmiri ilə əlaqədar olduğu hallarda icazə verirlər.

Əvəzləyici məhsullar təmirə məruz qalan qüsurlu mallarla eyni keyfiyyətə, eyni texniki göstəricilərə və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə eyni rəqəmli koda malik olmalıdırlar. Qüsurlu mallardan ixracdan əvvəl istifadədə olunmuşdursa, əvəzləyici məhsullar da istifadə edilmiş olmalıdırlar.

Əvəzləyici məhsul qanundan irəli gələn öhdəliklər, müqavilədən irəli gələn zəmanət öhdəlikləri, yaxud istehsal və ya material qüsurları ilə əlaqədar olaraq ödənişsiz təmir edilmişdirsə, gömrük orqanları yuxarda qeyd olunan tələbdən imtina edirlər.

Emal edilmiş məhsullara tətbiq olunması nəzərdə tutulan müddəalar əvəzləyici məhsullara da şamil edilir. Qüsurlu malların ixrac edilməsindən əvvəl əvəzləyici məhsulların idxal edilməsinə şəxsin müraciəti əsasında, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada icazə verilir. Bu halda şəxsdən göstərilən miqdarda təminat alınır.

Qüsurlu məhsullar əvəzləyici məhsulların sərbəst dövriyyəyə buraxılması üçün verilmiş bəyannamənin gömrük orqanları tərəfindən təsdiq edildiyi tarixdən sonrakı 2 (iki) ay müddətində ixrac edilməlidir. Qüsurlu məhsullar göstərilmiş müddət ərzində üzrlü səbəblərə görə ixrac edilə bilmədikdə, gömrük orqanları şəxsin əsaslandırılmış müraciəti ilə bu müddəti 2 (iki) ayadək artırırlar.

Maddə 167. İcazələrin və lisenziyaların verilməsi

Malların emal və ya xüsusi istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada verilən gömrük orqanının icazəsi ilə həyata keçirilir.

Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi müvafiq icra hakimiyyəti orqanından lisenziya almış şəxslərin təsis etdiyi müvəqqəti saxlanc və gömrük anbarlarında həyata keçirilir.

Qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, bu icazə və lisenziya aşağıdakı şəxslərə verilir:

- rezidentlərə;

- gömrük əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun aparılacağına zəmanət təqdim edən və gömrük borcunun yarandığı və yarana biləcəyi hallarda onun ödənilməsinə təminat verən şəxslərə;

- müvəqqəti idxal və ya daxildə emal xüsusi gömrük prosedurları altında yerləşdirilmiş mallardan müvafiq olaraq istifadə edən, yaxud emal əməliyyatları aparan şəxsə.

İicazə şəxsə aşağıdakı şərtlərlə verilir:

- gömrük orqanlarının xüsusi gömrük prosedurlarına nəzarəti həyata keçirmək imkanı olduqda;

- icazənin verilməsi yerli istehsalçıların mühüm maraqlarına mənfi təsir göstərmədikdə.

İcazənin verilməsinin yerli istehsalçıların mühüm maraqlarına təsir göstərmə dərəcəsi iqtisadi şəraitin təhlili nəticəsində müəyyən edilir. Bu təhlilin aparılması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Xüsusi gömrük proseduruna icazə sahibi icazənin verilməsindən sonra onun davam etdirilməsinə və ya məzmununa təsir edə bilən bütün amillər barədə gömrük orqanlarına məlumat verməyə borcludur.

**8.** Malların məhvi (331).

Gömrük orqanlarına təqdim edilmiş mallar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada məhv edilə bilər. Malların məhvi və yaranan tullantıların zərərsizləşdirilməsi gömrük nəzarəti altında və onların sahibinin vəsaiti hesabına yerinə yetirilir.

Məhv edilən xarici mallara görə gömrük rüsumları, vergilər alınmır, habelə ticarət siyasəti tədbirləri tətbiq olunmur. Malların məhvi nəticəsində yaranan tullantılar və ya qalıqlar daxili bazarda istifadə edildikdə və ya sonradan ixrac edildikdə, onlara gömrük rüsumları və vergilər tətbiq olunur.

Mallardan dövlətin xeyrinə imtina (332).

Xarici mallardan və son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallardan prosedur sahibi, yaxud malın sahibi tərəfindən dövlətin xeyrinə imtina edilə bilər.

Mallardan dövlətin xeyrinə imtina edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada, gömrük orqanının icazəsi ilə həyata keçirilir.

Mallardan dövlətin xeyrinə imtina edilməsi dövlət tərəfindən hər hansı bir xərcin çəkilməsinə səbəb olmamalıdır. Dövlətin xeyrinə imtina edilmiş mallara görə gömrük rüsumları, vergilər alınmır, habelə ticarət siyasəti tədbirləri tətbiq olunmur.

Gömrük rəsmiləşdirilməsi.

Suallar:

1. Gömrük rəsmiləşdirilmə qaydaların həyata keçirilməsinin əsas prinsipləri.
2. Malları və nəqliyyat vasitələrini gömrük rəsmiləşdirilməsi üçün təqdim edilən şəxslər.
3. Gömrük rəsmiləşdirilməsinin sadələşdirilmiş qaydası və gömrük rəsmiləşdirilməsində ilkin əməliyyatların rolu.
4. Malların gömrük nəzarəti altında daşınması.
5. BYD kitabçası tətbiq etməklə yük daşınmaları barədə gömrük konvensiyasının tətbiqi.
6. Fiziki şəxslər tərəfindən kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların gömrük resmiləşdirilməsi.

**Gömrük rəsmiləşdirilməsi –** mal və nəqliyyat vasitələrinin Gömrük Məcəlləsinin tələblərinə uyğun olaraq müəyyən gömrük proseduru altında yerləşdirilməsi və bu prosedurun təsirinin bitirilməsi əməliyyatlarının məcmusudur.

**Gömrük rəsmiləşdirilməsi,** həmçinin mal və nəqliyyat vasitələrinin Az gömrük sərhədindən keçirilməsinə gömrük nəzarətinin təmin edilməsi və belə keçirilməyə dövlət tənzimləmə vasitələrinin tətbiq edilməsi məqsədi ilə gömrük orqanının vəzifəli şəxsləri tərəfindən aparılan əməliyyatların məcmusu kimi də başa düşülə bilər.

Gömrük rəsmiləşdirilməsi Gömrük Məcəllə və gömrük işi üzrə digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada aparılır.(102)

Gömrük rəsmiləşdirilməsinin hüquqi tənzimlənməsi qanunvericilik aktları ilə yanaşı beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş normalarla da həyata keçirilə bilər.

Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və sürətləndirilməsi məqsədi ilə bağlanılan beynəlxalq müqavilələrə uyğun olaraq, bir sıra dövlətlərdə gömrük rəsmiləşdirilməsi üçün nəzərdə tutulan gömrük sənədlərindən istifadə edilə bilər.

Gömrük Məcəlləyə əsasən ayrı-ayrı gömrük əməliyyatı ve ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsi tələb olunursa, həmin icazə onun alınması üçün

müəyyən edilmiş şərtlərin yerinə yetirilməsindən dərhal sonra verilməlidir. Gömrük Məcəlləyə əsasən ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsinin xüsusiyyətləri (103) aşağıdakılardan asılı olaraq fərqləndirilir:

- gömrük sərhədindən keçirilən malların kateqoriyasına görə;

-gömrük sərhədindən keçirilmə üçün istifadə olunan nəqliyyat vasitəsinin növünə görə;

-malları keçirən şəxsə görə.

Malların mənşəyindən, göndərilmə və təyinat ölkəsindən asılı olmayaraq, gömrük rəsmiləşdirilməsi eyni qaydada həyata keçirilir.

Gömrük rəsmiləşdirilməsi bəyannaməçinin gömrük orqanına konkret malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı bəyannamə və ya müvafiq sənədləri təqdim etdiyi, yaxud Gömrük Məcəllədə nəzərdə tutulmuş hallarda gömrük rəsmiləşdirilməsini həyata keçirmək barədə niyyətini şifahi formada gömrük orqanına bildirdiyi vaxtdan başlanır. (104.)

Malların müvafiq gömrük proseduru altında yerləşdirilməsinə dair tələblərə uyğun olaraq zəruri gömrük əməliyyatları yerinə yetirildikdən və bu Məcəllədə nəzərdə tutulmuş gömrük ödənişləri ödənildikdən sonra gömrük rəsmiləşdirilməsi başa çatır.

Gömrük Məcəllədə və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, gömrük rəsmiləşdirilməsi başa çatmamış mallardan və nəqliyyat vasitələrindən istifadə edilə, habelə onlar barəsində sərəncam verilə bilməz.

Müvafiq icra hakimiyyəti orqanı gömrük rəsmiləşdirilməsi başa çatmamış mallardan və nəqliyyat vasitələrindən istifadə edilməsi və onlar barəsində sərəncam verilməsinə dair şərtlər və məhdudiyyətlər müəyyən edir.

**Gömrük rəsmiləşdirilməsinin aparıldığı yer və vaxt**

Gömrük rəsmiləşdirilməsi malları ixrac və ya idxal edənin, yaxud onların struktur bölmələrinin yerləşdiyi ərazi üzrə gömrük orqanlarının fəaliyyət zonasında, bu məqsədlər üçün ayrılmış yerlərdə aparılır.

Gömrük rəsmiləşdirilməsi gömrük orqanının müəyyən edilmiş iş vaxtı ərzində həyata keçirilməlidir. Gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsinin aparıldığı iş vaxtını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Bununla belə gömrük orqanlarının icazəsi ilə gömrük rəsmiləşdirilməsi başqa yerlərdə və iş vaxtından kənar saatlarda aparıla bilər. Bunun üçün maraqlı şəxs bu halda meydana çıxan bütün xərcləri ödəməlidir. Başqa yerlərdə və iş vaxtından kənar vaxtda da aparılan gömrük rəsmiləşdirilməsi əməliyyatları üçün ikiqat haqq alınır.

Müvafiq icra hakimiyyəti orqanı malların və nəqliyyat vasitələrinin ayrı-ayrı kateqoriyalarının gömrük rəsmiləşdirilməsinin aparılmasını müəyyən gömrük orqanlarına həvalə edə bilər.(106.)

Mallar və nəqliyyat vasitələri barəsində səlahiyyəti olan şəxslər və ya onların nümayəndələri öz təşəbbüsləri ilə gömrük rəsmiləşdirilməsində iştirak edə bilərlər. Gömrük orqanlarının tələb etdikdə, Gömrük Məcəllənin 107.1-ci maddəsində göstərilən şəxslər və ya onların nümayəndələri gömrük rəsmiləşdirilməsində iştirak etməli və bu işdə gömrük orqanlarının vəzifəli şəxslərinə yardım göstərməlidirlər.

Gömrük sərhədindən malları keçirən şəxs, daşıyıcı, anbar sahibi, mallar və nəqliyyat vasitələri barəsində səlahiyyəti olan digər şəxslər və ya onların nümayəndələri gömrük orqanının tələbi ilə gömrük rəsmiləşdirilməsi nəzərdə tutulan malların və nəqliyyat vasitələrinin daşınmasını, çəkilməsini və ya kəmiyyət ölçüsünün başqa qaydada müəyyən edilməsini, yüklənməsini, boşaldılmasını, qablaşdırılmasını və ya yenidən qablaşdırılmasını, həmçinin bu cür malların və nəqliyyat vasitələrinin saxlandığı yerlərin açılmasını təmin etməlidir.

Daşıyıcının və onun nəqliyyat vasitələrinin Gömrük Məcəllənin tələblərinə cavab verməməsi barədə gömrük orqanlarının kifayət qədər əsasları olduqda, malların daşınması, həmin nəqliyyat vasitəsi gömrük daşıyıcısı tərəfindən lazımi vəziyyətə gətirildikdən sonra, gömrük müşayiəti altında (malların, nəqliyyat vasitələrinin və onlara aid sənədlərin gömrük orqanının vəzifəli şəxsi tərəfindən müşayiət edilməsi) davam etdirilir.

Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üçün bu maddədə nəzərdə tutulmuş zəruri əməliyyatlar gömrük orqanlarının əlavə xərclərinə səbəb olmamalıdır.

Gömrük rəsmiləşdirilməsi Azərbaycan Respublikasının dövlət dilində aparılır.

Az R-sı gömrük sərhədindən boru kəməri həqliyyatı və elektrik ötürücü xətləri üzrə keçirilən malların gömrük rəsmiləşdirilməsi haqqında təlimat DGK-nin 03 iyun 1997-ci il tarixli 561 saylı əmri ilə təsdiq edilmişdir.

Əgər mallar gömrük sərhədindən keçənədək birdən artıq nəqliyyat növündən istifadə edilirsə, ixracatçi yükləmə-boşaltma əməliyyatlarının yerinə yetirildiyi zonaya nəzarət edən gömrük orqanına, gömrük nəzarəti həyata keçirən gömrük orqanı tərəfindən rəsmiləşdirilmiş gömrük bəyannaməsinin bu orqan tərəfindən təstiq edilmiş sürətini təqdim etməlidir.

Əgər faktiki ixrac (idxal) dəniz nəqliyyatı ilə həyata keçirilirsə, gömrük rəsmiləşdirilməsi dəniz nəqliyyatının yükləndiyi əraziyə nəzarət edən gömrük orqanı tərəfindən həyata keçirilməlidir.

Gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin təşkili Az R-nın Qanunvericilik aktlarına uyğun olmalıdır.

Az R-da idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları Az R-sı Prezidentinin 24 iyun 1997-ci il tarıxli 609 saylı Fərmanı ilə təsdiq olunmuşdur.

Qaydalarda nəzərdə tutulan hallarda xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi üçün rezidentlər İqtisadi İnkişaf Nazirliyinə aşağdakı sənədlər təqdim etməlidirlər:

İxrac əməliyyatlar üzrə:

- xarici şəxslərlə bağlanmış müqavilə;
- istehsalçı və ixracatçı arasında bağlanmış müqavilə;
- ixrac qiymətini əsasalndırma arayışı.

Idxal əməliyyatları üzrə:

-xarici şəxslərlə bağlanmış müqavilə;

- istehsalçı və ixracatçı arasında bağlanmış müqavilə;
- idxal qiymətini əsaslandırma arayışı;
- əməliyyatın maliyyələşdirilmə mənbəyi haqqında məlumat.

Iqtisadi İnkişaf Nazirliyi müvafiq sənədlərin qəbul olunması barədə rezidentləri yazılı surətdə xəbərdar etməlidir.

Bu Qaydalarda nəzərdə tutulmuş hallarda İqtisadi İnkişaf Nazirliyində bağlanmış müqavilələrin ekspertizası keçirilərkən onların Az R-nın Qanuncericiliyinə və beynəlxalq

hüquq qaydalarına uyğunluğu araşdırılmalı və Az R-nın iqtisadi maraqlarının gözlənilməsi yoxlanılmalıdır.

Bu Qaydalard nəzərdə tutulan hallarda xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi üçün rezidentlər gömrük orqanlarına aşağıdakı sənədləri təqdim etməlidirlər.

Ixrac əməliyyatları üzrə:

- hüquqi şəxsin Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş kodu;
- xarici şəxslərlə bağlanmış müqavilə;
- ixrac olunan malların haqqının qabaqcadan ödənilməsi və ya akkreditiv açılması barədə müvəkkil bankın sənədi;
- bu Qaydalarda nəzərdə tutulan hallarda Nazirlər Kabinetinin sərancamı vəya İqtisadi İnkişaf Nazirliyinin müsbət reyi;
- gömrük yük bəyannaməsi.

Idxal əməliyyatları üzrə:

- bağlanmış müqavilə;
- gömrük yük bəyannaməsi;
- invoys – idxal olunan malların əmtəə dəyərini müəyyən edən sənəd;
- yol-nəqliyyat sənədləri;
- malın mənşəyini təsdiq edən sənəd;
- malın keyfiyyət sertifikatı;
- malın uyğunluq sertifikatı;
- bu Qaydalarda nəzərdə tutulan hallarda Nazirlər Kabinetinin sərəncamı və ya İqtisadiyyat vəSəyə Nazirliyin ekspertizasının müsbət reyi.

Lazımı sənədlər təqdim olunduqdan sonra müqavilələrin qeydiyyatı İqtisadiyya Sənaya Nazirliyində 3 iş günü ərzində həyata keçirilir.

Ixrac və idxal əməliyyatları üzrə tələb olunan sənədlər təqdim olunduqdan sonra gömrük orqanları həmin sənədləri rəsmiləşdirib 24 saat ərzində malların buraxılmasını təmin etməlidir.

DGK-si bütün ixrac-idxal əməliyyatları üzrə hər ay hesabat dövründən sonrakı ayın 15-dən gec olmayaraq Az R-nın Nazirlər kabinetinə, İqtisadiyat və Sənayə Nazirliyinə, Maliyyə Nazirliyinə, Baş Dövlət Vergi Müfəttişliyinə, Dövlət Statistika Komitəsinə, Dövlət antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinə, və Mərkəzi Banka müəyyən edimiş formada məlumat verir.

Malların təhlükəsizliyini və onların müəyyən edilmiş tələblərə uyğun olduğunu təstiq edən sənəd – sertifikasiya sistemi qaydalarına əsasən verilmiş sertifikat hesab edilir.

Sertifikat bir nüsxədə verilir.

Sertifikatlaşdırılması məcburi olan mallar sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal, daxildə emal, xaricdə emal gömrük prosedurları altında yerləşdirilmiş mallar yalnız sertifikatlar gömrük orqanlarına təqdim edildikdən sonra buraxılır.

Seçilmiş gömrük prosedurundan asılı olmayaraq aşağıdakı mallar sertifikatsız buraxılır:

- xarici dövlətlərin təmsilçiliklərinin və beynəlxalq dövlətlərarası təşkilatlarının və onların personallarının rəsmi istifadəsi üçün nəzərdə tutulan mallar;
- fiziki şəxslər tərəfindən gətirilən, istehsalat və kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan (müəyyən hədlərdən artıq olan mallar istisna olmaqla) mallar.

Heyvandarlıq məhsullarının bütün növləri hər hansı nəqliyyat vasitəsi ilə idxal və ixrac olunduqda məcburi baytarlıq nəzarətindən keçməlidir. Heyvanların, heyvandarlıq məhsullarının və yemlərin dövlət sərhədindən buraxılmasına, yalnız sərhəd baytarlıq nəzarət məntəqələri təşkil edilmiş yerlərdə yol verilir.

Karantin nəzarətinə cəlb edilən malların ixracı yerli karantin müfəttişliyi tərəfdən verilən fitosanitar sertifikatların müşayiəti ilə aparılır.

Malları gömrük ərazisinə, həmçinin sərbəst zonaların ərazisindən gömrük ərazisinin qalan hissəsinə gətirən daşıyıcı gömrük sərhədini keçməsi barədə müvafiq gömrük orqanına məlumat verməlidir (117).

Mallar gömrük ərazisinə gömrük orqanlarının müəyyən etdiyi yerlərdən və onların iş vaxtında gətirilməlidir. Gömrük orqanlarının icazəsi ilə, mallar onların iş vaxtından kənar saatlarda da gömrük ərazisinə gətirilə bilər. Həmin vaxtda gömrük ərazisinə gətirilmiş mallardan gömrük orqanlarının icazəsi olmadan istifadə edilməsinə yol verilmir.

Qanunvericiliklə və beynəlxalq müqavilələrlə müəyyən edilmiş hallarda, mallar gömrük ərazisinə gömrük orqanlarının icazəsi ilə başqa yerlərdən gətirilə bilər.

Mallar və nəqliyyat vasitələri, Az R-sı gömrük orqanına təqdim edildiyi andan onların büraxılışına qədər və ya seçilmiş gömrük rejiminə verilənədək gömrük nəzarəti altında müvəqqəti saxlanca verilir.

Müvəqqəti saxlanc, xüsusi olaraq ayrılmış və hazırlanmış binalarda və ya başqa yerlərdə həyata keçirilir.

Az R-sı gömrük orqanları və ya Az şəxsləri müvəqqəti saxlanc anbarı təsis edə bilər.

Az R-nın gömrük işini aparan icra hakimiyyəti orqanından lisenziya alındıqdan sonra müvəqqəti saxlanc anbarı təsis edilə bilər.

Müvəqqəti saxlanc anbarları acıq tipli (bütün mallar üçün istifadə oluna bilən) və qapalı tipli (saxlanması xüsusi şərait tələb edən mallar üçün) ola bilər.

Az R-sı gömrük orqanları tərəfindən təsis edilən müvəqqəti saxlanc anbarları açıq tipli anbarlardır.

Müvəqqəti saxlanc anbarı sahibinin malları və nəqliyyat vasitələrini anbara qoyan şəxslərlə qarşılıqlı münasibətləri müqavilə əsasında tənzimlənir.

Mallar və nəqliyyat vasitələri müvəqqəti saxlanc anbarına qoyularkən Az R-sı gömrük orqanları bir qayda olaraq malların və nəqliyyat vasitələrinin eyniləşdirilməsi üçün kifayət edən sənədləri, o cümlədən gömrük orqanının vəzifəli şəxsinin bildiyi xarici dillərin birində tərtib edilmiş sənədləri tələb edir.

Müvəqqəti saxlanc anbarı sahibinin vəzifələri aşağıdakılardır:

-anbarı gömrük nəzarətinin təmin edilməsi məqsədilə lazım olan şəkildə hazırlamaq;

- anbarda saxlanan malların və nəqliyyat vasitələrinin gömrük nəzarətindən kənar götürülməsinə yol verməmək;

- gömrük nəzarətinin həyata keçirilməsi üçün cətinlik yaratmamaq;

- Az R-nın gömrük işini aparan icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada saxlanılan malların və nəqliyyat vasitələrinin uçotunu aparmaq və onlar barədə Az R-sı gömrük orqanlarına hesabatlar təqdim etmək;

- anbarda saxlanılan mallar və nəqliyyat vasitələrinin yanina qanunvericilikdə nəzərdə tutulan hallar istisna ediməklə üçüncü şəxslətin daxil olmasına yol verməmək;

- müvəqqəti saxlanc anbarı təsis edilməsi üçün verilən lisenziya şərtlərinə riayət etmək;

-gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsini həyata keçirmək üçün Az R-sı gömrük orqanları vəzifəli şəxslərinin malların və nəqliyyat vasitələinin yanına buraxılmasını təmin etmək, müvəqqəti saxlanc anbarlarında əvəzsiz olaraq yer və rabitə vasitələri verilməsi də daxil olmaqla onların qanuni tələblərini yerinə yetirmək.

Az R-sı gömrük orqanları müvəqqəti saxlanc anbarının quruluşu, avadanlığı və yerləşdiyi yerlərə aid tələbləri müəyyən etmək hüququ vardır.

Malların müvəqqəti saxlanc gömrük proseduru altında qalma müddəti (179) onların və istifadə olunan nəqliyyat vasitəsinin xüsusiyyətləri nəzərə alınmaqla, gömrük bəyannaməsinin təqdim olunması üçün lazım olan vaxt nəzərə alınmaqla gömrük orqanı tərəfindən müəyyən edilir. Prosedur sahibinin əsaslandırılmış müraciəti olduqda, gömrük orqanı həmin müddəti Gömrük Məcəllənin 179.2-ci maddəsinin göstərilən müddət çərçivəsində uzadır. 179.2 maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrı-ayrı malların xassələrindən və xüsusiyyətlərindən asılı olaraq daha qısa müddət müəyyən edildiyi hallar istisna olmaqla, malların müvəqqəti saxlanc gömrük proseduru altında qalma müddəti 4 (dörd) aydan çox olmamalıdır.

Mallar müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatanadək başqa gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilməli və ya gömrük anbarında yerləşdirilməlidir.

Müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilən malların mövcud vəziyyətdə qalmasını təmin etmək üçün onlar adi əməliyyatlara məruz qala bilərlər. Belə hallarda malların xarici görünüşünün və texniki göstəricilərinin dəyişdirilməsinə yol verilmir.

Müvəqqəti saxlanc anbarındakı mallarla aşağıdakı əməliyyatlar aparıla bilər:

- müvəqqəti saxlanc anbarının sahibi, mallar barədə səlahiyyətli olan başqa şəxs və onların nümayəndələri tərəfindən malların nəzərdə keçirilməsi və ölçülməsi;
- Az R-sı gömrük orqanının ücazəəsi ilə həmin mallardan prob və nümünələr götürülməsi;

Qablaşdırma zədələrinin qüzəldilməsi də daxil olmaqla, həmin malların dəyişməz halda qalmasının təmin edlməsi üçün zəruri olan digər əməliyyatlar aparılması.

**2.** Mövcüd qanunvericiliyə uyğun olaraq yaradılmış və DGK-dən lisenziya almış hüquqi şəxslər gömrük brokeri ola bilərlər. Gömrük brokeri ilə onun təmsil etdiyi şəxs arasındakı qarşılıiqlı münasibətlər, notarius tərəfindən təstiq edilmiş müqavilə ilə

tənzimlənir. Belə müqavilələr ikitərəfli olub, konsensual müqavilə növünə aid edilir və ödənc xarakterlidir.

Broker xidməti üzrə müqaviləyə görə gömrük brokeri təmsil etdiyi şəxsin tapşırığı və onun hesabına öz adından gömrük rəsmiləşdirilməsi üzrə istənilən əməliyyatı və digər vasitəçilik əməliyyatları apara bilər. Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi əməliyyatları zamanı, o malların əsil sahibi qədər onun vəzifələrini yerinə yetirir və məsuliyyət daşıyır.

Nəzərə alaq ki, gömrük brokeri təmsil etdiyi şəxsin tapşırığını yerinə yetirərkən təmsilçinin deyil, öz adından çıxış edir, bu halda broker xidməti göstərilməsi barədə müqavilədən doqan üç növ hüquqi münasibətlərin şahidi olmuş oluruq:

1. gömrük brokeri ilə təmsil etdiyi şəxs arasında;
2. gömrük brokeri ilə üçüncü şəxslər arasında;
3. təmsil olunan şəxslə üçüncü şəxslər arasında (məsələn, broker lisenziyasının fəaliyyəti dayandırıldıqda).

Gömrük brokerinin gömrük orqanları qarşısında hüquqları, vəzifələri və məsuliyyəti təmsil etdiyi şəxslə bağladığı müqavilə ilə məhdudlaşmır. Gömrük brokerinin fəaliyyəti lisenziyalaşdırılır. Az R-nın gömrük işini aparan icra hakimiyyəti orqanından lisenziya almış hüquqi şəxs olan müəssisələr gömrük brokeri ola bilər.

Gömrük brokeri kimi fəaliyyət göstərmək hüququ verən lisenziya almaq üçün aşağıdakılar tələb olunur:

- ştatında gömrük rəsmiləşdirilməsi üzrə ixtisas attestatına malik mütəxəssislərin olması;
- sığorta məbləği qanunla müəyyən edilmiş minimum əmək haqqı məbləğinin on min mislindən az olmamaqla öz fəaliyyəti üçün sığorta müqaviləsi bağlamaq;
- gömrük brokeri kimi fəaliyyət göstərmək üçün kifayət qədər maddi-texniki təçhizata malik olmaq;
- gömrük nəzarəti altında olan mallarla aparılan əməliyyatları dəqiq və dolğun əks etdirən uçot və hesabat aparılmasını təmin etmək üçün şəraitin olması.

Gömrük brokerinin təmsil etdiyi şəxsin tapşırığı ilə və onun hesabına öz adından gömrük rəsmiləşdirilməsi üzrə hər cür əməliyyat aparmaq və gömrük işi sahəsində digər vasitəçilik funksiyalarını yerinə yetirmək hüququ vardır. Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi həyata keçirilərkən gömrük brokeri Az R-nın gömrük sərhədindən

müstəqil olaraq malları keçirən şəxs kimi bütün vəzifələrini yerinə yetirir bə həmin şəxs kimi məsuliyyət daşıyır.

Gömrük brokerinin təmsil etdiyi şəxslə müqaviləsində Az R-sı gömrük orqanları ilə münasibətlər, hüquqlar, vəzifələr və məsuliyyətlər məhdudlaşdırıla bilməz.

Gömrük daşıyıcısı Az R-sı Qanunvericiliyinə uyğun olaraq yaradılan, DGK tərəfindən gömrük nəzarəti altındakı yüklərin daşınması üçün lisenziya verilmiş hüquqi şəxsdir. Qeyd etmək lazımdır ki, o malları gömrük müşayiəti olmadan və gömrük ödəncləri ödəmədən daşıyır. Gömrük daşıyıcısından istifadə həm könüllü, həm də məcburi ola bilər. Gömrük daşıyıından könüllü istifadə o zaman olur ki, marağı olan şəxs gömrük daşıyıcısının xidmətindən gömrük orqanını xəbərdar etməklə şəxsi təşəbbüsü əsasında istifadə etsin.

Gömrük orqanının vəzifəli şəxsi daşınan malların xarakteri və statusu barədə məlumata əsaslanaraq, gömrük qanunvericiliyinin pozulmasının mümkünlüyünü güman etdikdə, daşınmanın spesifikasını nəzərə alaraq gömrük rəsmiləşdirilməsi mərhələsində həmin malların gömrük daşıyıcısı tərəfindən daşınması barədə qərar qəbul edə bilər. Belə daşınma məcbüri xarakter daşıyır, çünki mal üzərində sərəncam vermək hüququ olan şəxs gömrük orqanlarının qəbul etdiyi qərara etinasiz qala bilməz.

Gömrük orqanının gömrük daşıyıcısından istifadə edilməsi barədə qərarı həm daşıyıcı, həm malgöndərən və malalan, həm də gömrük daşıyıcısının özü üçün məcburidir. Belə qərar adi daşıyıcısının, mal göndərən və malalanın tərəfindən gömrük daşıyıcısının istifadəsi ilə meydana  çıxmış xərclərinin ödənməsi üçün əsas ola bilər.

Aşağıdakı mallar barədə gömrük orqanı, hətta gömrük ödəncləri ödənməsinin təminatı olduqda belə, gömrük daşııcısından istifadə edilməi üçün qərar verə bilər:

1. Az R-sı ərazisinə gətirilməsi və ölkədən çıxarılması qadağan olunmuş mallar (gömrük orqanları arasında daşınması zərurəti yaranandıqda);
2. Lisenziyaşdırlmalı, sertifikatlaşdırılmalı və dgər orqanların nəzarətinə cəlb edilməli (əgər belə nəzarət heyata keçirilməmişsə) mallar.

BYD kitabçaları tətbiq edilməklə və gömrük müşayiəti zamanı gömrük daşıyıcısından istifadə edilməsi məcburiyyəti tətbiq edilmir.

Gömrük daşıyıcısına tələbləri texniki və maliyyə tələbləri olmaqla iki qrupa bölmək olar.

Gömrük daşıyıcısı ödəmə qabiliyyətli olmalıdır. Onun maliyyə imkanları tələb olunana bütün gömrük ödənclərinin təxirəsalınmadan ödəniləcəyinə zəmanət verməlidir. Gömrük daşıyıcısı öz fəaliyyətini sığortalamaq üçün müvafiq müavilə bağlamalıdır.

Texniki tələblərə gəlincə, gömrük daşıyıcısının nəqliyyat vasitələri gömrük orqanları tərəfindən müəyyən edilmiş "Gömrük möhür və plombları altında malların daşınması üçün nəqliyyat vasitələrinin təchiz edilməsi və onların yük daşınmasına buraxılması qaydalarına" uyğun olmalıdır.

Malgöndərən və gömrük daşıyıcısı arasındakı münasibətlər müqavilə əsasında qurulur. Bağlanmış müqavilədə digər müddəalarla bərabər, gömrük nəzarəti altında malların daşınması ilə bağlı gömrük daşıyıcısının xərclərinin ödənilməsi də tənzimlənir. Müailə ilə təsbit edilmiş hüquq və vəzifələrindən başqa gömrük daşıyıcısı aşağıdakı öhdəlikəri də yerinə yetirilməlidir:

1. malları təyinat gömrük idarəsinə onların tarası və ya mövcüd halı dəyişilmədən çatdırmalı;
2. gömrük orqanları tərəfindən müəyyən edilmiş çatdırılma müddətlərinə və hərəkət marşrutuna riayət etməli;
3. malları ə sənədləri təyinat gömrük mənəqəsinə yetirməli, lazım gəldikdə təqdim etməli;
4. gömrük nəzarəti altında olan mallarla birgə digər mallar daşımamalı;
5. gömrük nəzarəti altındakı daşımaların uçotunu aparılmalı, gömrük orqanlarına müvafiq hesabat verməli;
6. mal göndərəndən alınmış kommersiya, bank, qanunla qorunan digər sirləri açıqlamamalı;
7. malları təyinat gömrük məntəqəsinə çatdırıqdan sonra, onları nəzarətsiz qoymamalı, dayanacaq yerini dəyişdirməməli, malları boşaltmamalı və başqa nəqliyyat növünə yükləməməli, qablaşdırılmanı pozmamalı, gömrük eyniləşdirmə vasitələrini qoparmamalı, yaxud məhv etməməlidir.

Bu öhdəliklərin pozulmasına görə o zaman məsuliyyət müəyyən olunmur ki, gömrük daşıyıcısı nəqliyyat vasitəsi ekipajının həyatı və sağlamlığı üçün, həmçinin, mal və nəqliyyat vasitəsinin məhv edilməsinə görə real təhlükə yarandığını sübut etmiş olsun.

Gömrük daçıyısı malların çatdırıldığı yerdə müvəqqəti saxlanca və ya mallara görə səlahiyyətli şəxsə veriləné qədər gömrük ödənclərinin ödənilməsinə məsuliyyət daşıyır. Əgər gömrük daşıyıcısı malları gömrük orqanının icazəsi olmadan vermişsə,

gömrük ödənclərinin ödənməsi sərbəst dövriyyə üçün buraxılış və ya ixrac gömrük prosedurunda tələb olunan məbləğdə gömrük daşıyıcısına həvalə olunur.

**3**. Gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydası (111)

Az gömrük sərhədindən keçirilən malların ayrı-ayrı kateqoriyalarının gömrük rəsmiləşdirilməsi sadələşdirilmiş formada və prioritet qaydada aparıla bilər.

Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, kütləvi informasiya məqsədləri üçün materialların, Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsi güzəştli və sadələşdirilmiş qaydada həyata keçirilir.

Gömrük Məcəllənin 111.1-ci maddəsində göstərilən hallarda gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Təbii fəlakət zonalarında zərər çəkmiş əhaliyə yardım göstərilməsi üçün göndərilən ərzaq məhsulları, mallar və nəqliyyat vasitələri, habelə müvafiq orqanların təbii fəlakətin nəticələrinin ləğvi ilə məşğul olan şəxsi heyəti üçün nəzərdə tutulmuş avadanlıq, xüsusi nəqliyyat vasitələri, ehtiyat hissələri, şəxsi əşyalar və digər mallar yardım yükü hesab olunur.

Yardım yüklərinin gömrük rəsmiləşdirilməsi Gömrük Məcəllədə nəzərdə tutulan sadələşdirilmiş bəyannamələrdən istifadə olunmaqla aparılır. Yardım yüklərinə ticarət siyasəti tədbirləri, qadağa və məhdudiyyətlər, həmçinin gömrük ödənişləri tətbiq edilmir.

Belə malların rəsmiləşdirilməsinin prioritetliyi – gömrük orqanlarına təqdim edildikdən sonra həmin malların birinci növbədə rəsmiləşdirilməsi deməkdir.

Sadələşdirilmiş qayda mal müşayiət, nəqliyyat və digər sənədlərin – (əgər bu sənədlərdə daşıyıcının, mal göndərən və alan şəxslərin barəsində və həmcinin malların özünün adı, mənşəyi, miqdarı və dəyəri barədə məlumatlar varsa), gömrük orqanlarına təqdim edilməsi ilə malların bəyan edilməsinə yol verir.

Əgər gömrük orqanlarında malların başqa adla, saxta sənədlərlə keçirilməsini, təqdim edilən sənədlərin lazım olan məlumatları əks etdirmədiyini güman etməyə kifayət qədər əsas varsa, onlar deklarantdan çatışmayan məlumatları əks etdirən əlavə sənədlər tələb edə bilərlər. Sadələşdirilmiş qayda deklaranta xeyli vaxta qənaət etməyə imkan verir.

Gömrük rəsmiləşdirilməsində ilkin əməliyyatlar mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması və sürətləndirilməsi məqsədi ilə aparılır. Onlar əsas gömrük rəsmiləşdirilməsi icraatına qədər aparılır və hazırlıq mərhələsi hesab edilir.

Ilkin əməliyyatlar gömrük sərhədinə Az ərazisinə gətirilməsi qadağan edilmiş mal və nəqliyyat vasitələrinin keçirilməsindən müdafiə edilməsini təmin edir. Bu mərhələdə mallar gömrük məqsədləri üçün identifikasiya edilir.

Ilkin əməliyyatlara aşağıdakılar aiddir:

- Az R-nın gömrük sərhədindən kecmə barədə və ya malların, nəqliyyat vasitələrinin gömrük ərazisindən kənara aparılması niyyəti barədə Az R-sı gömrük orqanlarına məlumat verilməsi;
- malların, nəqliyyat vasitələrini və onlara aid sənədlərin gömrük orqanının müəyyən etdiyi yerlərə çatdırılması;
- mallar və nəqliyyat vasitələrini çatdırıldığı yerlərdə gömrük nəzarətinə təqdim edilməsi.

Bir qayda olaraq, yalnız faktiki gömrük ərazisinə daxil olmuş yüklər bəyan edilməlidir. Deklarant mal göndərişinin bir hissəsini – hətta bu hissə tam göndərişin digər hissələri ilə bir vaxtda və eyni xarici ticarət müqavilə əsasında göndərilmiş və ünvana tez çatmış olsa belə, gömrük rəsmiləşdirilməsinə elan edə bilməz.

Helə gəlib çatmamış malların bəyan edilməsini istisna etmək məqsədi ilə yüklərin gömrük rəsmiləşdirilməsinin ilkin əməliyyatlarına mal və nəqliyyat vasitələrinin gömrük nəzarətinə təqdim edilməsi prosedurası daxil edilir. Belə təqdim etmə daşıyıcı tərəfindən malların və nəqliyyat vasitələrinin catdırıldığı barədə gömrük orqanlarının xəbərdar edilməsi ilə ifadə olunur. Iş vaxtından sonra gəlmiş mal və nəqliyyat vasitələri gömrük nəzarəti zonasında yerləşdirilməlidir.

Mal və nəqliyyat vasitələri  gömrük orqanına təqdim edildiyi andan buraxılana qədər gömrük nəzarəti altında müvəqqəti saxlancda qalır.

Malların və nəqliyyat vasitələrinin nəzarətsiz qoyulması, ilkin yerlərinin dəyişdirilməsi, yüklənməsi, boşaldılması, qablaşdırmalların açılması və yenidən qablaşdırma, eyniləşdirmə vasitələrinin dəyişdirilməsi və məhv edilməsi, sərnişinlərin düşürülməsi kimi əməliyyatlar yalnış Az R-sı gömrük orqanlarının icazəsi ilə aparıla bilər.

Bir qayda olaraq, gömrük rəsmiləşdirilməsi mərhələsində yüklər bağlı nəqliyyat vasitələri ilə daşınmalıdır. Ağır yüklü və iriqabaritli yüklər və topa daşınan (ğum, çınqıl və s.) yüklər açıq nəqliyyat vasitələrində daşına bilər. Belə hallarda gömrük orqanı bu malların dəyişdirilməsinə imkan verməmək üçün lazımi tədbirlər görməlidir.

**4.** Malların gömrük nəzarəti altında daşınması zamanı gömrük orqaları mövcüd qanunvericiliyə riayət olunmasını təmin etmək üçün bütün lazımı tədbirləri görməlidirlər. Bu tədbirlər mal və nəqliyyat vasitələrinin qorunmasına zəmanət verməli, malların əsas keyfiyyət və kəmiyyət xarakteristikalarının dəyişilməz qalmasını, nəhayət gömrük nəzarəti altında daşınan mallara münasibətdə hər hansı qeyri-qanuni hərəkətlərin qarşısının alınmasını təmin etməlidir.

Gömrük orqanları gömrük nəzarəti altında malların daşınmasının marşrut və müddətlərini müəyyən etmək hüququna malikdirlər. Daşınma müddətlərini təyin edərkən gömrük orqanı adi halda yerinə çatdırma müddətlərini, konkret nəqliyyat növünün imkanları, seçilmiş marşrut və digər daşınma şərtlərini nəzərə almaqla qərar qəbul edir.

Yüklərin gömrük nəzarəti altında daşınması zamanı qanunvericiliyə riayət edilməsi məqsədi ilə görülən əsas tədbirlər aşağdakılardır:

- gömrük müşayiəti;
- gömrük daşıyıcısının xidmətlərindən istifadə edilməsi;
- nəqliyyat vasitələrinin müəyyən olunmuş qaydada təchiz edilməsi üzrə təşkilat-texniki tədbirlət kompleksi.

Gömrük müşayiəti dedikdə, mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi mərhələsində elə daşınma üsulu başa düşülür ki, bilavasitə gömrük əməkdaşları tərəfindən müşayiəti olunur.

Gömrük müşayiəti daşınılan yüklərin yüksək qorunma dərəcəsinə və gömrük qanunvericiliyinə riayət olunmasına zəmanət verir. Bu tədbirin istifadə edilməsi nəqliyyat xətclərinin artmasına, gömrük kadrlarının digər işlərdən ayrılması və bu səbəbdən

çatışmamasına gətirib çıxarır. Ona görə də gömrük müşayiətindən, digər təqbirlər gömrük nəzarətini təmin etmək üçün yetərli olmadıqda, istifadə edilir.

Adətən gömrük müşayiəti barədə qərarı gömrük orqanları aşağıdakı hallarda verirlər:

-gömrük nəzarəti altındakı malların daşınması gömrük daşıyıcısı tərəfindən həyata keçirilə bilmədikdə;

- əgər sərhəd gömrük orqanı tərəfindən sərhəd müvəqqəti saxlanc anbarlarında mallara baxış keçirilməsi barədə qərar qəbul edilmişçə;

- gömrük qanunvericiliyinə riayət edilməsinin təmin edilməsi digər üsullarla mümkün olmursa.

Axırıncı tədbir həm müstəqil, həm də birinci iki tədbirə zəmanət kimi tətbiq edilə bilər. Bu zaman nəqliyyat vasitələrinin təchiz edilməsi üzrə daşıyıcının çəkdiyi xərclər gömrük orqanları tərəfindən ödənilmir.

Gömrük orqanları bu tədbirlərdən o zaman, istifadə edir ki, adi daşınmanın gömrük qanunvericiliyinə əməl edilməsinə zəmanət verə bilməyəcəyini, mal və nəqliyyat vasitələrinin yerinə çatdırılmayacağını, yaxud ödənclərin ödənməyəcəyini güman etməyə əsas olsun. Yaranmış vəziyyət başqa şərtlər də tələb edə bilər. Ona görə də qərar qəbul edərkən aşağıdakı məsələlərin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir:

- daşıyıcının nəqliyyat vasitələrinin təchizatının gömrük orqanlarının tələblərinə uyğunluğu;
- malın xarakteri (aksizli mallar, digər dövlət orqanlarının nəzarətinə cəlb edilən mallar);
- malın gömrük statusu (tarif və qeyri-tarif tədbirlətin tətbiqi);
- daşıyıcı barədə gömrük orqanlarını müfəssəl məlumatı.

Gömrük qanunvericiliyi malların gömrük təminatları altında daşındığı nəqliyyat vasitələrinə bir tələb irəli sürür – təhhizad normalarına uyğun gəlmək. Bu texniki normativlər gömrük möhür və plombları ilə yüklərin daşınmasından ötrü nəqliyyat vasitələrinin (konteynerlərin) təchizatı Gaydalarında öz əksini tapmışdır.

Müəyyən olunmuş qaydada təchiz edilmiş nəqliyyat vasitəsi dedikdə elə nəqliyyat vasitəsi başa düşülür ki onların yük bölmələri elə qurulmuş olsun ki:

a) malların möhürlənmiş yük bölmələrindən götürülməsi, yaxud oraya yığılması, gömrük təminatlarının gözlə görünən qırılması və ya zədələnməsi olmadan mümkün olmasın;

b) gömrük təminatları asan və etibarlı vurula bilsin;

c) orada malların gizlədilməsi üçün naməlum yerlər olmasın;

d) malların yerləşə biləcəyi yerlər gömrük baxışı üçün asan olsun.

Nəqliyyat vasitələri texniki normativlərin tələblərinə uyğun olduqda, onlar malların gömrük təminatları altında daşınmasına buraxıla bilər.

Buraxılma prosedurası DGK-nin "Nəqliyyat vasitələrinin (konteynerlərin) gömrük möhürləri və plombları ilə yük daşımalarına buraxılması qaydaları haqqında" Təlimatı ilə müəyyənləşdirilir.

Nəqliyyat vasitəsinin buraxılışı haqqında şəhadətnamə almaqdan ötrü onun mülkiyyətçisi, yaxud sahibi nəqliyyat vasitəsinin növünü, cinsi və fərdi əlamətlərini, dövlət qeydiyyat nömrələrini, buraxılış haqqında qərarın qəbul edilməsindən ötrü istifadə oluna bilən digər məlumatları göstərməklə müəyyənləşdirilmiş regional gömrük orqanlarına yazılı sürətdə ərizə təqdim edir. Ərizə sərbəst formada tərtib olunur. ərizə verildiyi gündən 10 gün müddətində gömrük orqanları tərəfindən baxılmalıdır. Bu müddət ərzində gömrük xidməti nəqliyyat vasitəsinin təchizat qaydaları ilə nəzərdə tutulan texniki tələblərə müvafiqliyini yoxlayır. Əgər nəqliyyat vasitəsi nəzərdə tutulan texniki tələblərə müvafiqdirsə, gömrük idarə tərəfindən buraxılış barədə şəhadətnamə verilir.

Buraxılış haqqında şəhadətnamə iki nüshədə tərtib olunur, onun biri gömrük orqanında saxlanılır, digəri isə nəqliyyat vasitəsinin mülkiyyətçisinə, yaxud sahibinə verilir.

Buraxılış haqqında şəhadətnaməyə sıra nömrəsi verilir.

Yol-nəqliyyat vasitəsinin buraxılışı haqqında şəhadətnamənin üz tərəfindən əlavə olaraq aşağıdakılar çap edilməlidir: "1975-ci il 14 noyabr tarixli BYD Konvensiyası", "TİR Convention of Novemder 1975".

Buraxılış haqqında şəhadətnamə nəqliyyat vasitəsini müşayiət etməlidir. Şəhədətnamə 2 il müddətinə verilir.

Əgər gömrük möhürləri və plombları altında yük daşınması üçün buraxılan nəqliyyat vasitəsində hər hansı gömrük orqanı ciddi nasazlıqlar aşkar edərsə, o, gömrük plombları və möhürləri altında yüklərin daşınması məqsədi ilə bu kimi nəqliyyat vasitəsinin hərəkətinin davam etdirilməsini ya qadagan edə bilər, ya da gömrük nəzarətinin təmin edilməsi üzrə lazımi tədbirlər görərək, bu kimi nəqliyyat vasitəsinin hərəkəti onun davam etdirilməsinə icazə verə bilər.

Yol nəqliyyat vasitəsinin qeydiyyatda olduğu ölkənin səlahiyyətli orqanı tərəfindən verilmiş buraxılış haqqında şəhadətnamə, Az R-sı gömrük orqanı tərəfindən o halda

etibarlı hesab edilə bilər ki, əgər bu ölkə 1959-cu ilin BYD Konvensiyasını, yaxud 1975-ci ilin BYD Konvensiyasını üzvü olsun.

Az R-nın gömrük orqanları 1959-cu ilin BYD Konvensiyasının, yaxud 1975-ci ilin BYD Konvensiyasının, yaxud da konteynerlərə aid 1972-ci il Gömrük konvensiyasının iştirakçisi olan dövlətlərin səlahiyyətli orqanı tərəfindən verilən konteynerlərin buraxılışını və buraxılış haqqında şəhadətnaməni etibarlı hesab edirlər.

Lakin Az R-nın gömrük orqanları Az R-nın mənafeyinə ciddi zərər gətirə biləcək qaçaqmalçılığın yaxud cinayətlərin baç verməsindən ötrü imkan yardan ciddi nasazlıqlar aşkar oluduqda yüxarda qeyd olunan Konvensiyaların iştirakçısı olan dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilmiş yol nəqliyyat vasitələrinin və konteynerlərin buraxılışını etibarlı hesab etməmək hüququna malıkdirlər.

**5**. BYD kitabçası tətbiq edilməklə yük daşınmaları barədə konvensiyasının Az R-sı ərazisində tətbiqinə Az R-sı Prezidentinin 31 mart 1997-ci il tarixli 527 saylı Sərəncamı ilə başlanılmışdır.

**BYD** kitabçası tətbiq edilməklə yük daşınmaları barədə gömrük konvensiyasının Az R-sı ərazisində tətbiqi qaydaları haqqında Əsasnamə Az R-sı DGK-nin 25 may 1998-ci il tarixli 024 saylı əmri ilə təstiq edilmişdir.

**BYD** konvensiyasına qoşulmuş Az R-da malların araliq boşaltma-yükləmələri həyata keçirilmədən yol nəqliyyat vasitələrində, nəqliyyat vasitələrindən ibarət qatarlarda və konteynerlərdə müqavilə tərəflərindən birinin göndərilmə gömrük idarəsindən bir və ya bir neçe sərhəddən keçməklə digər müqavilə iştirakçısı tərəfindən təyinat gömrük idarəsinə daşınmasına aiddir, bir şərtlə ki, BYD əməliyyatının başlanğıcı və sonu arasındakı müəyyən bir hissəsi avtomobil nəqlyyatı ilə həyata keçirilir.

**Az R-da BYD** prosedurasına əmək olunmaqla daşınan mallar aralıq gömrük idarəsində (idxal zamanı giriş, tranzit zamanı giriş və çıxış) idxal və ya ixrac rüsum və vergilərinin ödənilməsindən və depozitə qoyulmasından azad edilir. Həmin gömrük idarələrində BYD kitabçalarının rəsmiləşdirilməsi üçün yığımlar tutulmur.

BYD prosedurasına əməl olunmaqla plomblanmış yol nəqliyyat vasitələrində, plomblanmış yol nəqliyyat vasitələri qatarında və ya plomblanmış konteynerlərdə daşınan mallar bir qayda olaraq aralıq gömrük idarələrində gömrük baxışından azad olunurlar.

Gömrük baxışı müstəsna hal kimi nəqliyyat vasitələrinin plomblanmış bölmələrində və ya konteynerlərdə BYD kitabçasının yük manifestində göstərilməyən əşyalar olmasını güman etməyə kifayət qədər əsaslar oldyğu təqdirdə həyata keçirilə bilər.

BYD prosedurası o şərtlə tətbiq olunur ki, mallar:

- BYD Konvensiyasına və təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq doldurulmuş və sənədləşdirilmiş BYD kitabçası ilə müşayiət olunsun;
- zəmanətverici birliyin zəmanəti (təminatı) ilə təmin olunsun;
- əvvəlcədən gömrük möhür və plombları altında (ağırçəkili və irihəcmli malların daşınması istisna olmaqla) daşınmaya büraxılmış avtomobillərdə, yol nəqliyyat vasitələrindən ibar\t qatarlarda və ya konteynerlərdə daşınsın.

Göndərilmə gömrük idarələri yalnış bir ölkədə, təyinat gömrük idarələri isə ikidən artıq olmayan ölkələrdə yerləşməlidirlər. Göndərilmə və təyinat gömrük məntəqələrinin ümumi sayı 4 artıq olmamalıdır.

BYD kitabçası 4 səhifəli üz qabığından, kəsilməyən ½ nömrəli sarı vərəqdən və ½ nömrəli kötükdən, 1 nömrəli (kəsilən) vərəqdən və 1 nömrəli kötüklərdən (ağ rəngli), 2 nömrəli kəsilən vərəqlərdən və 2 nömrəli kötüklərdən (yaşıl rəngli) və yol nəqliyyat hadisəsinə dair protokollardan (sarı rəngli) ibarətdir.

Kəsilən vərəqlərin və onların kötüklərinin (1 və 2) birləşməsi bir qayda olaraq hər bir ölkədə (göndərilmə ölkəsində və giriş gömrük idarələrində), 2 nömrəli kəsilən vərəq və 2 nömrəli kötük isə çıxış və təyinat gömrük idarəsində istifadə olunmaq üçün nəzərdə tutulmuşlar.

Hal-hazırda istifadə edilən BYD kitabçaları 14 və ya 20 vərəqdən (yəni 7 və ya 10 komplektdən) ibarətdir və müvafiq olaraq 7 və ya 10 dövlətin ərazisindən keçməklə daşıma üçün nəzərdə tutulmuşdur.

BYD prosedurasına əməl olunmaqla daşınmanı həyata keçirilməyə yalnız BYD kitabçasının sahibinin hüququ vardır. BYD kitabçaları 1975-ci il BYD Konvensiyasının iştirakçı dövlətlərinin zəmanət birlikləri tərəfindən verilir.

Az R-da BYD kitabçaları ABADA (Az Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası) tərəfindən verilir.

Bu cür kitabçalar ingilis və rus dillərində çap olunan birinci kəsilməyən sarı vərəqi çıxmaq şərti ilə fransız dilində çap olunur.

BYD prosedurasına əməl olunmaqla malların gömrük nəzarəti altında Az R-na çatdırılması və tranziti zamanı zəmanət assosiasiyası – Az Beynəlxalq Avtomobil Daşıyıcıları Birliyi Assosiasiyasıdır. Zaminlik barədə müqaviləyə uyğun olaraq ABADA, Az R-nın Qanunvericiliyi pozuldyğu halda daşıyıcılar tərəfindən ödənilməli olan gömrük rüsum və ya vergilərini ödəməlidir.

6. Fiziki şəxslər Azərbaycan Respublikasının gömrük sərhədindən keçərkən:

Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar, o cümlədən dövlət orqanlarının nəzarət siyahılarına aid edilməyən mallar sadələşdirilmiş qaydada bəyan edilir. Fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən malların təyinatı fiziki şəxsin səfərinin bütün halları nəzərə alınmaqla, malların gömrük sərhədindən fiziki şəxsin və

onun ailə üzvlərinin şəxsi istifadəsi və istehlakı məqsədləri üçün keçirildiyi yəqinləşdirilməklə, onların xassələri, miqdarı, habelə sərhəddən keçirilməsinin mütəmadiliyi əsasında gömrük orqanları tərəfindən müəyyən edilir.

Sadələşdirilmiş qaydada bəyanetmə yaşıl kanaldan istifadə etməklə yazılı bəyannamə təqdim edilməməyi nəzərdə tutur. Sadələşdirilmiş qaydada bəyanetmə fiziki şəxslər tərəfindən müşayiət olunan baqajda və əl yükündə keçirilən mallara şamil edilir, o şərtlə ki:

- Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların miqdarı və dəyəri (müşayiət olunmayan baqajlar istisna olmaqla) həmin malların gömrük ödənişləri alınmadan keçirilməsinə yol verilən miqdar və dəyərindən artıq olmasın;

- həmin mallara qadağalar və ya məhdudiyyətlər qoyulmasın;

- Gömrük ödənişlərinə cəlb olunan mallar olduqda isə həmin mallar yazılı formada bəyan edilməli və “Qırmızı kanal”dan istifadə edilməlidir .

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən əşyalar sərhəd keçid məntəqələrində gömrük orqanlarına bəyan edilir. Bəyannamə Azərbaycan, ingilis, rus dillərində doldurulur, gömrük orqanının icazəsi ilə isə gömrük orqanının vəzifəli şəxsinin bildiyi başqa dillərdə də doldurula bilər. Bəyannamə 16 yaşına çatmış fiziki şəxs tərəfindən doldurulur. 16 yaşına çatmamış fiziki şəxslərin malları haqqında məlumat onları müşayiət edən şəxslərin bəyannaməsində göstərilir. Bəyannamədə mallar haqqında məlumatlar öz əksini tapmalıdır.

Fiziki şəxslər istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan aşağıdakı malları gömrük ödənişləri ödəmədən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirə bilərlər:

- səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan şəxsi əşyalar;

- ümumi gömrük dəyəri 1500 ABŞ dolları ekvivalenti məbləğindən (müşayiət edilən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə 500 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan mallar;

- gömrük ərazisindən aparılan mallar;

- beynəlxalq poçt göndərişləri və ya daşıyıcı şirkət vasitəsilə eyni fiziki şəxsin adına 30 (otuz) gün müddətində ümumi gömrük dəyəri 1000 ABŞ dollar ekvivalenti məbləğindən artıq olmayan gömrük ərazisinə gətirilən mallar;

- beynəlxalq poçt göndərişləri və ya daşıyıcı şirkət vasitəsilə gömrük ərazisindən

göndərilən mallar;

- avtomobilin konstruksiyasında nəzərdə tutulmuş yanacaq bakının tutumu həcmində yanacaq;

- Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçməyən dərman vasitələri də daxil olmaqla, şəxsi istifadə üçün zəruri olan miqdarda dərman vasitələri;

- müvəqqəti qalma müddətində, istehsal və kommersiya məqsədləri üçün idxal olunmuş istənilən mal istisna olmaqla, mədəniyyət, turizm, idman, peşəkar görüşlər, səhiyyə, tədris və sair məqsədlərlə səyahətin bütün şərtləri nəzərə alınmaqla, səyahət boyu xarici səyahətçinin şəxsi istifadəsi üçün müvəqqəti keçirilən mallar;

- Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada açılmış vərəsəlik (наследник) hüququ əsasında əldə edilmiş əşyalar (müvafiq təsdiqedici sənəd təqdim edilməklə);

- 18 yaşına çatmış hər bir fiziki şəxs tərəfindən şəxsi istifadə üçün keçirilən 3 litr alkoqollu içki və 600 ədəd siqaret;

- 10 kiloqrama qədər ərzaq məhsulları (nərə cinsli balıq istisna olmaqla);

- 125 qrama qədər nərə cinsli balıq kürüsü (икра);

- əcnəbi (иностранец )əməkçi miqrant Azərbaycan Respublikasında, Azərbaycan Respublikasının vətəndaşı olan əməkçi miqrant xarici ölkədə əmək fəaliyyətinə başlamaq və əmək fəaliyyətini başa vurduqdan sonra qayıtmaq üçün gömrük sərhədini keçərkə onun şəxsi əşyaları, məişət avadanlıqları, əmək fəaliyyəti üçün zəruri olan alətlər.

- Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşları və diplomatic xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin hərbi qulluqçuları tərəfindən müvafiq təsdiqedici sənəd (müvafiq olaraq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən xarici ölkəyə ezam olunmuş (командировка) əməkdaşın geri çağırılma əmrinin müvafiq qaydada təsdiq olunmuş surəti) təqdim edilməklə, onların xaricdə işlədikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın, o cümlədən avtonəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsinə görə gömrük ödənişləri tutulmur.

Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları:

Rezidentlər tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 ABŞ dolları ekvivalentinədək olduqda "Sərnişin gömrük bəyannaməsi" ilə, 10.000 ABŞ dolları ekvivalentindən yuxarı olduqda isə "Sərnişin gömrük bəyannaməsi" və " Gömrük vəsiqəsi" ilə rəsmiləşdirilir.

Rezidentlər tərəfindən adambaşına 10.000 ABŞ, qeyri-rezidentlər isə 1000 ABŞ dollar ekvivalenti məbləğdə valyuta sərvətləri (fond sərvətləri istisna olmaqla) sənəd təqdim edilmədən, gömrük orqanlarına bəyan edilməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxarıla bilər.

Rezidentlər və qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50.000 ABŞ dolları ekvivalentinədək məbləği müvafiq təsdiqedici sənədlər əsasında gömrük orqanlarında bəyan etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.

Müvafiq dövlət orqanlarının razılığı ilə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli, 769 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları"nın 3-cü bəndinə əsasən xidməti və

mülki silahın, onun döyüş sursatının Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin xüsusi icazəsi ilə həyata keçirilir.

Azərbaycan Respublikasının "Dini etiqad (вера, убеждение) azadlığı haqqında" 20.08.1992-ci il tarixli 281 nömrəli Qanununun 22-ci maddəsinə əsasən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı əsasında dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materialları.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Fiziki şəxslər tərəfindən istehsal,

yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallarm gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın təsdiq edilməsi barədə 14.10.2013-cü il tarixli 305 nömrəli Qərarının 4.2-ci bəndinə əsasən əlillər üçün xüsusi

olaraq hazırlanmış avtonəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsinə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Mudafiəsi Nazirliyinin təsdiqedici sənədi əsasında güzəştli qaydada (gömrük ödənişləri alınmadan) icazə verilir.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının 10.04.1998-ci il tarixli 470-IQ nömrəli Qanununun 16-cı maddəsinə əsasən sənədli abidələr elmi-təbliğat (пропаганда) və mədəni mübadilə məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin icazəsi ilə Azərbaycan Respublikasının gömrük ərazisindən kənara müvəqqəti aparıla bilər.

Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" 21.12.2012-ci il tarixli 506 IVQ nömrəli Qanununun 42.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mühafizə siyahısına daxil edilmiş mədəniyyət sərvətləri xüsusi rejim əsasında verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ixracın mümkünlüyü barədə verdiyi şəhadətnamə Azərbaycan Respublikasının gömrük orqanına təqdim edildiyi və komissiyon dəyərinin 100 faizi məbləğində gömrük rüsumu ödənildikdən sonra, mühafizə dərəcəsi verilməmiş mədəniyyət sərvətləri isə sərbəst surətdə Azərbaycan Respublikasının gömrük ərazisindən aparıla bilər.

Ölmüş şəxslər, tabutdakı meyitlər və urnadakı küllər Azərbaycan Respublikasından aparılarkən Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanlar tərəfindən Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 31.10.2003-cü il tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nın 1.5-ci maddəsinə müvafiq olaraq verilən ölüm haqqında şəhadətnamə ya onun notariat qaydada təsdiq edilmiş surəti (zərurət olduqda sanitariya-epidemioloji orqanların rəyi və qəbul edən ölkənin qanunvericiliklə tələb olunan digər sənədlər), Azərbaycan Respublikası ərazisinə gətirilərkən və ya tranzit keçirilərkən isə göndərən ölkənin səlahiyyətli orqanı tərəfindən verilmiş ölüm haqqında şəhadətnamə və ya onun surəti gömrük orqanına təqdim edilərkən icazə verilir.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli, 769 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları”nın 4-cü bəndinə əsasən Mülki silahın nadir nüsxələrinin Azərbaycan Respublikasından aparılması Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin razılığı ilə DİN-in xüsusi icazəsi əsasında qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Azərbaycan Respublikasının muzey fonduna daxil olan silahlar və onların döyüş sursatı Azərbaycan Respublikasından müvafiq sərgilərin təşkili və keçirilməsi məqsədi ilə DİN-in razılığı ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xüsusi icazəsi əsasında qanunvericiliklə müəyyən edilmiş qaydada müvəqqəti olaraq aparıla bilər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin ”Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları”nın təsdiq edilməsi haqqında 21 aprel 2009-cu il tarixli, 66 nömrəli Qərarının 4.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin qanunvericiliklə müəyyən edilmiş sənədləri əsasında heyvanlar, baytarlıq preparatları və ləvazimatları; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı ilə təsdiq edilmiş “Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkra ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin

qanunvericiliklə müəyyən edilmiş sənədləri əsasında bitkilər və bitkiçilik məhsulları, həmçinin bitki mühafizə vasitələri və aqrokimyəvi maddələr.

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 07.01.2009-cu il tarixli 2 nömrəli Qərarına əsasən "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya (CİTES) üzrə inzibati orqanın - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi CİTES İcazə/sertifikatına əsasəт kökünün kəsilmə təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri (CİTES növləri), habelə dənizdən introduksiya. (переселение жив. случайно или намеренно)

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən

keçirilməsi qadağan olunan mallar.

*(Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 214-215-ci maddələrinə, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli 564 nömrəli Qanununa, "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli 565 nömrəli Qanununa, "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 fevral 2006-cı il tarixli 42 nömrəli Qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 dekabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların Siyahısı"na əsasən)*

Ölkə ərazisinə gətirilməsi qadağan olunmuş mallar:

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövriyyəsi qadağan olunmuş xidməti və mülki silahlar, hərbi təyinatlı bütün əşyalar, partlayıcı maddələr, hərbi texnika;

- radioaktiv maddələr ;

- narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, onlardan istifadə üçün ləvazimat;

- əxlaq pozğunluğunu, zorakılığı, terrorizmi təbliğ və reklam edən materiallar;

- narkotik vasitələrin, psixotrop, zəhərləyici, partlayıcı maddələrin hazırlanması texnologiyasına aid materiallar;

Beynəlxalq poçt göndərişləri vasitəsi ilə alınması qadağan olunmuş mallar:

- yuxarıda qeyd olunan ölkə ərazisinə gətirilməsi qadağan olunan mallar;

- pulların və poçt ödənişi nişanlarının buraxılması üçün avadanlıqlar;

- insan orqanları və (və ya) toxumaları;

- canlı heyvanlar;

- tezalışan maddələr;

- zəhərli və toksikoloji maddələr;

- bioloji və infeksion maddələr;

- civə (ртуть), kimyəvi reaktivlər və turşular;

- tez xarab olan qida məhsulları;

- öz xüsusiyyətlərinə və ya qablaşdırılmasına görə poçt işçiləri üçün təhlükə yarada bilən, digər poçt göndərişlərinin və poçt avadanlıqlarının zədələnməsinə, xarab olmasına və ya çirklənməsinə səbəb olan göndərişlər.

Ölkə ərazisindən aparılması qadağan olunmuş mallar:

- aparılmasına və ya göndərilməsinə, gətirilməsinə və ya alınmasına Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi olmayan zooloji kolleksiyalar, onların hissələri və ya ayrı-ayrı obyektləri, o cümlədən heyvanlar aləmi obyektləri;

- qiymətli ağac cinsləri (qoz, şabalıd, cökə, palıd, fıstıq, dəmir ağacı);

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövriyyəsi qadağan olunmuş xidməti və mülki silahlar, hərbi təyinatlı bütün əşyalar, partlayıcı maddələr, hərbi texnika;

- radioaktiv maddələr;

- narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, onlardan istifadə üçün ləvazimat;

- əxlaq pozğunluğunu, zorakılığı, təbliğ və reklam edən materiallar;

- narkotik vasitələrin, psixotrop, zəhərləyici, partlayıcı maddələrin hazırlanması texnologiyalarına aid materiallar;

- xüsusi məxfi rabitə vasitələri, onların şifrləri və istismarı haqqında ədəbiyyat;

- Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin operativ istintaq fəaliyyəti üzrə informasiya sistemləri, sənədləri və arxivləri;

- dövlət əhəmiyyətli sənədlər, ixtiralar (изобретение), layihələr;

- Azərbaycan Respublikasının Qırmızı Kitabına düşmüş nadir bitkilər, maral və cüyür (косуля) buynuzları;

- müvəqqəti sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla Azərbaycan Respublikasının milli mədəniyyət əmlakı Dövlət Siyahısına daxil olan milli mədəniyyət əmlakı olan obyektlər;

- məlumat daşıyıcılarının məzmununun oxunması halı mümkün olmadıqda, onlar Azərbaycan Respublikasının gömrük sərhədindən buraxılmır;

- silah və onun döyüş sursatlarının fiziki şəxslər tərəfindən göndərilməsinə yol verilmir.

Beynəlxalq poçt göndərişləri vasitəsi ilə göndərilməsi qadağan olunmuş mallar:

- yuxarıda qeyd olunan ölkə ərazisindən aparılması qadağan olunan mallar;

- pulların və poçt ödənişi nişanlarının buraxılması üçün avadanlıqlar;

- insan orqanları və (və ya) toxumaları;

- canlı heyvanlar;

- tezalışan maddələr;

- zəhərli və toksikoloji maddələr;

- bioloji və infeksion maddələr;

- civə, kimyəvi reaktivlər və turşular;

- insanın şərəf və ləyaqətini alçaldan, milli və dini hissiyyatını təhqir edən materiallar;

- tez xarab olan qida məhsulları;

- öz xüsusiyyətlərinə və ya qablaşdırılmasına görə poçt işçiləri üçün təhlükə yarada bilən, digər poçt göndərişlərinin və poçt avadanlıqlarının zədələnməsinə, xarab olmasına və ya çirklənməsinə səbəb olan göndərişlər;

- təyinat ölkəsinin idxalına qadağa qoyduğu mal və əşyalar;

- odlu silah və onun döyüş sursatı;

- Dövlət gerbi həkk (гравировка) olunmuş sənədlərin əsli;

- dövlət kəmiyyət vahidləri etalonları;

- Dövlət Arxiv Fondunun sənədləri.

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə məhdudiyyət qoyulan mallar.

- hərbi silah və sursat istehsal etmək üçün avadanlıq;

- döyüş təyinatlı hərbi texnikanı istehsal etmək üçün avadanlıq;

- xidməti və mülki silah;

- kosmik-peyk rabitə vasitələri, xüsusi məxfi rabitə vasitələri və şifrləri, bu vasitələrin və şifrlərin istehsalı üçün nəzərdə tutulan avadanlıq;

- qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələri;

- ionlaşdırıcı şüa mənbələri, o cümlədən radioaktiv maddələr, belə mənbələrin və maddələrin istehsalı üçün nəzərdə tutulan avadanlıq, təsərrüfat-məişət və tibbi əhəmiyyətli aparatlar istisna olmaqla, şüa verən aparatlar;

- qiymətli kağızların çap edilməsi üçün avadanlıq və belə avadanlığın istehsalı üçün avadanlıq;

- qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan

narkotik vasitələr, psixotrop maddələr, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq;

- partlayıcı maddələr və qurğular, tez alışan maddələr və pirotexniki məmulatlar;

- ozondağıdıcı maddələr və tərkibində belə maddələr olan məhsullar;

- narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələr, həmin maddələri hazırlamaq və ya emal etmək üçün avadanlıq;

- gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələr;

- radiomüşahidə və radionəzarət aparmaq üçün geniş tezlik diapazonlu radioqəbuledici qurğular;

- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən güc meyarı həddindən artıq olan radioötürücülər;

- əməliyyat-axtarış fəaliyyəti subyektlərinin, hərbi qulluqçuların və prokurorluq işçilərinin fərqlənmə nişanlan olan hərbi və xüsusi geyim formaları;

- elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulan genetic modifikasiya olunmuş bitkilər, həmçinin müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları.

Azərbaycan Respublikası gömrük sərhədindən keçirilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi Qaydaları:

Fiziki şəxslər tərəfindən gömrük ərazisinə avtonəqliyyat vasitələri gətirilərkən, gömrük rəsmiləşdirilməsi xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə, qanunla müəyyən edilmiş digər tələblərə və təsdiqedici sənədlərə uyğun olaraq gömrük ödənişləri alınmaqla, sadələşdirilmiş qaydada həyata keçirilir.

Sükanı sağ tərəfdə olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi və dövlət qeydiyyatına alınması qadağandır.

Xarici dövlətlərdə daimi qeydiyyatda olmayan və ya qeydiyyatdan çıxarılmış avtonəqliyyat vasitələrinin (tranzit qaydada keçən avtonəqliyyat vasitələri istisna olmaqla) gömrük ərazisinə müvəqqəti olaraq gətirilməsinə icazə verilmir.

Xarici dövlətlərdə daimi qeydiyyatda olan XİFMN-in 8703 və 8711 mal mövqelərinə aid avtonəqliyyat vasitələrinin və onların qoşqularının (упряжь) (yarımqoşqularının) qeyrirezidentlər tərəfindən müvafiq təsdiqedici sənədlə gömrük ərazisinə müvəqqəti olaraq gətirilməsinə 90 (doxsan) gün müddətinədək, bu müddətin uzadılmasına görə isə Gömrük Məcəlləsinin 258-ci maddəsi ilə müəyyən edilmiş gömrük borcunun ödənilməsinin təmin edilməsi üçün təminat üsullarının tətbiqi ilə 1 (bir) ildən artıq olmamaq şərtilə həmin şəxsin vizasında və ya Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsində, yaxud əcnəbinin və ya vətəndaşlığ olmayan şəxsin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması haqqında qərarda göstərilən müddətə icazə verilir.

Xarici dövlətlərdə daimi qeydiyyatda olan avtonəqliyyat vasitələrinin rezidentlər tərəfindən gömrük ərazisinə müvəqqəti olaraq gətirilməsinə Gömrük Məcəlləsinin 258-ci maddəsi ilə müəyyən edilmiş gömrük borcunun ödənilməsinin təmin edilməsi üçün təminat üsullarının tətbiqi ilə 1 (bir) ildən artıq olmayan müddətə icazə verilir və həmin avtonəqliyyat vasitələrinin müvəqqəti qeydiyyat müddəti artırılmır.

Müvəqqəti qeydiyyat vaxtı bitdikdə, avtonəqliyyat vasitələri gömrük ərazisindən geri aparılmalı və ya xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun gömrük ödənişləri alınmaqla, sadələşdirilmiş qaydada rəsmiləşdirilməlidir.

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasında daimi qeydiyyatda olan avtonəqliyyat vasitələrinin 2 (iki) il müddətinə gömrük ərazisindən kənara müvəqqəti aparılmasına və ya qeydiyyatdan çıxarılması şərtilə daimi aparılmasına icazə verilir.

Fiziki şəxslər tərəfindən avtonəqliyyat vasitələrinin gömrük sərhədindən tranzit keçirilməsi və ya gömrük rəsmiləşdirilməsinin həyata keçiriləcəyi gömrük orqanına çatdırılması həmin avtonəqliyyat vasitələrinin digər şəxslərin istifadəsinə və ya sərəncamına verilməmək şərtilə 72 saat ərzində yerinə yetirilməlidir.

Gömrük ərazisinə 30 (otuz) gündən artıq müddətə müvəqqəti gətirilmiş avtonəqliyyat vasitələrinə müvəqqəti dövlət qeydiyyat şəhadətnaməsinin və qeydiyyat nişanlarının verilməsi nəqliyyat vasitələrinin geriyə qaytarılması barədə onun sahibinin öhdəçilik götürməsilə və müvafiq gömrük orqanı tərəfindən gömrük vəsiqəsi (müvafiq icazə sənədi) tərtib edilməklə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının

Qanununa uyğun olaraq nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqan tərəfindən həyata keçirilir.

Gömrük ərazisinə daimi gətirilmiş avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatının

aparılması, daimi uçota alınması, dövlət qeydiyyat şəhadətnaməsinin və qeydiyyat nişanlarının verilməsi müvafiq gömrük orqanı tərəfindən gömrük vəsiqəsi tərtib edilməklə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqan tərəfindən həyata keçirilir.

Fiziki şəxslər tərəfindən mülki silahların, onların döyüş sursatlarının Azərbaycan

Respublikasına gətirilməsinə verilən xüsusi icazənin etibarlılıq müddəti altı aydır. Xidməti və mülki silah, onların döyüş sursatları Azərbaycan Respublikasının gömrük

ərazisinə rezidentlər tərəfindən gətirilə bilər.

Qeyri-rezidentlər tərəfindən mülki (гражданский) silah Azərbaycan Respublikasına yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada silah sərgisində və ya idman yarışlarında istifadə edilməsi və ov edilməsi məqsədilə müvəqqəti gətirilə bilər.

Xidməti və mülki silahlara dair Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin verdiyi xüsusi icazə etibarnamə ilə başqa fiziki və ya hüquqi şəxsə verilə bilməz.

Qeyri-rezidentlər vətəndaşı olduğu dövlətlərin nümayəndəliyinin vəsatətinə (ходотайство) əsasən Daxili İşlər Nazirliyi tərəfindən verilmiş xüsusi icazəsi əsasında alındığı vaxtdan beş gündən gec olmayaraq Azərbaycan Respublikasının gömrük ərazisindən kənara çıxartmaq şərti ilə mülki silahları, onların döyüş sursatlarını əldə edəbilərlər. Alınan silahların və onların döyüş sursatlarının Azərbaycan Respublikasının ərazisindən aparılma müddəti pozularsa, həmin silah və döyüş sursatları müsadirə olunur.

Mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları:

Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mədəniyyət sərvətləri

gömrük orqanına mütləq yazılı formada bəyan edilməlidir. Milli mədəniyyət əmlakı olan sərvətlər Azərbaycan Respublikasının gömrük ərazisindən kənara, yalnız müvəqqəti sərgi, qastrol səfərləri, prezentasiya, bərpa işləri və beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi zamanı bir qayda olaraq il ərzində altı aydan çox olmamaq şərti ilə buraxılır. Milli arxiv fonduna daxil olan sənədlərin orijinalları və ya onları əvəz edən nüsxələri müəyyən olunmuş qaydada ən çoxu üç ay müddətində Azərbaycan Respublikasının

hüdudlarından kənara çıxarıla bilər. Azərbaycan Respublikasının gömrük sərhədindən mədəniyyət sərvətlərini müvəqqəti keçirən şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada gömrük orqanına onların geri qaytarılması haqqında öhdəlik təqdim etməlidir.

Malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyyanetməsi.

Suallar:

1. Bəyanetmə gömrük rəsmiləşdirilməsinin əsas mərhələsi kimi.
2. Bəyanetmə formaları və gömrük bəyannaməsinin verilmə müddəti.
3. Yük gömrük bəyannamələrinin doldurulması qaydaları.
4. Sadələşdirilmiş bəyannamələr.
5. Əlavə, dövri və natamam bəyannamələr.
6. Gömrük bəyannaməsində göstərilən məlumatların, müvafiq sənədlərin və malların yoxlanılma müddətləri.
7. Nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması haqqında məlumatın gömrük orqanlarına təqdim edilməsi.

1. Gömrük Qanunvericiliyində bəyanetmə dedikdə, gömrük rəsmiləşdirilməsi icraatı və gömrük nəzarətinin həyata keçirilməsi məqsədləri ilə mal və nəqliyyat vasitələri barədə səhih məlumatların müəyyən edilmiş formada gömrük orqanlarına elan edilməsi başa düşülür. (146.)

Bir qayda olaraq bəyanetmə aşağıdakı əsas hallarda tələb olunur:

1) mal və nəqliyyay vasitələri – Az R-nın gömrük sərhədindən keçirildikdə;
2) malların yerləşdirildiyi gömrük rejimi bu və ya digər səbəbdən Gömrük Məcəlləsinin maddələrinə müvafaiq olaraq dəyişdirildikdə;

3) Az R-sı Qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.

Bəyanetmə gömrük-tarif tənzimlənməsi mexanizmi üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. Ilkin gömrük tarif münasibətlərində gömrük vergi və rüsumlarının ödənilməsi ilə bağlı öhdəliklər gömrük orqanının vəzifəli şəxsi tərəfindən gömrük bəyannaməsinin qəbul edilməsi ilə bağlıdır.

Bəyanetmənin forması və qaydaları, həmçinin gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilələk rəsmi nəşrlərdə dərc olunur və müvafiq icra hakimiyyəti orqanlarının rəsmi internet saytlarında yerləşdirilir.

Müvafiq icra hakimiyyəti orqanı gömrük orqanlarının bəyanetmə ilə bağlı fəaliyyət zonasını və funksiyalarını, habelə malların yerləşdirildiyi gömrük prosedurlarının xüsusiyyətlərini nəzərə alaraq, iş günlərini və saatlarını müəyyən edir.

Sərbəst zona xüsusi gömrük proseduru istisna olmaqla, başqa gömrük prosedurları altında yerləşdirilməsi nəzərdə tutulan daxili mallar həmin gömrük rejiminə uyğun olaraq gömrük bəyannaməsi ilə təmin edilməlidir.

Gömrük sərhədindən keçirən malların və nəqliyyat vasitələrinin sahibi, yaxud onunla bağlanılan müqavilə əsasında gömrük brokeri bəyannaməçi ola bilər.

Gömrük bəyannaməsinin təsdiq edilməsi şəxsin üzərinə xüsusi öhdəliklər qoyduğu hallarda, gömrük bəyannaməsi yalnız həmin şəxs tərəfindən və ya onun adından çıxış edən şəxs tərəfindən verilməlidir.

Malları və nəqliyyat vasitələrini bəyan edən bəyannaməçinin vəzifələri aşağıdakılardır:

- malları və nəqliyyat vasitələrini Gömrük Məcəllədə nəzərdə tutulan qaydada bəyan etmək;

-malları və nəqliyyat vasitələrini gömrük orqanlarının tələbi ilə təqdim etmək;

- gömrük məqsədləri üçün lazım olan sənədləri və məlumatları gömrük orqanlarına təqdim etmək;

- gömrük ödənişlərini ödəmək;

- gömrük orqanlarına gömrük rəsmiləşdirilməsində yardım göstərmək.

Bəyannaməçinin gömrük bəyannaməsini gömrük orqanlarına təqdim etməzdən əvvəl malları və nəqliyyat vasitələrini gömrük nəzarəti altında müayinə etmək, onları ölçmək, həmçinin gömrük orqanlarının icazəsi ilə onlardan prob və nümunələr götürmək hüququ vardır.

Gömrük bəyannaməsi məlumatların elektron emalı üsullarından istifadə olunmaqla gömrük orqanlarına təqdim edilir. Malların bəyan edildiyi gömrük rejimi altında yerləşdirilməsi üçün tələb olunan müvafiq sənədlər də həmin qaydada təqdim oluna bilər.

**2.** Bəyanetmə qanunvericilikdə nəzərdə tutulmuş hallarda şifahi, kağız üzərində yazılı formalarda və ya müvafiq malların gömrük rejimi altında yerləşdirilməsinə şərait yaradan digər üsullarla da həyata kecirilə bilər.

***Gömrük ərazisinə gətirilən mallara dair gömrük bəyannaməsi həmin mallar gömrük ərazisinə gətirilən yerdəki gömrük orqanına, daxili tranzit xüsusi gömrük proseduru həyata keçirildikdə isə təyinat gömrük orqanına təqdim edildiyi tarixdən 15 (on beş) gündən gec olmayaraq verilməlidir.***

Bu göstərilən müddət bəyannaməçi tərəfindən müvafiq sənədlərin və məlumatların toplanması üçün kifayət etmədikdə, onun əsaslandırılmış müraciəti əsasında gömrük orqanı həmin müddəti uzadır. Gömrük bəyannaməsinin təqdim edilməsi müddətinin uzadılmasına malların müvəqqəti saxlanc xüsusi gömrük rejimi altında qalma müddəti çərçivəsində yol verilir.

***Gömrük ərazisindən aparılan mallara dair gömrük bəyannaməsi həmin mallar gömrük ərazisindən çıxarılarkən verilməlidir.***

Malları daşıyan nəqliyyat vasitələri mallarla eyni vaxtda bəyan edilir. Dəniz, çay və hava gəmiləri gömrük ərazisində daxil olduqları, yaxud yola düşdükləri su və hava limanında bəyan edilir.Yüksüz və sərnişinsiz nəqliyyat vasitələri gömrük sərhədindən keçərkən bəyan edilir.

Gömrük bəyannaməsi malların bəyan edildiyi gömrük rejimi tətbiqi üçün lazım olan bütün məlumatları özündə əks etdirməlidir. Elektron formada təqdim olunan gömrük bəyannaməsində elektron imza və ya bəyannaməçinin eyniləşdirilməsinə imkan verən digər vasitələr olmalıdır. Kağız üzərində yazılı formada təqdim olunan gömrük bəyannamələri bəyannaməçi tərəfindən imzalanmalı, hüquqi şəxs olan bəyannaməçi tərəfindən həmçinin möhürlə təsdiq edilməlidir.

Gömrük bəyannaməsinin forması və malların bəyan edildiyi gömrük rejimi altında yerləşdirilməsi üçün onunla birgə təqdim olunan sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilələk rəsmi nəşrlərdə dərc olunur və müvafiq icra hakimiyyəti orqanlarının rəsmi internet saytlarında yerləşdirilir.

3. Mallari gömrük sərhədindən keçirərkən bəyanetmə zamanı fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar istisna olmaqla Yük Gömrük Bəyannamədən istifadə olunur. Yük gömrük Bəyannaməsinin doldurulma Qaydaları 1998-ci il tarixli 027 saylı əmri ilə təstiq olunmuşdur.

YGB dəsti 4 dəstləşdirilmiş əsas vərəqdən, və əlavə vərəqlərdən ibarətdir. Barter əməliyyatlarının rəsmiləşdirilməsi zamanı YGB dəsti 5 nüsxədən ibarət olur.

YGB-nin əsas vərəqi eyni bir gömrük rejimi tətbiq olunan eyniadlı mallar haqqında məlumatları göstərmək üçün istifadə olunur.

Bir necə adda olan malların bəyan olunması zamanı əsas JGB-nin ayrılmaz hissəsi olan əlavə vərəqlərdən istifadə edilir. Əlavə vərəqlərin hər biri 3 adda malı bəyan etməyə imkan verir.

Bir YGB-də 100-ə qədər adda olan mallar barəsində (eyni zamanda əsas vərəqə 33-dən artıq əlavə vərəq əlavə oluna bilməz) məlumat bəyan oluna bilər.

YGB-də pozub-düzəltmə və qaralama olmamalıdır. Düzəlişlər yanlış məlumatların üzərindən xətt çəkilməklə, düzgün məlumatları yazmaqla edilir. Hər bir düzəliş səlahiyyətli şəxsin imzası və bəyannaməçinin möhürü ilə təsdiq edilir.

Keyfiyyətsiz şəkildə doıdurulmuş YGB-lərə gömrük orqanları tərəfindən gömrük bəyannaməsi kimi baxılmır.

YGB-nin əsas vərəqinin arxa tərəfdə digər nəzarət orqanlarının ştamplar vurması və qeydlər aparılması üçün icazə verilir.

Gömrük orqanı YGB-nin əsas vərəqəsinin 7-ci qrafasında və hər bir A qrafasının aşağı hissəsinə qeydiyyat nömrəsi, YGB-nin qəbul tarixini yazmaqla, bəyannamə və əlavə vərəqləri qeydiyyatdan keçirir.

YGB-nin verəqləri aşağıdakı qaydada bölüşdürülür:

- birinci vərəq – gömrük orqanında və xüsusi arxivdə saxlanılır;
- ikinci vərəq – gömrük statistika şöbəsində qalır;
- üçüncü vərəq – bəyannaməçiyə qaytarılır;
- dördüncü vərəq:

a) malların ixracı zamanı bəyannaməçiyə - yük göndərənə qaytarılaraq, mal müşayiət sənədlərlə birlikdə sərhəd gömrük büraxılış məntəqəsinin fəaliyyət bölgəsində yerləşən gömrük orqanına göndərilir;

b) malların idxalı zamanı – gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanının gömrük dəyəri şöbəsində qalır.

YGB-nin əsas vərəqləri 54 rəqəmli və 4 (A, B, C, D) hərifli qrafaları özündə birləşdirir.

Yük Gömrük Bəyannaməsinə əlavə olunan sənədlər

- Müqavilə baglıyan təşkilatın sənədləri: təşkilatın nizamnaməsi, təsisedici müqaviləsi, arayışlar:dövlət statika komitəsindən,vergi orqanlarda qeydiyyatdan kecməsi barədə, yerin icarə müqaviləsi, bəyanməçiyə verilən etibarnaməsi, broker müqaviləsi,son dövr üzrə mühasibat balansı, müəssisənin direktor və baş mühasib vəzifələrinə təyin edilməsi barədə qərar, bankda hesabat açmaq barəsində arayışlar, müəssisənin ümumi direktorun, baş mühasidin və bəyannaməçinin vəsiqələrin sürətləri.
- **Mal müşayiət sənədləri:** alqı-satqı müqaviləsi, spesifikasiya, texniki sənədlər (mallın vəsiqəsi, təsviri, formulyarlar), invoys (hesab-faktura),yüklənmə spesifikasiyası, qablaşdırma vərəqi, yüklənmə orqeri, sigorta polisi, lisenziya, mənşəiyət sertifikatı – forma “A”, “ST-1”, uyğunlug sertifikatı, keyfiyyət sertifikatı,təhlükəsizlik sertifikatı,fitosanitar, baytarlıq sertifikatı. **Nəqliyyat-daşınma sənədləri:** daşınma müqaviləsi, konosament, karnet TİR-BYD, mal-nəqliyyat fakturası- aviayük, dəmiryol, avtonəqliyyat.,baqaj qəbzləri, vaqon vərəqləri, yol cədvələri. **Bank-ödəmə sənədləri:** hesab – ödəniş tələbi, akkreditiv məktubu, inkasso tapşırıgı, gömrük ödənişləri ödənilməsi üzrə ödənc tapşırığı, idxal sövdələşmə vəsiqəsi, bank təminatı.

Ayrı-ayrı sənədlər üzrlü səbəblərə görə gömrük bəyannaməsi ilə birlikdə təqdim edilə bilmədiyi hallarda, bəyannaməçinin yazılı müraciəti əsasında gömrük orqanları həmin sənədlərin gömrük bəyannaməsi təsdiq edildikdən sonra təqdim edilməsinə icazə verirlər. Bu Məcəllədə ayrı-ayrı sənədlərin təqdim edilməsi üçün daha qısa müddət

müəyyən edilməmişdirsə, həmin sənədlər gömrük bəyannaməsi təsdiq edildiyi tarixdən 45 (qırx beş)  gündən gec olmayaraq gömrük orqanına təqdim edilməlidir. Bəyannaməçi sənədlərin vaxtında verilməsinə dair gömrük orqanına yazılı formada öhdəlik təqdim edir.

Gömrük orqanları təqdim olunan gömrük bəyannaməsini təsdiq edərkən, onun aşağıdakı şərtlərə uyğunluğunu yoxlayır (151):

- malların nəzərdə tutulan gömrük rejimi altında yerləşdirilərək gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsinin həmin gömrük orqanının səlahiyyətlərinə aid olmasını;

- gömrük bəyannaməsinin təqdim olunma vaxtının və yerinin gömrük qanunvericiliyi ilə müəyyən olunmuş tələblərə uyğunluğunu;

- gömrük bəyannaməsində idxalına, yaxud ixracına qadağa və ya məhdudiyyətlər qoyulmuş mallar haqqında məlumatın olub-olunmamasını;

- gömrük bəyannaməsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə uyğunluğunu;

- gömrük bəyannaməsi ilə birgə təqdim olunan sənədlərin mövcudluğunu (Gömrük Məcəlləsində müəyyən edilmiş qaydada sənədlərin sonradan təqdim olunduğu hallar istisna edilməklə) və onların qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməsini.

Gömrük bəyannaməsi Gömrük Məcəllənin maddələri ilə müəyyən edilmiş şərtlərə cavab vermədikdə və bəyannaməçi tərəfindən ona düzəliş edilməklə həmin çatışmazlıqların aradan qaldırılması mümkün olmadıqda, həmin bəyannamə gömrük orqanları tərəfindən təsdiq edilmir. Belə hallarda gömrük bəyannaməsində onun təsdiq edilməməsinin səbəbləri göstərilməklə, müvafiq qeyd aparılır.

Təsdiq edilməmiş gömrük bəyannaməsi və onunla birlikdə təqdim edilmiş sənədlər təqdim edildiyi tarixdən 1 (bir) gündən gec olmayaraq bəyannaməçiyə qaytarılır.

Gömrük bəyannaməsi müəyyən edilmiş şərtlərə cavab verdikdə, həmin bəyannamə təqdim olunduğu gün gömrük orqanları tərəfindən təsdiq edilir.

Gömrük bəyannaməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və müddətdə gömrük orqanının iş vaxtında təqdim olunur və təsdiq edilir. Təsdiq edildikdən sonra gömrük bəyannaməsi faktları təsdiq edən, hüquqi əhəmiyyətə malik sənəd sayılır.

Gömrük orqanları gömrük bəyannaməsinin təsdiqindən əsassız imtina edə bilməzlər.

Gömrük bəyannaməsinin gömrük orqanları tərəfindən təsdiqi tarixi malların bəyan edildiyi gömrük rejimin tətbiq olunduğu tarix hesab olunur.

Gömrük bəyannaməsi təsdiq edildikdən sonra bəyannaməçinin müraciəti əsasında həmin bəyannamədə düzəlişlərin aparmasına və ya onun geri götürülməsinə gömrük orqanları tərəfindən icazə verilir.

Aşağıdakı hallarda təqdim olunmuş gömrük bəyannaməsində düzəlişlər edilməsinə və ya onun geri götürülməsinə icazə verilmir:

- gömrük orqanları bəyannaməçiyə malları yoxlamaq niyyətində olduğunu bildirdikdən sonra;

- gömrük orqanları gömrük bəyannaməsindəki məlumatların düzgün olmadığını müəyyənləşdirdikdən sonra;

- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallar istisna olmaqla, gömrük orqanları tərəfindən malların buraxılışı həyata keçirdikdən sonra.

Gömrük bəyannaməsində aparılan düzəlişlər onun tətbiq sahəsini genişləndirə və ya məhdudlaşdıra bilməz.

Gömrük orqanlarının səlahiyyətinə aid olan məlumatların gömrük bəyannaməsinə daxil edilməsi halları istisna olmaqla, gömrük orqanlarının vəzifəli şəxsləri gömrük bəyannaməsini doldurmaq, gömrük bəyannaməsində göstərilən məlumatları dəyişdirmək və ya ona əlavələr etmək hüququna malik deyil.

Gömrük orqanları təsdiq olunmuş gömrük bəyannaməsini bəyannaməçinin müraciəti əsasında aşağıdakı hallarda ləğv edirlər:

- mallar dərhal başqa gömrük rejimi altında yerləşdirilməli olduqda;

- fors-major halları ilə əlaqədar malların bəyan edildiyi gömrük rejimi altında yerləşdirilməsi mümkün olmadıqda.

Gömrük orqanları bəyannaməçiyə malları yoxlamaq niyyətini bildirdikdə, gömrük bəyannaməsinin ləğvi barədə müraciətə yalnız müvafiq yoxlama aparıldıqdan sonra baxılır.

Gömrük bəyannaməsi malların buraxılışından sonra ləğv edilə bilməz.

Gömrük bəyannaməsinin ləğvi bəyannaməçinin qanunvericilikdə nəzərdə tutulmuş inzibati və ya cinayət məsuliyyətinə cəlb olunması üzrə tədbirlərin tətbiqini istisna etmir.

4. **Sadələşdirilmiş bəyannamələr** (155)

Müvafiq icra hakimiyyəti orqanı gömrük rəsmiləşdirilməsini təkmilləşdirmək məqsədi ilə malların və nəqliyyat vasitələrinin bəyan olunmasının sadələşdirilmiş qaydalarını müəyyən edir.

Aşağıdakı hallarda gömrük orqanlarına sadələşdirilmiş bəyannamələr təqdim edilir:

- səlahiyyətli iqtisadi operatorlar malları müvafiq gömrük rejimi altında yerləşdirərkən; (səlahiyyətli iqtisadi operator - Ümumdünya Gömrük Təşkilatının normaları və standartlarına uyğun olaraq, gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə edilməsinə bu Məcəlləyə əsasən səlahiyyət verilmiş hüquqi şəxs;

- yardım yüklərinin gömrük rəsmiləşdirilməsi zamanı;

- fiziki şəxslər istehsal və ya kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, lakin yazılı formada bəyan edilməli olan malları gömrük sərhədindən keçirərkən.

Sadələşdirilmiş bəyannamələr gömrük orqanlarının bəyannaməçinin elektron məlumat sistemindən məlumatlar əldə edə bilməsi və onların digər gömrük orqanları ilə mübadiləsi üçün lazım olan tələblərə cavab verməsi şərti ilə, bəyannaməçinin mallar və nəqliyyat vasitələri barədə hesabatı formasında ola bilər.

Səlahiyyətli iqtisadi operatorlara, istehsal və ya kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malları gömrük sərhədindən keçirən fiziki şəxslərə münasibətdə vəyardım yükləri üçün sadəl əşdirilmiş bəyannamənin ayrı-ayrı formalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Gömrük ərazisinə gətirilmiş mallar üzrə gömrük bəyannaməsi təqdim olunanadək qısa idxal bəyannaməsinin (113) verildiyi halları və onun formasını beynəlxalq standartlar və ticarət təcrübəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Qısa idxal bəyannaməsində risklərin təhlili, gömrük nəzarətinin düzgün aparılması üçün zəruri olan məlumatlar əks edilməlidir. Qısa idxal bəyannaməsi mallar gömrük ərazisinə gətirilməzdən əvvəl də elektron formada gömrük orqanlarına təqdim edilə bilər. Qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl təqdim edilməsi qaydalarını bu Məcəllənin tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Qısa idxal bəyannaməsinən istifadə edilməsi halları gömrük ərazisinin ərazi sularından və hava məkanından dayanmadan keçən nəqliyyat vasitələrində daşınan mallara şamil edilmir.

Qısa idxal bəyannaməsi məlumatların elektron emalı üsullarından istifadə olunmaqla, elektron sənəd formasında təqdim edilir. Qısa idxal bəyannaməsi gömrük orqanlarına kağız üzərində yazılı formada da təqdim edilə bilər. Həmin bəyannamə risklərin idarə olunmasını, məlumatların gömrük orqanları arasında mübadiləsini elektron formada verilən qısa idxal bəyannaməsinə analoji səviyyədə təmin etməsi şərti ilə gömrük orqanları tərəfindən təsdiq olunur.

Qısa idxal bəyannaməsi malları gömrük ərazisinə gətirən və ya daşınmasına cavabdeh olan şəxslər, onların nümayəndələri, idxalatçı, malın alıcısı, yaxud malları gömrük rəsmiləşdirilməsi üçün gömrük orqanına təqdim edən şəxs tərəfindən verilə bilər.

Aşağıda göstərilən hallar istisna olmaqla, qısa idxal bəyannaməsi təqdim edildikdən sonra onu təqdim edən şəxsin müraciəti əsasında həmin bəyannamədə düzəlişlərin aparmasına gömrük orqanları tərəfindən icazə verilir.

Aşağıdakı hallarda qısa idxal bəyannaməsinə düzəlişləri edilməsinə yol verilmir:

- gömrük orqanları qısa idxal bəyannaməsini təqdim etmiş şəxsə malları yoxlamaq niyyəti barədə məlumat verdikdən sonra;

- gömrük orqanları qısa idxal bəyannaməsindəki məlumatların düzgün olmadığını müəyyənləşdirdikdən sonra;

- gömrük orqanları malların təqdim olunmuş yerdən aparılmasına icazə verdikdən sonra.

Gömrük orqanları tərəfindən müəyyən edilmiş qısa idxal bəyannaməsinin təqdim edilməsinin mümkünlüyünün son müddəti başa çatmazdan əvvəl onu əvəz edən

gömrük bəyannaməsi təqdim edildikdə, həmin gömrük bəyannaməsinin aid olduğu mallar üçün qısa idxal bəyannaməsi gömrük orqanlarına təqdim edilmir. Bu halda qısa idxal bəyannaməsini əvəz edən gömrük bəyannaməsində onun üçün zəruri olan təfərrüatları əks etdirilməlidir.

**5.Əlavə, dövri və natamam bəyannamələr. (156)**

*Gömrük Məcəllənin maddələrində nəzərdə tutulmuş hallarda sadələşdirilmiş bəyannamə verildikdə, bəyannaməçi aidiyyəti gömrük rejimi üzrə gömrük bəyannaməsinin tamamlanması üçün lazım olan digər məlumatları əks etdirən əlavə bəyannamə təqdim etməlidir.*

***Gömrük orqanları eyni malları və nəqliyyat vasitələrini gömrük sərhədindən müntəzəm olaraq keçirən şəxsə onları müəyyən müddət ərzində bir dövri bəyannamə əsasında keçirməsinə icazə verirlər.***

***Bəyannaməçi gömrük bəyannaməsini üzrlü səbəblərə görə tam şəkildə doldura bilmədikdə, gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada natamam bəyannamənin verilməsinə icazə verirlər.*** Natamam bəyannamədə gömrük məqsədləri üçün lazım olan əsas məlumatlar göstərilməlidir. Çatışmayan məlumatlar bəyannaməçi tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və müddətdə təqdim edilməlidir. Əlavə, dövri və natamam bəyannamələrin formasını, təqdim olunması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Gömrük bəyannaməsində göstərilən məlumatların yoxlanılması** (157).

Gömrük orqanları təsdiq etdikləri gömrük bəyannaməsində göstərilən məlumatların, onunla birgə təqdim olunan sənədlərin düzgünlüyünü, müvafiq malları yoxlamaq, malların bəyan edildiyi gömrük rejiminin tətbiqi üçün Gömrük Məcəllənin maddəsinə əsasən çatışmayan başqa sənədlərin təqdim olunmasını tələb etmək,

malların gömrük ekspertizası üçün onlardan prob və nümunələr götürmək hüququna malikdirlər.

Gömrük bəyannaməsində göstərilən məlumatların gömrük orqanları tərəfindən yoxlanılmasının nəticələri bütün gömrük ərazisində eyni hüquqi qüvvəyə malikdir.

Yoxlamanın nəticələrindən malların yerləşdirildiyi gömrük rejiminin tətbiqi məqsədi ilə istifadə olunur.

Malların yoxlanıldığı, prob və nümunələrin götürüldüyü, ekspertizasının aparıldığı yerlərə daşınması, bununla əlaqədar yükləmə-boşaltma işləri və digər yük əməliyyatları bəyannaməçinin özü tərəfindən, yaxud onun məsuliyyəti altında həyata keçirilir. Bu zaman yaranan xərclər bəyannaməçi tərəfindən ödənilir.

Gömrük orqanları müəyyən edilmiş hallarda mallardan prob və nümunələri bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin iştirakı olmadan götürmək hüququna malikdirlər.

**6. Gömrük bəyannaməsində göstərilən məlumatların, müvafiq sənədlərin və malların yoxlanılma müddətləri.**

Gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanlarına təqdim olunan gömrük bəyannaməsində və digər sənədlərdə göstərilən məlumatların malların adlarına, mənşəyinə, sayına və dəyərinə uyğunluğunun yoxlanılması, gömrük bəyannaməsinin təsdiq edildiyi, sənədlərin və malların isə təqdim edildiyi vaxtdan 3 (üç) gündən gec olmayaraq həyata keçirilir. Gömrük qanunvericiliyində sənədlərin və malların yoxlanılması üçün daha qısa müddət müəyyənləşdirilə bilər.

Gömrük rəsmiləşdirilməsi üçün təqdim olunan malların adlar və növlər üzrə ayrı-ayrı qablaşdırılmaması gömrük orqanlarına gömrük bəyannaməsində göstərilən mallar haqqında məlumatların düzgünlüyünün yoxlanmasına imkan vermirsə, yuxarda göstərilən müddət mallar barəsində səlahiyyəti olan şəxslər və ya onların nümayəndələri

tərəfindən malların adlar və növlər üzrə ayırması üçün tələb olunan müddətədək gömrük orqanının qərarı ilə uzadılır. Bu müddət 7 (yeddi) gündən çox olmamalıdır.

Yoxlamanın nəticələri malların yerləşdirildiyi müvafiq gömrük rejiminin tətbiqi üçün istifadə edilir.

Gömrük ərazisindən aparılması nəzərdə tutulan mallar həmin ərazidən aparılmazdan əvvəl bəyan edilməlidir (125). Bəyanetmə aşağıdakı formalarda ola bilər:

- gömrük ərazisindən aparılan mallar gömrük bəyannaməsi tələb olunan gömrük rejimi altında yerləşdirildikdə, müvafiq gömrük bəyannaməsi;

- Gömrük Məcəlləsində nəzərdə tutulan təkrar ixrac bildirişi;

- gömrük bəyannaməsi və təkrar ixrac bildirişi tələb olunmadığı hallarda, Gömrük Məcəllənin maddəsində nəzərdə tutulan qısa ixrac bəyannaməsi.

Mallar gömrük ərazisindən aparılmazdan əvvəl təqdim olunan gömrük bəyannaməsində ən azı qısa ixrac bəyannaməsi üçün tələb olunan məlumatlar əks olunmalıdır.

Malların gömrük ərazisindən aparılmazdan əvvəl bəyan edilməsinin qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

### 7. Nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması haqqında məlumatın gömrük orqanlarına təqdim edilməsi. (131)

Gömrük ərazisinə daxil olması nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və formada (o cümlədən, elektron formada) aşağıdakılar barədə məlumatları gömrük orqanlarına əvvəlcədən təqdim edə bilər:

- nəqliyyat vasitəsinin gömrük ərazisinə gözlənilən daxilolma vaxtı;

- nəqliyyat vasitəsinin hərəkət istiqamətləri və marşrutları;

- nəqliyyat vasitəsinin heyəti və sərnişinləri;

- təyinatından və gətirilmə məqsədlərindən asılı olmayaraq, gömrük ərazisində boşaldılacaq yük;

- mövcud olduqda, gömrük ərazisində boşaldılması nəzərdə tutulmayan yük;

- nəqliyyat vasitəsinin daxil olacağı gömrük sahəsi.

Gömrük ərazisinə daxil olan nəqliyyat vasitəsinə görə məsul şəxs:

- nəqliyyat vasitəsi gömrük ərazisinin müəyyən olunmuş gömrük sahəsinə daxil olarkən daxilolma haqqında məlumatı gömrük orqanlarına təqdim etməli;

- gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən icazə verilənədək heç bir şəxsin nəqliyyat vasitəsini tərk etməsinə və ya oraya daxil olmasına imkan verməməli;

- nəqliyyat vasitəsinin gömrük sahəsi daxilində hərəkəti, malların nəqliyyat vasitəsindən boşaldılması, heyətin və başqa şəxslərin nəqliyyat vasitəsindən düşürdülməsi barədə gömrük orqanlarının vəzifəli şəxslərinin göstərişlərinə əməl etməlidir.

Nəqliyyat vasitəsinin gömrük ərazisinə daxil olduqdan sonrakı 1 (bir) saat müddətində gömrük orqanlarına daxilolma haqqında məlumat verilməlidir. Nəqliyyat vasitəsi gömrük ərazisinə gömrük orqanlarının iş vaxtından kənar saatlarda daxil olduqda, bu məlumat onların növbəti iş vaxtı başlandıqdan sonrakı 1 (bir) saat müddətində verilməlidir.

Tələb olunan məlumatlar gömrük orqanlarına nəqliyyat vasitəsinə görə məsul şəxslərin adından onların nümayəndəsi tərəfindən də təqdim oluna bilər.

Nəqliyyat vasitələri gömrük ərazisinə yüksüz və şərnişinsiz daxil olarkən, Gömrük Məcəllənin tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvafiq gömrük orqanına bəyan edilməlidir.

Gömrük ərazisinə daxil olan nəqliyyat vasitələrinin sahibləri, heyət üzvləri və sərnişinləri gömrük orqanlarının vəzifəli şəxslərinin nəqliyyat vasitəsi, onun hərəkət marşrutu, təyinat yeri, daşınan sərnişinlər, yaxud mallar barədə suallarını cavablandırmalı, Gömrük Məcəlləyə uyğun olaraq tələb olunan sənədləri təqdim etməlidirlər. (132).

Gömrük ərazisindən yola düşməsi nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs bu barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və formada (o cümlədən, elektron formada) gömrük orqanlarına əvvəlcədən təqdim edə bilər.

Gömrük orqanı bu məlumatı qeydə almaqla, sonrakı rəsmiləşdirmənin aparılması üçün nəqliyyat vasitəsinin yola düşəcəyi vaxtı və yeri müəyyən edir.

Nəqliyyat vasitələri gömrük ərazisindən yüksüz və sərnişinsiz yola düşərkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvafiq gömrük orqanına bəyan edilməlidir.

Gömrük orqanları gömrük ərazisində olan nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi aparılmadan onun bu ərazidən yola düşməsinə imkan verməməlidirlər. Bu maddənin müddəaları Azərbaycan Respublikasının ərazisində yerləşən dəniz, çay və ya hava limanlarında dayanmayan, gömrük ərazisindən keçən dəniz, çay və hava gəmiləri barəsində tətbiq edilmir.

Gömrük ərazisindən yola düşən nəqliyyat vasitəsinə görə məsul şəxsə həmin nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi haqqında sənəd verilməzdən əvvəl həmin şəxs aşağıdakı tələbləri yerinə yetirməlidir:

- yola düşmə haqqında məlumatı onu təsdiq edən sənədlərlə birlikdə gömrük orqanlarına təqdim etməli;

- gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən nəqliyyat vasitəsi, onun heyət üzvləri, sərnişinləri, yükü, nəzərdə tutulan hərəkət istiqaməti, marşrutu barədə verilən sualları cavablandırmalı;

- gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən nəqliyyat vasitəsi, onun heyət üzvləri, sərnişinləri, yükü, nəzərdə tutulan hərəkət istiqaməti, marşrutu ilə bağlı tələb olunan sənədləri təqdim etməli;

- nəqliyyat vasitəsi, onun heyət üzvləri, sərnişinləri, yükü, nəzərdə tutulan hərəkət istiqaməti, marşrutu ilə bağlı bu Məcəllənin və gömrük işi üzrə digər qanunvericilik aktlarının tələblərinə əməl etməlidir.

Nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi haqqında sənədin verildiyi nəqliyyat vasitəsinə görə məsul şəxs gömrük orqanlarının vəzifəli şəxslərinin tələbi ilə həmin sənədi yoxlamaq üçün onlara təqdim etməli, nəqliyyat vasitəsi, onun heyət üzvləri, sərnişinləri, yükü, nəzərdə tutulan hərəkət istiqamətləri, marşrutu ilə bağlı suallarını cavablandırmalıdır.

7. XİF gömrük tarif tənzimlənməsi.

Suallar:

1. Gömrük tarifinin mahiyyəti.
2. Gömrük tarif tənzimləmələrinin hüquqi və iqtisadi əsasları.
3. Gömrük rüsumları və rüsum dərəcələrinin növləri.
4. Tarif güzəştləri.
5. Gömrük rüsumunun hesablanmasında “mənşə ölkəsi” anlayışı.
6. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük tariflərinin rolu.

Milli iqtisadiyyatın formalaşdırılmasında bazar mexanizminə dövlətin müdaxiləsi siyasətinin tədqiqi iqtisadi nəzəriyyənin aktual probleminə çevrilmişdir. Dünya dövlətləri dünya təsərrüfat sisteminə fəal sürətdə qoşulmaqla bir tərəfdən özlərinin müvafiq ehtiyatları olmadıqları halda belə cəmiyyətin tələbatını daha dolgun ödəmək, iqtisadiyyatın səmərəli strukturunu formalaşdırmaq və s. kimi problemləri həll etmək, digər tərəfdən isə özlərinin əmək bölgüsündə malik olduqları üstünlükləri reallaşdırmaq imkanı əldə etmiş olurlar.

Bazar iqtisadiyyatı şəraitdə ölkələr üçün XİF tənzimlənməsi üzrə tədbirlərin əsas məqsədləri milli iqtisadiyyatın müdafiəsi və ümumi milli maraqların qorunmasıdır. Xarici iqtisadi fəaliyyətin dövlət orqanları tərəfindən tənzimlənməsi tədbirləri dunyanın bütün ölkələrində həyata keçirilir. Amma bu tədbirlərin miqyası, forma və metodları, konkret məqsəd və vəzifələri hər ölkənin öz miqyasından, müasir dünyada mövqeyindən, ölkənin daxili və xarici siyasətindən asılıdır.

Dünya ölkələrinin tarixi inkişaf təcrübəsinə əsaslanaraq beynəlxaq ticarət nəzəriyyəsi və beynəlxaq ticarətin çoxillik inkişaf tarixinə nəzər salsaq görərik ki, azad ticarət həyata keçirilməklə beynəlxalq ixtisaslaşmanın ortaya şıxardığı bütün üstünlüklərdən faydalamaq mümkündür. Lakin tam sərbəst xarici ticarət yalnız nəzəri cəhətdən mümkündür. Təcrübədə isə dövlətlər xarici ticarətə bi və ya digər şəkildə müdaxilə edirlər. Bu isə xarici iqtisadi siyasətin mühüm tərkib hissəsi olan gömrük siyasətinin keçirilməsini nəzərdə tutur.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük prosedurunu müəyyən edilməsi vasitəsilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir. Azərbaycan respublikasının xarici iqtisadi fəaliyyət siyasətinin istiqamətlərindən biri xarici rəqabətin dağıdıcı təsirindən milli iqtisadiyyatın rasional müdafiə səviyyəsini təmin etmək eləcə də idxal gömrük rüsumları dərəcələrinin dəyişilməsi əsasında xarici investisiyanı cəlb etmək üçün əlveriıli iqtisadi mühit formalaşdırmaqdır.

Milli iqtisadiyyat daim inkişaf etməkdə olan vahid orqanizm olduğundan, onun struktur bölmələrinin tənzimlənməsi də kompleks xarakter daşımalıdır. Dünya ölkələrinin təcrübəsi göstərir ki, XİF gömrük tarif tənzimlənməsi dövlətlərin dünya iqtisadiyyatına inteqrasiyasının mühüm amillərdən biridir.

Dövlətin xarici ticarət siyasəti gömrük tarif tənzimlənmə tədbirlər və qeyri-tarif məhdudiyyətlərin tədbiq etmə vasitəsiylə həyata kecirilir. Həm də nəzərə almaq lazımdır ki ÜTT-tı bütün üzv ölkələri üçün öz xarici ticarət siyasətini həyata keçirilməsi zamanı tarif tənzimlənmə tədbirlərinə üstünlük verilməsi israrla məsləhət verir.

Gömrük tarifi – xarici ticarətin dövlət tənzimlənməsinin qiymətəmələgətirmə mexanizmi ilə fəaliyyət göstərən əsas vasitəsidir. Xarici iqtisadi əlaqələrin həyata keçirilməsində gömrük tarifi başlıca amil kimi çıxış edir və bu zaman gömrük tarifi 3 mühüm baxımdan nəzərətdən keçirilir: ticarət siyasəti və ölkənin daxili bazarının onun dünya bazarı ilə qarşılıqlı əlaqələrinin dövlət tənzimlənməsi vasitəsi kimi; gömrük rüsum dərəcələrinin məcmusu kimi; konkret gömrük rüsüm dərəcəsi kimi.

Gömük tarifləri hər bir dövlət tərəfindən onun xarici ticarət siyasətinin əsas məqsəd və istiqamətlərdən və bütövlükdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsindən irəli gəlməklə müəyyən edilir.

Gömrük tarif tənzimlənməsinin əsas xüsusiyyətlərinin təhlili gömrük tarifinin əsas funksiyasının nəzərdən keçirilməsini tələb edir. Hal-hazırda gömrük tarif tənzimlənməsinin gömrük tarif alınmasını və onların dövlət büdcəsinə istiqamətlənməsini nəzərdə tutulan fiskal funksiya və ölkəyə gətirilən malların əmtəə strukturunun səmərələşdirilməsi, dövlətin ərazisinə malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etməyi nəzərdə tutan tənzimləyici funksiyanı yerinə yetirir. Gömrük tarifi daxili qiymətlərə təsir etməklə müəyyən dərəcədə ölkədə malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaradılmasına kömək göstərir.

Gömrük tarifi bir sıra hallarda, birtərəfli qaydada ixrac məhsullarının istehsalına tələb olunan mallara aşağı və hətta sıfır dərəcəli idxal rusumu tətbiq etməklə milli istehsalın və ixracın stimullaşdırılması ücün istifadə edilə bilər.

Gömrük tarifinin xarici ticarət münasibətlərinin və bütövlükdə iqtisadiyyata təsirinin xüsusiyyətləri dövlət orqanlarından rüsum stavkalarlının təyin edilməsi prosesində xüsusi məsuliyyət tələb edir.

Ölkə təsərrüfatının inkişaf səviyyəsi ilə gömrük rüsumu stavkaları arasında müəyyən asılılıq mövcüddür. Belə ki, təsərrüfat inkişaf etmiş olduqça, gömrük rüsumların dərəcələri aşağı olur. Yüksək inkişaf etmiş ölkələrdə kifayət qədər rəqabət qabiliyyətinə malik məhsul buraxılır və elə buna görə də daxili bazarın yüksək rüsumlar hesabına qorunması, ixracın əlavə tədbirlərlə stimulaşdırılmaslna və büdcənin gəlir hissəsini gömrük ödənclərі hesabına doldurulmasına ehtiyac qalmır.

2. Müasir dövrdə dünya təsərrüfatının formalaşmasında xarici iqtisadi əlaqələrin rolu və əhəmiyyəti get-gedə artır. Dünya ölkələri arasındakı iqtisadi əlaqələr kapitalların, əmtəələrin, xidmətlərin, iş qüvvələrinin, valyuta ehtiyyatlarının beynəlxalq hərəkəti vasitəsi ilə həyata keçirilir. Kapitalların, valyutaların, əmtəə və xidmətlərin, əmək ehtiyyatlarının miqrasiyası hər bir ölkənin daxili iqtisadi ziddiyyətləri üzündən, dövlətlərin milli hüdudundan kənara çıxır və beynəlxalq iqtisadi münasibətlər sisteminə daxil olurlar. Bu münasibətlər ayrı – ayrı ölkələrin arasında yaranan münasibətləri, hüquqi və fiziki şəxslərin arasındakı qarşılıqlı münasibətləri əks etdirir. Dünya təsərrüfatının təşəkkül tapması hər bir ölkənin özünun milli təsərrüfatının yaranmasına, beynəlxalq münasibətlərin möhkəmlənməsinə, kapitalın beynəlmiləlləşdirilməsinə, iqtisadiyyatın, siyasətin və elmin yaranmasına səbəb olmuşdur.

Məlumdur ki, beynəlxalq əmək bölgüsünün nəticəsi olaraq, xarici ticarət və ümumdünya təsərrüfat sistemi formalaşmışdır. Onlar isə, öz növbəsində məhsul vahidinə düşən məsrəfləri azaltmaq və kifayət qədər yüksək qazanc əldə etmək imkanı yaradırlar. Klasik nəzəriyyəyə görə, bu ölkələr arasında əmək bölgüsünün üstünlükləri ilə əlaqədardır.

Təbii sərvətlərin bölgüsündə olan fərq dövlətlər arasında əmək bölgüsünün inkişafının ilk şərtidir. İlkin şərtlərdən biri də torpaq-iqlim şəraitidir. Bundan başqa, əmək ehtiyatları, istehsalın tarixi inkişaf ən ənələri, ölkənin coğrafi vəziyyəti də beynəlxalq əmək bölğücündə mühüm rol oynayırlar.

Dünya ölkələrinin beynəlxalq əmək bölgüsündə iştirak etməsində əsas məqsəd iqtisadi fayda əldə etməkdən ibarətdir. Belə ki, fayda istehsalın milli dəyəri ilə beynəlmiləl dəyər arasındakı fərqlə müəyyən edilir. Bu zaman ölkələr dəyər qanununun tələblərini nəzərə almaqla hərəkət edirlər. Dəyər qanunu beynəlxalq əmək bölgüsünün əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Lakin bir məsələni də nəzərə almaq lazımdır ki, əmtəələr dünya bazarına çıxarılarkən onlar beynəlxalq dəyərin və dünya bazar qiymətlərinin formalaşmasında iştirak edirlər. Burada bazar iqtisadiyyatı qanunları olan rəqabət, tələb və təklif qanunlarının da xüsusi rolu vardır. Beynəlxalq əmtəə və xidmətlərin mübadiləsi zamanı hər bir dövlət çalışır ki, ixrac edilən əmtəə və xidmətlərin beynəlmiləl dəyərləri ilə milli dəyərləri arasındakı fərq əlverişli fayda gətirsin.

Hər bir ölkə istehsalın səmərəliliyinin yüksəldilməsinə cəhd göstərir. Bu isə istehsalın beynəlxalq aləmdə ixtisaslaşması və kooperasiyalaşdırılması ilə çıx sürətdə bağlıdır. İstehsalın ixtisaslaşdırılması müvafıq məhsulu ən az əmək sərfi ilə istehsal etmək imkanı olan ölkələrdə müəyyən istehsal sahələrinin üstün inkişafı deməkdir. Ölkələrdə ixtisaslaşmanın inkişafı sənayenin də sahə strukturunun dəyişməsinə səbəb olur, çünki texniki tərəqqinin və iqtisadi münasibətlərinin genişləndirilməsinin təsiri altında sahə və müəssisələr daxilində əmak bölgüsünün dərinləşməsi baş verir.

Beynəlxalq iqtisadi münasibətlərin iştrakçıları istehsal amillərinin əvvəlcə təbii, sonra isə əldə olunmuş, yəni elmi-texniki, texnoloji, rəqabət, investisiya, informasiya, infrastuktur, inkişafı üçün əlverişli şəraitdən istifadə edərək yüksək iqtisadi mənfəət əldə edirlər.

Müasir şəraitdə ümumdünya təsərrüfat sistemində yuxarıdakı amillərdən bəziləri, məsələn texnoloji və rəqabətli amillər daha böyük üstünlük kəsb edirlər. Bu gun, bir-birilə

əməkdaşlıq ədən ölkələrin iqtisadi səviyyə və quruluş, həmcinin texnoloji daxımından bir-birinə yaxınlaşmaları daha aktualdır. Eyni zamanda dünyanın ayrı-ayrı regionlarıda müxtəlif ölkələr arasındakı integrasiya xarakterli tesərrüfat əlaqələri daha böyük önəm daşımaqdadır.

Beynəlxalq iqtisadi münasibətlər əmək, kapital, təbii və digər resursları cəmləşdirərək, bazar münasibətlərinin özünəməxsus xüsusiyyətlərə malik olan xüsusi bir sferasını təşkil edir. Bazar münasibətləri isə alıcı və satıcıların azad seçimi prinsipinə əsaslanaraq, aşağıdakı xüsusiyyətləri nəzərdə tutur:

- bazarın obyekt və subyektlərinin çoxlu sayda olması;
- rəqabət;
- tələb və təklifin təsir mexanizminin müəyyən edilməsi və s.

Hər bir ölkənin milli iqtisadiyyatında olduğu kimi, dünya təsərrüfat sistemi və beynəlxalq iqtisadi münasibətlərin əsasını da əmək bölgüsü və mübadilə təşkil edir. Lakin o, ölkədaxili deyil, beynəlxalq xarakter daşıyır. Bu zaman ayrı-ayrı ölkələrə istehsal və istehlakı bir-birilə əlaqəli olması əsas götürülür. Beynəlxalq iqtisadi münasibətlərin iştirakçısı olan ölkələr milli iqtisadi və təsərrüfat münasibətlərinə malik olduğu üçün, əmtəə-pul xarakterli iqtisadi əlaqələrin qurulması və inkişafı zəruridir.

İqtisadi nəzəriyyədə "müqayisəli üstünlüklərin" mühüm potensialına malik olan ölkə iqtisadiyyatı üçün dünya iqtisadiyyatının keyfiyyət inkişafında əsl inqilab mütləq üstünlüklərdən nisbi üstünlüklərin reallaşdırılmasına keçıd oldu fikri təstiq edildi. İqtisadiyyatın dünya təsərrüfat əlaqələri sisteminə daxilolması problaminin həllinə belə yanaşma ciidi araşdırma tələb edir. Məlumdur ki, müqayisəli üstünlüklər qanununun ideyaları XVIII və XIX əsrlərdə üstünlük təşkil edirdi. O zaman iqtisadiyyatın bir çox sahələri avtomatlaşdırılmışdı, beynəlxalq ticarətin xeyli hissəsini isə təbii resurslar, tütün, ipək və ədviyyat təşkil edirdi ki, onlar da dünyanın bir və ya çox regionlarında istehsal və ya hasil edilirdi.

Azərbaycan Respublikasının Gömrük Tarifi Az r-nın gömrük sərhədindən kecirilən və XİF-nin Əmtəə Nomenklaturasına əsasən sistemləşdirilmiş mallara tətbiq edilən gömrük rüsumu dərəcələrinin məcmusudur.

Gömrük tarifinin formalaşdırılması və tətbiqi qaydası 20 iyun 1995-ci il tarixli Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" qanunu ilə müəyyən edilmişdir.

Bu qanuna görə gömrük tarifinin əsas məqsədləri aşağdakılarqır:

- Az R-sı üzrə idxalın əmtəə strukturunu səmərəliləşdirmək;
- Az R-sı ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;
- Az Res-da malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;
- Az R-nin iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq;
- Az R-sı iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Gömrük rüsumun dərəcələri vahid olub, malları gömrük sərhədindən keçirilən şəxslərdən, sövdələşmə növlərindən, "Gömrük tarifi haqqında" qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla digər faktorlardan asılı olaraq dəyişdirilə bilməz.

Az r-nın ərəzisinə gətirilən, gömrük rüsumuna cəlb olunan (olunmayan) malların siyahısı və tətbiq edilən rüsum dərəcələri Az R-nın Nazirlər kabineti tərəfindən təyin olunur.

3. Dünya ölkələri təcrübəsində gömrük rüsumları, onların dərəcələri və növləri; malların qruplaşdırılma sistemi; malların gömrük dəyəri və onun müəyyənləşdirilmə metodları; tarif güzəştləri (preferensiyalar), və imtiyazlar şəlilində özünü bürüzə verir.

Gömrük rüsum dərəcələrinin məcmusu kimi gömrük tarifinin funksiyalarının və gömrük işi sferasında tutdugu yerin ətraflı təhlili gömrük tariflətinin təsnifatının aparılmasını tələb edir. Məhz gömrük rüsumlarının düzgün tətbiq edilməsi dövlətin gömrük siyasəti ilə sıx əlaqədardır. Gömrük rusumlarının dərəcələri nəinki malın növündən, həm də onun mənşə ölkəsindən də asılıdır.

Malların idxalı və ixracı üzrə gömrük rüsumları gömrük tarifinə əsaslanır (218). Malların idxalı və ixracı ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirlər bu malların tarif təsnifatına uyğun olaraq tətbiq olunur.

Gömrük tarifi aşağıdakılar əsasında müəyyən edilir:

- xarici iqtisadi fəaliyyətin mal nomenklaturası;

- tamamilə və ya qismən xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına əsaslanan və malların ticarəti ilə bağlı tarif tədbirlərinin tətbiqi məqsədilə xüsusi sahələri tənzimləyən qanunvericilik aktları ilə müəyyən edilmiş digər nomenklatura;

- xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının əhatə etdiyi mallara tətbiq olunması nəzərdə tutulan avtonom və ya konvensiya idxal gömrük rüsumları;

- müəyyən ölkələrlə, yaxud beynəlxalq təşkilatlarla bağlanılmış beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş preferensial tarif tədbirləri;

- müəyyən ölkələrə, yaxud beynəlxalq təşkilatın üzv ölkələrinə münasibətdə birtərəfli qaydada qəbul edilən preferensial tarif tədbirləri;

- müəyyən mallar üzrə gömrük rüsumlarının azaldılmasını, yaxud gömrük rüsumlarından azadedilməni təmin edən tədbirlər;

- müəyyən malların xüsusiyyətləri, yaxud son istifadəsi ilə əlaqədar olaraq, Gömrük Məcəllə və müvafiq qanunvericiliklə müəyyən edilmiş güzəştli tarif rejimi;

- kənd təsərrüfatını, ticarəti və başqa sahələri tənzimləyən qanunvericiliklə müəyyən edilmiş digər tarif tədbirləri.

"Konvensiya idxal rüsum dərəcələri" dedikdə bağlanılan beynəlxalq müqavilələr əsasında, "avtonom rüsum dərəcələri" dedikdə isə dövlət tərəfindən birtərəfli qaydada, beynəlxalq müqavilə bağlanılmadan müəyyənləşdirilən rüsum dərəcələri nəzərdə tutulur.

Malların tarif təsnifatı gömrük rüsumları, vergilər, malların idxalı və ixracı üzrə qadağalar və məhdudiyyətlər barədə məlumat toplusundan ibarətdir. Gömrük orqanları gömrük rüsumlarının və qanunvericilikdə nəzərdə tutulmuş vergilərin tətbiqində malların tarif təsnifatından istifadə edirlər.

Konkret mallar üzrə gömrük rüsumlarının dərəcələrini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Gömrük rüsumlarının dərəcələri rəsmi nəşrlərdə dərc olunur və müvafiq icra hakimiyyəti orqanlarının rəsmi internet saytlarında yerləşdirilir.

Gömrük rüsumunun dərəcələri vahid olub, malları gömrük sərhədindən keçirən şəxslərdən, sövdələşmə növlərindən, "Gömrük Tarifi haqqında" qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, digər faktorlardan asılı olaraq, dəyişdirilə bilməz.

Az R-nın ərazisinə gətirilən, gömrük rüsumuna cəlb olunan (olunmayan) malların siyahısı və tətbiq edilən rüsum dərəcələri Az R-nın Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Idxal gömrük rüsumlarının dərəcələri malın mənşə ölkəsindən asılı olaraq diferensasiya olunur.

Əgər idxal olunan malın mənşə ölkəsi ilə AR arasında əlverişli ticarət rejimi mövcuddursa, onda idxal gömrük rüsumlarının bazis yada əsas dərəcələri müəyyən edilir. Bu zaman rüsum dərəcələrin və gömrük rüsumuna cəlb olunmiyan malların siyahları AR Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Əgər idxal olunan malın mənşə ölkəsi inkişafda olan ölkələrə aiddirsə, onda idxal gömrük rüsumlarının preferensial dərəcələri müəyyən olunur. Hal hazırda prefensial rüsum dərəcələri bazis dərəcələrinin 75% təşkil edir.

Əgər idxal olunan malın mənşə ölkəsi ilə AR arasında əlverişli ticarət rejimi tətbiq edilmirsə, o zaman gömrük rüsumlarının maksimum dərəcələri müəyyən olunur. Bazis dərəcəsi x 2.

Ticarət rejimindən asılı olaraq bu ya digər qrupaya aid olan ölkələrin siyahısı dövlət orqanları tərəfindən müəyyən olunur.

Gömrük rüsumları maddə 225-yə əsasən bəyan edilən malların yerləşdirilməsi üçün seçilmiş gömrük prosedurunun tələbləri əsasında, normativ hüquqi aktlara uyğun olaraq tətbiq olunur.

Gömrük Məcələsinin 226 madəsinə və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı gömrük rüsumları tətbiq edilir:

- advalor - malların gömrük dəyərinə görə nisbətən faizlə hesablanan;

- spesifik - malın vahidinə görə müəyyən olunmuş məbləğlə hesablanan;

- kombinə edilmiş – yuxarıda göstərilən hər iki gömrük rüsum növlərinin birləşdirilməsi yolu ilə hesablanan.

Advalor rüsumlar satışa qoyulan vergiylə eynilik təşkil edir və adətən eyni mal qrupu daxilində müxtəlif keyfiyyət xüsusiyyətlərinə aid olan mallar rüsuma cəlb olunduqda tətbiq olunur.

Spesifik rüsumlar adətən standart mallara qoyulur və inzibati cəhətdən çox sadədir, əksər hallarda sui istifadə üçün heç bir imkan yeri qoymur. Ancaq spesifik rüsumlar qiymətlərin dəyişməsindən daha çox asılı olduğundan, onların köməyi ilə bazarın gömrük vasitəsi ilə qorunması səviyyəsi qənaətbəxş deyildir.

Az R-nın maraqlarının müdafiəsi məqsədi ilə idxal edilən mallara eyni zamanda gömrük rüsumlarının əlahiddə növləri, o cümlədən xüsusi, antidempinq, kompensasiya rüsumları tətbiq edilə bilər.

1. Əgər Az R-nın gömrük ərazisinə xarici mallar oxşar yaxud bilavasitə rəqabət aparan malların istehsalçılarına zərər vuran və ya vura biləcək miqdarda, həmçinin belə şərtlər daxilində getirilirsə, eləcə də digər dövlətlərin və onların qruplarının Az R-nın maraqlarına toxunan diskriminasiya və yə bu kimi başğa hərəkətinə cavab tədbiri kimi xususi rüsumlar tətbiq edilir.

2. Əgər Az R-nın gömrük ərazisinə xarici mallar gətirildiyi ölkədəki və gətirilmə ərəfəsindəki normal qiymətlərdən daha aşaqı qiymətə daxil edilirsə, həmçinin belə idxal bu cür malların milli istehsalçılarına maddi zərər vura bilərsə, yaxud həmin malların istehsalının təşkilinə və genişləndirilməsinə mane olursa o zaman antidempinq rüsumları tətbiq edilir.

3. Əgər Az R-nın gömrük ərazisinə gətirilən xarici malların mənşə ölkəsində istehsalı, yaxud ixracında bilavasitə və ya dolayısı yolla subsidiyalardan istifadə edilmişşə, həmçinin əgər belə idxal bu cür malların istehsalçılarına maddi zərər vura bilərsə, yaxud həmin malların istehsalının təşkilinə və genişləndirilməsinə mane olursa, o zaman kompensasiya rüsumları tətbiq edilir.

Azərbaycan Respublikasının iqtisadi maraqlarının qorunması məqsədi ilə ixrac və idxal edilən mallara "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda və müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarında nəzərdə tutulmuş qaydada müvəqqəti olaraq mövsümi rüsumlar tətbiq oluna bilər.

4. Mallar üzrə tarif güzəştləri, gömrük rüsumlarından azad edilmə, tarif preferensiyalarının və güzəştlərinin verilməsi halları və qaydaları "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa və müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarına uyğun olaraq tənzimlənir.

Tarif güzəştləri (tarif preferensiyaları) dedikdə, Az R-nın ticarət siyasəti həyatsa keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada Az R-nın gömrük sərhədindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişindən azadetmə, rüsum dərəcələrinin aşagı salınması, malın çıxarılması üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür.

Tarif güzəştləri ilə əlaqədar məsələlərin tənzimlənməsi zamanı ilk növbədə gömrük güzəştləri və tarif güzəştləri anlayışları fərqləndirilməlidir. Belə ki, gömrük güzəştləri dedikdə, gömrük qanunvericiliyi ilə müəyyən edilən qaydalara aid istənilən güzəştlər nəzərdə tutulur. Məsələn, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti üzrə güzəştlər və s. bu zaman gömrük güzəştləri gömrük sərhədindən keçirilən mallardan alınan gömrük ödənişlərini də əhatə edir. Tarif güzəştləri dedikdə isə, gömrük tarifində müəyyən edilən dərəcələrə uyğun olaraq gömrük rüsumlarının alınması ilə əlaqədar güzəştli vergi tutulması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, gömrük güzəştləri tarif güzəştləri anlayşından genişdir. Belə ki, gömrük güzəştləri özündə tarif güzəştləri də əks etdirir. Buna görə də tarif güzəştləri tətbiq edilən mallara heç də bütün gömrük güzəştləri tətbiq edilmir, eyni zamanda onlar heç də bütün gömrük ödənişlərindəən azad edilmirlər. Belə ki, gömrük rüsumları gömrük ödənişlərinin yalnşz bir növü kimi çıxış edir.

Gömtük işi sahəsində fəaliyyət göstərilməsindən asılı olaraq gömrük güzəştləri gömrük ödənişləri sahəsində, gömrük nəzarəti sahəsində, gömrük rəsmiləşdirilməsi sahəsində güzəştlərdən ibarətdir. Gömrük ödənişləri sahəsində isə güzəştlər gömrük rüsumları ilə tarif güzəştləri və digər gömrük yığımları (ödənişləri) ilə əlaqədar güzəştlər formasında özünü büruzə verir.

Gömrük güzəştlərinin müxtəlif istiqamətlər üzrə müəyyən edilməsi beynəlxalq müqavilələrdə də əks olunmuşdur.

Qeyd etmək lazımdır ki, tarif güzəştləri Az R-sı ticarət siyasətinin realizəsinin əsas vasitəsi kimi çıxış edir. Qarşılıqlı əsasda bu, dövlərdaxili qanunvericiliklə, həm də

beynəlxalq müqavilələrlə müəyyəm edilir. Dövlətdaxili qanunvericilik və beynəlxalq müqavilələrin nisbəti isə “Gömrük tarifi haqqında” Az R-sı Qanununun 37-ci maddəsində əks olunmuşdur. Həmin maddədə göstərilir ki, əgər beynəlxalq müqavilələrdə bu qanundan fərqli başqa normalar müəyyən edilmiçsə, bu zaman beynəlxalq müqavilələrdə nəzərdə tutulan normalar tətbiq edilir. Tarif güzəştlərinin 4 əsas növü vardır:

- əvvəl ödənilmiş gömrük rüsumunun qaytarılması;
- - gömrük rüsum ödənilməsindən azadetmə;
- gömrük rüsum dərəcələrinni aşağı salınması;
- malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotalarının verilməsi.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, ÜTT üzvü öz üzərinə müvafiq tarif güzəştlərinin tətbiqi üzrə müvafiq öhdəlik götürmüşdür. QATT-ın XXVII maddəsi ilə ÜTT üzvləri gömrük tariflərinin aşağı salınması haqqında danışıqlar qarşılıqlı faydalılıq əsasında aparılması zəruriliyini qeyd edirlər. QATT sisteminin təkmiləəşdirilməsi prosesində Güzəştlər Siyahısı daim tariflərin aşağı salınması istiqamətində inkişaf etmişdir.

QATT çərçivəsində əvvəlcədən tarif danışıqları gedişində tarif güzəştləri termininindən istifadı edilir. QATT-ÜTT çərçivəsində çoxtərəfli ticarət qanışıqları gediçində iştirakçılar gömrük tarif sahəsində ticarətin liberallaşdırılması üzrə bir sıra öhdəliklər götürülmüşdür. Bu öhdəlik əsasən rüsum dərəcələrinin əlaqələndirilməsi, qüvvədə olan dərəcələrini qaldırmamaqla rüsum dərəcələrinin aşağı salınması formasında həyata keçirilir.

ÜTT-yə daxil olmaq istəyən hər bir dövlət malların dünya bazarına çıxarılma istiqamərində hər bir mal üçün idxal tariflərinni maksimal səviyyəsini razılaşdırmalıdır. Birləşmədən sonra isə dövlət bundan yüksək rüsumlar tətbiq edə bilməz.

“Gömrük tarifi haqqında” Az R-sı Qanununun 35-ci maddəsində göstərilir ki, xarici dövlətlərlə ticarət siyasi münasibətləri həyata keçirilərkən aşağıdalı mallar üzrə gömrük rüsumlarından azadetmə , gömrük dərəcələrinin aşağı salınması, yaxud preferensial idxal (ixrac) üçün kvotalar qoyulması kimi qüzəştlər verilə bilər:

- mənşəcə Az R-sı ilə gömrük ittifaqı və azad ticarət zonası yaratmış və ya bu cur ittifaqın, yaxud zonanın yaradılmasına dair müqavilə imzalamış dövlətlərə mənsub olan mallar;
- mənşəcə Az R-sı Nazirlər Kabineti tərəfindən beş ildə bir dəfədən az olmamaq şərti ilə dövri olaraq yenidən baxılan milli preferensiya sistemindən istofadə edən inkişaf etməkdə olan ölkələrə mənsub olan mallar.

Gömrük rüsumlardan aşağıdakı qrup mallar azad edilir:

1) yüklərin, baqajın və sərnişinlərin beynəlxalq daşımalırını həyata keçirən nəqliyyat vasitələri, habelə onların yolboyu dayanacaqlararası məntəqələrdə normal istismarı üçün lazım olan və ya həmin nəqliyyat vasitələrinin qəzasının (sınmasını) nəticələrini aradan qaldırmaq məqsədi ilə xaricdən alınmış maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq və digər əmlak;

2) dənizdə balıq ovlayan Az R-sı gəmilərinin və Az R-nın hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxta) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək məqsədilə Az R-nın gömrük ərazisindən çıxarılan maddi, texniki taçhizat və tədarük malları; yanacaq, ərzaq və başqa əmlak, habelə həmin gəmilərdə Az R-nın gömrük ərazisinə gətirilən vətəgəçilik məhsulları;

3) rəsmi, yaxud şəxsi istifadə üçün xarici ölkələrin nümayəndələri tərəfindən və ya Az R-nın beynəlxalq müqavilələrinə və Az R-sı qanunvericiliyinə müvafiq sürətdə cür malları rüsumsuz gətirmək və rüsumsuz çıxarmaq hüququna malık olan fiziki şəxslər tərəfindən Az R-nın gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar;

4) Az R-sı qanunvericiliyinə uyğun olaraq, gömrük sərhədindən ərazisindən çıxarılan Az R-nın valyutası və bu əraziyə gətirilən xarici valyutalar, qiymətli kağizlar;

5) Az R-sı qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlətin mülkiyyətinə keçirilməli olan mallar;

6) Qəza və daqıntıların, təbii fəlakətlərin nəticələri aradan qaldırılması məqsədi ilə və ya humanitar yardım kimi Az R-nın gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar;

7) Texniki yardım da daxil olmaqla təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə Az R-nın gömrük ərazisinə gətirilən və ya bu ərazidən çıxarılan mallar;

8) Üçüncü ölkələr üçün nəzərdə tutulmuş və Az R-nın gömrük ərazisindən tranzit proseduru ilə gömrük nəzarəti altında keçən mallar;

9) Az R-nın Gömrük Məcəlləsinə uyğun olaraq Az R-nın gömrük ərazisindən fiziki şəxslər tərəfindən istehsal və kommersiya təyinatı olmayan və yalnız şəxsi istifadə üçün cıxarılan mallar;

10) Istehsalın təşkili üçün Az R-nın gömrük ərazisinə gətirilən texnika, texnoloji avadanlıq və qurumlar, investisiya təyinatlı digər məhsullar.

5. Malın mənşə ölkəsinin müəyyən edilməsinin hüquqi əsasları "Gömrük tarifi haqqında" Az R-nın Qanunu ilə (24-32 maddələr) təsbit edilmişdir. Onlar gömrük əməliyyatlarının sadələşdirilməsi və unufukasiyası Kyoto Konvensiyasında öz əksini tapmış beynəlxalq təcrübəyə əsaslanır.

Gömrük qanunvericiliyi "mənşə ölkəsi" anlayışının daha geniş mənada, yəni mənşə yeri mənasında istifadəsinə yol verir.

Mənşə ölkəsi tərmini bununla yanaşı malın tamamiylə istehsal edildiyi, yahud kifayət qədər emal edildiyi ölkə başa düsülür.

Beynəlxalq gömrük hüququnun mühüm mənbələrindən biri olan gömrük əməliyyatlarının sadələşdirilməsi və harmonikləşdirilməsi barədə Kyoto Konvensiyasında mənşə ölkəsinin təyini üçün beynəlxalq ticarət təcrübəsində istifadə edilən üç əsas məyar müəyyən edilmişdir.

1. Emaledilmə meyarı idxal malların verilmiş ölkələrin ərazisində elə yenidən emal dərəcəsini nəzərdə tutur ki, malın əmtəə təsnifatında mövqeyini dəyişir, yəni gömrük tarifinin tətbiq edildiyi bir mal mövqeyindən diqərinə keçirir. Malın onu yeni təsnifat mövqeyinə keçirən yenidən emalı əsas verir ki, emalın (yenidən emalın) həyata keçirildiyi ölkənin ərazisindən çıxmış yeni mal kimi baxılması və bu ölkənin mənşə ölkəsi kimi hesab edilməsi mümkün olsun.
2. Faiz tərkibi meyarı mehsulun axır dəyərində xarici material və komponentlərin son hədlərini müəyyən edir.
3. Mənşə ölkəsinin yalnız malın tam istehsal edildiyi ölkə hesab ediləcək malların siyahısının müəyyən edilməsi. Belə mallara faydalı qazıntılar, canlı heyvanlar, heyvan mənşəli məhsullar, balıq məhsulları, həmcinin sadalanan məhsullardan istehsal edilən bütün mallar.

Gömrük tarifi haqqında Az R-nın Qanunun 26-cə maddəsində tamamilə həmin ölkədə istehsal edilmiş sayılan malların siyahısı verilmişdir.

Bununla yanaşı malın mənşəyinin təyin edilməsində kifayetedici emal meyarından malın istehsalında iki və daha artıq ölkə iştirak etdikdə istifadə edilir. Bu meyara görə malın mənşəyi onun axırıncı kifayət qədər emala məruz qaldığı, yəni mala səciyyəvi xassələr verilə bildiyi qədər emala məruz qaldığı ölkə hesab edilir.

Kifayət qədər emal dilmə meyarının ifadə formaları aşağıdakılar ola bilər:

1. mal mövgeyinin dəyişilməsi qaydası – emal nəticəsində əmtəə nomenklaturası üzrə təsnifat kodunun hər hansı ilk dörd rəqəm səviyyəsində dəyişılməsi;
2. advalor hissə qaydası – malın dəyərinin istifadə edilən malların və ya əlavə edilmiş faiz payının qiymətin müəyyən hissəsinə çatdığı səviyyədə dəyişməsi;

3. malın müəyyən mənşə ölkəsindən olduğunu hesab etməyə kifayət edən, yaxud kifayət etmədən istehsal və ya texnoloji proseslərin siyahısının tərtib edilməsi.

Malın hər hansı ölkənin gömrük ərazisindən mənşələndiyinin təstiqi kimi gömrük orqanlarına malın mənşə sertifikatı təqdim edilməlidir.

6. İqtisadi təhlükəsizliyin təmin olunması hər bir dövlətin mühüm milli prioritet göstəricilərindəndir. Ənənəvi olaraq iqtisadi təhlükəsizlik iqtisadi sistemin zəruri keyfiyyət göstəricisi kimi qiymətləndirilir ki, bu da əhalinin yüksək həyat səviyyəsinin təmin edilməsini, müxtəlif tənzimləmə vasitələrilə iqtisadiyyatın inkişaf etdirilməsini, habelə milli dövlət maraqlarının ödənilməsini nəzərdə tutur. Iqtisadi təhlükəsizlik göstəricisi mürəkkəb daxili struktura malıkdir ki, bunun da 3 əsas ünsürunu qeyd etmək lazımdır:

1) İqtisadi azadlıq mütləq məna daşımır, ona görə ki, beynəlxalq əmək bölgüsü müxtəlif ölkələrin milli iqtisadyyatını bir-birindən aslıl vəziyyətə salır. Belə bir şəraitdə iqtisadi azadlıq milli sərvətlərə nəzarət edilməsinin, müəyyən bir məhsulun istehsalının, səmərəliliyinin və keyfiyyətinin elə səviyyəyə çatdırılmasıdır ki, həmin məhsul beynəlxalq ticarətdə bərabər şərtlərlə iştirak etsin və rəqabət qabiliyyətliyini saxlasın.

2) Milli iqtisadiyyatın sabitliyinin, müxtəlif mülkiyyət formalarının və sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaradılmasını təmin etmək, qeyri-sabitliyə səbəb ola bilən neqativ halların və sosial partlayışlar yarada bilən amillərin qarşısının alınması.

3) Investisiya və innovasiya proseslərinin inkişafı, istehsalın modernləşdirilməsi üçün münbit şəraitin yaradılması, işçilərin ixtisaslaşması və təhsil səviyyəsinin yüksəldilməsi.

Iqtisadi təhlükəsizlik dedikdə, milli iqtisadiyyatın dinamik inkişafına şərait yaradan, dövlətin, cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəmək qabiliyyətində olan, daxili və xarici bazarda rəqabət qabiliyyətini təmin edə bilən, müxtəlif təhlükə və itkilərin təmanatçısı kimi çıxış edən daxili və xarici amillərin məcmusu başa düşülür.

Iqtisadi təhlükəsizliyin təmin edilməsi iqtisadi və inzibati metodlarla, habelə xarici ticarətin tam liberallaşdırılmasına tarif və qeyri-tarif üsulu ilə həyata keçirilir. Iqtisadi metodlarla dövlət tənzimlənməsi xarici iqtisadi siyasətsahəsində iqtisadi vasitələrin öyrənilməsinə və tətbiqinə əsaslanır.

Gömrük tarifləri bütün ölkələrdə tətbiq edilən və bütün mal qrupları əhatə edən xarici ticarət münasibətlərinin yeganə iqtisadi tənzimləmə vasitəsidir. Idxalın və eləcə də ixracın səmərəli şəkildə tənzimlənməsində gömrük tariflərin rolu böyükdür.iqtisadi inteqrasiya proseslərinin nəticəsi olaraq gömrük tarifləri iqtisadi birlik ölkələrinin xarici ticarət münasibətlərinin ümumi qaydada tənzimlənməsində tətbiq edilir.

Gömrük tarifləri rəsmi dövlət orqanları ilə milli sahibkarlar ittifaqlarının qarşılıqlı razılaşması əsasında, habelə dövlətlərarası beynəlxalq ticarət sazişlərinin prinsipləri və normativ aktlarına uyğun olaraq işlənilir

8. Gömrük ödənişlərinin hesablanması və ödənilməsi.

Suallar:

1. Gömrük ödənişlərin növləri.
2. Gömrük ödənişlərin hesablanması.
3. Gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi və ödənilməsi.
4. Gömrük ödənişlərindən azad olunma.
5. Gömrük ödənişlərinin tutulması və ödəyicilərin məsuliyyəti.
6. Gömrük borcu və təminat.

1. Dünyada olan hər bir ölkənin dövlət büdcəsi iki əsas mənbəyi üzərində formalaşır - vərgilər və gömrük ödənişlərin sisteminə. Gömrük ödənişləri gömrük sərhədindən keçirilən idxal-ixrac malların axınlarına maliyyə xarakterli təsirlərin məcmusu nəzərdə tutulur. Onlar xarici ticarətinin gömrük-tarif və vergi tənzimlənməsi mexanizmlərin fəaliyyətinə əsaslanır, məcburi ödənilməsinə aidlər və gömrük xidmətinin səlahiyyətlərinə daxildir.

Vergilər dövlətin öz funksiyalarını icra etməsindən ötrü zəruri olan, bu ölkənin qanunvericiliyinin tabeliyində olan fiziki və hüquqi şəxslərdən dövlət və yerli hakimiyyət orqanları tərəfindən məcburi qaydada tutulan vəsaitlərdir.

Vergilər iqtisadiyyatın inkişafında qüdrətli bir iqtisadi alət kimi fəaliyyət göstərir, o, gəlirlərinin və maliyyə resurslarının yenidən bölgüsü əməliyyatını yerinə yetirir. Vergi münasibətləri, bir tərəfindən hüquqi, digər tərəfindən iqtisadi münasibətləri tənzim edir.

Gömrük ödənişləri malların və nəgliyyat vasitələrinin gömrük sərhədindən kəçirilməsi prosesində iştirak edən şəxslərdən gömrük orqanları tərəfindən yığılan pul vəsaitlər təşkil edir. Ödənişlərin verilməsi xarici ticarət ilə bağlı olan əməliyyatların (mütəşəkkil, yada qeyri mütəşəkkil) həyata keçirilməsinin əsas şərtlərindən biridir.

Gömrük Məcəllənin 224 maddəsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Gömrük tarifi haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarında nəzərdə tutulmuş hallarda gömrük orqanları tərəfindən aşağıdakı gömrük ödənişləri alınır:

- gömrük rüsumları;

- əlavə dəyər vergisi ;

- aksizlər;

- yol vergisi;

- - məlumatlandırma və məsləhət verməyə görə haqq;

- dövlət rüsumu.

- gömrük yığımları, o cümlədən:

- gömrük işini aparan icra hakimiyyətli orqanı tərəfdən lisenziyaların verilməsi və lisenziya fəaliyyətinin bərpa edilməsinə görə yığımlar;

- gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlarının verilməsi və attestatların fəaliyyətinin bərpa edilməsinə görə yığımlar;

- gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımlar;

- malların saxlancına görə gömrük yığımları;

- malların gömrük müşayiətinə görə gömrük yığımları;

- digər gömrük ödənişləri.

Lakin gömrük ödənişlərin siyahısı ətalətli deyil, o Gömrük Məcəlləsinə görə genişlənir və təzələnir. Gömrük ödənişlərin kateqoriyasına digər yığımlar da aid oluna bilərlər. Məsələn, fiziki şəxslər tərəfindən ödənilən, yada kommersiya bankların, gömrük brokerlərin, daşıyıcıların, ambarların DGK-nin müvafiq reyestrlərinə daxil olmasına görə yığılan, XİF iştrakcılarının məlumatlandırılmasına və konsultasiya verməsinə görə yığılan ödənclər. Gömrük ödənişləri hüquqi şəxslərdən və hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkarlardan alınır.

Gömrük ödənişləri öz hüquqi təbiyətinə və iqtisadi məzmununa görə fərqlənirlər. Bu göstəriri ki, ödənişlər öz mahiyyətində vergi xüssusiyyətinə malikdirsə, onlar yalnız respublika qanunlarında əks olunan qaydalara uyğun olaraq alına bilərlər (gömrük və xüsusi rüsumlar, ƏDV, aksizlər, gömrük yığımlarının bir hissəsi) və vergilərin xassələrini özündə əks etdirmiyən ödənişlər isə (müxtəlif xidmətlərin göstərilməsinə görə alınan haqq) Az R-sı hökumətinin normativ aktları ilə nizamlanır.

Gömrük ödənişlərinin əsas növlərində idtisadi tərkibinin olması idxal mallarının qiymətinə dolayı  yolla təsirini, onların qiymətini baxalaşmağını və eyni zamanda rəqabət qabiliyyətini aşağı salınmasını təstiq edir. Baxmıyaraq ki daxili qanunvericilik vergi və rüsum arasında aydın hədd qoymır, gömrük rüsumu dolayı vergilərinin bir növü kimi qiymətləndirmək olar. Eyni zamanda vergi təşkilatlardan və fiziki şəxslərdən onların mülkiyyət hüququ əsasında,təsərüfat ixtiyarında yada operativ rəhbərlik altında olan pul vəsaitlərinin özgəninkiləşdirilmə formasında dövlətin fəaliyyətinin maliyyələşdirilmə məqsədi ilə onun xeyrinə fərdi əvəzsiz ödənc kimi təfsir olunur.

Gömrük ödənişləri onların növündən asılı olaraq milli valyutada eləcə də xarici valyutalarda alına bilərlər. Hər bir gömrük ödənişin növü üçün ayrıca ödəmə müddətləri müəyyən olunur.

Malların rəsmiləşdirilməsi ilə əlaqədar olan gömrük vergi və rüsumları yük gömrük bəyannaməsi qəbul edilənə qədər və ya onun qəbul edilməsi ilə eyni vaxtda ödənilir.

Kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar Az R-nın gömrük sərhədindən keçirilərkən, gömrük ödənişləri gömrük bəyannaməsinin qəbul edilməsi ilə eyni vaxtda ödənilir.

Gömrük bəyannaməsi müəyyən edilmiş müddətdə verilmədikdə gömrük ödəmələrinin ödənilmə müddətləri bəyannamənin verilməsi üçün müəyyn edilən müddətin keçdiyi gündən hesablanır.

Müstesna hallarda gömrük ödənişlərinin ödənilməsi üçün möhlət verilə və vaxt uzadıla bilər. Gömrük orqanları tərəfindən lisenziyaların verilməsi və lisenziyaların fəaliyyətinin bərpa edilməsinə görə, eləcə də gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlarının verilməsi və attestatın qüvvəsinn bərpasına görə hesablanmış rüsumlar gömrük orqanları tərəfindən lisenziyanın və ixtisas attestatının verilməsi, yaxud bərpası anına qədər ödənilir.

Malların gömrük anbarına saxlanmasına görə gömrük yığımları anbar şəhadətnaməsi verilən anda və ya verilənə qədər ödənilir.

Malların gömrük müşayiətinə görə gömrük yığımlarının ödənilməsi malların gömrük müşayiətinin həyata keçirilməsi barədə qərar gömrük orqanı tərəfindən qəbul edildikdən sonra, lakin onun faktiki icra olunması anına qədər həyata keçirilir.

Məlumatlandırma və məsləhət verməyə, həmçinin ilkin qərarların qəbulu və gömrük auksionlarında iştirak etməyə görə haqq gömrük orqanı tərəfindən xidmətlərin göstərilməsi anına qədər ödənilir.

Gömrük rüsumunun, aksizlərin və gömrük yığımlarının hesablanması üçün “Gömrük tarifi haqqında” Az R-sı Qanuna uyğun olaraq müəyyən edilən malların və nəqliyyat vasitələrinin gömrük dəyəri əsas götürülür. Əlavə dəyər vergisinin hesablanması üçün malın gömrük dəyərinin və gömrük rüsumunun cəmi, aksizli mallar üçün isə, həmçinin, aksiz məbləğinin cəmi əsas götürülür.

Gömrük yığımlarına aşağıdakılar aiddir:

- gömrük  nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları;

- gömrük müşayiətinə görə gömrük yığımları;

- malların saxlancına görə gömrük yığımları;

- gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsinə görə yığımlar;

- bankların və bank olmayan kredit təşkilatlarının müvafiq icra hakimiyyəti orqanının reyestrinə daxil edilməsinə görə yığımlar.

Gömrük yığımlarının məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Saxlanca görə gömrük yığımları saxlanca verilmiş malların və nəqliyyat vasitələrinin orta dəyərindən asılı olaraq Az R-sı Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla DGK tərəfindən müəyyən edilən miqdarda hesablanır. Az R-sı DGK tərəfindən lisenziyaların və ixtisas attestatlarının verilməsi və onların fəaliyyətinin bərpa edilməsinə görə alınan yığımların məbləği R-ka Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Digər gömrük ödənişlərinin hesablanması zamanı əsas kimi Az r-sı Malıyyə Nazirliyi ilə razılaşdırılmaqla DGK tərəfindən müəyyən məbləğlər əsas götürülür.

Gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları (232).

Gömrük orqanları gömrük nəzarətini iş vaxtı ərzində həyata keçirərkən, Gömrük Məcəllədə və digər normativ aktlarda nəzərdə tutulmuş hallar istisna olmaqla, aşağıdakıların yerinə yetirilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə gömrük yığımları alırlar:

- malların gömrük rəsmiləşdirilməsinə;

- gömrük nəzarəti və rəsmiləşdirilməsi ilə əlaqədar olaraq bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan şəxslərin və ya onların nümayəndələrinin təşəbbüsü ilə malların gömrük ekspertizasının aparılmasına;

- malların gömrük nəzarəti altında məhvinə.

Mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti gömrük orqanlarının iş vaxtından kənar saatlarda və iş yerindən kənarda həyata keçirildikdə, gömrük yığımları ikiqat məbləğdə alınır.

Gömrük hərraclarında iştiraka görə onun iştirakçılarından müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə haqq alınır.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən bəzi fəaliyyət növlərinə lisenziyaların verilməsinə görə qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumu alınır.

Beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu alınır.

Ratifikasiya olunan beynəlxalq müqavilələrə münasibətdə gömrük ödənişlərinin tətbiqi "Hasilatın pay bölgüsü haqqında", "Əsas boru kəməri haqqında" sazişlərin və bu qəbildən olan digər beynəlxalq müqavilələrin icrası ilə bağlı gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara gömrük ödənişləri həmin sazişlərin müddəalarına uyğun olaraq tətbiq edilir.

Ödəyəcilər gömrük ödənişlərin ödənilməsinə görə məsuliyyət daşıyırlar. Az R-nın Gömrük Məcəlləsi gömrük sərhədindən keçirilən mallara görə gömrük ödənişlərinin ödənilməsi istənilən şəxs tərəfindən həyata keçirilməsinə icazə verir. Bununla yanaşı "istənilən şəxs" gömrük ödənişlərin ödəyicisiki kimi baxıla bilməz çünki ödənislərin ödəməyi onların vəzifə yox hüququdir. Müəyyən olunmuş müddət ərzində ödənişi ödənilmədiyi halda, gömrük orqanları yalnız ödəniş üçün məsuliyyət daşıyan şəxsdən müvafiq vəzifələrini yerinə yetirilməsini tələb eliyəcəklər. Gömrük Məcəlləsinin maddələrinə əsaslanaraq gömrük ödənişlərinin bütün ödəyəcəklərini bir neçə müstəqil qrupasına bölmək olar.

1. Gömrük ödənişlərinin məcburi ödəyiciləri .

Məcburi ödəyiciləri kimi deklarantlar və brokerlər cixiş edirlər. Həmin şəxslər gömrük ödənişlərinin məcburi ödəyəciləri kimi baxılmasına əsas onların gömrük ödənişlərin ödənilməsini tələb edən gömrük əməliyyatlarında və gömrük prosedurlarında iştirak etməsidir.

2. Gömrük ödənişlərinin mümkün olan ödəyəciləri.

Ödəyicilərin həmin kateqoriyası yalnız müəyyən şərait yarandığı halda (adətən, malların qanuni keçirilməsi faktından fərqlənən hadisə nəzərdə tutulur) hansı ilə Gömrük Məcəlləsi gömrük ödənişlərin ödənilməsi məsuliyyətinin yaranmasını bağlıyır.

Gömrük ödənişlərin mümkün olan ödəyiciləri sayına aşağıdakılar aiddir:

- malların itirilməsi, yada gömrük orqanlarının icazəsi olmnadan onların boşaldılması və təzədən yüklənməsi zamanı (dəmiz, çay limanlarında, təyinat yerində) üçüncü şəxslərə təhvil edilməsi halda, daşınma, yüklənmə əməliyyatları yerinə yetirən şəxs;

- daxili tranzit proseduru şərtlərinə uyğun olaraq malların daşıyıcısı (gömrük daşıyıcısı, beynəlxalq daşıyıcısı yada daxili gömrük tranzitinə görə icazə alan başqa şəxs) yada xarici malların gömrük təyinat məntəqəsinə çatdırılmadığı halda ekspeditor;

- müvəqqəti saxlanca yerləşdirilmiş mallarının itirilməsi yada gömrük orqanlarının icazəsi olmadan təhvil verilməsi halda müvəqqəti saxlanc anbarının sahibi;

- saxlanılan malların itirilməsi, yada gömrük orqanının icazəsi olmadan təhvil verilməsi halda gömrük anbarının sahibi;

- gömrük ərazisində malların emalına görə icazəni almiş yada emala görə icazəsini təhvil almış şəxs;

- gömrük ərazisində kənarda malların emalına görə icazəni almiş şəxs;

- rüsumsuz ticarət mağazasının sahibi;

- müvvəqəti idxal üçün icazə almış yada müvəqqəti idxal olunmuş malların təhvil almış şəxs;

- gömrük sərhədindən malların və nəqliyyat vasitələrin qanunsuz qaydada keçirilən şəxs;

- malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən qanunsuz keşirilməsində iştirak edən şəxslər, əgər bu cür keçirilməsinin qeyri-qanuni olmadığı barəsində bilirdirlər yada bilməlidirlər;

- malların səhlənkər alıcıları yəni malların alınması zamanı onların qeyri-qanunu ölkəyə gətirilməsi barəsində məlumatları olduğuna baxmıyaraq malları və nəqliyyat vasitələrini öz mülkiyyətinə keçirilən şəxslər;

- beynəlxalq poçt göndərişləri həyata keçirilməsinə görə gömrük orqanının icazəsini itirmiş yada icazə olmayan fəaliyyət göstərən poçt rabitə təşkilatı.

2. Gömrük rüsumunun, aksizlərin və gömrük yığımıarının hesablanması üçün "Gömrük tarifi haqqında" Az R-sı Qanuna uyğun olaraq müəyyən edilən malların və nəqliyyat vasitələrinin gömrük dəyəri əsas götürülür.

Mal qismində Azərbaycan R-nın gömrük sərhədindən keçirilən nəqliyyat vasitələri də daxil olmaqla malların, o cümlədən müşayiət olunmayan baqajda, beynəlxalq poçt göndərişlərində keçirilən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların və yüklərin, həmçinin nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinə görə gömrük dəyərinin 0,15% miqdarında (həmin tarixə Az R-nın Mərkəzi Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə 10 ABŞ dollarından az olmayaraq) gömrük yığımı hesablanır.

Bir neçə adda olan malların bəyan olunması zamanı əsas YGB-nın ayrılmaz hissəsi olan əlavə vərəqlərdən istifadə olunur. Bu zaman YGB-nın hər bir əlavə vərəqi üçün

sövdələşmə xarakterindən asılı olmayaraq 5 ABŞ dolları məblәgində Az R-nın Mərkəzi Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla ödənc hesablanır.

Azərbaycan R-nın gömrük sərhədindən tranzit gömrük proseduru altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə 30 ABŞ dolları, hər əlavə tranzit YGB-ləri üçün 10 ABŞ dolları miqdarında Az R-sı Mərkəzi Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla gömrük yığımları hesablanır.

Fiziki şəxslər tərəfindən Az R-nın gömrük ərazisinə gətirilən (o cümlədən müvəqqəti gətirilən) nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə:

- yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün – 20 ABŞ dolları;
- digər nəqliyyat vasitələri üçün 15 ABŞ dolları məbləğində Mərkəzi Bank tərəfindən müəyyən edilən məzənnəyə uyğun olaraq manatla ödənc hesablanır.

Saxlanca görə gömrük yığımları saxlanca verilmiş malların və nəqliyyat vasitələrinin orta dəyərindən asılı olaraq Az R-sı Malıyyə Nazirliyi ilə razılaşdırılmaqla Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən edilən miqdarda hesablanır.

Gömrük ödənişlərinin ödəyiciləri, gömrük ödənişlərinin hesablanması, alınması və hesablara daxil edilməsi, ödənilmə müddətinin uzadılması, gömrük ödənişlərinin qaytarılması qaydaları, gömrük borcu, gömrük borcunun ləğvi, malların gömrük dəyərləndirilməsi, gömrük borcunun ödənilməsinin təmin edilməsi üsulları və onlardan istifadə, həmçinin gömrük ödənişləri ilə bağlı güzəştlər və başqa məsələlər Gömrük Məcəllə və digər normativ hüquqi aktlarla müəyyən edilir.

Fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar keçirilərkən gömrük ödənişləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sadələşdirilmiş qaydada alınır.

Bəyan olunan mallara gömrük ödənişlərinin tətbiqi zamanı onların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun kodu əsas götürülür.

Gömrük rüsumlarının dərəcələri göstərilməklə, bu dərəcələrin həm malların adları, həm də kodları üzrə axtarışının həyata keçirilməsinə, qanunla nəzərdə tutulmuş digər gömrük ödənişlərinin məbləğlərinin öyrənilməsinə imkan verən, malları gömrük sərhədindən keçirən şəxslərin istifadəsi üçün nəzərdə tutulan və istifadəsi sadə olan elektron avadanlıqlar gömrük sərhəd buraxılış məntəqələrində hər kəsin yaxşı görə biləcəyi yerlərdə yerləşdirilməlidir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq gömrük orqanları tərəfindən Gömrük Məcəllənin 228-230-ci maddələrində göstərilən vergilər alınır. (ƏDV, aksiz, yol vergisi)

Gömrük orqanları tərəfindən alınan vergilərin ödəyiciləri, vergilərin hesablanması və ödənilməsi qaydaları, vergilərdən azaedilmə, ödənişlərə möhlət verilmə və onların qaytarıldığı hallar və qaydalar Gömrük Məcəllə və Vergi Məcəlləsi ilə tənzimlənir.

Gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara əlavə dəyər vergisi Gömrük Məcəlləyə və Vergi Məcəlləsinə uyğun olaraq tətbiq edilir.

Gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara aksizlər Gömrük Məcəlləyə və Vergi Məcəlləsinə uyğun olaraq tətbiq edilir.

Yol vergisi (230) Gömrük Məcəlləyə və Vergi Məcəlləsinə əsasən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri gömrük ərazisinə daxil olarkən, yol vergisi tətbiq edilir.

Yol vergisi xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tərəfindən tutulur və bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

Azərbaycan R-nın gömrük ərazisinə gətirilən bir qrup mallardan "Aksizlər haqqında" Azərbaycan Respublikası qanununa, və Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq aksiz vergisi tutulur.

Azər R-sı ərazisinə gətirilən aksizli malların siyahısı Milli Məclis tərəfindən müəyyən edilir.

Aşağıdakılar vergitutma obyekti hesab olunur:

- bəyanedilmə tarixdən asılı olmayaraq MBD üzvü olan dövlətlərin (Gürcüstan, Qazaxıstan, Özbəkistan respublikaları istisna olmaqla) hüdudlarından kənarda istehsal edilmiş, Az R-na gətirilən, istehsal buraxılış tarıxdən bir ilə qədər keçmiş minik avtomobillərinin gömrük dəyəri;
- MBD üzvü olan ölkələrin istehsalı (mənşə sertifikatı) olub MBD dövlətləri hüdudlarından gətirilən istehsal buraxılışı tarixindən bir ilə qədər keşmiş minik avtomobillərinin (tarixdən asılı olmayaraq) gömrük dəyəri;
- mənşə və gətirildiyi ölkədən asılı olmayaraq Qaydaların 2 №-li Əlavəsində göstərilən neft məhsullarının gömrük dəyəri;
- MDB dövlətlərinin istehsalı olmayan, Qaydaların 2 №-li Əlavəsində göstərilən spirtli içkilər və tütün məmulatlarının gömrük dəyəri (bu zaman nəzərə alınmalıdır ki, MDB dövlətlərinin istehsalı olan spirtli içkilər və tütün məmulatları MDB dövlətləri hüdudları kənarından gətirildikdə ümumi qaydada aksiz vergisinə cəlb olunur).

Azərbaycan R-sı ərazisinə idxal olunan mallara aksiz vergisi onların gömrük dəyərindən müəyyən edilmiş faizlərlə hesablanır.

Spirtli içkilər, tütün məmulatı və neft məhsullarına aksiz vergisi dolayə yolla, minik avtomobillərinə isə onların gömrük dəyərindən müəyyən edilmiş faizlə birbaşa hesablanır.

Az R-sı ərazisinə idxal olunan aksizli malların və aksiz tətbiq edilən minik avtomobillərinin gömrük rəsmiləşdirilməsi zamanı onların müəyyən edilmiş gömrük dəyərini D, aksiz vergisinin dərəcəsini A hərfi ilə işarə etsək, onda aksiz vergisinin məbləği aşağıdakı kimi hesablanacaqdır:

**(D x A) : 100**

Azərbaycan R-sı gömrük ərazisinə gətirilən mallara əlavə dəyər vergisinin tətbiqi Gömrük məcəlləsi və "Əlavə dəyər vergisi haqqında" Az R-nın Qanununa müvafiq olaraq həyata keçirilir.

Idxal olunan mallara əlavə dəyər vergisi 18 % dərəcəsi ilə ödənilir. Əlavə dəyər vergisinin dərəcəsi Az R-nın gömrük ərazisində vahiddir və o müxtəlif faktorlardan asıla olaraq dəyişdirilə bilməz.

Az R-sı ərazisinə gətirilən MDB üzvü olan ölkələrin (Gürcüstan, Ukraina, Qazaxstan və Özbəkistan respublikaları istisna olmaqla) hüdudlarından kənarda istehsal edilmiş malların gömrük dəyəri əlavə dəyər vergisinin vergitutma obyekti hesab edilir. Bu zaman nəzərə alınmalıdır ki, MDB üzvü olan dövlətlərin istehsalı olan (mənşə sertifikatı) mallar MDB dövlətləri hüdudları kənarından gətirildikdə əlavə dəyər vergisinə cəlb olunur.

Az R-sı ərazisinə gətirilən MDB üzvü olan dövlətlərin hüdudlarından kənarda istehsal edilmiş, habelə MDB üzvü olan dövlətlərin istehsalı olub MDB hüdudları kənarından gətirilən mallara əlavə dəyər vergisinin hesablanması üçün malın gömrük dəyəri, gömrük rəsmiləşdirilməsinə görə yığımın və gömrük rüsumunun cəmi, aksizə düşən mallar üçün isə həmçinin aksiz məbləğinin cəmi əsas götürülür.

Malların gömrük rəsmiləşdirilməsi zamanı onun gömrük dəyərini D, gömrük rəsmiləşdirilməsinə görə yığımın məbləğini J, gömrük idxal rüsumunu R, aksiz məbləgini A hərfi ilə işarə etsək, onda əlavə dəyər vergisinin məbləği aşağıdakı kimi hesablanacaqdır:

**(D+J+R+A) x 18 :100**

3. Gömrük borcu Azərbaycan Respublikasının milli valyutası ilə ödənilir.

Gömrük ödənişlərinin ödənilməsi:

- malların və nəqliyyat vasitələrinin girovu;

- DGK-sində rejestrə salınmış bankın zəmanəti;
- ödənilməli olan məbləğin gömrük orqanlarının depozit hesabına və ya nəğd qaydada kassasına ödənilməsi yolu ilə təmin edilə bilər.

Gömrük ödənişlərinin girov qoyulması yolu ilə təmin edilməsi zamanı girovun rəsmiləşdirilməsi və ödənişin girov predmetinə yönəldilməsi girov haqqında Az R-nın qanuvericiliyinə və DGK-nin 25 dekabr 1997-ci il tarixli 1102 saylı əmri ilə təsdiq edilmiş "Az R-sı gömrük orqanlarında girovdan istifadə qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq qaydada heyata keçirilir. Bu zaman girovqoyanla gömrük orqanı arasında qarşılıqlı münasibətlər tərəflər arasında bağlanmış müqavilə ilə tənzimlənir. Girov haqqında müqavilənin bir nüsxəsi gömrük orqanının maliyyə-tarif şöbəsində saxlanılır, ikinci nüsxə girobqoyana verilir.

Gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsinin təmin edilməsi zamanı DGK-də rejestrə salınmış bankın zəmanətindən istifadə oluna bilər. Bank zəmanəti gömrük orqanına gömrük bəyannaməsinin verilməsinə qədər, yaxud onunla eyni vaxtda təqdim edilir. Bank zəmanəti onda göstərilmiş məbləğdən artıq olan gömrük ödəmələrinin ödənişinə təminat verə bilməz.

Verilmiş zəmanətdə göstərilən məbləğlər zəmanət müddətində ödənilmədikdə borcun bütün məbləği, eləcə də zəmanətin vaxtının keçməsinə görə faizlər müəyyən edilmiş qaydada gömrük orqanı tərəfindən tutulur. Gömrük orqanı zəmanət öhdəliyini pozan bankların rejestrdən çıxarılması haqqında məsələ qaldırır.

Hər bir gömrük orqanında bank zəmanətlərinin uçotu aparılır. Uçot nəticəsində təşkilatın və zəmanət verən bankın adı, zəmanət məbləği və onun müddəti, zəmanətin yerinə yetirilməsi haqqında qeydlər və s. öz əksini tapır.

Ödənilməli olan məbləğin gömrük orqanının depozit hesabına köçürməsi və ya nəğd qaydada kassasına ödənilməsi yolu ilə təmin edilməsi zamanı, əvvəlcə maliyyə-tarif şöbəsinin baş inspektoru YGB-nin müvafiq qrafalarında göstərilən rekvizitlərin düzgünlüyünü və onun təqdim olunan sənədlərə uyğunluğunu yoxlayır. Əgər hec bir nöqsan yoxdursa, ödənişlərin ödənilməsi haqqında müvafiq hesab yazır, onu yazılan hesabların qeydiyyatdan keçirir və imza edərək idxalçının nümayəndəsinə təqdim edir. Ödəyici öz istəyi ilə gömrük ödənişlərini nağd qaydada gömrük orqanının kassasına, yaxud köçürmə yolu ilə ödəyə bilər. Ödənişlərin gömrük orqanının kassasına ödənilməsi zamanı inspektor (kassir) müvafiq məbləğlərə mədaxil orderi yazır və təqdim olunan hesabın və mədaxil orderinin üzərində vəsaitin ödənilməsi haqqında qeyd edir. Idxalçının nümayəndəsi isə üzərində kassirin qeydi olan hesabı maliyyə-tarif şöbəsinin inspektoruna təqdim edir.

Vəsaitin köçürmə yolu ilə ödənilməsi zamanı isə maliyyə-tarif şöbəsinə vəsaitin köçürülməsi haqqında üzərində bankın qeydi olan "Ödəmə tapşırığı" təqdim edilir. Baş

inspektor yenidən ödənişin yazılan hesaba uyğunluğunu yoxlayır və YGB-nin müvafiq qrafalarında qeydiyyat aparır.

Gömrük ödəmələrini ödəyən öz arzusu və gömrük rəsmiləşdirilməsini aparacaq gömrük orqanının razılığı ilə göstərilən gömrük orqanının hesabına gələcək gömrük ödəmələrinə görə pul vəsaitlərini qabaqcadan (avans olaraq) köçürə bilər.

Avans ödəmələri ödəmənin konkret növü üzrə, yaxud konkret növlər göstərilməklə köçürülə bilər. Avans ödəmələri sonradan idxalçı tərəfindən rəsmiləşdirilən yük gömrük bəyannamələrinə uyğun olaraq silinir. Ödəyən yazılı sorğu verdikdə gömrük orqanı avans olaraq köçürülmüş gömrük ödəmələrinin xərclənməsi və qalığı haqqında məlumat verməlidir.

Avans ödəmələri gömrük orqanının hesabında bir ildən çox olmayaraq xərclənmədən qala bilər. Bu müddət sona çatana qədər ödəyən gömrük orqanına avans olaraq ödənilmiş vəsaitin qalığının qaydarılması haqqında müraciət edə bilər.

4. Aşağıda göstərilənlər gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının ödənilməsindən azad edilir:

- Az R-nın gömrük sərhədindən  qumanitar və texniki yardım məqsədilə, habelə elektrik enerjisinin rarşılıqlı ötürülməsi üzrə, Az R-nın ərazisində yerləşən diplomatik nümayəndəliklərinin rəsmi və onların heyət üzvlərinin şəxsi istifadəsi üçün keçirilən mallar və nəqliyyat vasitələri.

Az R-sı Nazirlər Kabinetinin 22 aprel 1998-ci il tarixli 91 saylı qərarına, ona edilmiş dəyişiklik və əlavələrə müvafiq olaraq aşağıdakılar gömrük idxal rüsumununa cəlb olunmur:

- birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus olan müəssisənin yaradılması üçün gətirilən əmlak;
- xarici investisiya qoyulmuş müəssisələrin əcnəbi işçilərinin yalnız öz ehtiyacları üçün Az r-na gətirilən əmlak;
- beynəlxalq təşkilatların, xarici dövlətlərin hökümətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xarici hüquqi və fiziki şəxslərin maliyyə və texniki yardımları, qrantlar və borclar hesabına idxal olunan mallar;
- təmənnasız paylanılması üçün hümanitar yardım kimi fiziki şəxslər tərəfindən gətirilən mallar.

Dövlətlərin, hökümətlərin və beynəlxalq təşkilatların, hüquqi və fiziki şəxslərin xətti ilə təmənnasız paylanması üçün humanitar yardım kimi gətirilən malların gömrül rəsmiləşdirilməsində həmin malları gətirilən humanitar təşkilatlar Az sı ərazisində mövcüd qaydada qeydiyyatdan keçməsi barədə sənədi, digər hüquqi və fiziki şəxslər isə Beynəlxalq

Hümanitar Yardım üzrə Respublika Komissiyasının razılığını gömrük orqanlarına təqdim etməlidirlər.

“Aksizlər haqqında” Az R-nın qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Az R-nın qanununa müvafiq olaraq müəssisələrin öz tələbatı üçün gətirilən xammal və materiallar aksiz vergisinin ödənilməsindən azad olunurlar.

Az R-sı Nazirlər Kabinetinin 16 ujun 1997-ci il tarixli 61 saylı qərarına müvafiq olaraq MDB üzvü olan dövlətlərin hüdudlarından kənarda istehsal edilmiş əlavə vergisindən azad olunan malların siyahısı təsdiq edilmişdir. Aşağıda göstərilən mallar da əlavə dəyər vergisindən azad olunublar:

- kənd təsərrüfatı üçün toxum, gübrə, yem, damazlıq heyvanlar, dərman preparatları, baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatları;
- qablaşdırılmış uşaq yeməkləri, şprislər, əczaçılıq məhsulları;
- Az R-da təmsil olunan diplomatik nümayəndəliklərin və onlara bərabər tutulan təşkilatların yalnız rəsmi istifadəsi, habelə bu nümayəndəliklərin diplomatik və inzibati-texniki heyəti üzvlərinin, o cümlədən onlarla birgə yaşayan ailə üzvlərinin yalnız şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və əmlak;
- Beynəlxalq təşkilatların xətti ilə təmənnasız texniki, humanitar yardım kimi gətirilən mallar;
- əlilliyin profilaktikası və müalicəsi məqsədləri üçün istifadə olunacaq (avtonəqliyyat vasitələri istisna olmaqla) müxtəlif texniki vasitələr və onların istehsalı üçün xammal və komplektləşdirici məlumatlar;
- müsadirə edilmə, sahibsizlik və həmçinin varislik hüquqi əsasında dövlətin mülkiyyətinə keçirilməsi üçün gətirilən mallar;
- birgə müəssisənin nizamnamə fonduna xarici investoru əmanəti kimi və ya tamamilə xarici investora məxsus olan müəssisənin yaradılması üçün gətirilən əmlak;
- Az R-sı ərazisinə müvəqqəti olaraq gətirilmiş və gətirilmə şərtlərinə görə müəyyən olunmuş müddətdə dəyişiklik edilmədən gətirildiyi ölkəyə aparılası mallar;
- tranzit mallar;
- rüsumsuz ticarət mağazaları üçün gətirilən mallar;
- xarici investisiya qoyulmuş müəssisələrin əcnəbi işçilərinin yalnız öz ehtiyacları üçün Az R-na gətirdikləri əmlak;
- Maliyyə Nazirliyi və ya Mərkəzi Bankın təsdiqedici sənədi əsasında gətirilən qanuni tədiyyə vasitələrindən olan valyuta, pullar, banknotlar (numizmatika məqsədilə istifadə olunanlardan başqa), rəsmi dövlət sənəd blankları, vətəndaş paspotları, habelə qiymətli kağızlar;

- təkrar ixrac məqsədilə, həmçinin emal edilməsi üçün müvəqqəti olaraq Az R-sı ərazisinə gətirilmiş mallar;
- dövlət büdcəsi hesabına idxal olunan mallar.

5.Gömrük ödəmələrini ödənilməsinə görə məsul şəxs gömrük ödəmələrinin düzgün hesablanmasına və vaxtında ödənilməsinə, təqdim olunan sənədlərin düzgünlüyünə məsuliyyət daşıyır.

Gömrük ödəmələri bilavasitə deklarant və ya gömrük qanunvericiliyinə uyğun olaraq digər şəxslər tərəfindən ödənilir. Az R-sı gömrük Məcəlləsində nəzərdə tutulan hallar istisna edilməklə hər bir marağı olan şəxs gömrük ödənişlərini ödəyə bilər.

Gömrük ödəmələri müəyyən edilmiş müddətlərdə və müəyyən edilmiş qaydada ödənilmədikdə, ödəmələrin məbləği gömrük orqanları tərəfindən onların ödənilməsinə məsul şəxslərdən tutulur. Az R-nın gömrük sərhədindən malları və nəqliyyat vasitələrini kəçirən şəxs deklarant olmadığı hallarda, bu çür şəxs gömrük ödənişlərinin ödənilməsi üzrə deklarantla birgə məsuliyyət daşıyır. Ödənilməmiş gömrük ödənişləri ödəməmə faktını aşkar edilməsi vaxtından asılı olmayaraq Az R-sı gömrük orqanları tərəfindən tutulur.

Borclu olma müddəti üçün ödənilmə günü də daxil olmaqla hər gəcikdirilən günə borc məbləğının 0,3 %-zi miqdarında penya alınır ödəyicinin pul vəsaiti olmadıqda ödənilməli olan məbləğ Az R-nın Qanunvericiliyinə əsasən ödəyicinin əmlakından tutulur.

Gömrük ödənişlərini ödəməkdən yayınma cəhdi aşkar edildikdə gömrük orqanları tərəfindən DGK məlumat verilir. DGK həmin ödəyicinin faktiki ödənilmə anına qədər bütün hesabları üzrə əməliyyatların dayandırılması haqqında qərar qəbul etmək hüququna malikdirlər. Belə qərar banklar, kredit təşkilatları tərəfindən icra edilməlidir.

Az R-sı gömrük sərhədindən malları və nəqliyyat vasitələrini qanunsuz keçirən şəxs, həmcinin belə malların və nəqliyyat vasitələrinin qanunsuz keçirildiyini bilən, bilməli olan və qanunsuz keçirmədə iştirak edən şəxs, gətirmə zamanı isə gətirmənin qanunsuz olduğunu bilən və ya bilməli olan, qanunsuz gətirilən malları və nəqliyyat vasitələrini öz mülkiyyətinə və ya sərancamına götürülən şəxs gömrük ödənişlərinin ödənilməsi üzrə birgə məsuliyyət daşıyır.

Yük gömrük bəyannaməsində göstərilən məlumatlar gömrük dəyərinin və beləliklə, gömrük ödənişlərinin azalmasına səbəb olduqda, gömrük orqanı bəyannamə verəndən, rüsumdan gizlədilən malın gömrük ödənişlərinin tam məbləğini qeyd-şərtsiz alır.

6.Gömrük borcu malların müəyyən olunmuş gömrük prosedurları altında yerləşdirilməsi üçün gömrük bəyannaməsinin gömrük orqanlarına təqdim edildiyi yerdə yaranır. Bütün başqa

hallarda gömrük borcunun yarandığı yer, onun yaratmasına səbəb olan halların baş verdiyi yer hesab edilir.

Idxal üzrə gömrük borcu xarici malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru, yaxud gömrük rüsumlarından və vergilərindən tamamilə və ya qismən azad edilməklə müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi nəticəsində və gömrük bəyannaməsinin təstiq edildiyi vaxt yaranır.

Ixrac gömrük rüsumları tutulmalı olan mallar üzrə gömrük borcu şəxs tərəfindən aşağıdakı şərtlərin hər hansı birinə əməl edilmədikdə yaranır:

- malların ixracı ilə əlaqədar gömrük Məcəllə və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş öhdəliklər yerinə yetirilmədikdə;
- malların gömrük ərazisindən ixrac gömrük rüsumlarından və vergilərdən tamamilə və ya qismən azad olmaqla aparılması şərtlərinə əməl edilmədikdə.

Ödənilməmiş gömrük borcları gömrük ödənişlərini ödəmək öhdəliyinin yarandığı 3 il ərzində gömrük orqanları tərəfindən müəyyən edilmiş qaydada tutulur. Gömrük bəyannaməsindəki səhvlərin gömrük borcunun məbləğinin qanunvericiliklə müəyyən edildiyindən az məbləğdə hesablanmasına, yaxud ödənilməsinə səbəb olmasını yüxarda qeyd edilmiş müddət ərzində aşkar edildikdə, gömrük orqanları ödəyicidən ödənilməmiş şəbləğləri alırlar. (249 maddə)

Vaxtında ödənilməmiş gömrük borcları gömrük orqanlarının icra (ödəniş) sənədi əsasında, vergi borclarının dövlət büdcəsinə alınmasının qanunvericiliklə müəyyən edilmiş qaydalarına uyğun olaraq, ödəyicinin bank hesablarından tutulur. Qanunla müəyyən edilmiş hallarda DGK ödəyicinin banklardakı hesabla.ma, valyuta və digər hesablarına həbs qoyulması barədə məhkəmədə iddia qaldırır.

Gömrük orqanları mövcüd, yaxud gələcəkdə yaranabiləcək gömrük borclarının ödənilməsini təmin etmək məqsədi ilə borclu və ya borclu olacaq şəxslərdən Gömrük Məcəlləsinin maddələrində nəzərdə tutulmuş təminatın verilməsini tələb etmək hüququna malikdirlər. Gömrük borclarına təminat borclu və ya borclu ola biləcək şəxsin əvəzinə başqa şəxs tərəfindən də verilə bilər. Təminatın məbləği gömrük orqanları müəyyən edirlər.

Təminat verilməsi məcburi və fakültativ (məcburi olmayan) hallarını Az R-nın Nazirlər Kabineti müəyyən edir.

Məcburi təminatın verilməsi tələb olunduğu vaxt gömrük borcunun məbləğini dəqiq müəyyənləşdirmək mümkündürsə, gömrük orqanları həmin təminatın məbləğini gömrük borcunun məbləğinə bərabər səviyyədə müəyyənləşdirirlər. Gömrük borcunun dəqiq məbləğini müəyyənləşdirmək mümkün olmadıqda, təminatın məbləği gömrük orqanları tərəfindən hesablanmış movcud və ya yarana biləcək gömrük borcunun ən yüksək səviyyəsində müəyyənləşdirilir. Məbləği müəyyən müddət ərzində dəyişən gömrük borcu

üzrə ixrac, yaxud idxal gömrük rüsumlarının və vergilərin ödənilməsinin təmin edilməsi üçün əhatəli təminatın verildiyi hallarda, həmin təminatın məbləği gömrük rüsumlarının və vergilərin ödənilməsinin istənilən vaxt təmin edilməsinə imkan verən səviyyədə müəyyənləşdirilir. Gömrük orqanları gömrük borcunun müəyyən edilmiş müddətdə ödəniləcəyinə əmin olmadıqda, təminatın verilməsinin tələb edirlər. Tələb edilən təminatın məbləği Gömrük Məcəllənin 251-ci maddəsində nəzərdə tutulmuş məbləğlərdən artıq olmamalıdır.

Gömrük borcunun ödənilməsinin təmin edilməsi üçün aşağıdakı təminat üsullarından (təminatdan) istifadə olunur:

- girov;
- veksel zaminliyi;
- bank qarantiyası;
- ödənilməli olan məbləğin gömrük orqanının depozit hesabına köçürülməsi;
- sığorta müqavilələri;
- üçüncü şəxsin zaminliyi;
- avans ödəmələr.

Gömrük borcunun ödənilməsinin təmin edilməsi üçün mallar gömrük orqanları tərəfindən girov qismində qəbul olunur. Girovun rəsmiləşdirilməsi, girov qoyulmuş malların saxlanılması, ödənişin girov predmetinə yönəldilməsi və bununla bağlı digər məsələlər Az R-nın Mülki Məcəlləsi ilə tənzimlənir.

Gömrük borcunun təminatı kimi vekselər yalnız o halda qəbul olunur ki, onlar üzrə avalçı qismində bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malik olan banklar və ya bank olmayan kredit təşkilatları çıxış etsin. Gömrük borcu bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malik olan və DGK-nin apardığı müvafiq reyestrə daxil edilmiş bankların və bank olmayan kredit təşkilatlarının qarantiyası ilə təmin oluna bilər.

Gömrük borcunun ödənilməsinin təmin edilməsi ödənilməli olan pul vəsaitinin gömrük orqanının depozit hesabına köçürülməsi yolu ilə həyata keçirilə bilər. Bu məbləğin depozitdə saxlanma müddəti üçün faizlər ödənilmir.

Gömrük borcunun ödənilməsinin təmin edilməsi üçün pul vəsaitlərinin gömrük orqanının depozit hesabına köçürülməsi və depozit hesabında olan pul vəsaitinin sahibinə qaytarılması qaydasını Az R-nın Nazurlər Kabineti tərəfindən, Az R-sı Prezidenti ilə razılaşdırmaqla, müəyyən olunnur. Gömrük borcunun ödənilməsinin təmin olunması məqsədi ilə sığorta müqavilələrindən istifadə olunması Az R-nın Mülki Məcəlləsi və sığorta fəaliyyəti haqqında qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

Gömrük borcunun ödənilməsinin təmin olunması üçün üçüncü şəxsin zaminliyindən istifadə edilməsi Az R-sı mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

Gələcək əməliyyatlar üzrə yarana biləcək gömrük borcunun təminatı kimi,ödəyici gömrük orqanlarının hesabına avans şəkilində pul vəsaitləri köçürə bilər.

## Gömrük dəyəri və onun təyin edilməsi üsulları.

Suallar:

1. Gömrük dəyəri anlayışı və onun funksional təyinatı.
2. Gömrük dəyərinin təyin edilməsi sistemi.
3. Gömrük dəyərinin gətirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi üsulu (I usul).
4. İdentik (eyni) malların sövdələşmə qiyməti üsulu (II usul).
5. Eynicinsli malların sövdələşmə qiyməti üsulu (III usul).
6. Dəyərin çıxılması üsulu (IV üsul).
7. Dəyərin toplanması üsulu (V üsul).
8. Ehtiyat üsul (VI üsul).
9. Az-can R-nın ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsi.

"Gömrük Tarifi haqqında" Az R-nın qanunu Az-canda gömrük nəzarəti təcrübəsində gətirilən malların gömrük dəyərinin təyin edilçəsinin başlıca prinsip və normalarının hüquqi əsasını müəyyən edir. Bu prinsip və normalar mütəxəssisıər arasında "Gömrük dəyəri kodeksi" adlandırılan,Tarif və Ticarət üzrə Baş Sazişin – GATT VII maddəsinin tətbiqi üzrə Sazişin müddəaları ilə təsbit edilmişdir.

Azərbaycan iqtisadiyyatının müasir dövrindəki xüsusiyyətləri, Az-nın təsərüffat hüquqi sisteminin inkişaf etmiş ölkələrin sistemindən fərqli cəhətləri gömrük dəyərini təyin edilməsi sisteminin ttəbiqinə müəyyən çətinliklər yaradır, normativ-hüquqi bazanın real şəraitə uyğunlaşdırılmasını tələb edir. Bununla birgə Az-can R-nın yaxın gələcəkdə Ümumdünya Ticarət Təşkilatına daxil olmaq marağı beynəlxalq prinsip və normaların maksimum dərəcədə ttəbiqini, onların gömrük dəyərinin təyini üzrə normativ sənədlərdə və ümumilikdə gömrük orqanlarının fəaliyyətində nəzərə alınmasını obyektiv məcburiyyət kimi qarşıda qoyur.

Malların gömrük dəyəri bəyanetməni həyata keçirən şəxs tərəfindən Gömrük Məcəllə və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada müəyyən olunur. (maddə 220) Gömrük tarifinin tətbiqi, tarif tənzimləmələri tədbirləri, onların beynəlxalq norma və qaydalara uyğunluğu, həmçinin tarif əhatəsini real səviyyəsi gömrük rüsumları və ödənclərinin bazasının hesablanma formasını müəyyən edən qaydalarından asılıdır.

Malların gömrük sərhədindən keçirilməsi zamanı vergiqoyma bazasının təyin edilməsi qaydalarının müəyyən edilməsində həm dövlət, həm də kommersiya dairələri maraqlıdır.

Aydındır ki, malın istehsalçıdan istehlakçıya dögru hərəkətinin müxtəlif mərhələlərində onun dəyəri müxtəlif olacaqdır, belə ki, müxtəlif dəyər komponentlərini özündə şəmləşdirəcəkdir və bu dəyərlərin hər biri özünəməxsus qaydada hesablanacaqdır.

Malların gömrük sərhədindən keçirilməsi zamanı gömrük ödənclərini hesablanması üçün istifadə olunan dəyəri, malın satıcından alıcıya qədər müəyyən hərəkət mərhələsində formalaşır, bu mərhələyə uyğun komponentləri (xərc və gəlirləri) özündə cəmləşdirir və malın gömrük dəyəri kimi baxılır.

Malların gömrük dəyərinin müəyyən edilməsi sistemi gömrük qiymətləndirilməsinin beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərinə əsaslanır və Az R-nın gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallara şamil edilir.

Gömrük dəyəri mal Az-can R-nın gömrük sərhədindən keçirilərkən deklarant tərəfindən Az R-nın gömrük orqanına bəyan edilir. Deklarant tərəfindən bəyan edilmış gömrük dəyəri və onun müəyyən edilməsi ilə bağlı məlumatlar dəqiq, kəmiyyəti təyin oluna bilən və sənədlərlə təstiq edilmiş məlumatlara əsaslanmalıdır.

Əgər gömrük nəzarəti nəticəsində malın gömrük dəyərinin düzgün təyin edilmədiyi və gömrük orqanlarına bəyan edildiyi aşkara çıxarsa gömrük Məcəlləsinə görə belə hal gömrük qaydalarının pozulması kimi qiymətləndirilir.

2. Mövcud gömrük qanunvericiliyi GATT çərçivəsində hazırlanmış gömrük dəyərinin təyin edilməsi üsullarını əsas götürür. Az-can R-na idxal edilən malların gömrük dəyərinin təyin edilməsi üsullarından hazırda qüvvədə olan gömrük tarifi haqqında qanuna əsasən aşağıdakı ardıcıllıqla istifadə olunur:

1. Gətirilən malların sövdələşmə qiyməti ilə.

2. Eyni (identik) malların sövdələşmə qiyməti ilə.

3. Eynicinsli malların sövdələşmə qiyməti ilə.

4. Deyərin çıxılması üsulu.

5. Dəyərin toplanması üsulu.

6. Ehtiyat üsulu.

Üsulların tətbiq ardıcıllığı dəyişdirilə bilməz (4-cü və 5_ci üsullar istisna təşkil edir).

Hər bir sonraki qiymətləndirmə üsulu o zaman tətbiq edilir ki, ondan əvvəlki üsul gözlənilən səmərəni verməsin.

Ikinci və üçüncü üsullar gömrük dəyərinin təyon edilməsində ilkin baza kimi eyni malların və eynicinsli malların sövdələşmə qiymətlərinə əsaslanır. Bu halda həm gömrük orqanlarında olan məlumatlar, həm də deklarant tərəfindən sənədli təstiq tapmış məlumatlar istifadə oluna bilər. Məlumatın seçilməsində əsas meyar dəyərləndirilən sövdələşmənin şərtlərinə yaxınlıq dərəcəsidir.

Dəyərin çıxılması və toplanması üsullar gömrük dəyərinin hesablanmasının prinsipcə fərqli bazasını nəzərdə tutur.

4-cü üsul malların dəyişilmədən (yaxud emal edilmiş şəlikdə, lakin əgər bu emalın malın qiymətinə təsirini müəyyən etmək mümkün olduqda) satıldığı qiymətə əsaslanır. 5-ci üsul malın istehsalına çəkilən məsrəflər barədə məlumata əsaslanır.

6-cı üsul ehtiyat üsuldur və o zaman tətbiq edilir ki, ilk 5 üsuldan istifadə etmək mümkün olmasın. Həmin üsul əvvəlki üsulların şərtlərindən daha çevik istifadəni və dünya bazarının qiymətlərdən istifadəi nəzərdə tutur.

3. Gömrük dəyərinin getirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi üsulu dəyər əsasında malik olan alqı-satqı xarici ticarət bağlaşmalarına uyğun olaraq gətirilən mallara tətbiq edilir. Hesablaşma forması (inkasso, bank köçürməsi, akkreditiv) prinsipial əhəmiyyət kəsb etmir. Gömrük rəsmiləşdirilməsi anına ödəniş sənədlərinin olmaması I üsulun tətbiqindən imtina edilməsinə və digər üsullardan istifadə ediməsinə əsas ola bilməz.

Əgər fakturada göstərilən və deklarant tərəfindən bəyan edilən gömrük dəyəri gömrük orqanları tərəfindən ödənc sənədləri olmadan qəbul edilmirsə, bu zaman şərti buraxılış rejimindən istifadə edilə bilər.

Gömrük dəyərinin müəyyən edilməsinin sadələşdirilməsi və unufikasiyası məqsədi ilə şərti dəyər bağlaşmaları (pul vəsaitlərinin real hərəkəti olmayan) ilə gətirilən malların gömrük dəyərinin 1 üsulla təyininə yol verilir. Belə bağlaşmalara mübadilə, kompensasiya göndərişləri, zəmanət hesabına və əvəzsiz göndərişlər (məsələn, bağışlamalar) aid edilə bilər. Bu halda, müvafiq sənədlərdə (müqavilə, saziş), preforma hesablarda, gətirilən ölkənin gömrük bəyannaməsində bu əməliyyat üzrə malların hər birinin dəyəri göstərilməlidir.

Eyni zamanda müqavilə - komissiya və ya konsiqnasiya əsasında gətirilən mallara bu üsul tətbiq edilməməlidir. Cünki bu halda malın mütləq alqı-satqı deyil, yalnız satış üzrə xidmətlər göstərilməsindən danışıla bilər.

Gömrük tarifi haqqında qanunun 18-ci maddəsinin birinci bəndinə görə Az R-nın gömrük ərazisində gətirilən malın gömrük dəyəri malın gömrük sərhədindən keçirildiyi anda bu mal ücün faktiki ödənilmiş və ya ödəniləcək sövdələşmə qiymətdir.

Sövdələşmə qiyməti müəyyən edilmiş əlavələr və hesabdan çıxmalar nəzərə alınmaqla dəqiqləşdirilir.

Malların gömrük dəyəri 1 üsulla müəyyən edilməsi zanmanı gətirilən mala görə ödənilmiş və ya ödənilməli olan sövdələşmə qiymətinə müəyyən məbləğlər əlavə oluna bilər.

Sövləләşmə qiymətinə qabaqcadan daxil edilməmiş komponentlər:

- malın hava və dəniz limanınadək, yaxud respublikanın gömrük ərazisinə daxil olduğu digər yerə qədər çəkilən xərclər;
- nəqliyyat xərcləri;
- malın yüklənmə, boşaldılma və yenidən yüklənmə xərcləri;
- sığorta xərcləri.

Faktiki ödənilmiş və ya ödənilməli olan qiymət – alıcının satıcıya idxal mallar üçün ödədiyi, yaxud ödəyəcəyi, lakin gömrük rəsmiləşdirilməsi anınadək helə ödəməmiş olduğu ödənc məbləğlərinin cəmidir.

I üsuldan istifadə etməyə yönəlmiş ən mühüm tələblərdən biri gömrük dəyərinin təyin edilməsi məqsədi ilə deklarant tərəfindən təqdim edilən məlumatların sənədli təstiqidir.

Gömrük dəyəri birinci üsulla o zaman təyin edilə bilər ki, onun gömrük dəyər bəyannaməsində göstərilən bütün elementləri müvafiq sənədlərlə təstiq edilmiş olsun.

Sövdələşmə qiyməti – hesab-faktura, bank ödəniş sənədləri və alqı-satqı müqaviləsi ilə təstiq edilməlidir.

Qiymətə əlavələr və ya çıxarışlar müvafiq ödəniş, mal-müşayiət, siğorta, gömrük və digər sənədlərlə təstiq edilməlidir.

Müqavilə iştirakçıları qarşılıqlı-asılı şəxslər olduqda I üsul istifadə edilə bilməz.

Satıcı və alıcının qarşılıqlı asılılığı barədə məlumat dömrük dəyər bəyannaməsində göstərilməlidir. Gömrük orqanı qarşılıqlı asılılığın olub-olmaması barədə bəyan etdiyi, həmçinin nəşr edilmiş məlumatların analizi nəticəsində əldə etdiyi məlumatlarla tutuşduraraq qərar qəbul edir. Əgər gömrük orqanına bəyan edilməmiş belə əlaqə müəyyən edirsə, bu barədə idxalçıya xəbər verir, ona əksini sübüt etməyə və bəyan edilmiş dəyəri sənədli təstiq etməyə imkan yaradır.

Bu zaman qarşılıqlı asılılığın xüsusi yoxlama zərurəti yükün saxlanılmasına əsas vermir. Yük adi qaydada göndərilir, keçirilən yoxlamanın nəticələrinə əsasən gömrük dəyəri yenidən hesablanır, rüsumun və digər vergilərin ödənilməmiş miqdarı tutulur.

Birinci üsuldan istifadənin mümkünlüyü müəyyən edildikdən sonra, sövdələşmə qiyməti dəqiqləşdirilir, “Gömrük tarifi haqqında” Qanunla müəyyən edilmiş komponentlər ona əlavə edilir.

Sövdələşmə qiymətinin dəqiqləşdirilməsi üçün birinci komponent malın gömrük ərazisindəki hava, dəniz limanına və ya digər gətirilmə yerinə qədər çatdırılmasına çəkilən xərclərdir.

Daşınma xərclər, malların boşaldılması, yüklənməsi, yenidən yüklənməsi və başqa yerə daşınması xərcləri, sığorta məbləğləri malın çatdırılma məsrəflərinə daxil edilir.

Daşınmanın dəyərinə fraxt, mal müşayiət sənədlərinin rəsmiləşdirilməsinə çəkilən xərclər, daşınma müddətində malın keyfiyyətinin və tamlığının müəyyən səviyyədə saxlanılması üçün (müvafiq temperatur rejimi, nəmlik və s.səviyyələri üçün) çəkilən xərclər də daxil edilir.

4. “Gömrük Tarifi haqqında” Az R-nın qanununda nəzərdə tutulduğu kimi, gətirilən malların sövdələşmə qiymətinə əsaslanan üsuldan istifadə edilməsi mümkün olmayan hallarda II üsuk – identik (eyni) malların sövdələşmə qiymətinə əsaslanan üsul tətbiq edilir.

Identik mallar dedikdə əsas eyniləşdirilmə əlamətləri eyni cür olan mallar başa düşülür. Belə əlamətlərə aşağıdakılar aid edilir:

- fiziki xüsusiyyətlər;
- keyfiyyət və bazardakı reputasiyası;
- mənşə ölkəsi;
- istehsalçı.

əgər mallar eyni ölkədə istehsal edilməmişsə, həmçinin onların lahiyəsi, təcrübə sınaq işləri və s. həmin ölkədə yerinə yetirilməmişsə, belə mallar qiymətləndirilən mallarla identik hesab edilə bilməz.

II üsuldan istifadə edildikdə gömrük dəyər bəyannaməsində bu üsuldan istifadə əsaslandırılmalı, I üsuldan imtinanın səbəbləri və məlumat mənbələri göstərilməlidir.

Aşağıdakı şərtlər daxilində gömrük orqanları identik mallar üzrə gömrük dəyər bəyannaməsini II üsul üzrə qəbul edə bilər:

- bu mallar Az R-sı ərazisinə gətirilmək üçün satılmış olmalı;
- qimətləndirilən mallarla eyni vaxtda və ya 30 gündən çox olmayan müddət ərzində gətirilmiş olmalı;
- qiymətləndirilən mallarla təqribən eyni miqdarda və / ya eyni kommersiya şərtləri daxilində gətirilmiş olmalıdırlar.

5. Eynicinsli malların sövdələşmə qiymətinə əsaslanan III üsulun mahiyyəti gətirilən malların gömrük dəyərinin təyini üçün bu mallarla eynicinsli olan mallara aid sövdələşmələrdəki qiyməti əsas götürülməsidir. Gömrük qanunvericiliyində eynicinsli mallar olaraq, bütün xassələri ilə eynicinsli olmasa da, ümumi xüsusiyyətlərə malik olan, tərkibi oxşar komponentlərdən ibarət olub kommersiya nöqtəyi-nəzərindən qarşılıqlı əvəzedilə bilən mallar nəzərdə tutulur.

Beləliklə, malların eynicinsli olmasını müəyyən edən əsas meyarlar aşağıdakılardır:

- texniki (oxşar xassə və komponentlərə malik olması);

- funksional (eyni funksiyalar yerinə yetirmələri);
- ticari (ticarətdə qarşılıqlı əvəzedilə bilən olmaları).

Təcrübədə malların eynicinsliyinin təyini üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

- keyfiyyət, əmtəə nişanı və bazardakı reputasiyası;
- mənşə ölkəsi;
- istehsalçı.

Misal üçün,iki müxtəlif mal eyni keyfiyyətə malikdir, eyni standartlara cavab verir, bazarda eyni reputasiyaya malikdir və eyni funksiya yerinə yetirirlər, amma müxtəlif ticarət markaları var. Ticarət markasının fərqliliyi ona gətirir ki, bu mallar eyni (identik) qəbul etməyə, II-ci üsulu tətbiq etməyə imkan vermir, amma onlar eynicinsli hesab edilir və III-cü üsul tətbiq edilir.

Identik mallarda olduğu kimi, qiymətləndirilən mallarla eyni ölkədə istehsal olunmayan mallar eynicinsli hesab edilə bilməz.

6. Dəyərin çıxılmasına əsaslanan dördüncü üsul özündən əvvəlki üsulların tətbiq edilməsinin mümkün olmadığı hallarda tətbiq edilir.

Məsələn: I üsulda baxılan sövdələşmə qarşılıqlı asılılığı olan şəxslər arasında bağlanmış və bu asılılıq malın qiymətinə təsir etmişdir, və bu təsirin dəyər kəmiyyətini aşkar etmək mümkün olmamışdırsa;

II-ci üsulda gömrük orqanı və deklarant baxılan identik mallara aid məlumata malik deyillərsə;

III-cü üsulda eynicinslı mallara aid kifayət qədər məlumat yoxdursa.

Bu zaman IV-cü – dəyərin çıxılması üsulundan istifadə edilir. Bu zaman ümdə şərt – qiymətləndirilən, identik və ya eynicinsli malların ilk vəziyyəti dəyişdirilmədən az R-sı ərazisində satılması şərtidir.

Beləliklə IV-üsul gətirilən malın idxalçı ölkənin daxili bazarında alqı-satqı əqdlərinə yönəlmişdir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, gömrük dəyərinin təyin edilməsi üçün əsas olaraq gətirilən malların ilkin vəziyyəti dəyişilmədən daxili bazarda satıldığı qiymətlər götürülür.

Bu halda gömrük dəyərinin hesablanma bazası kimi qiymətləndirilən malların gətirilmə anına yaxın müddətdə satıldığı böyük partiyalardakı mal vahidinin qiyməti götürülür. Eyni zamanda, alıcının satıcından asılı olmaması şərtinə riayət olunmalıdır.

Qiymətləndirilən identik və ya eynicinsli malların gətirilmə daxili bazarda getirilmə anındakı halda satılmalı faktları yoxdursa, deklarantın xahişinə əsasən emal prosesini keçilmiş və əlavə dəyər düzəlişi verilmiş mal vahidinin qiyməti götürülə bilər. Bu halda emal prosesində əlavə edilmiş dəyərin əsas dəyərdən çıxılması belə emalın dəyəri barədə obyektiv və kəmiyyətcə müəyyən edilə biləcək məlumat əsasında aparılmalıdır.

IV üsuldan istifadə edildikdə gömrük dəyərinin əsaslandırılması üçün məlumat mənbəyi kimi müqavilələri əvvəllər idxal edilmiş və ya dəyərləndirilmiş malların qiyməti barədə məlumatlardan, yaxud malların daxili bazarda iri partiyalarla satıldığı qiymətləri təstiq edə biləcək digər sənədlər yararlı ola bilər.

7. Dəyərin toplanmasına əsaslanan V-ci üsuldan istifadə zamanı gömrük dəyərinin təyin edilməsi üçün baza olaraq malın aşağıdakı üç komponnentin cəmlənməsi yolu ilə hesablanan qiyməti götürülür:

- materialların və qiymətləndirilən malın istehsalı ilə əlaqədar olan digər məsrəflərin dəyəri;

-ixracatçı ölkədən Az-na malın satılması üçün səciyyəvi olan eyni növ mallara görə çəkilən ümumi xərclər, o cümlədən, nəqliyyat, yükləmə-boşaltma, sərhədi keçənədək sığorta və s. xərclər;

- ixracatçının, adətən Az-na belə mal göndərməsinə görə əldə etdiyi gəlir.

V-ci üsuldan istifadə edildikdə gömrük dəyər bəyannaməsində gömrük dəyərinin təyini üçün istifadə edilən məlumatların mənbəyi göstərilməlidir.

V-ci üsulla gömrük dəyəri həm idxal ölkəsində əldə edilən məlumat, həm də dəyərləndirilən malların istehsal məsrəfləri barədə üçüncü ölkələrdən əldə edilən məlumatlar əsasında həyata keçirilir.

Bu üsuldan istifadədə, adətən, istehsalçı gömrük orqanlarına lazım olan məlumatı təqdim edir. Yalnış istehsalçının təqdim etdiyi melumat məsrəflərin hesablanması üçün əsas götürülə bilər. Bu məlumat ticarət hesalarına əsaslanmalı və malların istehsal edildiyi ölkədə tətbiq edilən üçot prinsiplərinə uyğun olmalıdır. Idxal ölkəsində həyata keçirilən elementlərin dəyəri yalnız bu xərclərin istehsalçı tərəfindən ödənildiyi həcmdə nəzərə alınmalıdır.

Dəyərin toplanmasına əsaslanan üsulla gömrük dəyəri təyin edilərkən heç bir məsrəf iki dəfə hesablana bilməz.

Ixracatçının Az-na mal göndərdiyinə görə əldə etdiyi gəlir, ixracatçının verdiyi məlumata əsasən də müəyyən edilə bilər. Gömrük orqanları bu məlumatı eyni sinfə və ya növə məxsus malların satışını səciyyələndirən digər məlumatlarla müqayisədə istifadə edirlər.

8.Əvvəlki V üsul gömrük dəyərini təyin etməyə imkan vermirsə axırıncı – altıncı üsuldan istifadə olunur. Bu üsul ehtiyat üsul adlandırılır və qiymətləndirilən malların gömrük dəyərinin dünya təcrübəsi nəzərə alınmaqla təyin edilməsinə əsaslanır. Baxmayaraq ki, VI-ci üsul köməkçi üsuldur və müstəsna hallarda tətbiq edilməlidir, təcrübə

göstərir ki bu üsul 2-5 üsullardan daha çox istifadə olunur. Bir çox hallarda yerli gömrük oqranlar identik və eynicinslı mallar, xarici istehsalçının istehsal və identik və eynicinsli mallar, xarici istehsalçının istehsal və satış məsrəfləri barədə kifayət qədər məlumata malik olmurlar.

Diqqət edilməlidir ki,VI-cı üsulla gömrük dəyərinin təyin edilməsində istifadə edilən ilkin qiymət göstəricilərinə başlıca tələb onların konkretliyi və ya ünvanlı olmasıdır. Yəni qiymət konkret mala uyğun olmalı və ümumi məlumat şətinlik çəkmədən və birmənalı şəkildə eyniləşdirilməyə imkan verməlidir (malın ticari adı, təsviri, istehsalçı barədə məlumat, material, texniki parametrlər və s.).

Əvvəlki V üsulda gömrük dəyərinin təyini üçün istifadə olunan bazaların təsviri verilmişdir. Bununla barədər edlə hallar olur ki, qiymətləndirmə variantlardan heç biri əsas baza kimi götürülə bilməz.

Ümumi şəkildə bu hallar aşağıdakılardır:

- müvvəqəti idxal;
- birinci üsulun tətbiq oluna bilmədiyi barter əməliyyatları;
- icarə müqaviləsi və muzdlu xidməti nəzərdə tutan bağlaşmalar;
- təmir və ya forması dəyişildikdən sonra təkrar idxal edilən mallar;
- nadir məhsullar və incəsənət əsərləri;
- identik və eynicinsli malların gətirilmədiyi hallar;
- idxal ölkəsində malların təkrar satılmaması;
- istehsalçının naməlum olması və ya tələb olunan məlumatı təqdim etməməsi.

Bu hallar üçün VI-cı üsul yeganə vasitə olur. Gömrük Tarifi haqqında qanunun 23-cü maddəsi bu üsulda dünya təcrübəsindən istifadəni nəzərdə tutur. Nəzərə alsaq ki, dünya təcrübəsi dedikdə bilavasitə GATT/ÜTT-nin gömrük dəyəri barədə Sazışı başa düşülür, bu anda Sazişin VII maddəsinin əhəmiyyəti bir daha aydın olur.

VI-cı üsul malın gömrük dəyərinin müəyyən edilməsində xüsusi vasitə müəyyən etmir, amma bu üsul çərçivəsində qiymətləndirmədə bir sıra prinsiplərin nəzərə alınmasını tələb edir.

Baş Sazişın VII maddənin VI üsulunda nəzərə alınmasının əsas prinsipləri aşağıdakılardır:

- qiymətin maksimum dərəcədə gətirilən malların dəyərinə əsaslanması, faktiki qiymətləndirməyə əsaslanan dəyərdən istifadə edilməsi;
- qiymətin unifikasiyalaşdırılması, gömrük qiymətləndirilməsinin eyni üsulla aparıılması;
- qiymətlərin həqiqi və neytral olması;
- qiymətləndirmə meyarlarının sadəliyi və ayrı məqsəd güdməməsi;
- ticarət təcrübəsinə uyğunluq, yad üsullardan istifadə edilməməsi;
- yaxın ekvivalent dəyərlərdən istifadə edilməsi;
- yerli və məchul qiymətlərdən istifadə edilməməsi.

Gömrük dəyərinni təyin edilməsinin ehtiyat üsuldan digər üsulların çəvik tətbiqi yolu ilə istifadə edilir.

Məsələn: sövdələşmə qiyməti barədə məlumar varsa, lakin malların çatdırılmasında məsrəflərin sənədli təstiqi yoxdursa, yaxud "Gömrük tarifi haqqında" Az R-sı qanununun 18-ci maddəsinin tələbləri pozulduğu və s. hallarda VI-cı üsul birinci üsulun çevik tətbiqinə əsaslanır. Bu halda GDB-1 istifadə oluna bilər. Əvvəlki üsullardan istufadə edilməməsinin səbəbləri GDB-1 formasının arxasında gğstərilir, bu formanın üz tərəfindən yüxarıda isə "VI-cı üsul" yazılır.

II-V-ci üsullardan çevik istifadədə GDB-2 doldurulur. GDB-2-nin 8-ci rqafasında (məlumat mənbələri) gömrük dəyərinin hesablanma bazası kimi dünya və müqavilə qiymətləri barədə sorğu rəqəmləri, gömrük orqanının məlumat bazasının rəqəmləri,

həmçinin baxılan əqd üzrə bu üsulda istifadə oluna biləcək digər məlumat göstərilir. Bu halda məlumatın mənbəyi göstərilməlidir ki, lazım olduqda yoxlanıla bilsin.

II və III-cü üsulların çevik tətbiqi ilk növbədə identik və eynicinsli malların gətirilmə müddətlərinə, başqa ölkələrdə istehsal edilmiş identik və eynicinsli malların gömrük dəyərinin təyinində əsas kimi istifadə edilməsinə yönəlir.

Dəyərin çıxılması üsuluna (VI üsul) münasibətəd malların daxili bazarda satış müddətlərinə, qiymətləndirilən malların ilkin (dəyişilməmiş vəziyyətdə) olmalarına tələblərin çevik şərhinə yol verilə bilər. Yeni müddət geniş götürülə, müəyyən dərəcədə emala yol verilə bilər.

Gömrük Tarifi haqqında qanunun 23-cü maddəsinin 2-ci hissəsində gömrük dəyərinin təyinində istifadəsinə yol verilməyən qiymətlər göstərilir:

- malın daxili bazardakı qiyməti;
- daxili bazardakı Azərbaycan mənşəli malın qiyməti;
- ixrac edən ölkənin üçüncü ölkələrə göndərdiyi malların qiyməti;
- malın kortəbii müəyyən edilmiş və ya dəqiqləşdirilməmiş qiyməti.

Axırıncı bəndin dəqiqləşdirilməyə ehtiyacı var. Belə ki, gömrük dəyərinin təyini üçün əsas olaraq kortəbii müəyyən edilmiş və ya dəqiqləşdirilməmiş qiymətin götürülməsi ona görə baş verir ki, qiymətləndirilmə üçün götürülən mal analoqu konkretləşdirilmir. Buna görə də VI-cı üsulla gömrük dəyərinin təmin edilməsində orta qiymətlərdən istifadə etmək olmaz.

Dünya qiymətlərinin və daxili bazar qiymətlərini, ümumilikdə qəbul edilmiş komission, güzəşt, gəlir, nəqliyyat tarifləri və s. əks etdirən bülleten və məlumat kitabçalarından istifadəyə yol verilir. Gömrük orqanları bu məlumatlardan istifadə etmək üçün yardım göstərirlər. Gömrük orqanlarının məlumat bazasının əsasını konkret GYB və GDB-lər təşkil etməlidir.

Məlumat qiymətlərindən istifadə dəyərləndirilmənin göndəriş şərtlərinə görə dəqiqləşdirilməsini tələb edir.

Ən böyük çətinlik onda yaranır ki, VI-cı üsuldan istifadə edildikdə ilk beş üsulla müəyyən edilmiş qiymətləəndirilmə bazasından istifadə etmək mümkün olmasın.

Məsələn, bu o zaman baş verə bilər ki, mallar lizinq əsasında gətirilsin, sərgi eksponatları, sınaq nümünələri şəkilində müvəqqəti gətirilsin, təmir və müasirləşdirmə işlərindən sonra təkrar idxal edilsin.

Belə hallarda malın sığortalanmış qiyməti götürülə, yaxud əmtəə-dəyər ekspertizası təşkil edilə bilər. Elə ola bilər ki, ekspertizadan istifadə vahid düzgün çıxış olsun.

Malları gömrük məqsədləri üçün dəyərləndirən şəxs:

- onların bəyan edilməsi ilə bağlı sənədləri və məlumatları Gömrük Məcəllənin 95.2-ci maddəsində tələb olunan müddət (3 il) ərzində saxlamalı;

- gömrük orqanları tərəfindən tələb olunduqda, müəyyən edilmiş gömrük dəyərinin dəqiqliyini yoxlamaq üçün bəyanetmə ilə bağlı sənədləri və məlumatları onlara təqdim etməlidir.

Apardıqları yoxlama, gömrük auditi və ya araşdırma nəticəsində dəyərləndirmənin "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olmaması, yaxud digər səbəblərdən düzgün olmadığı barədə qənaətə gəldikdə, gömrük orqanının vəzifəli şəxsi gömrük dəyərinə həmin qanunun tələbləri nəzərə alınmaqla müvafiq düzəlişlər edilməsi və onların əsaslandırılması barədə şəxsə yazılı bildiriş təqdim edir. (221 maddə)

Şəxs Gömrük Məcəllənin 221-ci maddəsinə uyğun olaraq ona təqdim edilən bildirişdə göstərilən gömrük dəyərinə təklif olunan düzəlişlə razılaşmadıqda, yuxarı gömrük orqanına və (və ya) məhkəməyə müraciət edə bilər. Yuxarı gömrük orqanı və ya məhkəmə həmin müraciətə ən geci 10 (on) gün müddətində baxır. Bu barədə müraciətə

baxılma müddətində dəbbə pulu hesablanmır. Yuxarı gömrük orqanı və ya məhkəmə şəxsin müəyyən etdiyi gömrük dəyərini düzgün hesab etdikdə, malların saxlancı ilə bağlı xərclər Gömrük Məcəllənin 221-ci maddəsinə əsasən gömrük dəyərinə düzəlişlər etmiş vəzifəli şəxsdən tutulur və həmin vəzifəli şəxs intizam məsuliyyətinə cəlb olunur.

9.Az-can R-sı ərazisinə gətirilən malları bəyan edən şəxslərə (kommersiya məqsədi üçün nəzərdə tutulmayan malları idxal edən fiziki şəxslər istisna olmaqla) malların gömrük dəyərinin müəyyən edilməsi üçün Az R-sı Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı "Az R-nın gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları" məcburi hesab edilir.

Bu qaydalar:

- deklarant üçün – gətirilən malların gömrük dəyərinin müəyyən edilməsi və bəyan olunması zamanı;
- gömrük orqanları üçün – gətirilən malların deklarantlar tərəfindən bəyan edilən gömrük dəyərinə nəzarət etmək üçün istifadə olunur.

Gömrük orqanlarında malların buraxılmasının əsassız olaraq gecikdirilməsinin qarşısını almaq üçün gömrük dəyərinə nəzarət prosesi qısa müddətdə həyat keçirilməlidir. Malın gömrük rəsmiləşdirilməsi müddətində deklarant tərəfindən bəyan edilmiş gömrük dəyərini təstiq etmək mümkün olmadıqda, qüvvədə olan qanunvericiliyə müvafiq qaydada malın şərti olaraq buraxılmasına gömrük orqanı göstəriş verə bilər.

Malın şərti olaraq buraxılması dedikdə, onun gömrük dəyərinin şərti olaraq müəyyən edilməklə buraxılması başa düşülür, yəni gömrük dəyərinin tam və dəqiq müəyyən edilməsi prosesi deklarant tərəfindən təqdim edilmiş məlumatlar əsasında müəyyən edilməklə başa çatır.

Gətirilən malların gömrük dəyərinin bəyan edilməsi üçün GDB-1 və GDB-2 formada gömrük dəyəri bəyannaməsi tətbiq edilir. GDB-1 gətirilən malların gömrük dəyəri 1 üsulla GDB-2 gətirilən malların gömrük dəyəri 2-6-cı üsullarla müəyyən edildikdə tətbiq edilir.

Az-can r-na gətirilən malların gömrük dəyəri müəyyən edilmiş qaydada deklarant tərəfindən gDB-nə uyğun olaraq bəyan edilir. Gətirilən mallar bəyan edilmiş gömrük dəyəri əsasında gömrük rüsumlarına və vergilərinə cəlb edilir.bəyan edilən gömrük prosedurası üzrə gətirilən mal gömrük vergi və rüsumlarına cəlb olunmursa, gömrük dəyəri YGB-si ilə bəyan edilir. Bəyan edilmiş gömrük dəyərinə gömrük orqanında əsaslandırılmış şübhə yarandıqda, deklarantdan gömrük dəyəri bəyannaməsini doldurmağı tələb edə bilər.

Gömrük dəyəri bəyannaməsi gömrük sənədi hesab olunur. Deklarant gömrük dəyəri bəyannaməsində və gömrük dəyərini təsdiq edən sənədlərdə göstərilən bütün məlumatlara görə Az R-nın müvafiq normativ-hüquqi aktlara uyğun olaraq məsuliyyət daşıyır. Gömrük dəyəri bəyannaməsi yük gömrük bəyannaməsi və müvafiq gömrük orqanı tərəfindən gömrük məqsədiüçün tələb olunan digər sənədlərlə birlikdə təqdim olunur.

Deklarant gömrük dəyəri üzrə bəyan edilmiş məlumatı təstiq etmək üçün gömrük dəyəri haqqında bəyannamə ilə yanaşı aşağıdakı sənədləri təqdim etməlidir:

- malı gətirən hüquqi və fiziki şəxsın təsis sənədləri;
- müqavilə (kontrakt) və ona əlavə olunan razılaşma sənədləri (əgər onlar nəzərdə tutulmuşsa);
- hesab-faktura (invojs) və bank ödəniş sənədləri və ya hesab-proformu, həmçinin malın dəyərini təstiq edən başqa ödəniç və ya mühasibat sənədləri;
- nəqliyyat və sığorta sənədləri;
- yükləmə-boşaltma üçün hesab və ya nəqliyyat xərci üzrə rəsmi təsdiq edilmiş hesablaşma;
- göndərən tərəfdən gömrük bəyannaməsi;
- qablaşdırma vərəgləri;
- idxalı müəyyən edilmiş qaydada lisenziya əsasında heyata keçirilən mallar üçün lisenziya;
- malın mənşə ölkəsi haqqında sertifikat, keyfiyyət sertifikatı, təhlükəsizlik sertifikatı.

Gömrük orqanı tərəfidən əlavə məlumat kimi aşağıdakı sənədlər tələb oluna bilər:

- sövdələşməyə aidiyyatı olan üçünçü şəxslə müqavilə;
- satıcının xeyrinə üçüncü şəxslərin tədiyə üçün hesablaşma sənədi;
- qiymətləndirilən malın sövdələşməsinə aidiyyatı olan komisyon, broker xidməti üçün hesablaşma sənədi;
- mühasibat sənədləri;
- lisenziya və müəlliflik sazişi;
- ixrac (idxal) lisenziyası;
- anbar qəbzləri;
- malı daçımağa sair sifariş;
- kataloqlar, spesifikasiya, firma-istehsalçının qiymət prejskurantı;
- qiymətləndirilən mala firma-istehsalçının hasablaşma;
- gömrük dəyər bəyyannaməsində bəyan olunan gömrük dəyərini təstiq edəcək digər sənədlər.

Malın gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanı deklarantda olmayan məlumatlara malik ola bilər. Belə məlumatlara xarici ticarət dövriyyəsində olan malların məlumat qiyməti, habelə əvvəllər gömrük rəsmiləşdirilməsindən keçən eyniadlı və ya eynicinsli mallar haqqınd məlumatlar daxil edilir. Deklaranta gömrük orqanı orqa kontrakt qiyməti, məxfilik saxlanılmaqla ayrı-ayrı sövdələşmə üzrə gömrük dəyəri haqqında məlumat təqdim oluna bilər.

10.Gömrük fəaliyyətində valyuta nəzarəti.

Suallar:

1. Valyuta tənzimlənmə tədbirlərinin mahiyyəti və əsas məqsədləri.
2. Malların ixracından daxil olunan valyuta vəsaitlərə bank tərəfindən nəzarətinin həyata keçirilmə qaydaları.
3. Sövdələşmə Vəsiqəsini(Pasportu) rəsmiləşdirilməsi qaydaları.
4. Az-can R-nın gömrük orqanları tərəfindən ixrac olunan malların gömrük rəşmiləşdirilməsinin aparılması.
5. Valyuta nəzarəti sahəsində Az R-sı gömrük orqanlarının səlahiyyətləri.
6. Barter və müvəqqəti ixrac əməliyyatların gömrük rəsmiləşdirilməsi.

Dünya təsərüffat əlaqələr sistemində hər ölkənin milli iqtisadiyyatın səmərəli inkişafı və fəaliyyət göstərməsi öz valyuta siyasətinin hazırlayıb həyata keçirilməsini tələb edir.

Öz mahiyyətinə görə valyuta siyasəti – beynəlxalq valyuta münasibətlər sferasında dövlət tərəfindən müəyyənləşdirilmiş prinsiplər, istiqamətlər və tədbirlərin məcmusudu.

Təcrübədə valyuta siyasətinin həyata keçirilməsi aşağdakı məqsədlərə nail olmaq üçün istiqamətlənmiş olur:

- valyuta-maliyyə mexanizmini möhkəmləndirilməsi, Az R-nın alıcılıq qabiliyyətini və krediti borcuları ödəmə qabiliyyətinin yüksəlməsi;
- Az-can üçün əlverişli şərtlər daxilində xarici investisiyaların cəlb edilməsi və Az-can Res-nın maraqlarına zidd olan milli və xarici kapitalın xaricə axıb getməsinin qarşısını alınması;
- milli valyutanın möhkəmləndirilməsi, onun stabil məzənnəsini qoruyub saxlanması və onun konversiya edilməsi üçün şərait yaradılması.

Dövlət valyuta siyasəti əsasında valyuta tənzimlənmə tədbirlərinə oz münasibətini təyin edir. Valyuta tənzimlənməsi bir tərəfdən prosesdir, digər tərəfdən isə iqtisadiyyatın valyuta sferasında dövlət tənzimlənmə qaydaların məcmusudur.

Valyuta tənzimlənməsini həyata kecirərkən dövlət:

- Azərbaycanda valyuta münasibətlərin iştrakcılar tərəfindən həyata keçirən beynəlxalq hesablaşma əməliyyatları nizama salır;
- valyuta əməliyyatlarının həyata keçirilməsinin sfera və qaydaların təyin edir;
- ölkənin valyuta ehtiyatların formalaşması və istifadəsi qaydalarını müəyyən edir;

- valyuta fondların yaranma və istifadə qaydalarını təyin edir.

2. Malların ixracından daxil olunan valyuta vəsaitlərə bank tərəfindən nəzarətinin həyata keçirilmə qaydaları.

Valyuta nəzarətinin həyata keçirilmə məqsədi – Az-can R-nın səlahiyyətli banklarda olan öz valyuta hesablara malların ixracından əldə edilən valyuta mədaxillərin daxil olmasını ixracatçılar tərəfindən təmin edilməsidi. Malların ixracatdan mədaxillərin müvəkkil banklarda olan ixraçatçıların hesabatlardan başqa hesablarına daxil etməsi yalnız Mərkəzi Bankın icazəsi olduqu halda məqbul hesab edilir.

**Sövdələşmə Vəsiqəsi (Pasportu) –** xarici ticarət sövdələşmə barəsində valyuta nəzarətinin həyata keçirilməsi üçün zəruri olan, müəyyən edilmiş standart formada izah edilmiş məlumatları özündə birləşdirən valyuta nəzarəti məqsədləri üçün tələb olunan əsas sənəddir.

**Gömrük-bank nəzarətinin üçot kartoçkası –** gömrük orqanları tərəfindən, banka yollamaq məqsədiylə tərtib olunan və banka valyuta mədaxillərin daxil olmasına nəzarətini həyata keçirilməsi üçün zəruri olan, YGB-də əks olunan məlumatlatları özündə birləşdirən qayıdan (ış) sənəddir.

**Reyestr** (siyahı, cədvəl) – eyni banka yollanan və gömrük orqamlarına eyni qayıtma tarixə malik olan Üçot kartoçkaları birləşdirən sənəd.

**Dosye -** hər sövdələşmə vəsiqə əsasında müvəkkil bank tərəfindən tərtib olunan xüsusi sənədlər toplusudu.

**Jurnal –** valyuta nəzarəti məqsədləri üçün tələb olunan sənəddir - daxil olan və xaric olunan sənədlərin xüsusi üçotunu aparılması üçün bank tərəfindən doldurulur.

Hal hazırda ixracatdan daxil olunan valyuta mədaxillərin tənzimlənməsinin hüquqi əsasını ilk növbədə aşağdakı sənədlər təşkil edir.

1) Mərkəzi Bank və DGK tərəfindən birgə qəbul olunmuş “Az-can R-na malların ixracatından mədaxillərin daxil olunamasına valyuta nəzarətinin həyata keçirilmə qaydaları haqqında” 19 nömrəli Təlimat əsasında;
2) “Valyuta tənzimlənməsi və valyuta nəzarəti barəsində” Az r-sı Qanunu;
3) “Müvəkkil banklar vasitəsiylə təşkilat tərəfindən valyuta mədaxillərin bir hissəsini məcburi surətdə satışı və daxili valyuta bazarında əməliyyatların keçirilməsi barəsində” Qaydaları və bir sıra digər normativ aktlar.

Valyuta nəzarətinin məqsədi - valyuta əməliyyatlarında valyuta qanunvericiliyinə riayət olunmasının təmin edilməsidir. Valyuta nəzarətinin əsas istiqamətləri aşağdakılardır:

- aparılan valyuta əməliyyatlarının qüvvədə olan qanunvericiliyinə uygun olması və tələb olunan lisenziya və icazələrin alınması;
- rezidentlərin dövlət qarşısında öhdəliklərinin, həmcinin əldə olunan xarici valyutanın daxili valyuta bazarında satılması öhdəliyinin yerinə yetirilməsinin yoxlanılması;
- xarici valyutada ödənişlərin qanuni və əsaslı olduğunun yoxlanılması;
- valyuta əməliyyatları üzrə hesablaşmaların tam və obyektiv olduğunun yoxlanması.

Valyuta məhdudiyyətlərini reqlamentləşdirən normativ bazanın olması valyuta əməliyyatlarının həyata keçirilməsi zamanı bu qanunvericiliyə əməl edilməsinə nəzarət məqsədilə şəraitin yaradılması üçün inzibatı idarəetmə mexanizmini şərtləndirir.

Rəzidentlər aşağdakılar hesab olunur:

- daimi Azər-da yaşayan, o cümlədən müvvəqəti xaricdə olan fiziki şəxslər;
- Az-can Qanunvericiliyinə uygun olaraq yaradılmış, Az-can r-sı ərazisində yerləşən hüquqi şəxslər;
- Az-can R-sı ərazisindən kənarda olan respublikanın diplomatik və digər rəsmi nümayendəçiliklər.

Qeyri-rezidentlər hesab olunur:

- daimi xaricdə yaşayan , o cümlədən müvəqqəti Az-da olan fiziki şəxslər;
- xarici ölkələrin qanunvericiliyinə əsassən yaradılmış və respublika ərazisindən kənarda yerləşən hüquqi şəxslər;
- Az-da yerləşən xarici diplomatik və digər rəsmi nümayəndəliklər, həmçinin beynəlxalq təşkilatlar.

Hüquqi şəxs olan rezidentlərin arasında həyata keçirilən xarici valyutada hesablaşmalar onlar arasında bağlanmış müqavilələrin şərtlərinə əsasən icra olunur. 10 min ABS dollarnan artıq məbləgində olan alqı-satqı kontraktlar Az R-nın Mərkəzi Bankın məhəlli idarələrdə qeydiyyatdan keçirilir.

Rezidenlər, hüquqi və fiziki şəxslər sifətində, müvəkkil kommersiya banklarında xarici valyutada hesablar aca bilərlər. Banklarda vayuta hesabatların açılması qaydaları və bu hesablar vasitəsiylə əməliyyatların həyata keçirilməsi qaydaları Az r-nın Mərkəzi Bank təyin edir.

Valyuta hesabı açmaq üçün hüquqi şəxs müvəkkil banka bir sıra sənədləri təqdim etməlidir:

- hesabat açılması barədə ərizə;
- təşkilatın notarius tərəfindən təstiq edilmiş nizamnaməsinin və təsisat sənədlərin sürətləri;
- hüquqi şəxsin dövlət orqanlarında qeydiyyatdan keçirilməsi barədə şəhadətnaməsi;
- vergi orqanlarında üçota salınması barədə və sığorta ödənclərin ödəciyəçı kimi qeydiyyatını təstiq edən sənəd;
- dövlət statistika orqanlarında qeydiyyat barəsində sənəd;
- həmin təşkilatda xarici valyutada əməliyyatların həyata keçirilməsinə hüququ olan şəxslərin notarius tərəfindən təstiqlənmiş imzaların nümunə kartoçkası.

Müəssisə və təşkilatlar bir yada bir necə kommersiya banklarında bir neçədənə valyuta hesabatlarını, bir neçedənə valyutada açmaq hüququna malikdirlər.

Malların ixracından müəssisə və təşkilatların ünvanlarına gələn xarici valyuta, həmcinin Az R-sı ərazisində malların, xidmətlərin xarici valyutada həyata keçirilən satış zamanı əldə olunan məbləğlər məcburi surətdə müvəkkil banklarda valyuta hesablarına daxil olmalıdlar. Əks halda bu məbləğlər qızlədilmiş sayılır, baxmiyaraq ki həmin məbləğlər müəssisə yada təşkilatın öz mühasibat üçotunda öz əksini tapmış olsun.

Müvəkkil banklar hər bir müəssisə və təşkilata eyni zamanda iki növ hesabatlar açırlar:

- tranzit valyuta hesabatı – xarici valyutada daxil olan pulların tam həcmdə hesaba daxil etmək üçün;
- cari valyuta hesabatı – valyuta gəlirlərin bir hissəsini məcburi satışından sonra müəssisə və təşkilatların sərəncamında qalan vəsaitlətin üçotu üçün.

Bütun müəssisə və təşkilatlar mülkiyyət formalarından asılı olmıyaraq, xarici kapitalın iştirakı ilə olan müəssisələrdə daxil olmaqla, Az P-nın daxili bazarında müvvəkkil banklar vasitəsiylə kommersiya məzənnəsi üzrə malların (xidmətlərin) ixracatından əldə olunan valyuta gəlirlərin 75%-nin satışını həyata keçirilməlidlər.

Valyuta gəlirlərin müvəkkil bankının tranzit hesabatlarına daxil etmə zamanında bank gələn iş gunu ərzində gec olmıyaraq təşkilata məlumat verir. Təşkilat isə öz tərəfindən həmin banka valyuta gəlirlərin məcburi satış üçün və qalan hissəsini öz cari hesabatına keçirmə barəsində tapşırıq verir. Müvəkkil bank təşkilatdan qəbul edilən mədaxilləri yeddi iş gün ərzində satmalıdır.

Xarici valyutanın daxili bazarında məcburi satış üzrə müvəkkil bankların əməliyyatlarına görə əldə olunan komissyon haqqı satilan məbləğin 1,3% dən artıq olmamalıdı.

Məcburi valyuta mədaxillərin satışından qalan hissə daxili valyuta bazarında satila bilər yada təşkilatın basqa ehtiyaclarına sərf oluna bilər.

3. Sövdələşmə Vəsiqəsini (Pasportu) rəsmiləşdirilməsi qaydaları.

Ixrac əməliyyatlarına nəzarət ixracatçi və ona xidmət göstərən kommersiya bank arasında sövdələşmə vəsiqəsini rəsmiləşdirmə anından başlayır. Sövdələşmə Pasportunda sazişın əsas məlumatları əks olunur (ixracatçının və xarici kontagentinin rekvizitləri, müqavilənin məbləği, qiymətin və ödəmənin valyutası, hesablaşma forması və s.)

Hər bir bağlanmış ixrac müqavilə üzrə bir sövdələşmə pasportu tərtib olunur. SP-tu iki nüsxədə tərtib olunur. Ixracatçı öz adından doldurulmuş və imzalanmış Sövdələşmə Pasportıylə birgə banka baglanmış müqaviləni (hansinın əsasında pasport tərtib edilib) yada notarius tərəfindən təstiqlənmiş sürətini təqdim edir.

Sövdələşmə Pasportunu imzalamaqnan İxracatçı aşağdakı öhdəlikləri öz üzərinə götürülmüş olur:

- xarici müqavilə əsasında tərtib olunmuş Sövdələşmə Pasportunda əks olunan məlumatların, həmin müqavilə şərtlərinə tam uyğunluquna görə;
- baglanmış ixrac kontrakta qeyd olunan müddət ərzində və tam həcmdə müvəkkil bankda açılmış tranzit hesabatına pulların daxil olmasına görə.

Bank ona təqdim olunan sənədləri yoxlamasından sonra (SP-da olan məlumatların müqavilə şərtlərinə uygun olmasını, SP-da olan imzaların kartockada olan imzaların nümünələrinə uygun olmasını) SP nüsxələri imzalıyır.

Birinci nüsxə İxracatçıya qaytarılır müqavilənin sürətiylə yada əsliylə, buda bankın Jurnalında öz əksini tapır.

İkinci nüsxə Bank tərəfindən Dosye acmaq üçün əsas olur və o həmin dosyədə saxlanılır. Sövdələşmə Pasportunu bank tərəfindən imzalanması həmin müqaviləni hesablama xidmət edilməsinə və valyuta gəlirlərin daxil olmasına nəzarətini həyata keçirilməsinə razılıqı bildirmək dəməkdir. Aşağda göstərilən səbəblərdən hec olmasa birinin olması Sövdələşmə Pasportunu bank tərəfdən imzalamaqdan imtina etməsi üçün əsas ola bilər:

- kontrakda olan məlumatların SP-da qeyd edilən reqemlərlə uyğun gəlməməsi;
- müqavilədə nəzərdə tutulmuş əməliyyatların Az R-da quvədə olan valyuta əməliyyatları tənzimləyən qanunvericilik aktlarda əks olunmuş tələblərə uygün olmaması;
- müəyyən olunmuş tələblərin pozulmasıylə SP-nın tərtib olması;
- valyuta gəlirlərin bu müqavilə üzrə ixracatçı olmiyan hüquqi şəxlərin hesabatlarına daxil olmasını nəzərdə tutan şərtlərin müqavilədə olması.

Valyuta nəzarətini həyata keçirilməsinin növbəti mərhələsi ixrac olunan malların gömrük rəsmiləşdirilməsidi.

4. Az-can R-nın gömrük orqanlarında valyuta nəzarəti aparılması.

Beynəlxalq təcrübə göstərir ki, XİF-lə bağlı əməliyyatlara səmərəli valyuata nəzarəti yalnız bu işdə gömrük orqanlarının fəal iştirakı ilə mümkündür. Belə ki, malların gömrük sərhədindən qanuni keçirilmə faktı və onun şərtləri, həmcinin xarici ticarət müqavilələrində öz əksini tapmış digər məsələlər gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi zamanı valyuta nəzarətinin gedişində aşkarlanır.

Gömrük rəsmiləşdirilməsi zamanı valyuta nəzarətinin hərtərəfli və səmərəli həyata keçirilməsi üçün şərait yaranmış olur.

Beləliklə ixrac olunan malları gömrük rəsmiləşdirilməsi üçün gömrük orqanlarına təqdim etməsindən əvvəl ixracatçı banknan razılaşdırılmış qaydada Bankda saxlanılan SV-nın əslinin bank tərəfindən möhürlənmiş sürətini alır. Bununla yanaşı deklarant gömrük rəsmiləşdirilməsi məqsədləri üçün hazırlanmış YGB-nin sürətini cıxarır.

Gömrük orqanları ixrac olunan malları gömrük rəsmiləşdirilməsini həyata keçirilməsi üçün gömrük qanunvericiliyində nəzərdə tutulmuş digər sənədlərə yanaşı SV və YGB sürətləri əlavə edilən halda yalnız qəbul edirlər.

Gömrük orqanları yuxarda qeyd olunan sənədlərdə əks olunmuş məlumatları digər sənədlərdə olan məlumatlarıyla uyğun olmasını yoxlayıb və yuxarıda göstərilən sənədlər arasında ziddiyyətlər olmadığı zamanda gömrük rəsmiləşdirilməsini aparan gömrük orqanının vəzifəli şəxs SV və YGB sürətləri üstündə öz şəxsi nömrəli möhür vurur və sürətləri imzalıyır.

SV imzalanmış sürəti YGB bir nüsxəsiylə birgə rəsmiləşdirilməsini aparan gömrük orqanında qalır.

Imzalanmış və möhürlənmiş YGB sürəti ixracatşıya qaytarılır.

Ixracatçı malları buraxmasından sonra 10 gün ərzində malların gömrük rəsmiləşdirilməsini aparan gömrük orqanından almış YGB-nin sürətini Banka təqdim edir.

YGB-də cəmləşmiş məlumatlar əsasında müəyyən qaydaya uyğun olaraq Rejesterdə birləşdirilmiş, Üçot Kartockaları tərtib edir. Hər ÜK-sı bir göndərilmə barəsində məlumatları özündə birləşdirir.

DGK xüsusi kanallar vasitəsiylə müvafiq Banklara iki nüsxədə olan Rejesterləri göndərir.

5. Rejestlərin birinci orijinal nüsxəsi bank ayrı-ayrı SV-nə aid olan ÜK-na ayrılır müvafiq Dosyelər üzrə. Rejesterin ikinci nüsxəsi bakda müəyyən edilmiş geri

göndərmə müddətdən gec olmıyaraq bank tərəfindən doldurulur və xüsusi kanal vasitəsiylə qaytarılır.

Tranzit valyata hesabatına valyuta gəlirlərin daxil olması zamanı İxracatçı daxil olan məbləğlərin eyniləşdirilməsini rahatlaşdırmaq məqsədi ilə müqavilədə ayrı sətirdə SV və ÜK rekvizitləri (nömrəsi, tarix) qeyd edir.

Ixracatçılar bank hesabatlarından çıxarış əsasında DGK Rejesterlərin geri göndərilməsinin kontrol müddətdən 10 gün əvvəl müddətində Bankdan alınmış ÜK-nın doldurulmasının öz variantını banka təqdim etməlidirlər. Bu hesablaşmalarla əks olunmuş rəqəmlərlə Bank razı olmadıgı zamanı o ödənc valyutada faktiki daxil olmuş məbləgi göstərir.

Bank İxracatçı tərəfdən göstərilmiş məlumatların düzgunluyunu yoxlamasından sonra təyin olunmuş müddətdən gec olmiyaraq valyuta məbləglərin daxil olmasının tamamlıqı və vaxtlı vaxtında daxil olub-olmamasından asılı olmadan, Reyesterinin ikinci nüsxəsinin bütün qrafalarını doldurur və xüsusi kanallar vasitəsiylə DGK yollayır.

Ixracatçıdan məbləglərin tamam alınmaması DGK-nə reyesterinin qaytarılmasının yubatması üçün səbəb ola bilməz. Bankdan qəbul olunmüş Reyestərlər DGK-nin hesablanma mərkəzində valyuta nəzarətinin həyata kecirilməsi üçün zəruri olan operativ və statistik məlumatların hazırlanmasına görə qeydiyatdan keçirilir.

DGK və digər gömrük orqanları valyuta nəzarəti orqanlar kimi öz funksiyaları yerinə yetirilməsi zamanı aşağdakı hüquqlara malikdirlər:

- 19 nömrəli təlimatında olan tələblərin pozulma halları ilə tərtib edilmiş SP təqdim edilməsi zamanı malların buraxılmasını qadagan edilməsi;
- Öz səlahiyyətlər daxilində İxracatçıların valyuta əməliyyatlarının yoxlanılması;
- malların və nəgl vasitələrin gömrük sərhədini keçməsi ilə baglı valyuta əməliyyatlar barəsində sənədlərin və məlumatların Bankdan və İxracatçıdan tələb etmək;
- Az R qanunvericiliyinə uyğun olaraq valyuta nəzarəti üzrə digər vəzifələri yerinə yetirilməsi.

5.Gömrük orqanı Az R-da valyuta nəzarətini həyata keçirən dövlət orqanlarından biridir(272) .Az R-sı gömrük orqanları sərbəst gömrük zonalarının, sərbəst anbarlarının perimetrləri istisna edilməklə, Az R-nın gömrük sərhədindən ayrı-ayrı şəxslər tərəfindən Az R-sı milli valyutasının, milli valyutada qiymətli kağızların və digər valyuta sərvətlərinin keçirilməsinə, eləcə də göstərilən sərhəddən malların və nəqliyyat vasitələrinin keçirilməsi ilə əlaqədar valyuta əməliyyatları üzrə valyuta nəzarətini həyata keçirirlər.

Gömrük orqanları tərəfindən valyuta nəzarəti həyata keçirilərkən aşkar edilmiş hüquqpozmalara görə təqsirli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar(274).

Beləliklə, gömrük orqanlarına valyuta nəzarəti həyata keçirmək hüququ verilməklə qanunvericilik aktı səviyyəsində valyuta nəzarəti orqanının səlahiyyəti konkretləşdirilmiş olur. Gömrük sərhədindən keçirilən valyuta və valyuta qiymətlilərinə nəzarət funksiyası ən-ənəvi xarakterli olub, əvvəllər də gömrük orqanlarının əsas funksiyalarına aid idi. Valyuda qiymətlərinə mülkiyyət hüququnun keçməsi əməliyyatlarına nəzarət funksiyasının gömrük sisteminə həvalə edilməsi prinsipcə yeni məsələdir və bu nəzarətin səmərəliyinin artırılması məqsədi güdür. Məsələnin belə qoyuluşu gömrük sisteminin maraq dairəsini genişləndirmək, gömrük və valyuta qanunvericiliyi sahələrini uzlaşdırmağa, həmçinin onun həllində gömrük sisteminin təşkilati və texniki imkanlarından istifadə etməyə şərait yaratdı. Nəticədə bu üstünlüklər xarici ticarət fəaliyyəti əməliyyatlarına nəzarətin təşkilində özünü göstərdi.

DGK-nin 9 sentyabr 1998-ci il tarixli 049 saylı əmri ilə "Az R-sı ərazisindən ixrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət barədə" Təlimat təsdiq edilmişdir.

Ixrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət bir neçə mərhələdə həyata keçirilir.

1. Ilkin nəzarət:
   - YGB-nin düzgün doldurulmasına və göstərilən məlumatların dəqiqliyinə nəzarət;
   - Həyata keçirilən sövdələşmənin qanunvericiliyə uyğunluğuna nəzarət;
   - Hesabatların formalaşdırılması və DGK-nə təqdim edilməsi.

2. Məlumat- analitik nəzarət:

- gömrük orqanlarından alınan məlumatların yoxlanılması;

- valyuta nəzarəti, üçot kartoçkasının doldurulması və nəqd üzrə hesablaşmaları aparan müvəkkil banklara göndərilməsi;

- bank tərəfindən rəsmiləşdirilən üçot kartoçkalarının alınması və istifadəsi;

- valyuta köçürülməsi üzrə müəyyən edilmiş qaydaları pozanların müəyyən edilməsi;

3. Bitkin sənədli nəzarət:

- valyutanın köçürülməsində mümkün ola biləcək çatışmazlığı faktı üzrə məqsədli yoxlama;

- Gömrük Məcəlləsi ilə müəyyən edilmiş sanksiyaların tətbiqi.

Belə nəzarət sistemi imkan verir ki, hər bir valyuta əməliyyatının qanunvericiliyə uyğun olmasına nəzarət edilsin, qaytarılmamış valyuta qazancının həcmi qiymətləndirilə bilsin, ödənişin şərtləri qaydaya salınsın, gömrük orqanlarının və bankların operativ məlumat mübadiləsi təmin edilsin, valyuta nəzarəti məqsədləri üçün bank və gömrük orqanlarının imkanlarından maksımum istifadə edilsin.

Gömrük orqanaları ixrac nəzarətinə düşən malların gömrük sərhədindən qeyri-qanuni keçirilməsinin, o cümlədən bu malların ixracına qadağa və məhdudiyyət qoyulmuş dövlətlərə və son istifadəçilərə ixracının qarşısını alırlar. Ixrac nəzarətinə düşən malların gömrük sərhədindən keçirilməsi qaydaları "İxrac nəzarəti haqqında" Az R-nın Qanununa müvafiq olaraq müəyyən edilir.

Gömrük orqanlarının ixrac nəzarətini həyata keçirməyə səlahiyyətli olan vəzifəli şəxsləri digər dövlət orqanlarından və aidiyyəti şəxslərdən aldıqları məlumatların məxfiliyini qorumağa borcludurlar.

6.Barter əməliyyatları, dəyəri ödənilmədən ekvivalent məbləğdə qarşılıqlı mal (xidmət və əqli mülkiyyət) mübadiləsini nəzərdə tutur.

Barter əməliyyatlarında ekvivalent məbləğdə malların göndərilməsi və alınması müddəti 90 günədək müəyyən olunur. Ekvivalent məbləğdə qarşılıqlı mal mübadiləsi bu müddətdə başa çatçadığı təqdirdə, hesablaşma müqavilədə göstərilən valyuta ilə 10 bank günü ərzində yerinə yetirilməli və vəsait ixracatçının müvəkkil bankdakı valyuta hesabına köçürülməlidir.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin payı haqqı 50%-dən yuxarı olan müəssisələr tərəfindən bağlanmış barter müqavilələri iqtisadi inkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə, digər müəssisələr tərəfindən bağlanmış barter müqavilələri isə, gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir.

Barter əməliyyatları üzrə ixrac edilən malların YGB-nin bir nüsxəsi mal bəyan olunduğu tarixdən etibarən 7 gün ərzində gömrük orqanları tərəfindən müvəkkil banklara və İqtisadi İnkişaf Nazirliyinə göndərilir.

Malların barter yolu ilə ixracı zamanı gömrük orqanları tərəfindən tələb olunana sənədlər:

- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);

- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- xarici tərəflə bağlanmış barter müqaviləsi (ixracatçı dövlət müəssisəsi olduqda İqtisadiyyat və Sənayə Nazirliyində qeydiyyatdan keçirilmiş);
- ixrac olunan malın mənşə sertifikatı;
- ekvivalent məbləğdə malların vaxtında Az R-na gətiriləcəyi və yaxud valyuta vəsaitinin ixracatçının müvəkkil bankdakı valyuta hesabına köçürəcəyi barədə zəmanət öhdəliyi;
- Uçot kartoçkası;
- Deklarant tərəfindən tərtib olunmuş YGB.

Kreditə ixrac əməliyyatları, faktiki mal (xidmət və əqli mülkiyyət) ixracından sonra haqqı müəyyyən şərtlərlə və hər hansı müddət ərzində ödənilən malların ixracını nəzərdə tutur.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin pay haqqı 505-dən yuxarı olan müəssisələr tərəfindən malların (xidmət və əqli mülkiyyətin) kreditə ixracı üzrə bağlanmış müqavilələr İqtisadiyyat və Sənayə Nazirliyində qeydiyyatdan keçirilməklə aparılır.

Digər ixracatçılar tərəfindən malların kreditə ixracı isə, gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir. Bu zaman respublikanın dövlət müəssisələrində istehsal olunmuş malların dəyəri istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

Kreditə ixrac əməliyyatlarında gömrük orqanları tərəfindən tələb olunan sənədlər:

- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);
- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təstiq edən müvafiq bank sənədi;
- xarici tərəflə bağlanmış müqavilə (kreditə ixrac əməliyyatları dövlət müəssisələri tərəfindən həyata keçirildikdə İqtisadi İnkişaf Nazirliində qeydiyyatdan keçirilməklə);
- malın mənşə sertifikatı;
- valyuta vəsaitlərinin köçürülməsinə zəmanət öhdəliyi;
- Uçot kartoçkası;
- Deklarant tərəfindən tərtib olunmuş YGB.

Müvəqqəti ixrac əməliyyatları xarici ölkələrdə xidmət göstərilməsi, lizinq əməliyyatlarının aparılması, sərgilərdə, yarmarkalarda iştirak və s. üçün malların yenidən işlənmədən (dəyişdirilmədən) Az R-na qaytarılması şərtilə ixracını nəzərdə tutur.

Dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq göndərilmiş mallar üzrə bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müddət bitdiyi gündən həmin mallar 30 gün ərzində Az R-na qaytarılmalıdır. Bu mallar İqtisadiyyat və Sənayə Nazirliyinin icazəsi ilə istifadə olunduğu ölkələrdə satıla bilər. Valyuta vəsaiti malla satıldığı gündən 10 gün müddətində ixracatçının Az R-da müvəkkil bankdakı hesabına daxil edilməlidir.

Dövlət müəssisəsi olmayan ixracatçılar tərəfindən isə, müvəqqəti ixrac olunmuş mallar yüxarda qeyd olunmuş Təlimata və Az R-nın digər qanunvericilik aktlarına uyğun olaraq müvafiq gömrük rüsumları ödənilməklə istifadə olunduğu ölkələrdə satıla bilər. Bu halda valyuta vəsaitləri mallar satıldığı gündən 10 gün müddətində ixracatçının Az R-da müvəkkil bankdakı hesabına daxil edilməlidir. Başqa halda, həmin mallar bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müddət bitdiyi gündən 30 gün ərzində Az R-na qaytarılmalıdır.

Müvəqqəti ixrac əməliyyatları rəsmiləşdirilərkən gömrük orqanları tərəfindən aşağıdakı sənədlər tələb olunur:

- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);
- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- xarici tərəflə bağlanmış müqavilə (ixracatçı dövlət müəssisəsi olduğu halda İqtisadiyyat və Sənayə Nazirliyində qeydiyyatdan keçirilməklə);
- müvəqqəti ixrac olunan malın mənşə sertifikatı;
- müqavilə şərtlərinə uyğun olaraq müvəqqəti ixrac olunan malların geriyə qaytarılacağı barədə zəmanət öhdəliyi;
- Uçot kartoçkası;
- Deklarant tərəfindən tərtib olunmuş YGB.

Son (sənədli) nəzarət – gömrük rəsmiləşdirilməsi başa çatdıqdan sonra aparılır. Gömrük orqanının Yük şöbəsinə ixracatçı tərəfindən təqdim olunan sənədlər rəsmiləşdirilərək maliyyə-tarif şöbəsinə verilir və aşağıdakılar yerinə yetirilir:

- hər bir ixrac əməliyyatı üzrə dosye açılır, ixracatçının ərizəsi ilə birlikdə ərizədə göstərilən sənədləri sürətləri və təlimatın 2-ci bəndindəki müvafiq ixrac prosedurasına uyğun tələb olunan sənədlər əlavə edilir;

- Uçot kartoçkasındakı məlumatların düzgünlüyü yoxlanılmaqla, təqdim olunan YGB məlumatları ilə üzləşdirilir;
- Uçot kartoçkası tərtib olunmaqla, gələcəkdə valyuta vəsaitlərinin daxil olacağının və ya malın geri qaytarılacağının son müddətləri təyin olunur;
- Uçot kartoçkasına qeydiyyat nömrəsi verilməklə UK rejestrinə salınır və onun sürəti isə DGG valyuta nəzarəti şöbəsinə göndərilir;
- göndərilmiş malların müqabilində ödəniş vaxtının bitməsi bərədə ixracatçıya və DGK valyuta nəzarəti şöbəsinə bildiriş göndərilir;
- valyuta vəsaitlərinin daxil olması barədə müvəkkil bank tərəfindən təsdiq edilmiş Uçot kartoçkası və ya malların gəri qaytarılması barədə deklarant tərəfindən tərtib edilmiş idxal JGK ixracatçı tərəfindən gömrük orqanına təqdim edildiyi təqdirdə UK nəzarətdən çıxarılır;
- valyuta vəsaitlərinin vaxtında mədaxil olmaması və ya malların geriyə qaytarılması müddətinin başa çatması ilə əlaqədar (fors-major baş verdiyi və yaxud ixracatçı tərəfindən ixrac müqavilələrinə müvafiq olaraq nəzərdə tutulan apbitraj proseduralarının yerinə yetirilməsi halları istisna olmaqla) gömrük orqanı (maliyyə-tarif şöbəsi) mövcüd qaydada araşdırma aparır, protokol tərtib edir və toplanmış materialları gömrük orqanının müvafiq (qaçqamalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə) şöbəsinə təqdim edir. Aidiyyatı üzrə bu işi icra edən şöbə təhqiqatı aparmaqla, eyni zamanda qərar qəbul edir, həmçinin Təlimatın 2 saylı əlavəsinin "B" bölməsinə uyğun olaraq ixracatçıya qarşı Gömrük Məcəlləsinin müvafiq maddəsinə əsasən sanksiya tətbiq edir və bu barədə DGK-nə məlumat verir.

Ixracatçılar tərəfindən ixrac olunan malların (xidmət və əqli mülkiyyətin) Az R-sı ərazisindən çıxarılması gömrük orqanları tərəfindən yalnız onların haqqının qabaqcadan ödənildiyi və yaxud geri çağırılmayan akkreditiv açılması müvəkkil banklar tərəfindən "Uçot Kartoçkası"nın "A1" və "A2" bölmələrində qeyd edilməklə təsdiq olunduqdan sonra həyata keçirilir.

Ixracatçılar tərəfindən aparılan ixrac əməliyyatlarının hesablaşmalar hissəsi, Az r-sı müvəkkil banklarının, malların gömrük sərhədindən şıxarılması isə gömrük orqanlarının nəzarəti altında həyata keçirilir.

Ixracatçılar, Təlimatın tələblərinin pozulmasına görə Az R-nın qanunvericiliyinə müvafiq olaraq, həmçinin, Təlimata uyğun xarici valyuta vəsaitlərinin (və ya malların geriyə) respublikaya vaxtında və tam həcmdə köçürülməsini (gətirilməsini) mövcud qaydada təmin etmədikləri təqdirdə, Az R-sı Gömrük Məcəlləsinin maddəsinə uyğun müəyyən edilmiş qaydad məsuliyyət daşıyırlar.

Ixrac əməliyyatlarında malların Az R-sı gömrük ərazisindən çıxarılmasina gömrük orqanları, bu malların müqabilində valyuta vəsaitlərinin ödənilməsinə isə müvəkkil banklar nəzarət edirlər.

Təlimatın tələblərini pozulması halları aşkar edildiyi təqdirdə gömrük orqanları və müvəkkil banklar müvafiq tədbirlər görülməsi üçün aidiyyatı dövlət orqanlarına təqdimat verməlidirlər.

Gömrük işində qeyri-tarif tənzimləmələr.

Suallar:

1. Qeyri-tarif məhdudiyyətlərin mahiyyəti.
2. Para-tarif tədbirləri.
3. Qiymətlər üzərində nəzarət tədbirləri.
4. Maliyyə tədbirləri.
5. Kəmiyyət nəzarəti tədbirləri.
6. Texniki tədbirləri.
7. Monopolist tədbirləri.
8. Avtomatik lizenziyalaşdırma.
9. Dünya təcrübəsində GTM və onların tətbiq sahələri.

Hər hansı iqtisadi fəaliyyət kimi malların idxalı və ixracı dövlət siyasəti obyekti sayılır. Dünya ticarətinin inkişafı prosesində bu siyasətin bir sıra vasitələri yaradılmış və bütün ölkələrdə istifadə edilir. Dünya təcrübəsində qeyri-tarif məhdudiyyətlərinə münasibət kifayət qədər ziddiyətlidir. Ümumdünya ticarət təşkilatı rəsmi olaraq belə tədbirlərin ləğv edilməsi və müstəsna olaraq tarif üsullarından istifadə edilməsi məsələsini qoyur. Həmin təşkilata üzvlük ərəfəsində olan Az R-sı üçün bu tələblərə münasibət mühüm əhəmiyyət kəsb etməkdədir.

Bununla bərabər tələblərin birmənalı şəkildə qəbul digər məsələlərdə arzuolunmaz nəticələrə də gətirib çıxara bilər. Belə ki, Ümumdünya Ticarət təşkilatının üzvü olan ölkələr xarici ticarətdə qeyri-tarif tənzimləmə metodlarından həm əvvəl, həm indi istifadə etməkdədirlər. Bəzi qeyri-tarif məhdudiyyətlərinin aradan qaldırılması sadəcə olaraq qeyri-mümkündür, belə ki, daxili iqtisadi siyasətin digər ölkələrdə iqtisadi əlaqələrinə təsirinin təcəssümü kimi çıxış edir.

Bununla belə, beynəlxalq ticarət sistemi tərəfindən qanuniləşdirilmiş qeyri-tarif tənzimləmə tədbirləri, daha doğrusu xarici malların idxalının kəskin artımı ilə milli iqtisadiyyata vurulan zərərin qarşısının alınması məqsədi güdən müdafiə tədbirləri, həmçinin xarici

ixracatçılar tərəfindən qeyri-sağlam rəqabətin qarşısının alınmasına yönəlmiş digər tədbirlər mövcüddür.

Idxal əməliyyatlarına qeyri-tarif məhdudiyyətlər – xarici malların daxili bazara nüfüz etməsinin qarşısını alan məhdudlaşdırma – qadağan xarakterli tədbirlər kompleksidir. Bu tədbirlərin məqsədi yalnız idxal edən ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsi deyil, həm də milli sənayenin müdafiəsi, əhalinin heyat və sağlamlığının,ətraf mühitin, əxlaqın, dinin və milli təhlükəsizliyin qorunmasıdır. Bundan başqa QTM ixrac əməliyyatlarında da istifadə edilir.

Xarici təcarəti tənzimləyən qeyri-tarif tədbirləri şərti olaraq 7 qrupa bölünür: para-tarif, qiymətlərə nəzarət, maliyyə, kəmiyyət nəzarəti, monopolist tədbirlər, texniki tədbirlər, lizenziyalaşdırma. Qeyri-tarif tədbirlərinin rengarənğ olmasına baxmayaraq onları iki böyük qrupa bölmək olar: iqtisadi və inzibati tədbirlər.

Iqtisadi QTM-ə aşağıdakılar aiddir:

- xüsusi növ rüsumlar;
- müxtəlif vergi və yığımlar;
- idxal depozitləri;
- valyuta tənzimlənməsi tədbirləri.

Inzibati QTM daha çoxcəhətlidir:

- embarqo;
- lisenziyalaşdırma və kvotalaşdırma;
- ixracın məhdudlaşdırılması;
- monopolist tədbirlər;
- proteksionist məqsədlər üçün standart və texniki normalardan istifadə edilməsi;
- əlavə gömrük sənədləri və əməliyyatları.

Iqtisadi məhdudiyyətlər bazar mexanizmi vasitəsi ilə təsir göstərərək idxal və ixrac mallarını bahalaşdırır, inzibati məhdudiyyətlər isə bazar münasibətlərindən başqa idxal mallarının daxil olmasını və ixrac malların xaricə çıxarılmasını məhdudlaşdırır.

Iqtisadi QTM tətbiq edildikdə istehlakçı öz seçimini özü müəyyən edir və daha bahalı idxal, yaxud ucuz milli mal alacağına qərar verir. Inzibati QTM tətbiq edildikdə dövlət faktiki olaraq daxili bazarın əmtəə strukturunu müəyyən edir, yəni daxili bazarı həm idxalın təsirindən qoruyur, həm də çətin tapılan milli məhsulun çatışmazlığın qarşısını alır. Bu halda istehlakçı sərbəst seçimindən məhrum olur.

2.Para-tarif tədbirləri gömrük sərhədindən keçirilən mallara tətbiq edilən elə ödənc və yığımlara deyilir ki, gətirilən malın dəyərini gömrük rüsumundan əlavə olaraq artırır (ya müəyyən faiz, ya da mal vahidinə əmsal).

Tarixən paratarif tədbirləri idxalçının malın gömrük təmizləmələri üzrə xərclərinin ödənilməsi bazasında meydana gəlmişdır. Gömrük rüsumlarının və onunla bağlı olaraq fiskal gömrük gəlirlərinin aşağı düşməsi ilə dövlətin büdcə gəlirlərinin artmasında paratarif tədbirlərə meyl etməsi təbii olur.

Paratarif tədbirlərə aşağıdakılar daxildir:

- gömrük əlavələri – ticarət-siyasi məqsədlərlə, büdcənin doldurulması, yaxud milli istehsalın müdafiəsi üçün tətbiq edilən əlavə vergi və rüsumlar;
- əlavə yığımlar – daxili analoqu olmayan, idxal mallarından gömrük rüsum və vergilərindən artıq (əlavə) tutulan ödənclər. Onlar xarici ticarətlə bağlı fəaliyyətin müəyyən növlərini maliyyələşdirilməsi üçün nəzərdə tutulur. Bunlara, adətən, xarici valyuyanın köçürülməsinə qoyulan vergi, idxal lisenzyası üçün yığım, liman yığımları, statistik vergi, nəqliyyat vasitələrinə vergi aid edilir;
- daxili vergi və yığımlar – milli mallardan idxal ölkəsində tutulan dolayı vergilərə ekvivalent olan vergi və yığımlar. Onlara ƏDV, aksiz, emissiya yığımları, məhsula görə vergi, sair inzibati yığımlar aid edilir;
- diskretləşdirilmiş gömrük qiymətləndirilməsi – gömrük rüsum və yığımlarının hesablanması üçün gömrük dəyərinin inzibatı yolla müəyyən edilməsi praktikası.

3. Qiymətlər üzərində nəzarət tədbirləri daxili qiymətlərin stabiləşdirilməsi və ya səviyyəsinin saxlanılması məqsədi ilə, həmçinin xarici rəqiblərin əlieyri təcrübəsinin vura biləcəyi zərərin qarşısını almaq üçün tətbiq edilir.

Belə tədbirlərə aşağıdakılar aiddir:

- qiymətlərin inzibati qaydada müəyyən edilməsi – idxalçı ölkənin hakimiyyət dairələri istehsalçı və istehlakçının daxili qiymətlərini nəzərə alaraq, qiymətlərin aşağı və yuxarı hüdüdlarını müəyyən edir, yaxud bu qiymətləri dünya bazar qiymətləri ilə bağlayırlar.
- ixrac qiymətlərinin "könüllü" məhdudlaşdırılması – ixracatçının öz mallarının qiymətlərini müəyyən səviyyədən aşağı endirməməyi razı olduğu məhdudlaşdırıcı razlaşmalar;
- sürüşkən yiğımlar – idxal kənd təsərrüfat və ərzaq mallarının idxal qiymətlərinin daxili qiymətlərlə eyni səviyyəyə gətirilməsi üçün nəzərdə tutulmuş əlavə ödənclər;
- antidempinq tədbirləri – ixracatçıdan milli istehsalçılara vurulan zərərə görə kompensasiyanın tutulmasından ibarət olub, dempinq faktı və ondan irəli gələn ziyan aşkar edildikdə idxalatçı ölkənin müvafiq orqanı tərəfindən ixracatçının ticarət təcrübəsini təhqiqatının yekünlarına görə tətbiq edilir;
- kompensasiya tədbirləri - əgər idxal olunan mallar subsidiyalaşdırılırsa və belə subsidiyalaşdırma milli istehsala zərər vurduğunu təhqiqat təstiq edirsə, əlavə maliyyə ödənişləri tətbiq edilir.

4. Maliyyə tədbirlərinə idxalatçıların xarici valyuta onlar üçün valyutanın qiymətlərinə, həmçinin ödənc şərtlərinə müdaxiləsini tənzimləyən tədbirlər aid edilir. Bu tədbirlər idxalın dəyərini yüksəldə bilərlər. Bu kateqoriyaya QTM-ə aşağıdakılar aid edilir:

- idxalın dəyərinin, eləcə də idxal vergisinin qabaqcadan ödənilməsi.

Bu tələblərə öncəlikli idxal depozitivlərinin, əvəzi ödənilən depozitivlərin acılması, nəqd ödəniş, gömrük rüsumlarının qabaqcadan ödənilməsi da daxildir;

- valyuta məzənnələri çoxluğu.

Bu müxtəlif kateqoriyalı mallar üçün müxtəlif məzənnələrin müəyyən edildiyi dövlət tənzimlənməsi mexanizmidir. Rəsmi məzənnə, adətən, daha zəruri mallar üçün saxlanılır, digər mallar kommersiya məzənnəsi və ya xarici valyutanın auksionlar vasitəsi ilə alınması hesabına ödənilir.

- xarici valyuta yığılmasına rəsmi məhdudiyyətlər. Ölkə daxilində valyuta əməliyyatları aparılmasına müxtəlif icazə, viza və s. Alınmasını nəzərdə tutur.
- ödənişə müddət müəyyən edilməsi, ödənc növbəliliyi. Bu tədbirlərlə dövlət malların göndərildiyi tarixdən idxal hesablamalarının bitməsinə qədər yol verilən minimal müddətləri müəyyən edir.

5. Kəmiyyət nəzarəti tədbirləri ilk növbədə idxal-ixrac əməliyyatlarınnı kvotalaşdırılması və lisenziyalaşdırılması deməkdir. Kvotalaşdırma (fiziki həcm və dəyər üzrə) və lisenziyalaşdırma (müəyyən malların göndərilməsi və ya gətirilməsinə, bəzən də müəyən ölkələrə, yaxud onlardan ticarətinə xüsusi icazənin alınması) idxal və ixracın ən ənəvi qeyri-tarif tənzimlənməsi üsullarıdır, onların məqsədi hər hansı malın idxal və ya ixracını ümumilikdə, yaxud hər hansı ölkəyə məhdudlaşdırmaqdan ibarətdir.

Bu tədbirlər, adətən, bir-biri ilə bağlıdır, çünki, lisenziyalaşdırma kvotanın fərdi idxalatçılara və ixracatçılara müəyyən həcm bitənə qədər lisenziya vermək yolu ilə bölüşdürülməsi mexanizmi kimi çıxış edir.

Kəmiyyət nəzarət tədbirləri vasitəsi ilə dövlət səviyyəsində iqtisadi, xarici ticarət və hətta siyasi xarakterli məsələlər həll edilir: ölkə daxilində analojı rəqabət edən malların istehsalçı və istehlakçısının müdafiəsi, daxili bazarın stabilliyinin dəstəklənməsi, valyuta ehtiyatlarına qənaət, digər ölkələrdən qarşılıqlı güzəştlərin əldə edilməsi və s.

Lisenziyalaşdırma – idxal və ixraca müvafiq hakimiyyət orqanlarının öz mülahizəsinə, yaxud hər hansı konkret meyarlara əsasən verdiyi xüsusi icazələrin tətbiqidir. Beynəlxalq ticarətdə lisenziyalaşdırma rengarəngliyi ilə seçilir. Lisenziyada idxal və ixracın həyata keçirilməsi qaydası da müəyyən edilə bilər. Lisenziyalaşdırma dünya təcrübəsində ticarətin arzuolunmaz həcmlərini müəyyən müddət ərzində məhdudlaşdırıldığı zaman həyata keçirilən müvəqqəti tətbir kimi təfsir edilir.

Xarici valyutadan səmərəli istifadə olunması zərurəti lisenziyalaşdırma üçün obyektiv əsas ola bilər. Bu yolla xarici ticarət və tədiyyə balanslarının tarazlanmasına nail olunur.

Gömrük rüsumlarından istifadə edilmədikdə və ya onların təsiri səmərəsiz olduqda lisenziyalaşdırma zərurəti meydana çıxır. Bu iş həm qarşılıqlı güzəşt əldə edilməsi, həm də diskriminasiya məqsədi ilə görülə bilər. Onu da qeyd etmək lazımdır ki, lisenziyalaşdırma müvəqqəti tədbir hesab edildiyindən əvvəllər bağlanmış dövlətlərarası ticarət sazişlərinə yenidən baxılmasını nəzərdə tutmur.

Lisenziyalar xarakterinə görə baş lisenziya, fərdi lisenziya və idxala xüsusi icazə şəkilində olur.

Baş lisenziya – hər hansı şəxsə müəyyən malların həcmi və dəyəri məhdudlaşdırılmadan idxalı hüququ verən daimi icazəyə deyilir.

Lisenziyada, əgər belə məhdudiyyət nəzərdə tutulmuşsa, ölkələrin siyahısı göstərilir. Bəzən lisenziyada idxalı qadağan edilən mallar da göstərilir. Baş lisenziyalar malların siyahısı ilə bu və ya digər ölkənin xarici ticarətə nəzarət məlumatlarını əks etdirən rəsmi nəşrlərdə dərc edilir.

Fərdi lisenziya – konkret mal növləri ilə bir ticarət əməliyyatına verilən birdəfəlik icazədir. Bu lisenziyada, həmçinin alıcı, miqdar, dəyər, mənşə ölkəsi barədə məlumatlar göstərilir. Fərdi lisenziya konkret şəxsin adına yazılır, məhdud müddəti olur və başqa şəxsə istifadə üçün verilə bilməz. Birdəfəlik lisenziya (diskret lisenziya) idxal nəzarəti siyahısına daxil edilən malların ticarətin nəzarət altında olduğu ölkələrdən alınmasına görə verilir. Nadir hallarda malların qeyri məhdud miqdarda gətirilməsinə görə açıq fərdi lisenziyalardan istifadə olunur.

Lisenziyalaşdırmanın əsas tərkib elementi dövlət tərəfindən müəyyən müddət ərzində dəyər kvotaları qoyulmaqla və malların nomenklaturasını məhdudlaşdırmaqla idxal və ixraca nəzarətin təmin edilməsi, yəni kontingentləşdirmədir.

Yalnış müəyyən məqsədlər üçün – investisiya lahiyələri, ixracın inkişafı və s. – konkret malların gətirilməsinə lisenziya verilə bilər. Lisenziyanın verilməsi dövlətin maraqlarından irəli gələn hər hansı şərtlərlə əlaqələndirilə bilər.

Lisenziya ilə bağlı, yaxud lisenziya əvəzinə idxala xüsusi icazə verilə bilər. Ilkin icazə idxalı səhiyyə, yaxud təhlükəsizlik mülahizələri həmçinin, ətraf mühitin qorunması üzrə beynəlxalq müqavilələrə əsasən digər məsələlər görə idxalı tənzimlənən malları üçün verilir.

Kvotalaşdırma – fərdi, tarif, mövsümi, qlobal və digər faiz məhduddiyyətləri vasitəsi ilə idxalına icazə verilmış malların fiziki həcm və ya dəyərinin maksimum hədlərini müəyyən edən kəmiyyət məhdudlaşdırılması tədbiridir.

Fərdi kvotalar – idxalına icazə verilmiş malların ümumi miqdarının mal göndərən ölkələr üzrə razlaşdırılmasını nəzərdə tutur. Tərtibat formasına görə belə kvotaları üç növə ayrılırlar:

*mütənasib kvotalar* bütün kvotalar çərçivəsində keçən dövr ərzində idxalda hər ölkənin payına görə təyin olunur, ikitərəfli kvotalar bir tərəfin əks tərəfə ticarət-siyasi öhdəliklərinin qarşılığı olaraq verilir (bəzən ikitərəfli saziş bağlanır), *seçmə* kvotalar hər hansı bir ölkə və ya ölkələr qrupundan alınan malların digər regionlardan alınanlara nisbətən məhdudlaşdırılması məqsədi ilə verilir.

Tarif kvotaları gömrük vergitutmasının daha əlverişli rejimində müəyyən həcmdə idxala icazə verir. Bu həcmdən artıq idxal üçün daha az əlverişli rejim (idxalın faktiki qadağanına qədər) tətbiq edilir.

Mövsümi kvotalar ilin müəyyən fəsillərində ölkə daxilində istehsalın yüksək olduğu dövrlərdə (ən çox kənd təsərrüfatı məhsulları üçün) tətbiq edilir. Idxalın müəyyən vaxt dövrü nəzərə alınmadan məhdudlaşdırılması konkretləşdirilməmiş kvotalar adlanır.

Qlobal kvotalar hər hansı malın müəyyən müddət ərzində və malgöndərən ölkələr arasında bölüşdürülmədən ümumi idxalının həcmini müəyyən edir. Belə yanaşma idxalatçıya mal göndərən ölkəni seçmək azadlığı verir.

Faiz kvotaları bəzi hallarda idxal kvotaları ixracın həcmindən faiz nisbətində müəyyən edilir.

Kvotalar, həmçinin, milli istehsalı stimullaşdırmaq məqsədi ilə bir malın daxili bazarda tədarük həcmindən faizlə hesablana bilər.

Idxalı səhiyyə, təhlükəsizlik, ətraf mühitin qorunması mülahizələrinə görə idxalı nəzarətdə olan mallara da belə kvotalar müəyyən edilə bilər.

3) Müəyyən bir malın idxalının qadağan edilməsi tamamilə və istisna olmadan da tətbiq edilə bilər. Müvəqqəti və mövsümi qadağanlar qoyulması da mümkündür.

Lisenziya verilməsinə imtina edilməsi (adətən, tədiyyə balansı malahizələrinə görə) idxala faktiki qadağan kimi qiymətləndirilə bilər.

Müəyyən bir ölkədən idxal və ixraca qadağan qoyula bilər ki, buna da embarqo deyilir. Bu hal məcburi tədbir olub beynəlxalq təcrübədə qəbul edilmişdir, prinsipial xüsusiyyətlərə malik olub açıq və gizli formalarda edilə bilər. Belə qadağanın açıq forması adətən BMT-nin qərarlarına əsaslanır və xarici ticarətin tamamilə kəsilməsini nəzərdə tutur.

Örtülü qadağanlara xarici gəmilərin daxili sulara buraxılmaması və ya ayrı-ayrı idxal mallarının ölkənin pərakəndə satış şəbəkəsinə buraxılmasını aid etmək olar.

4) İxracın məhdudlaşdırılması barədə sazişlər güzəşt (kompromis) nəticəsi olub ixracatçının ixrac həcmini "könüllü olaraq" idxalatçınınn məcburi tədbirlərini gözləmədən məhdudlaşdırmaq barədə razılığıdır.

Belə sazişlər həm dövlətlər səviyyəsində, həm də ayrı-ayrı istehsal sahələri səviyyəsində bağlana bilər. Bu tipli həm ikitərəfli, həm də çoxtərəfli sazişlər ola bilər.

6. Texniki tədbirlər malın keyfiyyətinin, təhlükəsizliyinin, yaxud inzibati şərait, terminoloğiya, simvollar, sınaq və sınaq üsulları, qablaşdırmaya tələblər, markalanma da daxil olmaqla xüsusiyyətlərinin nəzarətinə əsaslanan GTM tədbirlərinə deyilir.

Texniki tədbirlərin aşağıdakı növləri var:

1). Texniki tənzimləmə, yəni məhsula bilavasitə və ya dolayı yolla texniki tələblər müəyyən edilməsi. Belə tədbirlərə: məqsədi insan və heyvanların həyat və sağlamlığının qorunması olan sanitariya tənzimlənməsi, bitkilərin qorunmasına yönəlmiş fitisanitar tənzimlənməsi, ətraf mühitin və təbiətin qorunması, insanların təhlükəsizliyi, milli təhlükəsizlik tədbirləri aid edilir.

Bu tədbirlər müvafiq təlimatlar hazırlanmaqla həyata keçirilir. Təlimatlar gömrük orqanlarının nəzarət fəaliyyətini reqlamentləşdirir.

Hazırkı şəraitdə texniki tənzimlənmənin bir necə növü var:

a) ətraf mühiti çirkləndirən xammal və materialların idxalının qadağan edilməsi, yaxud məhdudlaşdırılması;
b) hazır məhsullara – istismarı atmosferin və havanın çirklənməsinə gətirib çıxaran sənayə avadanlığı, nəqliyyat vasitələrinə və s. münasibətdə proteksionist tədbirlərdən istifadə edilməsi;
c) istehlakçının maraqlarını malın defekti və istifadə zamanı mümkün olan ziyandan qorunmaqla malın keyfiyyətinə tələblər. Bunlar ilk növbədə məişət elektrotexnikası, tibb preparatları, yeyinti məhsulları, uşaq mallarına və s. aiddir.

Bir sıra ölkələrdə ilk növbədə kənd təsərrüfatı mallarının, ərzaq mallarının, ətriyyat mallarının idxalına yönəlmiş, bu malların istehsalında zərərli əlavələrin, heyvandarlıqda hormonların istifadəsini məhdudlaşdıran səciyyəvi sanitar-baytarlıq normaları qüvvədədir.

Milli və beynəlxalq standartların müxtəlifliyi, həmçinin istehsal və onların parametrlərinin qiymətləndirilməsində müxtəlif ölçü sistemlərinin tətbiqi dövlətlər tərəfindən məqsədəyönlü şəkildə xarici mallara qarşı və milli istehsalşıların mənafəyinin müdafiəsi məqsədi ilə qeyri-tarif maneələrin yaradılması üçün istifadə edilir. Bu tədbirlər dünya ticarət dövriyyəsindəki malların 30% əhatə edir.

2. Göndərilmədən öncə təftiş. Idxalcı ölkənin sifarişi ilə müfəttiş-firma malın ixrac edən ölkədən göndərilməsindən öncə onların miqdarının, keyfiyyətinin və qiymətinin məcburi araşdırılmasını təşkil edir. Qiymət nəzarəti göndərilən malın qiymətinin rüsum və ödəmələrdən qaçmaq niyyəti ilə artırılması və ya azaldılmasının qarşısını almaq məqsədi ilə keçirilir.

3. Xüsusi gömrük rəsmiyyətçiliyi. Buraya gömrük orqanlarının gömrük yük bəyannaməsində göstərilənlərdən əlavə məlumat tələbi, yalnız müəyyən edilmiş gömrük buraxılış məntəqələrindən istifadə edilməsi və s. daxildir.

Stabil iqtisadi şəraitdə inzibati vasitələr iqtisadi təsir vasitələrinin səmərəliliyi kifayət qədər olmadıqda müvəqqəti tətbiq edilən əlavə tədbirlər hesab edilir.

Ancaq iqtisadi tənəzzül və iqtisadiyyatın tarazlığının pozulduğu zamanlarda onlar digər dövlətlərlə xarici ticarət əlaqələrinin tənzimlənməsində əsas vasitəyə çevrilirlər.

Qeyri-tarif məhdudiyyətlərin xarici ticarətə nüfüz dərəcəsi tarif tədbirlərində olduğundan daha çoxdur. Qeyri-tarif xarakterli maneələr müxtəlif ölkələrin ticarət-siyasi münasibətlər sistemində müxtəlif rol oynayır və çox zaman üstüörtülü şəkildə göstərir. Hökümət tərəfindən müəyyən edilən tarif məhdudiyyətlərindən fərqli olaraq QTM-in bəziləri müxtəlif dövlət və yerli idarəetmə strukturları tərəfindən qoyula bilir. QTM kateqoriyalarından biri müdafiə tədbirləridir. Onların bir qismi: idxala kəmiyyət məhdudiyyətləri; gömrük rəsmiyyətçiliyi və sənədləri; gömrük, fraxt və liman yığımları və s. sərhəddə istifadə edilir və nisbətən aşkar xarakter daşıyır, tətbiqi isə adətən, ticarət müqavilələri və müxtəlif beynəlxalq sazişlərlə tənzimlənir.

Bu baxımdan belə QTM gömrük tarif tədbirlərinə daha yaxındır və onlarla birləşir.

QTM digər qismi, malın qiymətinə təsir edən daxilli iqtisadi tədbirlər: vergilər, aksiz yığımları, kreditlərin faiz stavkaları, subsidiyalar, həmçinin malların istifadəsini müəyyən edən inzibati sərəncamlar, texniki norma və standartlar isə xarici malların daxili bazara nüfuzunu məhdudlaşdıran örtülü proteksionist vasitələr hesab edilir. Çünki belə tədbirlər rəsmi olaraq idxal əleyhinə yönəlməmişlər və bəzi malların istifadəsinin müxtəlif inzibati və texniki qaydalarını müəyyən edirlər, xarici malları yerli mallarla eyni səviyyəyə gətirirlər. Bununla bərabər, belə tədbirlər mahiyyətcə fiskal, yaxud inzibati diskriminasiya rejimi yaradır və xarici mallara münasibətdə daxili istehsalçıların mövqeyini möhkəmləndirir.

Qeyd etmək lazımdır ki, gömrük rüsumlarının aşağı salınması ilə ticarət siyasi məqsədlərlə vergi sisteminin istifadə edilməsinin əhəmiyyəti artır. Məsələn, inkişaf etmiş ölkələr üçün vergi stavkalarının səviyyələrində, onların alınması üsullarında vergiqoyma strukturunda fərqlər əvvəllər gömrük rüsumlarında olan fərqlərin rolunu oynayır.

9.XX əsrin ortalarında xarici iqtisadi fəaliyyətin tənzimlənməsində idxalın kəmiyyət məhdudlaşdırılması, həmçinin valyuta məhdudlaşdırılması mühüm yer tuturdu.

Sosialist sistemi çıxılmaqla dünya üzrə xarici ticarət dövriyyəsinin əksər hissəsinə kəmiyyət məhdudlaşdırılması tətbiq edilirdi. Əsrin ikinci yarısından başlayaraq inkişaf etmiş ölkələr bu məhdudiyyətlərin tətbiq sahələrini kiçiltməyə və onlardan istifadənin ümumi prinsiplərini yaratmağa başladılır. Bunlar QATT sazişi əsasında təşəkkül taptı.

Ticarət-siyasi və gömrük tənzimlənməsinin ağırlıq mərkəzi inkişaf etmiş ölkələrdə tarif tədbirlərinə doğru yerini dəyişməyə başladı. Buna görə də bir tərəfdən gömrük tarifləri azaldılır, idxala kəmiyyət məhdudiyyətlərinin tətbiqi dairəsi kiçilir, digər tərəfdən isə çevik daxili-vergi və yığım sistemi, sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrinin subsidiyalaşdırılması, inzibati norma və rəsmiyyətçiliklər daha geniş tətbiq edilir.

Əksər inkişaf etmiş ölkələrdə müdafiə tədbirlərindən istifadəyə tədrici dönüş artıq keçmiş əsrinin 60-cı illərdən hiss edilməyə başladı. GTM ticarət siyasi vasitələr arsenalında ilk yerlərdən birini tutdu. Bu ərəfədə dünyanın 19 inkişaf etmiş ölkəsi GTM-in 2 mindən artıq növündən istifadə edirdi.

Xarici ticarətin tənzimlənməsinin maliyyə tədbirləri inkişaf etmiş ölkələrdə indi əvvəlkirolunu oynaya bilmir. Keçmiş əsrinin 90-cı illərin əvvəllərinə qədər ixracatçılar tərəfindən əldə edilən valyutanın məcburi satışı təcrübəsi Avropa Birliyinin bir sıra ölkəsində - Fransa, İtaliya, İspaniya, Portuqaliya, Danuimarka, Belçikada saxlanılmışdı. Valyuta nəzarətinin mövcud sisteminə görə ixrac üzrə ödənişin təxirə salınması və idxal üzrə avansın verilməsi 2 ildən artıq olduqda rəsmi icazə tələb edilir. Dünyada avtomatik lisenziyalaşdırma və monotorinq kifayət qədər geniş tətbiq edilir. Bəzi hallarda onlar real müdafiə tədbirləri tətbiq ediləcəyindən xəbər verirsə, digər hallarda müəyyən bazara dövlət rəsmilərinin marağını ifadə edir. Kəmiyyət nəzarət tədbirlərinin tətbiqi çoxcəhətli olub. GATT sazişinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.

Qeyri-avtomatik (sadə) lisenzoyalaşdırma tədbirləri təkçə kvotalaşdırılan malları əhatə etmir. Müəyyən malların idxalına xüsusi icazə zərurəti – daxili bazarın müdafiəsi üçün geniş tətbiq edilən üsuldur. Məsələn, ABŞ və Kanadada təbii qazın idxalı lisenziyalaşdırılır. Lakin belə lisenziyalaşdırmanın əsas obyekti kənd təsərrüfatı və yeyinti sənayəsi məhsullarıdır.

Müəyyən malların idxalına dövlət inhisarı helə də ttəbiq edilməkdədir. Məsələn, Yaponiyada duz, düyü, buğda, arpa, yağlar, süd tozu, etil spirti 905 yuxarı, xam ipək idxalı dövlət inhisarındadır.

Beynəlxalq miqyasda standartların unifikasıyası cəhdlərinə baxmayaraq xarici malların idxalına texniki maneələr qalmaqdadır. Ümumdünya ticarət təşkilatı və digər beynəlxalq sazişlər texniki tələblərin maksimum dərəcədə sadələşdirilməsini tələb edir ki, ticarətə maneələr aradan qalxsın. Gömrük əməliyyatlarının harmonikləşdirilməsi Ümumdünya Gömrük Təşkilatı çərçivəsində həyata keçirilir. Bu sahədə YGT tövsiyələri aşağıdakılardır:

- gömrük xidmətləri tərəfindən məqsəd və onların həyata keçirilməsi üçün vasitələrin müəyyən edilməsi;
- gömrük əməliyyatlarının təftiş edilməsi, səmərəli olmayan və artıq əməliyyatların ləğv edilməsi;
- gömrük sənədlərinin elektron daşıyıcılar ötürülməsi daxil olmaqla informasiya texnologiyasından geniş istifadə edilməsi;
- seçmə nəzarətin tətbiq edilməsi.

Məlum olduğu kimi, tariflər xarici malların daxili bazarda yalnız dolayı yolla məhdudlaşdıırılmasına gətirir. Idxal gömrük vergitutması hesabına bahalaşmış olur. GTM isə, bahalaşma effektindən başqa birbaşa maneələr müəyyən edir, idxal və ya daxili istehlak üçün miqdar və qiymət üzrə limitlər müəyyənləşdirir.

Əgər tarif siyasətində idxalın bahalaşdırılması malın qiymətinə rüsum əlavə edilməsi hesabına əldə edilirsə, kvota və lisenziyaların ttəbiqi idxal təklifini azaldır, bu isə bazarda tələbin ödənilməməsi hesabına qiymətlərin artmasına gətirir. Beləliklə, artıq bu funksiyanın yerinə yetirilməsində GTM tərəfdən daha effektiv olur. Ən mühümü isə odur ki, əgər gömrük tarifi idxal edilən xarici malların həcmini idxal qiymətləri səviyyəsi ilə tərs mütənasib dəyişirsə, kvota və lisenziyalar idxalı müəyyən bir səviyyədə saxlayır, istehlakın artımı ilə onun artmasına imkan vermir.

Idxalın bahalaşdırılmasına və ixtisarına, həmçinin, daxili vergiqoymanın diskriminasiya yönlü quruluşu və paratarif baryerlər də təsir edir. GTM tariflərdən daha

çoxtərəfli olması ilə seçilir.belə ki, GTM həm gömrük rüsumuna cəlb edilən. həm də edilməyən mallar ttəbiq olunur. Bundan başqa GTM gömrük ödənclərindən fərqli olaraq təkcə gömrük sərhədini əhatə etmir, malın bütün hərəkətində onu müşayiət edərək, rəqabət qabiliyyətinə təsir edir.

Beləliklə, qeyri tafir tənzimlənməsinin inkişafı xarici ticarət sahəsində iqtisadi siyasıtin çevik, operativ və güvənli vasitələrlə təmin edilməsi zəryrəti ilə bağlıdır. Ardıcıllıq, çeviklik və digər xüsusiyyətlər qeyri-tarif məhdudiyyətləri müasir şəraitdə dövlət siyasətinin ən əlverişli vasitələrinə çevrilir.

Məsələn, idxal kvotaları imkan verir ki, daxili bazara buraxılacaq xarici məhsulun dəqiq miqdarı müəyyən edilsin: ingiltərədə kartofun idxalına kvotalar ölkədəki məhsuldarlığa görə müəyyən edilir, Avstriyada kök və çiyələyə mövcümi məhdudiyyətlər yerli məhsulu maneəsiz satmağa imkan yaradır.

Məlum olduğu kimi, vacib məhsullarla daxili tələbatın yerli mallar hesabına təmini ABŞ, böyük Britaniya, Almaniya, Fransa, İsveçrənin strateji doktrinasının tərkib hissəsidir. Ona görə də bu ölkələrdə hətta rentabelli olmayan sahələr də bilavasitə, yaxud qiymətlərin “dəstəklənməsi” hesabına subsidiyalaşdırılır. Bunun üçün vəsait isə idxal edilən kənd təsərrüfatına məhsullarına vergilər hesabına təmin edilir.

Kənd təsərrüfatının, eləcə də iqtisadiyyatın digər sahələrinin dövlət tərəfindən dəstəklənməsində belə vasitələrin tətbiqi Azərbaycan üçün də çox mühüm əhəmiyyətə malikdir.

12. Gömrük statistikası və XİF-nin Əmtəə Nomenklaturası.

Suallar:

1. Əmtəə nomenklatura anlayışı.
2. Beynəlxalq təcrübədə istifadə edilən təsnifat sistemləri və əmtəə nomenklaturaları.
3. Malların Təfsiri və Kodlaşdırılmasının Ahəngdar sistemi.
4. Xarici İqtisadi Fəaliyyətin Vahid Əmtəə Nomenklaturası.
5. Əsas interpritasiya qaydaları.
6. Gömrük statistikası.

Gömrük hüququ baxımından mallar istənilən daşınan əmlak, o cümlədən valyuta, valyuta sərvətləri, elektrik, istilik və digər enerji növləri, habelə beynəlxalq sərnişin və yük daşınmalarında istifadə olunan nəqliyyat vasitələri istisna olmaqla, digər nəqliyyat vasitəsi kimi xarakterizə olunur.

Bir iqtisadi kateqoriya kimi isə mallar bazara alınmaq, istifadə və ya istehlak etmək məqsədilə təklif olunan, istehlak, habelə ehtiyac tələbini ödəyə bilən, bazarda reallaşdırılan, alqı-satqı obyekti olan məhsullardır.

Dövlət gömrük nəzarəti baxımından malların təsnifatı onların aidiyyatının müəyyən olunmasına, onların stasusunun təyini üzrə malların hansı gömrük prosedurun altında yerləşdirilməsini xarakterizə edərək, malların gömrük sərhədindən keçirilmə xüsusiyyətinə, hansı növ nəqliyyat vasitəsində daşınmasına, gömrük-tarif tənzimlənməsi ilə əlaqədar olan qanunvericiliyə müvafiq dəqiq vergi və rüsum növlərinə cəlb olunmasına, aparılması və gətirilməsinə qadağan qoyulmuş malların dövriyyəsinə, habelə qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizəyə, xarici ticarətin gömrük statistikasının ayrı-ayrı mal qrupları üzrə dəqiq üçot və hesabatına zəmin yaratmaqla iqtisadiyyat və xarici ticarət sahəsindəki pozuntuların aşkara çıxarılmasını təmin edir.

Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının aparılması, malların təsnifatlandırılması və kodlaşdırılması gömrük işinin mühüm tərkib hissələrindəndir.

Malların dəyərinin obyektiv meyarlar əsasında müəyyən edilməsi və gömrük ödənclərinin tutulması onların düzgün təsnifatlandırılmasından çox asılıdır. Malların düzgün təsnifatlandırılması, həmçinin, xarici ticarətin gömrük statistikasının obyektivliyinin yüksəldilməsi, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və onlara gömrük nəzarəti proseslərində ölkənin gömrük siyasətinin həyata keçirilməsi üçün konkret tədbirlər görülməsində də mühüm əhəmiyyətə malikdir. Buna görə də gömrük işinin səmərəliliyinin artırılması gömrük orqanı əməkdaşlarından malların təsnifatlandırılması nəzəriyyələrini və əsas təsnifat sistemlərini dərindən bilməyi, bu sistemlərin köməyi ilə nəzəri və təcrübi məsələləri həll etmək bacarığına yiyələnməyi tələb edir.

"Əmtəə nomenklaturası" anlayışının əsas elementləri "əmtəə" və "nomenklatura" ifadələrdir. Nomenklatura (lat nomenclatura - siyahı) – elm, texnika və fəaliyyətin digər sahələrində işlədilən adlar, anlayışlar göstəricisinin sistemidir (məcmusudur).

Gömrük sərhədindən keçirilən malların başlıca xarakterik xüsusiyyətləri onların maddi-mövcudluq forması və daşınma qabiliyyətliyidir. Bu xüsusiyyətlər Gömrük Məcəlləsinində istifadə edilən əsas anlayışlar sistemində öz əksini tapır.

Elmi-texniki tərəqqi və texnologiyaların təkmilləşdirilməsi ilə sənayenin müxtəlif sahələrində və kənd təsərrüfatında istehsal edilən malların çeşidi çox genişlənmiş və bu proses daim inkişafdadır. Yüz minlərlə müxtəlif növ və çeşiddə mallar mövcuddur. Onların ayrı-ayrılıqda öyrənilməsi çox çətin olduğundan onlar müxtəlif xassələrinə görə yığcam çoxluqlar halında bir yerə cəmlənə bilər. Bu çöxluqlar isə öz növbəsində bölmə, qrup, yarımqruplar şəklində sistemləşdirilə bilər. Xarici ticarətdə yük dövriyyəsinin gömrük tənzimlənməsi zamanı malların sistemləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə məsələlərin həllində malların təsnifatlandırılmasından istifadə edilir.

"Təsnifat" anlayışı obyektlərin verilmiş böyük çoxluqlarının müəyyən kiçik çöxluqlara (sinif, yarımsinif, qrup, yarımqrup, növ və s.) bölünməsi mənasını verir. Bu zaman yaranan sistem təsnifatlandırılma adlanır. Qarşıya qoyulmuş məsələnin mahiyyətindən asılı olaraq təsnifatlandırmanı bir neçe istiqamətdə aparmaq olar. Məsələn, istehsal sahələri, hasırlandığı materiallar, emal dərəcəsi, funksional təyinatına görə mallar qruplaşdırıla bilər.

Təsnifatlandırmanın qəbul edilən sisteminə uyğun olaraq bütün mallara və mal bölmələrinə xüsusi şifrlər verilir. Obyektlərin verilmiş böyük çoxluqları müəyyən təsnifat sisteminə uyğun olaraq kiçik çoxluqlara bölündükdən sonra sistemləşdirilmiş çöxluq uyğun obyektlərin təsnifatlandırıcısı kimi baxıla bilər. Təsnifatlandırıcı - təsnifatlandırılan obyektlərin sistemləşdirilmiş siyahısıdır.

Bu siyahıda hər obyektin öz yeri olur və bundan sonra ona kod adlandırılan şərti işarə təyin edilir. Kod rəqəm, hərf, yaxud rəqəm-hərf ardıcıllığından ibarət şifrə malikdir. Əmtəə nomenklaturasının kod sistemi ondan ötrü yaradılır ki, məlumat gömrük orqanına onun yığımı, yoxlanılması, ötürülməsi və analizi üçün əlverişli formada təqdim edilə bilsin.

Xarici ticarət əməliyyatlarının gömrük tənzimlənməsində "əmtəə nomenklaturası" məfhumundan geniş istifadə edilir. Əmtəə nomenklaturası faktiki olaraq malların təsnifatlandırıcısıdır. Buna görə də əmtəə nomenklatura dedikdə təsnifat sisteminə uyğun olaraq yerləşdirilən malların geniş siyahısı nəzərdə tutulur. Malların kodlaşdırılması isə, təsnifatlandırılan obyekti həmin təsnifat sistemi ilə müəyyən edilmiş qaydada işarə, yaxud işarələr qrupu şəklində təsəvvür etməyə imkan verən texniki üsuldur.

Beləliklə, əmtəə nomenklaturasının köməyi ilə malların təsnifatlandırılması: malların kodlaşdırmağa; iqtisadi xarakterli gömrük əməliyyatlarını (rusum tutulması, gömrük dəyərinin təyini və s.) aparmaga; xarici ticarətin mal strukturunu öyrənməyə imkan verir.

2.Sənəyənin tərəqqisi ilə xarici ticarətin də sürətlə inkişaf etdiyi zamanlardan başlayaraq ticarət edən ölkələr uçot, qiymət, texniki standartlar və s. əngəllərin aradan qaldırılması üçün müqayisə oluna biləcək standartlar və təyinatların yaradılması və mal nomenklaturalarının uyğunlaşdırılması zəruriyəti ilə qarşılaşdılar.

Ilk dəfə bu problemlər 1853-cü ildə Brüsseldə keçirilən Beynəlxalq statistika konqressində müzakirə edildi. Konqress, gömrük tənzimlənməsi və xarici ticarətin statistika məqsədləri ilə mal nomenklaturalarının uyğunlaşdırılması üzrə tövsiyələr qəbul etdi.

1890-cı ildə Parisdə keçirilmiş Gömrük qaydaları üzrə beynəlxalq Konqress də nomenklaturaların uyğunlaşdırılması zərurətini təstiq etdi.

1913-cü il dekabrın 31-də Brüsseldə 29 ölkə Beynəlxalq Konvensiya imzaladı. Bu Konvensiyanın əsas müddəalarının istiqamətinə görə öz ərazilərində milli təsnifat və mal nomenklaturasından istifadə etməklə bərabər, həmin ölkələr Beynəlxalq xarici ticarət Statistika Bürosuna vahid təsnifat və mal nomenklaturası üzrə məlumatlar təqdim etmək barədə öhdəlik götürmüş oldular.

Beləliklə, ilk Brüssel əmtəə nomenklaturası yarandı. O, 186 bazis mal mövqeyini birləşdirən 5 bölmədən ibarət idi.

I. canlı heyvanlar 1-7 mal mövqeləri.
II. ərzaq malları və içkilər 8-49 mal mövqeləri. (42)
III. xammal və yarımfabrikatlar 20-98 mal mövqeləri (49)
IV. hazır məhsullar 99-182 mal mövqeləri. (84)
V. qızıl və gümüş 183-186 mal mövqeləri. (4)

Lakin çox tez bir zamanda Brüssel əmtəə nomenklaturasının qoyulan tələbləri ödəmədiyi və çox nöqsanlı olduğu aşkara çıxdı. Nomenklatura detallaşdırılmadığından ondan dünya standartı kimi istifadə edilməsi qeyri məqbul sayıldı. Ona görə də İkinci Dünya Müharibəsi ərəfəsində yeni əmtəə nomenklaturası Beynəlxalq Ticarət Statistika üçün Malların minimal siyahısı yaradıldı.

Bu nomenklatura hazırlandıqları material növündən asılı olaraq malların yarımçoxluqlara bölünməsini, yəni təsnifatlandırılmasını nəzərdə tuturdu. Istisna hallarda mallar onlar istifadə prinsipinə əsasən də təsnifatlaşdirila bilərdi.

Yeni nomenklatura tam şəkildə 1938-ci ildə dərc edildi. Bütün mallar 17 bölmədə yerləşdirildi. Bölmələr də öz növbəsində 50 qrup və 456 bazis mövqeyi ilə ifadə olundu:

I. ərzaq, işkilər, tütün (13 qrup).
II. piy və yaqlar, heyvani və bitki mənşəli mumlar (2 qrup).
III. kimyevi və onlara oxşar məhsullar (4 qrup).
IV. kauçuk (1 qrup).
V. meşə materialları və mantar (1 qrup).

VI. kagız (1 qrup).

VII. dəri və ondan hazırlanan məhsullar (3 qrup).

VIII. toxuculuq məhsulları (4 qrup).

IX. paltar, o cümlədən alt paltarı (4 qrup).

X. yanacaq, sürtgü materialları, oxşar məhsullar (4).

XI. qeyri metal minerallar, onlardan hazırlanan məhsullar (4).

XII. qiymətli metalla və qiymətli daşlar (1).

XIII. qara və əlvan metallar, onlardan hazırlanan məhsullar (4).

XIV. maşınlar, aparatlar və onların ləvazimatı, nəqliyyat vasitələri (3).

XV. digər mallar (2).

XVI. xüsusi əməliyyatların obyekti olan təkrar idxal malları(1).

XVII. emal edilməmiş qızıl (1).

Bu nomenklaturada bölmələr Brüssel əmtəə nomenklaturası ilə müqayisədə hissədiləcək dərəcədə genişləndirilmiş və detallaşdırılmışdı. Sonrakı illərdə “Beynəlxalq ticarət statistikası üçün malların minimal siyahısı” dəfələrlə yenidən işlənərək təkmilləşdirilmişdi.

90-sı illərin əvvəllərinə qədər ölkələrin əksəriyyətində xarici ticarət fəaliyyəti və gömrük tənzimləmələrində əsasən 3 təsnifat sistemi geniş yayılmışdı.

- Gömrük əməkdaşlığı Şurası (hal hazırda Ümumdunya Gömrük Təşkilatı adlanır) Nomenklaturası (GƏŞN) yaxud Brüssel Gömrük Nomenklaturası (BGN);
- Qarşılıqlı İqtisadi Yardım Şurası üzvlərinin Xarici Ticarətin Vahid Əmtəə Nomenklaturası;
- BMT Standart Beynəlxalq Ticarət Təsnifatı.

Bu beynəlxalq nomenklaturalar müxtəlif təsnifat prinsipləri üzərində qurulduğundan və mal dövriyyəsini müxtəlif səviyyələrdə detallaşdırdığından ölkələrin idxal və ixracının əmtəə strukturu barəsində məlumatların müqayisəsini çətinləşdirirdi.

Xarici Ticarətin Vahid Əmtəə Nomenklaturası 1962-1991-ci illərdə Sovet İttifaqının xarici iqtisadi fəaliyyətində əsas təsnifatlandırıcı idi. Əmtəə nomenklaturasının bitkin varianti 1962-ci ildə qəbul edildi.

Qarşılıqlı İqtisadi Yardım Şurası üzvlərinin XT Vahid Əmtəə nomenklaturası mallrı mal təsərrüfatında təyinatına, onların mənşəyinə və əmal dərəcəsinə görə birləşdirirdi. Bundan başqa nomenklaturanın təsnifat sistemi malları istehsal vasitələrinə və istehklak əşyalarına, əsas və dövriyyə vəsaitlərinə, sənayə və kənd təsərrüfatı mallarına bölməyə imkan verirdi. Təsnifat mallarin idxal və ixracını əlavə olaraq müxtəlif iqtisadi əlamətlərə görə qruplaşdırmağa şərait yaradıldı.

Qarşılıqlı İqtisadi Yardım Şurası üzvlərinin XT Vahid Əmtəə nomenklaturası 9 bölmə 57 mal qrupu, 325 yarımqrup, 4200 mal mövqeyi və 10 mindən artıq submövqedən ibarət idi.

XT VƏN-in digər nomenklaturalarından səciyyəvi fərq onda əlavə "sıfır" bölməsinin olmasında idi. Bu bölməyə maddi xarakterli istehsalat əməliyyatları (xidmətləri) aid edilirdi. XT VƏN tətbiqi xarici ticarət göstəricələrinin həm bir ölkə hüdudunda, həm də ölkələrarası müqayisəsinə imkan verirdi. Digər beynəlxalq təsnifatlarla əlaqə keçid cədvəlləri vasitəsiylə həyata keçirilirdi.

XT VƏN-də yeddirəqəmli kod qəbul edilmişdi. Birinci işarə bölməni, ilk iki işarə qrupu, üç – yarımqrupu, beş işarə mal mövqeyinivə yeddi işarə mal submövqeyini ifadə edirdi. Bu nomenklatiranın ən mühüm keyfiyyətlərindən biri də qəbul edilmiş nömrələmə ilə bağlı olub, lazım gəldikdə nomenklaturanın genişləndirilə bilməsi imkanı ilə bağlı idi.

Bu imkan yarımqrup və mal mövqelərində boş nömrələrin olması ilə reallaşdırıldı. Beləliklə, VƏN statistik üçotun təkçə əmtəə adları hüdudunda aparılmasını deyil, həmçinin lazım gəldikdə ayrı-ayrı malların növ, çeşid və markalarını ayırmağa imkan verirdi. Ümumiyyətlə nomenklaturanın təsnifat sistemi xarici ticarətin əmtəə strukturunu əks etdirə bilirdi, lakin malların siyahısı əmtəələrin Təsviri və Kodlaşdırılması harmonik Sisteminin siyahasından kiçik idi.

VƏN ilk öncə statistik əmtəə nomenklaturası kimi hazırlansa da, eyni zamanda SSRİ gömrük tarifinin əsasını təşkil edirdi. Bununla bərabər malların təsnifat sistemi müdafiə-proteksionist tədbirlərin həyata keçirilməsi üçün kifayət qədər uyğunlaşdırılmamışdı. Bu isə öz növbəsində gömrük tarifinə səmərəli ticarət-siyasi vasitə olmaqla və xarici ticarət-iqtisadi tənzimləmə funksiyasını yerinə yetirməyə imkan vermirdi.

3.Əsas beyəlxalq əmtəə nomenklarutasında, müxtəlif təsnifat prinsiplərinin tətbiq edilməsindən irəli gələn çətinliklərin aradan qaldırılması üçün vahid beynəlxalq təsnifatlandırıcının yaradılması zəruriyəti meydana çıxdı. Bu elə bir təsnifatlandırıcı olmalı idi ki, bütün ölkələrdə xarici iqtisadi fəaliyyət iştirakçıların tərəfindən xarici ticarət əməliyyatlarının gömrük idarələrində rəsmiləşdirilməsində istifadə edilə bilsin. Bundan başqa belə təsnifatlandırıcı həm də ayrı-ayrı mallar, mal qrupları və mövqeləri üzrə xarici ticarət analızını aparmağa imkan verməli idi.

Müxtəlif vaxtlarda hazırlanmış beynəlxalq nomenklaturaların heç biri ayrı-ayrı ölkələrin və beynəlxalq təşkilatların tələblərinə tam cavab verə bilmirdi.

Müxtəlif ölkələr və təşkilatların nöqtəyi nəzərincə nomenklaturalarının hər biri üstünlüklərlə bərabər, müəyyən qusurlara malik idi. Beləliklə, beynəlxalq ictimayyətin qarşısında ticarət sənədlərinin göstəricilərinin səmərəmələşdirilməsi və ahəngdarlaşdırılması məsələsi öz həllini tələb edirdi. Birləşmış Millətlər Təşkilatının Avropa İqtisadi Komussuyası (AİK) Gömrük Əməkdaşlığı Şurasına vahid beynəlxalq əmtəə təsnifat sisteminin yaradılmasınnı mümkünlüyünü araşdırmaq tapşırığı verdi. Bu sistem Malların Təsviri və Kodlaşdırılmasının Ahəngdar (Harmonik) sistemi adını aldı. Hazırlanan nomenklatura həm gömrük, həm də statistika məqsədləri üçün yararlı olmalı idi.

Xarici ticarətin milli və beynəlxalq göstəricilərinin müqayisə edilə bilinməsi prinsipi sistemin əsas prinsiplərindən biri oldu.

Ahəngdar Sistemin Əmtəə Nomenklaturası (ASƏN) 21 bölmədən, 99 qrupdan, 33 yarımrqup, 1241 mal mövqeyi, 5019 submövqeyindən ibarətdir. 3 qrupun, o çümlədən 77, 98, 99-cu qrupların gələcək üçün ehtiyat saxlanmasl nəzərdə tutulur. Bununla belə bu qruplar müxtəlif ölkələrin əmtəə nomenklaturalarında spesifik malların qeydiyyatı üçün

istifadə edilə bilər. ASƏN-in 21 bölməsi üzrə malların təsnifatının özəyini təşkil edən müxtəlif əlamətlərin əsasları aşağıdakılardlr:

- mənşə (1,2,5);
- funksional təyinat (4,11,12,17,18,19,20,21) ;
- kimyəvi tərkib (3,6,7);
- əmtəənin hazırlandığı material (8,9,10,13,14,15).

ASƏN-də qruplar əmələ gələrkən malların emal ardıcılığı prinsipi – xammaldan yarımfabrikat və hazır məhsul alınması – istifadə olunur, malların qruplaşdırılması mövqe və submövqe səviyyəsində aparılır. Bir qayda olaraq, mövqe və submövqedən xarici ticarətdə geniş dövriyyəyə olan bir və ya bir neçə məhsul növü seçilir, qalan növlər üçün isə ümumiləşdirilmiş "digərlər" təsnifat qrublaşması nəzərdə tutulur.

4.Hal-hazırda Az R-nın gömrük orqanlarında MDB ölkələrinin vahid əmtəə nomenklaturasından istifadə edilir. Bu sənəd dövlətlərarası təsnifatlandırıcı kimi MDB hökümət başçılarının qərarı ilə 3 noyabr 1995-ci ildə təstiq edilmişdir. MDB XİFƏN dünya təcrübəsində istifadə edilən malların Təsviri və Kodlaşdırılması Ahəngdar (Harmonik) sistemin əsasında qurulmuşdur. Harmonik sistemin yaradılmasının özünəməxsus tarixi vardır.

Ilk öncə onu qeyd etmək lazımdır ki, Az R-da hal hazırda tətbiq edilən xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası Ahəngdar sistem və Avropa Birliyinin kombinə edilmiş əmtəə nomenklaturasının əsasında və onlara uyğun tərtib edilmişdir.

XİFƏN tətbiq edilən malın işarə kodu 9 rəqəmdən ibarətdir: 1-6-ci rəqəmlər ASN qəbul edilmiş kod işarəsinə, 7-8-ci rəqəmlər ABKN koduna uyğun gəlir, 9-cu dərəcə isə ən-ənəvi milli mallara uyğun olaraq tətbiq edilir. Hələlik mal mövqeləri daha dərin detallaşdırılmadığından 9-cu rəqəm sıfır qəbul edilir.

Malların kodunun düzgün təyin edilməsi üçün MDB XİFƏN-in üç tərtib hissəsindən: nomenklatura hissəsi, bölmə və qruplara qeydlər, MDB XİFƏN-in əsas interpritasiya qaydalarından istifadə edilməlidir.

5.Əsas interpritasiya qaydaları kodun təyini üçün kompleks vasitə hesab edilir. Belə qaydalar altıdır. Birinci 5 qaydaya əsasən mal mövqeyi (ilk 4 işarə), altıncı qaydaya əsasən submövqe (5 və 6 dərəcə) və yarım submövqe (7,8 və 9 dərəcələr) tapılır.

Birinci qayda.

Bölmələrin, qrupların və yarımqrupların adları MDB XİTƏN işdə rahat istifadə edilməsi üçün nəzərə alınır: hüquqi məqsədlər üçün XİFəN-də malların təsnifatı mal mövqelərinin mətnindən, bölmə və qruplara qeydlərindən çıxış edilməklə həyata keçirilir.

Ikinci qayda.

a) Mal mövqeyinin adındakı hər hansı qeyd şərti belə malın komplektləşdirilməmiş, yaxud tamamlanmamış şəkilinə də aid edilməlidir, bu şərtlə ki, komplektləşdirilməmiş və tamamlanmamış halda da bu mal bitkin malın əsas xüsusiyyətlərini özündə əks etdirilmiş olsun.

Təcrübədə bir çox mallar komplektləşdirilməmiş və ya bitirilməmiş, yaxud yığılmamış vəziyyətdə göndərilir. Belə halda göndərilən mal komplekt və bitkin malın xassələrinə malik olmalıdır. Yəni göndərilən mal dərhal istifadəyə hazır deyil, amma hazır məmulatın təqribi formasına malikdir və bəzi əməliyyatlar sayəsində tamamlana bilər. Bu qaydanın əsas ideyası ondan ibarətdir ki, baxılan mallar bitkin mallarla eyni mövqedə yerləşir.

b) Mal mövqeyinin adındakı hər hansı qeyd-şərt belə malın qarışıq və birləşməsinə də aid edilməlidir. Hər hansı materialdan əmələ gələn mala aid olan qeyd-şərt tamamilə yaxud qismən bu materialdan ibarət olan mala da şamil edilir.

Üçünçü qayda.

Əgər ikinci qaydanın b) bəndinə yaxud bu və ya digər səbəbdən malın

Iki və ya daha artıq mal mövqeyinə aid edilməsi mümkündürsə, belə malların təsnifatı aşağıdakı kimi həyata keçirilir:

a) O mal mövqeyinə üstünlük verilir ki, malın daha konkret təsvirini müəyyən edir. Bununla belə, əgər iki yaxud daha çox mal mövqeyindən hər biri çox

komponentli məmulatın yaxud qarışığın yalnız bir hissəsinə aiddırsə, onlardan birinin daha dəqiq təsvir verdiyinə baxmayaraq, belə mal mövqeləri bərabər əhəmiyyətli hesab edilir.

b) Müxtəlif materiallardan ibarət, yaxud müxtəlif komponentlərdən hazırlanmış qarışıq və çox komponentli məmulatlar və bu qaydaların a) bəndi ilə təsnifatlandırıla bilməyən mallar həmin malların əsas xüsusiyyətini səciyyələndirən material və tərkib hissəsinə görə təsnifatlandırılmalıdırlar (əgər bu meyar tətbiq edilə bilirsə).

c) Təsnifatı a) və b) qaydalarına görə təsnifatlandırıla bilməyən mallar mal mövqeləri içərisində kodun böyüməsi qaydasında axırıncı mövqedə təsnifatlandırılmalıdır.

Dördünçü qayda.

Ilk üç qayda ilə taşnifatlandırıla bilməyən mallar baxılan mallarla ən uyğun (yaxın) olan malların mövqeyində təsnifatlandırılmalıdırlar.

Beşinci qayda.

Müəyyən məmulatların yaxud məmulatlar qrupunun saxlanılması üçün nəzərdə tutulan və xüsusi forması olan qab-tara mənsub olduğu mallarla birgə təqdim edilirsə, qablaşdırdığı məmulatlarla birgə (məsələn, musiqi aləti və çexolu) təsnifatlandırılmalıdır.

Altıncı qayda.

Hüquqi məqsədlər üçün hər hansı mal mövqeyinin submövqeyindəki malların təsnifatı submövqelərə və onlara aid qeyd-şərtlərə uyğun olaraq bir səviyyədəki submövqelərin müqayisə edilə bilən olması şərti ilə həyata keçirilə bilər.

Bu qaydanın məqsədləri üçün, həmçinin, bölmə və qruplara qeyd-şərtlər, əgər başqa şey nəzərdə tutulmamışsa, tətbiq edilə bilər.

Bu qaydanın bir səviyyədəki submövqelərin müqayisəsi baxımından izaha ehtiyacı var. Məsələ bundadır ki, Ahəngdar sistemin xüsusiyyətlərindən biri də “defis sisteminin”

mövcudluğudur. Defis sistemi detallaşdırılan submövqelərin və yarımsubmövqelərin adlarının qarşısında müəyyən sayda xətlərin (defislərin) qoyulmasının nəzərdə tutur.

Defislərin sayı submövqenin səviyyə nömrəsinə bərabər olur. Müxtəlif sayda defislərin qoyulması detallaşdırılmanın dərinliyini göstərir və müəyyən edilmişalqoritm üzrə (azdan çoxa) uyğun malların axtarışını asanlaşdırır.

6.Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi xarici ticarət əməliyyatlarının uçotu, göstəricilərinin qeydiyyatı və analizi olmadan gözlənilən səmərəni verə bilməz.

Iqtisadiyyatda, xüsusiylə də xarici ticarətin iqtisadiyyatında obyektiv və subyektiv amillərin, qanunauyğunluqlar, təsadüflərin təsirinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu amillərin təsirini müəyyən etmək, iqtisadiyyatın idarə edilməsi və tənzimlənməsini təşkil etmək üçün statistikanın rolu əvəzsizdir.

Statistik üçot faktların elə qeydiyyatıdır ki, hər faktın ayrı-ayrılıqda yazılması ilə həmin faktın sadəcə qeydiyyatı deyil, faktın ümumi məcmusu haqda təsəvvür əldə edilə bilsin.

Statistika elm kimi – kütləvi təsadüfi hadisə və proseslərin qanuna uyğunluqlarını öyrənən sahələr sistemidir. Gömrük orqanları Az R-da xarici ticarətin cari vəziyyətini, dinamikasını, inkişaf meyllərini və perspektivlərinin təhlil etmək, gömrük ödənişlərinin dövlət büdcəsinə daxil olmasına nəzarəti, valyuta və ixrac nəzarətini həyata keçirmək məqsədi ilə malların gömrük sərhədindən keçirilməsi barədə məlumatların toplanması, təhlili, elektron üsullarla işlənməsi yolu ilə xarici ticarətin gömrük statistikasını aparırlar. Az R-da xarici ticarətin gömrük statistikasının məlumatları Az R-nın Milli Məclisinə, Az r-nın Mərkəzi Bankına, Az R-nın Prezidentinə, Nazirlər Kabinetinə, Az R-nın İqtisadi inkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə, Vergilər Nazirliyinə və Az R-nın Dövlət Statistika Komitəsinə təqdim olunur.

Xarici ticarətin gömrük statistikasının müşahidə və öyrənmə predmeti xarici ticarət dövriyyəsi, yəni, malların miqdar və dəyərlə ifadə olunmaqla ixrac və idxalı, həmçinin bu dövriyyənin coqrafi istiqamətləridir.

Xarici ticarət üzrə statistik məlumat idxal və ixracın miqdarı və dəyəri, xarici ticarət balansının saldosunu əks etdirir; malın mənşə ölkəsi, təyinat ölkəsi, göndəriş şərtləri, qiyməri və s. barədə təsəvvür yaradır.

Xarici ticarətin gömrük statistikasının formalaşdırılmasında aşağıdakı göstəricilərdən istifadə olunur:

- hesabat dövrü;
- yük axınının istiqaməti;
- idxalda mənşə ölkəsi;
- ixracda təyinat ölkəsi;
- statistik dəyər;
- malın kodu və adı;
- xalıs çəkisi (netto);
- əlavə ölçü vahidlərinin kodu və adı;
- əlavə ölçü vahidləri ilə miqdar;
- sövdələşmənin xüsusiyyətləri;
- gömrük prosedurların növü;
- mal göndərənin kateqoriyası.

Bu göstəricilər xarici ticarətin gömrük statistikası üzrə dövri nəşrləri hazırlamağa, müxtəlif analıtık tədqiqatlar aparmağa, xüsusilə xarici ticarətin inkişafını öyrənməyə, idxal-ixrac əməliyyatlarının xarici iqtisadi əlaqə iştirakşılarının müxtəlif kateqoriyaları üzrə analizi imkan verir.

Xarici ticarətin gömrük statistikası və gömrük ödənclər statistikasının göstəricilərinin əsas mənbəyi Yük Gömrük Bəyannaməsidir. YGB Az R-nın dövlət sərhədindən keçirilən yüklər barədə operativ məlumatlar almağa imkan verir. Gömrük bəyannaməsi xarici iqtisadi fəaliyyətinin dövlət tənzimlənməsinin üsullarından biridir. Bəyanetmə xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən həyata keçirilir, gömrük orqanalrı isə həm bəyanetmə prosesinə, həm də bəyannamədə göstərilən məlumatlarının dəqiqliyinə dövlət nəzarəti həyata

keçirir. Yük gömrük bəyannaməsində göstərilən məlumatlar xarici ticarət statistikası üçün rəsmi ilkin məlumatlardır.

Xarici ticarət dövriyyəsinin statistikasının formalaşdırılmasının başlancı üçün YGB-nin aşğıda qeyd edilən göstəriciləri əsas götürülür. YGB-nin tərtibatında istifadə edilən təsnifatlandırıcıların kodlaşdırılması göstəricilərin yığılmasını avtomatlaşdırmağa imkan verir. Xarici ticarət dövriyyəsi statistikasının asasını kodu təsnifatlandırıcıya – xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına (XİFƏN) uyğun olaraq təyin edilən mallar təşkil edir.

**31-ci** qrafada malların ticarətdə istifadə olunana adları və onların modelləri, tipləri, ölçüləri və s. daxil olmaqla texniki xarakteristikaları göstərilir. Onlar bəyan olunan malları XİFƏN üzrə təsnifat qaydalarına uyğun olaraq, müəyyən mal mövqeyində təsnifinə imkan verir.

**33-cü** qrafada birinci yarımbölmədə malların 9 rəqəmli kodları göstərilir.

**38-ci** qrafada malların qablaşdırma vasitəsi nəzərə alınmadan onların xalis çəkisi kiloqramla göstərilir.

Digər ölçü vahidlərindən istifadə edildikdə 31-ci qrafada bu əlavə vahidinin qısa adı göstərilir və təsnifatlandırışıya uyğun olan kodu nəzərə alınmaqla 38-ci qrafada “kq”, 41-ci qrafada isə əlavə ölçü vahidinin kodu yazılır.

Idxal və ixracın dəyər qiyməti **46-cı** qrafada ABŞ dolları ilə ifadə edilməklə göstərilir.

Gömrük ödənişlərinin ödənilməsi, gömrük dəyəri göstərilən valyutadan fərqli olan hallarda ödənmiş gömrük ödənclərinin məbləği **47-ci** qrafanın “məbləğ” sütununda göstərilən məbləğin ödəniç valyutası məzənnəsi YGB-nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu gündən Mərkəzi Bank tərəfindən müəyyən edilən valyutanın məzənnəsinə görə yenidən hesablanır.

Əgər 47-ci qrafanın “ÖÜ” (ödəniş üsulu) sütununda “05” öşarəsi göstərilərsə, belə hallarda bu gömrük ödəniş növü üzrə **“B”** qrafası doldurulmur. “B” qrafasının doldurulması

zamanı bütün elementlər bir-birindən defis işarəsi ilə ayrılır və elementlər daxilində simvol tərtibində boş yer qoyulmasına yol verilmir.

Gömrük ödənişlərinin ödənilməsi zamanı, bu əməliyyatlar üzrə məlumatlar “B” qrafasında aşağıdakı sxem üzrə formalaşır

99 - 9999999999 0 – 99

1-ci element yük gömrük bəyannaməsinin doldurulması qaydalarında göstərilən gömrük ödənişlərinin təsnifata uyğun olan ödəniş növünün ikirəqəmli kodunu;

2-ci element ödəniləcək məbləği;

3-cü element isə valyutanın kodunu göstərir.

YGB-nin doldurulması və qəbulu əməliyyatları bitdikdən sonra ilkin statistik hesabat formaları və çıxış formaları hazırlanır.

Gömrük statistikası göstəricilərinin araşdırılması və işlənməsi üsulları aşağıdakılardır:

1) statistik cəmləmə və qruplaşdırma;
2) qrafik üsul;
3) balans üsulu;
4) indeks üsulu;
5) amil üsulu.

13. Gömrük orqanlarınnı hüquq-mühafizə fəaliyyətinin inzibati-hüquqi və inzibati-prosessual formaları.

Suallar:

1.Hüquq-mühafizə fəaliyyəti anlayışı.

2. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin formaları.

3. Gömrük qaydalarının pozulması anlayışı.

4. Gömrük qaydalarının pozulmasına görə inzibati tənbeh növləri.

5. Gömrük qaydalarının pozulmasına görə məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar.

6. Gömrük qaydalarının pozulması işləri üzrə inzibati icraatın mərhələləri.

1.Dövlətin hüquq-mühafizə fəaliyyəti qanunçuluğun müdafiəsini, cinayətkarlıqla və digər hüquqpozmalarla mübarizəni, ictimai maraqların, vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunmasını təmin etməkdən ibarətdir.

İctimai münasibətlərin tənzimlənməsinə yönəlmiş, dövlət tərəfindən müəyyən edilən, yaxud sanksiyalaşdırılan qorunan hüquq normaları – ümumilikdə riayət edilməsi məcburi olan davranış qaydalarıdır. Bu normalar da özlüyündə:

- nizamlayıcı (requlyativ) – yəni hüqqi münasiət iştirakçılarını qanun çərçivəsində davranışını tənzimləyən;
- hüquq mühafizə yəni hüquqi münasibət iştirakçılarının qeyri-qanuni hərəkətlərini təmzimləyən normalara bölünür.

Tətbiq edilən hüquq normaları şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarını həm ifadə edir, həm müəyyən edir, həm də müdafiə edir.

Hər bir hüquqi norma məntiqi və faktiki quruluşa malik olur. Bu məntiqi quruluşu hipoteza, dispozisiya və sanksiya yaradır: hipoteza hüquqi normanın tətbiqi üçün faktiki şərtləri müəyyən edən hissəsidi; dispozisiyada hüquqi münasibət iştirakçılarının hüquq və vəzifələri əks edirilir; sanksiyada mənfi nəticələr, hüquqi normanın pozulmasında günahkar olan şəxslərin msuliyyt dərəcəsini göstərir.

Gömrük orqanlarının fəaliyyəti sahəsində hüquqi normalardan istifadə hüquqi münasibət subyektlərinin, gömrük orqanlarının vəzifəli şəxslərinin və XİF iştirakçılrının bu norma ilə nəzərdə tutulan hüquqlarının həyata keçirilməsidir. Hüquqi normanın icrası dedikdə fiziki, hüquqi, vəzifəli şəxsin hüquqi norma ilə üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə yönəlmiş hərəkətləri başa düşülür. Dövlət tərəfindən hüquqi normanın tətbiqi – dövlət orqnlarının vəzifəli şəxslərin onun müddəalarının həyata keçirilməsi üzrə hakimiyyət-requlyativ hərəkətləridir.

XİF-in tənzimlənməsində iştirak edən gömrük orqanları, hər seydən öncə Az-can və digər ölkələr arasında mal və xidmətlərin optimal hərəkətini həyata keçirir, iqtisadi, maliyyə, siyasi, sosial və digər məsələlərin həllini təmin edir. Bununla da gömrük orqanları Az R-nın Gömrük Məcəlləsində, “Gömrük tarifi haqqında” Az R-sı qanununda, digər qanunlarda və qanun qücündə olan fərman, sərəncam və qərarlarda nəzərdə tutulmuş funksiyaları həyata keçirir. Onlar təşkilatı, dövlət idarəetmə, qaydalara nəzarət, hüquqi normalardan istifadə, onun icrası və tətbiqi, qanunvericilikdə nəzərdə tutulmuş digər funksiyaları yerinə yetirirlər.

Lakin XİF iştirakçıları heç də həmişə hüquqi normaların yerinə yetirilməsinə çalışmırlar. Müəyyən qrup şəxslər bilərəkdən və ya bilməyərəkdən bu normaları pozurlar ki, dövlət orqanları lazımi tədbirlər görməyə məcbur olur və onların üzərinə qoyulmuş mühafizə funksiyasını yerinə yetirərək, bu hüquqpozmaların qarşısını alırlar.

Tətbiq edilən normanın qorunması XİF iştirakçıları və gömrük orqanlarının vəzifəli şəxslərinin müsbət, arzuolunan, hüquqi və qeyri-hüquqi hərəkətlərinin müdafiəsində, həmçinin gömrük sahəsində meydana şıxan və dövlət, cəmiyyət və şəxsiyyət üçün zərərli, habelə təhlükəli münasibətlərin aradan qaldırılması və qarşısının alınmasında təzahür tapır.

Gömrük orqanlarının fəaliyyətinin bu hissəsi hüquq normaları ilə müəyyən edilmiş hüquqa zidd hərəkətlərə, yaxud hərəkətsizliyə qadağanlarda, qadağanların pozulmasına görə nəzərdə tutulmuş sanksiyalarda, həmçinin gömrük orqanları tərəfindən bu sanksiyaların tətbiq edilməsində öz əksini tapır.

2.Hüquq-mühafizə fəaliyyəti gömrük orqanlarının qarşısında qoyulan məqsəd və vəzifələrdən asılı olaraq bir-biri ilə bağlı olan və biri digərini tamamlayan müxtəlif formalarda həyata keçirilir.

Əməliyyat-axtarış, inzibati-hüquqi, inzibati-prosessual, cinayət-hüquqi, cinayət-prosessual və s. formalar gömrük orqanları üçün səciyyəvidir.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin inzibati-hüquqi forması – gömrük və valyuta nəzarətini həyata keçirilməsi, malların gömrük rəsmiləşdirilməsi, təşkilat daxili idarəetmə fəaliyyəti və digər dövlət orqanları ilə əlaqələr yaratmaq hesabına inzibati huquqpozma əlamət və faktlarının, həmçinin də qanunvericiliyin cinayət, gömrük, vergi və s. sahələri üzrə pozuntuların aşkar edilməsində təzahür edir.

Nəticə etibarı ilə gömrük orqanlarının hüquq-mühafizə fəal-nin inzibati-prosessual forması aşkara çıxarılmış inzibati-hüquqi normalarla və gömrük qaydaları ilə müəyyən olunan tələblərdən kənara çıxma faktlarının yoxlanılmasına, pozuntulara aidiyyəti olan şəxslərin aşkar edilməsinə, törədilmiş hərəkətlərin təsnifatlandırılmasına və məsuliyyət dərəcəsinin müəyyən edilməsinə, habelə, qeyri-qanuni hərəkətlər nəticəsində dövlətin maraqlarına dəyən ziyanın qarşısının alınmasına, yaxud, azaldılmasına yönəlmiş inzibati-prosessual hərəkətlər edilməsində əks olunur.

Bu hərəkətlər aşkar edilmiş inzibati hüquqpozmalar və ya gömrük qaydalarının pozulması halları barədə protokollar tərtib edilməsi, inzibati hüquqpozmalar, gömrük qaydalarının pozulması üzrə işlərin açılması və onların icraatı, cərimələrin baxilması və tətbiqi kimi formalarda həyata keçirilir.

Obyektiv olaraq gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin cinayət-prosessual forması mübarizə edilməsi səlahiyyəti gömrük orqanlarına verilmiş cinayətlərin fakt və

əlsmətlərinə görə cinayət işi qaldırılması, bu işlər üzrə təhqiqat aparılması, həmçinin istintaq hərəkətlərində iştirakı ilə özünün birüzə verir.

Vəzifə və funksiyalarını yərinə yetirərkən gömrük orqan-nın hüquq-mühafizə fəal-nin mühüm formalarından biri də öz təhlükəsizliyinin təmin edilməsidir.

Dövlət tərəfindən verilmiş səlahiyyət növlərindən biri kimi əməliyyat-axtarış fəaliyyəti gömrük orqan-nın kriminalistika, kəşfiyyat və axtarıç kimi xüsusi elementləri özündə birləşdirən hüquq-mühafizə fəal-nin mühüm formalarından biridir.

3.Şəxslərin gömrük qanunvericiliyi ilə müəyyən olunmuş qaydada malların və nəql. vasit-nin Az R-nın gömrük sərhədindən keçirilməsi, onlara gömrük nəzarəti, gömrük rəsmiləşdirilməsi, onların gömrük ödənclərinə cəlb edilməsi və ödənilməsi, gömrük güzəştləri verilməsi və onlardan istifadə edilməsi qaydalarının pozulmasına yönəlmiş hərəkətləri, yaxud hərəkətsizliyi gömrük qaydalarının pozulması kimi qəbul olunur.

Gömrük qaydalarının pozulmasının obyektiv tərəfi inzibati hüquqpozma kimi qəbul olunan, ictimaiyyət üçün təhlükəli, yaxud, dövlət üçün zərərli qanunazidd hərəkətlər edilməsi ilə şərtlənir.

Gömrük qaydalarının zərərli, yaxud ictimai təhlükəli hal olaraq pozulması həm fəal hərəkətlərdən, həm də passiv davranış yəni XİF iştirakçısının etməli olduğu, lakin etmədiyi hərəkətlərdən ibarət ola bilər.

Gömrük qaydalarının pozulması ilə bağlı qanuna-zidd hərəkətlərə misal olaraq gömrük orqanının vəzifəli şəxsinin gömrük nəzarəti keçirilməsi üçün əraziyə və binalara daxil olmasına maneçilik törədilməsini; gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsini; sənədlərdən və ya identifikasiya vasitələrindən aldatma yolu ilə istifadə etməklə malların və nəqliyyta vasitələrinin Az R-nın gömrük sərhədindən keçirilməsini, malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzğün bəyan edilməməsi, gömrük nəzarət zonası rejiminin pozulmasını göstərmək olar.

Hüquqpozmanın obyektiv tərəfi gömrük orqanının icazəsi olmadan gömrük nəzarəti altında olan malların daşınması, yüklənməsi, boşaldılması, bir yerdən başqa yerə daşınmasş,

qablaşdırma zədələrinin düzəldilməsi, prob və nümunələr götürülməsi, göstərilən malların və nəql.vasitələrinin saxlandığı binaların və yerlərin açılmasıdır. Bu hərəkətlərdən hər hansı birinin törədilməsi hüquq-pozmanın faktiki törədilmiş hesab olunması üçün kifayətdir.

Hüquqpozmanın subyekti gömrük rəsmiləşdirilməsi zəruri olan mal və nəql. vasitələrinə münasibətdə səlahiyyətləri olan şəxslərdir. Əgər daşıyıcı malların məhv olacağı, həmişəlik itiriləcəyi və ya xarab olacağı barədə real təhlükə olduğunu sübut edərsə, yuxarıda göstərilən əməliyyatlara görə məsuliyyətdən azad edilir.

4.Gömrük qaydalarınnı pozulmasına görə inzibati tənbehlər – gömrük hüquqpozmalarına görə məsuliyyət tədbirləridir.

Gömrük qaydalarının pozulmasına görə inzibati tənbəhlər həmişədövlətin hüquqpozmaya cavab reaksiyasını törədilmiş hüquqpozmaya və hüquqpozucusuna mənfi münasibət şəklində ifadə edirlər.

Gömrük qaydalarınıın pozulmasına görə tənbəh müəyyən hüquqi nəticələrə gətirib çıxarır – gömrük qaydalarının pozulmasına görə inzibati qaydada tənbəh edilmiş şəxs tənbəhin qoyulduğu vaxtdan etibarən bir il müddətində inzibati qaydada cəzalanmış sayılır.

Bir il ərzində təkrar gömrük qaydalarının pozulması məsuliyyəti agırlaşdırıcı hal hesab edilir və özlüyündə daha ciddi nəticələr səbəb olur, yəni daha ciddi cəza tətbiq edilir.

Gömrük qaydalarının pozulmasına görə aşağıdakı tənbəhlər tətbiq edilə bilər:

1) xəbərdarlıq;
2) cərimə;
3) Az-can R-sı gömrük orqanı tərəfindən verilən və Məcəllə ilə nəzərdə tutulan müəyyən fəaliyyət növlərini həyata keçirmək hüququ verən lisenziyaların və ixtisas attestatlarının geri alınması;
4) bilavasitə gömrük qaydalarının pozulması obyekti olan malların və nəqliyyat vasitələrinin, yaxud bilavasitə gömrük qaydalarının pozulması obyekti olan əşyaların gizlədilərək Az R-sı gömrük sərhədindən keçirilməsi üçün istifadə

olunmuş xüsusi olaraq düzəldilmiş gizli saxlanc yerlərinə malik malların və nəqliyyat vasitələrinin müsadirəsi;

5) bilavasitə gömrük qaydalarının pozulması obyekti olan malların və nəqliyyat vasitələrinin, yaxud bilavasitə gömrük qaydalarının pozulması obyekti olan əşyaların gizlədilərək Az r-nın gömrük sərhədindən keçirilməsi üçün istifadə olunmuş xüsusi olaraq düzəldilmiş gizli saxlanc yerlərinə malik malların və nəqliyyat vasitələrinin dəyərinin tutulması;
6) bilavasitə gömrük qaydaların pozulması obyekti olan malların daşınması üçün istifadə olunmuş nəqliyyat vasitələrinin müsadirəsi.

Az R-nın qanunvericiliyində nəzərdə tutulan gömrük qaydalarının pozulmasına görə tənbəh növlərini üç qrupa ayırmaq olar:

1) əsas tənbəhlər (xəbərdarlıq və cərimə);
2) əlavə cəzalar (lisenziya və ya ixtisas attestatının geri cağırılması bilavasitə hüquqpozma obyektlərinin daşındığı nəql vasit-nin müsadirəsi);
3) həm əsas, həm də əlavə cəzalar kimi tətbiq edilən tənbəhlər.

Buraya gömrük qaydaları pozulmasının blavasitə obyektləri olan mal və nəqliyyat vasitələrinin müsadirəsi, yaxud həmin mal və nəqliyyat vasit-nin dəyərinin tutulmasını aid etmək olar.

İnzibati tənbəhlərin nisbətən yumşaq növlərindən biri xəbərdarlıqdır. Xəbərdarlıq – bilavasitə qanunpozucusunun şəxsiyyətinə yönəlir, onun tətbiqi, əsasən, mənəvi xarakter daşıyır və təqsirkar şıxsin hər hansı şəkildə hüquqlarının məhdudlaşdırılması ilə bağlı deyildir. Xəbərdarlıq cüzi mənfi hərəkətlərə görə və ilk dəfə, yaxud ehtiyatsızlıq üzündən gömrük qaydalarını pozanlara tətbiq edilir.

Hallar müəyyənləşdirildikdən sonra, Az R-sı gömrük orqanının vəzifəli şəxsi ciddi maliyyə hesabatlı sənəd olan tənbəhetmə haqqında akt tərtib edir.

Əmlak xarakterli məsuliyyət tətbiqi cərimə - pul tənbəhidir və qanun pozuncusundan dövlətin xeyrinə müəyyən pul məbləğinin alınması ilə şərtləndirilir.

Cərimə bütün hallarda əsas tənbəh tədbiri kimi təyin olunur. Gömrük orqanlarının vəzifəli şəxslərinə icraata götürülən işin materialları və konkret şərait nəzərə alınmaqla və Gömrük Məcəlləsinin müvafiq maddələrini rəhbər tutmaqla cərimənin məbləgini müəyyən etmək hüququ verilir.

Lisenziya və ya ixtisas attestatının geri çağırılması, yaxud ləğv edilməsi gömrük qanunvericiliyi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarında ttəbiq edilir. Bu tənbəh növü yalnız əlavə tənbəh kimi və həmin lisenziya və ya attestatla nəzərdə tutulan fəaliyyəti həyata keçirməklə bağlı gömrük qaydalarının pozduqda tətbiq olunur.

Gömrük qaydalarının pozulmasına görə tətbiq edilən tənbəh növlərindən daha çox təsadüf ediləni bilavasitə GQP obyektləri olan mal və nəqliyyat vasitələrinin, eləcə də Az R-nın gömrük sərhədindən malları gömrük nəzarətindən kənar keçirmək məqsədi ilə gizli saxlama yerləri düzəldilmiş mal və nəql. vasitələrinin müsadirəsidir. Tənbəhin bu növü göstərilən əmlakın əvəzsiz olaraq dövlət xeyrinə özgəninkiləşdirilməsi ilə ifadə olunur. bu zaman müsadirə olunan əmlakın bilavasitə gömrük qaydalarını pozan şəxsin mülkiyyətində yaxud işin icraatı gedişində müəyyən edilmiş və ya edilməmiş digər şəxslərin mülkiyyətində olçmasının əhəmiyyəti yoxdur.

Gömrük orqanlarının fəaliyyətindən malların və nəqliyyat vasitələrinin həmçinin, bilavasitə GQP obyekti olan və gömrük sərhədindən malların gömrük nəzarətindən kənar keçirilməsi üçün xüsusi gizli yerlər düzəldilmiş mal və nəql. vasitələrinin dəyərinin tutulması da ttəbiq edilir. bu növ tənbəhin mahiyyəti dövlətin xeyrinə məcburi qaydada GQP obyektinin hüquqpozma gününə sərbəst bazar qiymətləri ilə dəyərinə bərabər məbləğin alınmasıdır.

Malların və nəqliyyat vasitələrinin dəyərinin tutulması həm əsas, həm də əlavə inzibati tənbəh kimi tətbiq edilə bilər.

Gömrük qaydalarının pozulmasına görə hər hansı tənbəh novü tətbiq edərkən gömrük orqanları vəzifəli şəxslərinin əsaslanmalı olduqları mühüm prinsip tənbehin fərdiləşdirilməsi, yəni tənbehin icraatdakı işin materialları və şərtlərinin araşdırılması əsasında yüngülləşdirilməsi, yaxud ağırlaşdırılmasıdır.

5.Gömrük qaydalarının pozulmasına görə məsuliyyəti yünğünlləşdirən hallar aşağıdakılardır:

1) işin həllinə fəal kömək göstərilməsi;

2) hüquqpozmanın zərərli nəticələrinin könüllu olaraq aradan qaidırılması;

3) hüquqpozmanın məcburiyyət, yaxud da maddi, xidməti və digər asılılıgın təsiri altında törədilməsi;

4)hüquqpozmanın yetkinlik yaşına çatmamış şəxslər tərəfindən törədilməsi.

Yüngülləşdirici halların siyahısı bunuylə məhdudlaşmır. Yüngülləşdirici hallar məsuliyyətə cəlb olunan şəxsin məsuliyyətinin dərəcəsi və xarakterinə müəyyən edilməsidir yəni işin materialları və prosessual sübutetmə vasitələri ilə.

Məsuliyyəti ağırlaşdırıcı hallara gəlincə, onlar Az R-nın Qanunvericilik aktları ilə məhdudlasır. bu o deməkdir ki, gömrük orqanını vəzifəli şəxsi gömrük qaydalarının pozulması üzrə işi apararkən, Gömrük Məcəllədə göstərilməyən digər halları ağırlaşdırıcı hal kimi qəbul etmək hüququna malik deyil.

Gömrük qaydalarının pozulmasına görə məsuliyyəti ağırlaşdıran hallar aşağıdakılardır:

1) Az R-sı gömrük orqanının vəzifəli şəxsinin hüquqa zidd hərəkətlərə son qoymaq barədə tələblərinə baxmıyaraq, bu cür hərəkətlərin davam etdirilməsi;
2) il ərzində gömrük qaydalarının təkrar pozulması;
3) əvvəllər gömrük işi sahəsində cinayətlərə yol vermiş şəxs tərəfindən gömrük qaydalarının pozulması;
4) yetkinlik yaşına çatmayanların gömrük qaydalarının pozulmasının törədilməsinə cəlb edilməsi;
5) bir qrup şəxs tərəfindən gömrük qaydalarının pozulması;
6) təbii fəlakət və ya digər fövqəladə vəziyyət şəraitində gömrük qaydalarının pozulması;

7) sərxoşluq vəziyyətində gömrük qaydalarının pozulması.

6.Gömrük qaydalarının pozulmasına görə işlərin inzibati icraatı gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin mühüm tərkib hissəsidir.

Gömrük qaydalarınnı pozulması haqqında işlərin icraaatı, gömrük qaydalarının pozulmasını bilavasitə aşkar edən Az R-sı gömrük orqanının vəzifəli şəxsi, yaxud gömrük orqanının rəisi və ya onun müavininin qərari ilə Az R-sı gömrük orqanının gömrük hüquq-pozmaları ilə mübarizə üzrə struktur bölməsinin vəzifəli şəxsləri tərəfindən həyata keçirilir.

Gömrük qaydalarının pozulması üzrə inzibati prosesin aşağıdakı mərhələləri var:

1) iş açılması və onun inzu=ibati təhqiqatı;
2) işin baxılması və gömrük qaydalarının pozulması barədə qərar şıxarılması;
3) gömrük qaydalarının pozulması haqda işlər üzrə qərardan şikayət verilməsi, protest verilməsi və qərara yenidən baxılması;
4) gömrük qaydalarının pozulmasına görə gömrük orqanlarının tənbeh qərarının icrası.

Gömrük qaydalarının pozulmasına görə iş açılması və təhqiqat mərhələ ilkin prosessual hərəkətlərdən ibarətdir. Gömrük qaydalarının pozulmasına görə və ya məsuliyyətə cəlb edilən fiziki, yaxud vəzifəli şəxsin inzibati qaydada saxlanılması barədə protokol tərtib edildiyi andan gömrqük qaydalarının pozulması barədə iş açılmış, icraat isə başlanılmış hesab olunur.

Gömrük qaydalarının pozulması haqqında protokol əsas prosessual sənəd sayılır. bu sənəddə aşağdakılar göstərilir:

- tərtib edildiyi yer və tarix;
- protokolu edən şəxsin vəzifəsi, soyadı;
- gömrük qaydalarının pozulduğu yer, vaxt və hüquqpozmanın mahiyyəti;
- şahidlərin soyadları və ünvanları (əgər varsa);
- məsuliyyətə cəlb olunan çəxsin izahatı;
- digər məlumatlar.

Protokolda aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- 1 qrup məlumatlar gömrük qaydalarının pozulması faktı üzrə materiallar və hallar aiddir;
- 2 qrup məlumatlat gömrük qaydalarının pozan şəxsi səciyyələndirən hallara aiddir.

14. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin cinayət-hüquqi və cinayət prosessual formaları.

Suallar:

1. Təhqiqatı gömrük orqanlarının səlahiyyətinə aid edilən cinayətlər növləri.
2. Az R-nın gömrük orqanları tərəfindən təhqiqatın aparılması.
3. Cinayət işinin qaidırılması üçün səbəblər.
4. Gömrük qaydalarının pozulması haqqında işlərin icraatında iştirak edənlər və onların hüquqları.
5. Təxirəsalınmaz təhqiqat tədbirləri.

Az R-nın Gömrük Məcəlləsinə görə təhqiqatı gömrük orqanlarının səlahiyətinə aid edilən cinayətlər aşağıdakılardır:

1) qaçaqmalçılıq;
2) Az xalqın və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların Az R-nın ərazisinə qaytarılmaması;
3) qanunsuz valyuta əməliyyatları və valyuta sərbvətləri ilə sair əməllər;
4) gömrük ödənişlərinin ödənilməsindən yayınma.

Qaçaqmalçılıq dedikdə dövlət sərhədindən mal və digər əşyaların qeyri-qanuni keçirilməsi başa düşülür və cinayət hesab olunur. Az R-nın gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsi, yaxud bəyan etməməklə və ya düzgün etməməklə aşağıdakı malların keçirilməsi kontrabanda hesab olunur:

- narkotik vasitələrin, psixotrop, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv və partlayıcı maddələrin;
- silahların, partlayıcı qurğuların və onlar üçün döyüş sursatının (soyuq, yivsiz ov silahları və onların patronlarından başqa);

- nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, həmin silahların hazırlanması üçün istifadə oluna biləcək və Az R-nın gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların və avadanlığın;
- Az R-dan çıxarılması üçün müvafiq qaydalar müəyyən edilmiş strateji əhəmiyyətli xammalın;

  Az R-dan çıxarılması üçün müvafiq qaydalar müəyyən edilmiş Az-da yaşayan xalqların və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların;
- külli miqdarda, yaxud dövlət orqanının vəzifəli şəxsinin qulluq mövqeyindən istifadə etməklə, yaxud dövlət orqanının vəzifəli şəxsi tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə, yaxud gömrük nəzarətinin müəyyən formalarından azad olunmuş şəxs tərəfindən, yaxud nəzarətinin müəyyən formalarından azad olmuş ayrı-ayrı malların və nəql. vasitələrinin keçirilməsi üçün müvəkkil edilmiş şəxs tərəfindən, yaxud kontrabanda ilə məşgul olmaq üçün təşkil edilmiş bir qrup şəxs tərəfindən keçirilən digər malların.

2.Az R-nın Gömrük Məcəlləsinə görə Az R-nın gömrük orqanları təhqiqat orqanlarıdır. Az R-sı gömrük orqanları təhqiqatının aparılması gömrük orqanlarının səlahiyyətinə aid edilmiş gömrük işi sahəsində cinayətlərin əlamətləri olduqda, cinayət işi qaldırır və Az R-sı Cinayət-prosessual qanunvericiliyinin normalarını rəhbər tutaraq cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək, onun törədilmiş şəxsləri aşkar etmək üçün təhirəslınmaz hərəktləri həyata keçirir.

Törədilmiş, törədilən və ya törədilməsinə hazırlıq görülən cinayətlər haqqında ərizə və məlumatlara Az R-sı gömrük orqanları tərəfindən baxılma Az R-sı Cinayət-prosessual qanun vericiliyinə uyğun həyata keçirilir. İbtidai tədqiqatın formalarından biri olan təhqiqat qaldırılmış cinayət işi üzrə və cinayət prosesual qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Təhqiqat orqanları törədilmiş cinayəti ilk olaraq aşkar edir, iş qaldırır, cinayətin izlərinin dəqiqləşdirilməsi, sübhəli şəxsin saxlanılması, cınayətin qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər həyata keçirirlər.

Əgər təhqiqat ibtidai istintaqın icraatınnı məcburi olduğu işlər üzrə aparılmışsa, təhqiqat orqanı cnayət işini istintaq orqanlarına verir. Əgər təhqiqat ibtidai istintaqın icraatının məcbüri olmadığı içlər üzrə aparılmışsa, təhqiqat orqanları işin tam təhqiqatına davam edirlər. Əgər müstəntiq özü cinayət işi qaldırmış və icraata götürmüşsə, gömrük orqanları ayrıca təhqıqat aparmır, bir qayda olaraq, istintaq orqanlarının təpşırığı ilə əməliyyat-axtarış tədbirləri həyata keçirir.

Gömrük işi sahəsində cinayətlərin əlamətləri, gömrük qaydalarının pozulması haqqında işin icraatı və ya həmin işə baxılma gedişində aşkar olunmuşsa, cinayət işi başlanması məsələsi Gömrük Qanunvericiliyin qaydaları ilə müəyyən edilir.

Gömrük nəzarətini və ya gömrük rəsmiləşdirilməsini həyata keçirərkən işi sahəsində cinayətlərin əlamətləri aşkar edilərsə, bilavasitə cinayət əlamətlərini aşkar edən Az R-sı gömrük orqanının vəzifəli şəxsi Az R-nın Cinayət Məcəlləsinin bu cür əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutan maddələrinin tələblərinə müvafiq olaraq, protokolda həmin hüquqazidd əməli tövsif edir. Bu halda Az R-sı gömrük orqanının rəisi və ya onun müavini üç sytkadan, müstəsna hallarda isə on sutkadan gec olmayaraq Az R-sı Cinayət-prosessual Məcəlləsində nəzərdə tutulmuş aşğıdakı qərarlardan birini qəbul etməlidir:

1) cinayət işi başlamaq haqqında;
2) cinayət işi başlamağı rədd etmək haqqında;
3) gömrük işi sahəsində cinayətlər barədə protokoıu və sair materialları aidiyyəti üzrə vermək haqqında.

Gömrük nəzarətinin və ya gömrük rəsmiləşririlməsinin həyata keçirilməsi prosesində gömrük işi sahəsində cinayətlərin əlamətləri aşkar edildiyi andan gömrük orqanın rəisi Az R-sı Cinayət-prosessual Məcəlləsində nəzərdə tutulmuş qərarlardan birinin qəbul edilməsinə qədər gömrük qaydalarının pozulması haqqında işlər üzrə icraat qaydasında həmin fakt üzrə yoxlama aparır.

Gömrük işi sahəsində cinayətlərin əlamətləri üzrə cinayət ii başıandıqdan sonr Az R-sı gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən gömrük qaydalarının pozulması haqqında işlər üzrə icraatın davam etdirildiyi hallar aşağıdakılardı:

- əgər gömrük işi sahəsində cinayətlərin təhqiqatı prosesində idarə, müəssisə, təşkilat, həmçinin hüquqi şəxs yaratmadn sahibkarlıq fəaliyyəti ilə məşqul olan şəxslər tərəfindən törədilmiş gömrük qaydalarının pozulmasının əlamətləri aşkar edilərsə, fiziki şəxslər və ya vəzifəli şəxslər barəsində cinayət işinin təhiqatının aparılmasından asılı olmayaraq, Az R-sı gömrük orqanlarının vəzifəli şəxləri tərəfindən bu hüququozmalara gör icraat davam etdirilir.

Gömrük qaydalarının pozulması haqqında iş üzrə icraat aşağıdakı hallarda qayandırıla bilər:

1)gömrük qaydalarının pozulmasına görə məsuliyyətə cəlb edilməli olan fiziki şəxs qaçıb gizləndikdə və ya sair səbəblərə görə məsuliyyətə cəlb edilən şəxsin olduğu yer müəyyən edilmədikdə;

2)məsuliyyətə cəlb edilən fiziki şəxs psixi və ya sair ağır xəstəliyə tutulmuş olduqda və bu, həkim tərəfindən təstiq edildikdə;

3)gömrük qaydalarını pozan şəxs müəyyən olunmadıqda.

Gömrük qaydaların pozulması haqqında işin materiallarında əks olunan faktik məlumatlar, həmçinin gömrük qaydalarının pozulması haqqında işlərin icraatı və bu işlərə baxılma iləaqədar şəxslərin Az R-sı gömrük orqanlarıına çağırılması və həmin şəxslərin özləri haqqında məlumatlar, bu cür işlərə baxılmağa qədər, yalnız icraatı aparan və ya işə baxan Az R-sı gömrük orqanının vəzifəli şəxsinin, yaxud həmin gömrük orqanının və ya Az R-sı yuxarı gömrük orqanlarının rəisləri və ya onların müavinlərinin, həmçinin Az R-sı DGK gömrük hüquqpozmaları ilə mübarizə üzrə struktur bölməsinin rəisi və ya onun müavinlərinin icazəsi ilə elan edilə bilər.

Gömrük nəzarətinin, gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi və ya törədilmiş, törədilən və ya törədilməsinə hazırlıq görülən gömrük qaydalarının pozulması haqqında ərizələrin, müraciətlərin və digər məlumatların yoxlanılması, yaxud gömrük qaydalarının pozulması haqqında işlərin icraatı və ya bu işlərə baxılma prosesində gömrük işi sahəsində cinayətlərdən başqa sair cinayətlərin əlamətləri aşkar edildiyi hallarda Az R-sı gömrük

orqanının rəisi və ya onun müavini aidiyyəti üzrə prokurora və ya ibtidai istintaq orqanlarına bu barədə məlumat verir.

Gömrük orqalarında təhqiqat bilavasitə DGK-nin Qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasi ilə mübarizə baş idarəsinin, gömrük idarələrinin qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizə şöbə və bölmələrinin əməkdaşları tərəfindən aparılır. Təhqiqat aparan əməkdaşların qərarları müvafiq gömrük orqanının rəisi və ya onu əvəz edən şəxs tərəfindən təstiq edilir. Gömrük orqanlarının rəhbərləri qaldırılmış işin əsaslılığına, təhqiqat hərəkətlərinin qanuniliyinə, keyfiyyətinə və vaxtında heyata keçirilməsinə görə təhqiqat aparan əməkdaşla bərabər məsuliyyət daşıyırlar. İbtidai istintaqın məcburi olmadığı işlər üzrə təhqiqat cinayət işinin qaldırıldığı andan 10 gündən gec olmayaraq bitirilməlidir. Aşağıdakı hallarda təhqiqat aparan şəxs işin təhqiqatında iştirak edə bilməz:

a) əgər özü zərərdədirsə, mülki cavabdehdirsə, həmçinin bu iş üzrə ekspert, mütəxəssis və ya tərcüməçi kimi iştirak etmişsə;
b) əgər onun tərəflərdən biri ilə qohumluq əlaqəsi varsa;
c) əgər onun təhqiq olunan işdə bilavasitə və ya dolayısı ilə marağı olduğunu güman etməyə əsas varsa.

Gömrük qaydalarının pozulması haqqında eyni iş üzrə iddiyətli mənafeləri olan və həmin işə görə məsuliyyətə cəlb edilən bir neçə şəxsin mənafeyinin müdafiəsini eyni zamanda həyata keçirən vəkil və ya hüquqi yardim göstərən nümayəndə, həmçinin əvvəllər həmin işdə gömrük qaydalarının pozulması haqqında işin icraatını və ya bu işə baxılmani həyata keçirən Az R-sı gömrük orqanının vəzifəli şəxsi, prokuror, ekspert, mütəxəssis, şahid, hal şahidi qismində iştirak edən vəkil və ya hüquqi yardım göstərən nümayəndə gömrük qaydalarının pozulması haqqında işin icraatında və ya bu işə baxılmada iştirak etməyə buraxılmırlar.

Gömrük, məhkəmə, iqtisad məhkəməsi, prokurorluq və Az R-nın digər hüquq-mühafizə orqanlarının işçiləri, həmçinin vəkillər kollegiyasından çıxarılan şəxslər məsuliyyətə cəlb edilən şəxsin nümayəndəsi ola bilməz.

Göstərilən şəxslər gömrük qaydalarının pozulması haqqında işin icraatında və ya bu işə baxılmada qanuni nümayəndə kimi iştirak edərkən bu qayda tətbiq edilmir.

Aşağıdakı hallar olduqda gömrük qaydalarının pozulması haqqında işlərin icraatının aparılması və bu işlərə baxılmada ekspert, müfəttiş və mütəxəssis iştirak edə bilməz:

1) əgər onlar məsuliyyətə cəlb edilən fiziki şəxsin və ya hüquqi şəxsin, onun vəkilinin və ya nümayəndəsinin, yaxud gömrük qaydalarının pozulması haqqında işin icraatını və ya bu işlərə baxılmanı həyata keçirən Az R-sı gömrük orqanının vəzifəli şəxsinin qahumlarıdırsa;
2) əgər onların məsuliyyətə cəlb edilən şəxsdən xidməti və ya digər asılılıqları varsa;
3) onların şəxsən, bilavasitə və ya dolayısı şəkildə için nəticəsində marağı olmalarını hesab etməyə əsas verən digər hallar varsa.

Gömrük qaydalarının pozulması haqqında işin icraatinda və ya bu işə baxılmada Az R-sı gömrük orqanının vzifəli şəxsinin iştirakı istisna edən hallar olduqda, özü-özünə etiraz etməyə borcludur.

3.Cinayət işinin qaldırılması üçün səbəblər aşağıdakılardır:

- bilavasitə təhqiqat orqanı tərəfindən cinayətin əlamətlərinin aşkar edilməsi;
- vətəndaşların ərizə və məktubları;
- müəssisə, təşkilat və vəzifəli şəxslərin cinayətlər barədə məlumatlar;
- cinayətlər barədə mətbuatda dərc olunmuş məqalə və məktublar;
- təqsirini boyuna almaqla könüllü gəlmədə cinayət işinin başkanılması üçün əsas isə, cinayətin əlamətlərini göstərən materialların kifayət qədər olmasıdır.

Gömrük orqanı təhqiqat orqanı olaraq gömrük işi sahəsində törədilmiş cinayətlərin əlamətləri olduqda iş qaldırır. Təhqiqat aparan şəxs tərəfindən cinayət işinin qaldırılması barədə çıxarılmış və təhqiqat orqanının rəhbəri tərəfindən təstiq edilmiş qərarda onun cıxarıldığı yer və vaxt, qərarı çəxarılmış şəxsin vəzifəsi, rütbəsi və soyadı, cinayət işinin qaldırılması səbəbi və əsası göstərilməlidir. Təhqiqatın icraatı tapşırılan şəxs işi öz icraatına qəbul etməsi barədə qərar çıxarır.

Gömrük orqanı bir təhqiqat orqanı olaraq gömrük işi sahəsində törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumat və ərizələri qəbul edir. Törədilmiş və ya hazırlanan cinayət barədə daxil olunmuş ərizə və məlumat üzrə ərizə alındıqdan 3 gündən artıq olmayaraq, istisna hallarda – 10 gündən artıq olmayaraq qərar verilməlidir.

Əgər cinayət işinin qaldırılmasından imtina edilirsə, bu barədə əsaslandırılmış qərar çıxarılır, həmçinin, bu barədə ərizəçiyə və ya ərizə verən müəssisə məlumat verilir, qərardan şikayət verilə bilməsi barədə onlara hüquqları izah edilir.

Əgər daxil olan ərizələrdə gömrük orqanının təhqiqat xidmətləri tərəfindən tədqiq edilə bilməyən cinayətllər barədə məlumat varsa, belə ərizə və məlumatlar aidiyyəti üzrə digər orqanlara göndərilir.

4.Gömrük qaydalarının pozulması haqqında işlərin icraatında iştirak edirlər:

- hüquqi və fiziki şəxslər, həmçinin fiziki şəxsin qanuni nümaəndəsi;

- idarə, müəssisə və təşkilat məsuliyyətə cəlb edilərkən rəhbərləri və ya onların müavinləri, yaxud gömrük qaydalarının pozulması haqqında işin icraatını aparan Az R-sı gömrük orqanının vəzifəli şəxsinin icazəsi ilə göstərilən şəxslərin gömrük qaydalarının pozulmasına görə məsuliyyətə cəlb ediməsi ilə baqlı bütün məsələlərin nizama salınması xidməti vəzifələrinə aid olan digər işçiləri;

- hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər məsuliyyətə cəlb edilərkən həmin şəxslər.

Əgər gömrük qaydalarının pozulmasına görə məsuliyyətə cəlb edilən şəxs Az R-nın ərazisində yaşamırsa və bu ərazidən kənardadırsa, gömrük qaydalarının pozulması haqqında işin icraatı və ya bu işə baxılmada həmin şəxsin nümayəndəsi iştirak edə bilər. Nümayəndənin səlahiyyəti Az R-nın qanunvericiliyinə müvafiq qaydada, yaxud nümayəndənin öz vəzifələrini icra etməsi üçün kifayət edən digər qaydada təsdiq edilməlidir.

Gömrük qaydalarının pozulması haqqında işin icraatında və ya bu işə baxılmada nümayəndə olmadıqda, gömrük qaydalarının pozulmasına görə məsuliyyətə cəlb edilən şəxsin ərazisində yaşadığı və ya olduğu xarici dövlətin konsulluğunun vəzifəli şəxsi iştirak edə bilər.Şəxs, onun nümayəndəsi və ya bu maddədə göstərilən konsulluğun vəzifəli şəxsi

gəlmədikdə gömrük qaydalarının pozulması haqqında işin icraatı və ya bu işlərə baxılma onların iştirakı olmadan həyata keçirilir.

Gömrük qaydalarının pozulmasına görə məsuliyyətə cəlb edilən şəxsə işin nəticəsi barədə işin materiallarında qeyd edilibsə, onun göstərdiyi ünvana göndərilməklə məlumat verilir.

Məsuliyyətə cəlb edilən şəxsin aşağıdakı hüquqları vardır:

- hansı gömrük qaydalarını pozduğuna görə məsuliyyətə cəlb olunduğunu bilmək;
- işin icraatı qurtardıqdan sonra və işə baxılarkın onun materialları ilə tənış olmaq, onlardan çıxarış etmək;
- izahat vermək;
- sübutlar təqdim etmək;
- vəsatətlər qaldırmaq;
- etiraz etmək;
- işə baxılarkən icraat zamanı vəkilin və ya digər şəxsin yardımından istifadə etmək;
- icraatın aparıldığı dili bilmirsə tərcüməçinin xidmətlərindən istifadə etmək;
- iş üzrə qərardan şikayət vermək;
- Gömrük Məcəllə ilə ona verilən digər hüquqlardan istifadə etmək.

İnzibati qaydada saxlanılmış şəxsin vəkili və ya onun hüquqi yardım göstərən nümayəndəsi aşağıdakı hüquqlara malikdir:

- inzibati qaydada saxlanılmış şəxslərə məhdudiyyətsiz sayda və müddətdə təklikdə görüşmək;
- inzibati qaydada saxlanılmış şəxsin iştirakı ilə keçirilən gömrük qaydalarının pozulması haqqında iş üzrə prosessual hərəkətlərin icraatında iştirak etmək;
- inzibati qaydada saxlama protokolu ilə və işin inzibati qaydada saxlamaq üçün əsas olmuş digər materialları ilə tanış olmaq;
- saxlanılmış şəxsin iştirakı ilə aparılmış prosessual hərəkətlərin protokolları ilə tanış olmaq.

Zəruri hallarda gömrük qaydalarının pozulması haqqında işlərin icraatı və ya ona baxılmada iştirak etmək üçün ekspert cəlb edilə bilər.

Ekspertlərin hüquqları:

- işin materiallarının ekspertiza predmetinə aid və rəy vermək üçün zəruri olan hissəsi ilə tanış olmaq;
- ona əlavə materialların təqdim edilməsi haqqında vəsatət vermək.

Zəruri hallarda gömrük qaydalarının pozulması haqqında işlər üzrə ayrı-ayrı prosessual hərəkətlərin aparılması və ya ona baxılma zamanı mütəxəssis, yəni işin nəticəsində marağı olmayan, xüsusi biliklərə və səriştəyə malik olan fiziki şəxs cəlb edilə bilər.

Gömrük qaydalarının pozulması haqqında işlər üzrə icraatı və ya bu cür işlərə baxılmını həyata keçirən Az R-sı gömrük orqanı vəzifəli şəxsinin tapşırığı üzrə mütəxəssis aşağıdakıları etməyə borcludur:

- sübutların aşkar edilməsində, rəsmiləşdirilməsində və götürülməsində Az R-sı gömrük oqanının göstərilən vəzifəli şəxsinə kömək etmək üçün öz xüsusi biliklərindən və səriştəsindən istifadə etməklə konkret prosessual hərəkətlərin aparılmasında iştirak etmək;
- təftiş, yoxlama və inventarlaşdırma aparılmasında iştirak etmək;
- yoxlama və invetarlaşdırma aparan Az R-sı gömrük orqanının göstərilən vəzifəli şəxsinə, müfəttişlərə və digər şəxslərə aşkar edilmiş faktları və halları pokolladda, təftiş, yoxlama və inventarlaşdıma aktlarında düzgün əks etdirmək üçünköməklik göstərmək.

Mütəxəssis üzrlü səbəb olmadan öz vəzifələrini yerinə yetirməldən imtina etdikdə və ya boyun qaçırmağa görə Gömrük Məcəlləyə uyğun məsuliyyət daşıyır.

Mütəxəssisin hüquqları:

- gömrük qaydalarının pozulması haqqında işin icraatını və ya bu işə baxılmanı həyata keçirən Az R-sı gömrük orqanının vəzifəli şəxsinin icazəsi ilə şahidlərə və hüquqpozmaya görə məsuliyyətə cəlb edilən şəxslərə suallar vermək;
- subutların aşkar edilməsi, rəsmiləşdirilməsi və götürülməsi ilə əlaqədar olan halları göstərmək;

- sübutların aşkar edilməsi, rəsmiləşdirilməsi və götürülməsi üçün elmi, texniki vasitələrdən və metodlardan istifadə etmək;
- müşahidə, ölcmə və təcrübə aparmaq;
- gömrük qaydalarının pozulması haqqında işin icraatını və yabu işə baxılmanı həyata keçirən Az R-sı gömrük orqanının vəzifəli şəxsinə, həmçinin çüfəəttəşlərə və yoxlama və inventarlaşdırma aparan digər şəxslərə xüsusi bilik və səriştə tələb edən məsələlər üzrə məsləhətlər vermək;1111111

Gömrük qaydalarının pozulması haqqında işin icraatını və ya bu işlərə baxılmını həyata keçirən Az R-sı gömrük orqanının vəzifəli şəxs iş üzrə ayrı-ayrı prosessual hərəkətlərin icraatını vəzifəli şəxsinə tapşırmaq hüququna malikdir.

tapşırıq alındıqdan sonra, 10 gündən gec olmayan müddətdə yerinə yetirilməlidir.

Gömrük qaydalarının pozulması haqqında işin icraatını və ya bu işə baxılmanş həyata keçirən Az R-sı gömrük orqanının vəzifəli şəxsi işin mahiyyəti üzrə aid olan şəxsləri sorğu-sual edə bilər. Şəxslərin sorğu-sual edilməsi haqqında protokoı tərtib edilir.

İşın mahiyyti üzrə sorğu-sual:

- gömrük qaydalarınnı pozulmasına görə məsuliyyətə cəlb edilən fiziki şəxs və ya vəzifəli şəxsə hüquq-pozmanın törədilməsində özünü təqsirli bilib-bilməməsi sualı ilə;
- gömrük qaydalarının pozulmasına görə məsuliyyətə cəlb edilən idarə, müəssisə və təşkilatın rehbəri, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşgul olan şəxsə gömrük qaydalarının pozulması faktini təstiq edib-etməməsi sualı ilə;
- şahid qismində çağırılmış fiziki şəxsə və ya vəzifəli şəxsə, onun hansı məqsədlərlə sorğu-suala çağırıldığı bildirilir.

Sonra sorğu-sual edilən şəxsə işin mahiyyəti üzrə öz izahatını verməsi təklif olunur. Gömrük qaydalarının pozulması haqqında işin icraatını həyata keçirən gömrük orqanının vəzifəli şəxsi işin icraatı və işi baxılma üçün zəruri olan sənədləri tələb etmək hüququna malikdir.

Hüquqi və fiziki şəxslərin ərazisində və ya binasında, yaxud onlara məxsus olan nəql. vasitələrində, gömrük qaydalarının pozulmasının bilavasitə obyekti olan malların və nəqlityyat vasitələrinin, əşyaların, həmçinin gömrük qaydalarının pozulması haqqında işin icraatı və ya bu işə baxılma üçün zəruri olan sənədlərin olması barədə kifayət qədər əsaslar oldugda, gömrük orqanlarının vəzifəli şəxsləri bu cür ərazilərin, binaların və nəqliyyat vasitələrinin gömrük müayinəsini keçirə bilər. Gömrük müayinəsinin keçirilməsi barədə gömrük qaydalarının pozulması haqqında işin icraatını aparan və ya bu işə baxan şəxsi tərəfindən əsaslandırılmış qərar çıxarılır.

Gömrük orqanlarında idarəetmənin əsasları.

Suallar:

1. İdarəetmə anlayışı.
2. İdarəetmə qanunları.
3. İdarəetmənin prinsipləri, funksiyaları və metodları.
4. İdarəetmənin təşkilati strukturlarının növləri.
5. İdarəetmə prosesinin mahiyyəti və məzmunu.
6. İdarəetmənin psixoloji aspektləri.

Ayrı-ayrı icraçılar və ya insanlar qrupu şəkilində insan amilindən ibarət hər bir sistemin səmərəli fəaliyyəti yalnız onu idarə edən – sistemin bu tərkib hissəsinin fəallığını istiqamətləndirən və tənzimləyən müəyyən təşkiledici başlanğıc olduqda mümkündür. Gömrük orqanlarının bütün əməkdaşlarının hərəkət birliyinə nail olunması gömrük orqanlarında idarəetmə sisteminin başlıca məqsədidir. Sistem bi istiqamətdə işləməli və qarşısında qoyulmuş vəzifələrin həllini təmin etməlidir. Bunun üçün onun daxilində dəqiq idarəetmə tələb olunur.

Təcrübə göstərir ki, xüsusi idarəçilik biliyi olmadan idarəetmə bəzən gömrük orqanlarında əməliyyat-xidməti fəaliyyətində xeyli səhvlərlə nəticələnir, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və onun iqtisadi mənafelərinin qorunması işinə müəyyən ziyan vurur.

Ədəbiyyatda gömrük orqanlarının aid olduğu sosial-iqtisadi sistemlərlə "idarəetmə" anlayışının çoxsaylı tərifləri vardır. gömrük orqanlarında idarəetməyə xaş olan əlamətləri nəzərə alaraq müxtəlif xülasə edilmiş fikirləri ümumiləşdirməklə ona aşağıdakı tərifi vermək olar.

İdarəetmə - gömrük orqanları əməkdaşlarına elə fasiləsiz informasiya təsiri prosesidir ki, idarəçilik qərarlarının qəbul olunması və həyata keçirilməsi vasitəsilə dəyişən xarici və daxili şəraitdə onların məqsədyönlü davranışını təmin edir.

Məcmu halda idarəetmə subyekti, idarəetmə obyekti və onlar arasında qarşılıqlı əlaqələr gömrük orqanlarında idarəetmə sistemini əmələ gətirir. Gömrük orqanlarında idarəetmə subyektlərinə idarəetmə qərarları qəbul etmək, tabeliyindəki əməkdaşlara və kollektivlərə tapşırıq vermək və onların icrasını tələb etmək səlahiyyəti olan bütün rəhbərlər, yəni məqsədyönlü təsiri həyata keçirən gömrük postunun, gömrük idarəsinin və DGK-nin bütün elementləri və yarımsistemləri aiddir.

İdarəedən yarımsistemin qərarlarının, əmrlərinin, tapşırıqlarının icraçıları, gömrük işi mütəxəssisləri gömrük kollektivləri, təşkilati strukturlar, texnoloji gömrük prosedurаları, eləcə də gömrük orqanlarının üzərinə qoyulmiş funksiyaların həyata keçirilməsi üzrə bütün fəaliyyat növləri, gömrük fəaliyyəti resursları və s. gömrük orqanlarında idarəetmə obyektləri kimi çıxış edir.

İdarəetmə subyekyti və obyekti haqqında məsələnin aydınlaşdırılması üçün dərk etmək vaçıbdir ki, gömrük orqanlarında idarəemə - struktur olaraq, mərhələli, iyerarxik xarakter daşıyır. İdarəetmənin müxtəlif səviyyələri gömrük sistemində eyni vaxtda idarəetmənin həm subyekti, həm də obyekti kimi çıxış edir. İdarəetmənin hər pilləsinə və ya səviyyəsinə öz idarəetmə subyekti və ya obyekti uyğun gəlir.

İdarəetmə subyekti idarəetmə obyektinin faktik vəziyyəti və onu əhatə edən xarici mühit haqqında informasiya alır. Bu informasiya idarəetmə subyekti tərəfindən işlənir ki, bunun da nəticəsi olaraq qərar qəbul edilir. Məzmunu birbişa əlaqə kanalı üzrə idarəetmə obyektinə ötürmək üçün həmin qərara idarəetmə obyektinə ötürmək üçün həmin qərara idarəçilik qəranının formalarından (əmr, göstəriş, qətnamə və s.) biri verilir. Bu qərarın içrası haqqında informasiya və eləcə də idarəetmə obyektinin (idarəedilən sistemin) yeni

vəziyyəti haqqında informasiya yenidən əks əlaqə kanalı üzrə idarəetmə subyektinə daxil olur. Beləliklə, idarəetmə nisbi və fasiləsiz prosesdir.

İdarəetmə prosesinin fasiləsizliyi onun dövriliyi haqqında, yəni müxtəlif idarəetmə həlqələri tərəfindən və müxtəlif formalarda icra edilən eyni növ idarəçilik işlərinin və ya idarəetmə mərhələlərinin icra edilməsinin müəyyən ardıcıllığı və təkrarlanması haqqında danışmağa imkan verir.

Gömrük orqanlarında idarəetmə sistemi aşağıdakı komponentlərdən ibarətdir: idarəetmə mexanizmi, idarəetmə strukturları, idarəetmə prosesi və idarəetmə sisteminin təkmilləşdirilmə mexanizmi.

İdarəetmənin mexanizmini aşağıdakılar təşkil edir: idarəetmə qanunları, prinsipləri, məqsədləri, metodları və funksiyaları.

İdarəetmə orqanları, idarəetmə kadrları və texniki idarəetmə vasitələri idarəetmənin strukturuna daxildir.

İdarəetmə prosesi - idarəetmənin məqsədlərinə çatmaq üçün bütün idarəetmə həlqələrinin göstərdiyi fəaliyyətdi.

İdarəetmə ssiteminin təkmilləşdirilmə mexanizmini idarəetmə obyektinin inkişafı nəticəsində ona edilən dəyişiklər təşkil edir.

Gömrük orqanlarında idarəetmə həm obyektiv iqtisadi qanunlara və idarəetmə qanunlarına, həm də onların əsasında formalaşan əməliyyat-ximət fəaliyyətinin bütün iştirakçılarının ictimai, kollektiv və şəxsi maraqlarının vahid ssiteminə əsaslanır.

2.İdarəetmə qanunları idarəetmə ssitemi elementləri və yarımsistemləri, onda baş verən proseslər və xarici mühit arasında ümumi, əhəmiyyətli və zəruri əlaqələri əks etdirir. Onlar obyektivdir və insanların çüurundan və idarəsindən asılı deyildir. İdarəetmə qanunlarını bilmək idarəetmə ssitemlərinin yaradılmasında və onların fəaliyyətinin təşkil edilməsində idarəetmə qanunlarınnı tələblərini nəzərə almağa imkan verir.

Onlara aşağıdakılar aiddir: idarəetmə sisteminin vahidliyi qanunu, mütanasiblik qanunu, idarəetmə funksiyalarının mərkəzləşdirilməsinin optimal nisbəti qanunu, idarəedən və idarə olunan sistemlərin nisbəti qanunu və s.

İdarəetmə sisteminin vahidliyi qanununun təsiri dövlət idarəetmə ssiteminin yuxarı orqanlarından onun aşağı həlqələrinə qədər idarəetmə münasibətlərinin qırılmaz zəncirində; idarəetmə prosesinin  bütün səviyyələrinin, əməliyyatlarının və mərhələrinin arasıkəsilməzliyində, ritmikliyində və uzlaşmasında; insanların qlobal məqsədlərinin və mənafelərinin bütün tərkib hissələri ilə idarəetmənin vahidliyində; idarəetmə funksiyalarının və metodlarının vahidliyində; idarəetmə aparatı əməkdaşlarına tələblərin vahidliyində təzahür edir.

Professional fəaliyyətin və idarəetmənin mütənasibliyi (proporsionallığı) qanunu müəyyən edir ki, idarəetmənin ən mühüm vəzifəsi idarə edən və idarə olunan sistemlərin fəaliyyətinin optimal proporsionallığını təmin etmək, sistemin tərkib hissələrinin fasiləsiz əlaqəsini təşkil etməkdir. mütanasiblik onunla ölçülür ki, sistemin əsas fəaliyyəti – gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti, digər funksiyaların həyata keçirilməsi idarəetmə ilə nə dərəcədə tam və dəqiq təmin olunur ki, minimal mümkün məsrəflərlə lazımi effekti versin.

Mərkəzləşdirmənin optimal nisbəti qanunu elə idarəetmə sisteminin qurulmasını və onun fəaliyyətinin elə təşkilini nəzərdə tutur ki, bu zaman gömrük orqanlarının hər bir aşağı həlqəsinin mərkəzi idarəetmə orqanlarına arasıkəsilməz və kifayət qədər sabit tabeliliyi mövcud olsun.

Idarə edən və idarə olunan sistemlərin nisbəti qanununun mahiyyəti idarə edən sistemin idarə olunanla uyğunluğunun təmin edilməsi tələbindən ibarətdir.

Bu nisbətin dəyişməsi müxtəlif, başlıca olaraq, təşkilati və iqtisadi faktorların təsiri ilə baş verir. Hər şeydən öncə, idarə edən sistemin inkişaf və fəaliyyət səviyyəsi idarə olunan sistemin əməliyyat-xidmət fəaliyyəti səviyyəsinə uyğun gəlməlidir.

Qanunlar vasitəsiylə idarəetmə nəzəriyyəsinin məzmunu, idarəetmə prosesinin əsas funksiyaları, metodları və strukturları, eləcə də xüsusiyyətləri üzə çıxarılır. Buna görə də, sistemli yanaşma idarəetmə qanunlarının istifadəsində əsasdır. Sistemli yanaşma onların tələblərini sistemli şəkildə ifadə etməyə və bütün sistemin optimal fəaliyyət və inkiçaf variantını müəyyən etməyə imkan verir.

3. İdarəetmənin prinsipləri dedikdə, idarə edən sistemin əsaslandığı rəhbər ideyalar, qaydalar, əsas müddəalar və davranış normaları başa düşülür.

Idarəetmə təcrübəsində gömrük orqanları tərəfindən ümumi, xüsusi və təşkilati-texnoloji prinsiplər tətbiq edilir.

Idarəetmənin ümumi prinsipləri strateji idarəetmə normalardır və onlar gömrük orqanlarının bütün sahələrində və yarımsistemlərində fəaliyyət göstərir.

Ümumi prinsiplər – sistemlik, əks əlaqə, informasiyanın kafiliyi, optimallıq, bərabər tabelilik və b.

Sistemlilik idarəetmənin aparıcı prinsipidir. Gömrük orqanlarlının idarə edilməsində sistemlilik sistemin struktur və funksional vahidlıyını təmin edir və təkmilləşdirir.

Gömrük orqanları qarşısında dayanan vəzifələr nə qədər mürəkkəbdirsə, sistemin əks əlaqə prinsipi o qədər böyük əhəmiyyət kəsb edir. Informasiya idarəetmə subyektinə, sistemə təsir etmək və idarəçilik qərarlarının icrasını təmin etmək məqsəsilə hər bir zaman anında sistemin vəziyyəti haqqında, qoyulmuş məqsədin əldə edilməsi haqqında təsəvvür əldə etməyə imkan verir.

Informasiyanin kafiliyi prinsipi o deməkdir ki, gömrük sistemində. O cümlədən idarəçilik sistemində informasiya həcmlərinin görünməmiş dərəcədə artması şəraitində informasiya proseslərinin intensivləşdirilməsi olduqca böyük əhəmiyyət kəsb edir.

Qarşıya qoyulmuş məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə ediməsi gömrük orqanlarında idarəetmənin optimallığı prinsipinin mahiyyətini təşkil edir.

Idarəetmənin optimallığı gömrük sistemində müxtəlif metodlarla və vasitələrlə təmin edilir.

Gömrük orqanlarında idarəetmənin xüsusi prinsipləri iki böyük qrupa bölünür: gömrük fəaliyyətinin iqtisadi, sosial-siyasi, və mənəvi sahələrində tətbiq edilən prinsiplər və Az R-nın iqtisadi təhlükəsizliyini öz səlahoyyətləri çərçivəsində təmin edən dövlət hüquq mühafizə təşkilatı olaraq gömrük orqanları sistemində mövcüd olan prinsiplər.

Idarəetmənin xüsusi prinsiplərinə: qanunçuluq, səmərəli mərkəzsizləşdirmə ilə birgə mərkəzləşdirmə, son nəticəyə istiqamətlənmə və b.aid edilir.

Idarəetmənin təşkilati-texnoloji prinsipləri gömrük orqanları rəhbərlərinin təşkilati-sərəncamverici və inzibati-idaraedici fəaliyyətinin əsasında dayanır.

Onlara aşağıdakı idarəetmə prinsipləri aiddir: vahid rəhbərlik, konkretlik. əməyin bölgüsü, skalyar, iyerarxiya, sərəncamvermənin vahidliyi və tək rəhbər, səlahiyyətlərin ötürülməsi, idarəetmə diapazonu və s.

Vahid rəhbərlik prinsipinin əhəmiyyəti xüsusi olaraq qeyd edilməlidir. Bu prinsip, bir tərəfdən, idarəetmənin kollegiallığını, digər tərəfdən isə, icraedici funksiyalara görə ciddi fərdi məsuliyyətin müəyyən ediməsinin nəzərdə tutur. Kollegiallıq tapşırılan işə görə hər bir gömrük əməkdaşının məsuliyyətini istisna etmir, əksinə onun ücün şəxsi m əsuliyyət nəzərdə tutur.

Gömrük orqanlarının idarə ediməsində müvəffəqiyyət idarəetmədə iştirak edən bütün gömrük sistemi vəzifəli şəxslərinin, orqanlarının və təşkilatlarının fəaliyyət birliyi ilə təmin edilir. Bu zaman ümumi işdə hər birinin yerinin və rolunun spesifikasının dəqiq müəyyən

edilməsi, onların səlahiyyətlərinin, funksiyalarının və hüquqlarının aydın bölüşdürülməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

İdarəetmənin konkretliyi prinsipi situasiyanın konkret təhlilini tələb edir ki, bunu üçün idarəetmə sistemi haqqında və onun xarici mühiti haqqında keyfiyyətli elmi informasiya lazımdır.

Əməyin bölgüsü prinspində nəzərdə tutulur ki, idarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşırılan ən sadə əməliyyatlara ayrılır. Gömrük orqanı idarəetmə sisteminin hər bir həlqəsinin dəqiq, konkret vəzifəsi olmalıdır.

Skalyar prinsipi müəyyən edir ki, hər bir təşkilat (o cümlədən gömrük orqanı) dəqiq müəyyən olunmuş iyerarxik struktura malik olmalıdır.

İyerarxiya prinsipi aşağı əməkdaşın və ya bölmənin yuxarıdakına tabe olmalı olduğunu nəzərdə tutur. İnzibati uyerarxiyanın hər bir əməkdaşı yuxarıdakının qarşısında təkcə özününkü yox, həm də özünün tabeliyində olan bütün əməkdaşların qərarlarına və hərəkətlərinə görə cavab verir.

Səlahiyyətlərin ötürülməsi (verilməsi) prinsipi nəzərdə tutur ki, rəhbərin fəaliyyət sahəsindən vəzifənin tabe şəxsə verilməsi zamanı onun həlli üçün hüquqlar da verilməlidi, tabe şəxs isə onlara görə məsuliyyəti öz üzərinə qəbul etməlidir.

İdarəetmənin funksiyası – həyata keçirilməsi üçün müəyyən idarəçilik işləri (əməliyyatları) tələb olunan konkret idarəçilik fəaliyyəti növüdür.

Gömrük orqanlarının idarə edilməsində idarəetmə funksiyaları çox mühüm yer tutur, çünki onlar bütün səviyyələrdə idarəçilik fəaliyyətinin mahiyyətini və məzmununu açıqlayır və idarəetmə sahəsində vəzifələrin bölgüsünü əks etdirir, nəzərdə tutulmuş nəticələri əldə etmək üçün onların həyata keçirilməsini zamanı müəyyən növbəlilik və fəaliyyət birliyi tələb edir.

Gömrük orqanları sistemində idarəetmə funksiyalarını təsnif etməklə, onları idarəetmə prosesinin mərhələlərini əks etdirən ümumi idarəetmə funksiyalarına və gömrük orqanlarının əməliyyat-xidmət fəaliyyətinin konkret növlərinin spesifik (konkret) idarəetmə funksiyalarına bölmək olar. İdarəetmənin ümumi funksiyaları idarəetmənin mahiyyətini üzə çıxarır; onlar istənilən obyektin idarə edilməsi prosesini xarakterizə etdiyinə görə universaldır.

İdarəetmənin ümumi funksiyalarına aşağıdakılar aiddir:əməliyyat-xidmət şəraitinin təhlili və proqnozlaşdırılması, planlaşdırma, təşkiletmə, tənzimetmə, üşot və nəzarət.

Gömrük orqanlarının obyektiv imkanları idarəetmənin ən mühüm funksiyalarından biri kimi əməliyyat-xidmət şəraitinin təhlili və proqnozlaşdırılması əsasında üzrə şıxarıla bilər. Sistemi hissələrə bölməklə onun strukturunu üzə şıxarmaqla təhlil nəinki sistemin komponentlərinin vəziyyətini müəyyən etməyə, həm də onların qarşılıqlı münasibət və qarşılıqlı asılılığını üzə şaxarmağa imkan verir. Həm də təhlil idarəetmə ssitemində təkçə bütövlükdə sistemə deyil, eyni zamanda idarəçilik dövrünün hər bir komponentinə də şamil edilir.

Gömrük əməliyyat-xidməti şəraiti dedikdə iqtisadi, siyasi, sosial, hüquqi, regional və digər şərtlərlə (faktorlarla) inkişafda olan, gömrük fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edən qarşılıqlı əlaqəli elementlər məcmusu nəzərdə tutulur.

Gömrük əməliyyat-xidməti şəraitinin əsas elementləri bunlardır:

- xarici iqtisadi fəaliyyətin xidmət edilən iştirakçıları – Az və xarici fiziki və hüquqi şəxsləri, gömrük orqanının fəaliyyət zonasında mal axınının növləri, həcmləri və istiqamətləri, onların zaman, məkan, nəqliyyat növləri üzrə bölğüsü;
- gömrük qanunvericiliyinin qəsdən pozan XİF iştirakçılarının və onların köməkçilərinin; qaçqamalçıların və onların köməkçilərinin gömrük orqanlarına mənfi təsir göstərməyə cəhd edən gömrükətrafı kriminal strukturların və onların köməkçilərinin olması; gömrük qaydalarının pozulması və cinayətlərin

törədilməsində onların məqsədləri, planlarş, niyyətləri, vaxtı, yeri, strateğiya və taktikası haqqında məlumatlar;

- gömrük orqanlarının qüvvə və vasitələrə, onlara həvalə edilmiş funksiyaların və vəzifələrin icra edilməsində onların imkanları;
- Az R-nın iqtisadi təhlükəsizliyinin təminatının və iqtisadi mənafelərinni qorunmasınnı ümumdövlət tədbirləri;
- gömrük orqanlarının fəaliyyət zonasında qaçaqmalçılıqla və gömrük qaydalarının pozulması üzrə digər hüquq-mühafizə orqanlarınnı, idarələrin və təşkilatların olması, gömrük orqanları vəzifələrinin həlli üçün onlardan istifadə imkanları;
- gömrük fəaliyyətinin həyata keçirildiyi mühit.

Planlaşdırma idarəetmənin elə əsas funksiyasıdır ki, onun vasitəsilə gömrük qaydalarında gələcək fəaliyyətin təşkilatı balanğıcı işlənib hazırlanır.

Planlaşdırma vasitəsilə sisteminin inkişaf məqsədləri və istiqamətləri müəyyən edilir, mövcüd problemləri realizə edilməsi vasitəri olan metodlar işlənib hazırlanır, sistemin inkişaf təmpi müəyyən edilir.

Təşkilati planlaşdırma idarəetmənin bütün səviyyələrində strateji (Az DGK); taktiki (gömrük idarələri, postları) səviyyəsində həyata keçirilir.

Təşkiletmə dedikdə idarəetmənin elə əsas funksiyası nəzərdə tutulur ki, onun reallaşdırılması vasitəsilə planlaşdırma prosesində işlənib hazırlanmış planların yerinə yetirilməsi üçün şərait yaranır. Bu funksiyanın reallaşdırılması prosesində idarəetmə subyekti tərəfindən qəbul olunmuş qərarların, o cümlədən təstiq edilmiş planların uğurlu həyata keçirilməsi üçün zəruri olan şərait yaradılır.

Tənzimetmə dedikdə idarəetmənin elə əsas funksiya başaa düşülməlidir ki, onun vasitəsilə tabelikdə olan şəxslərin fəaliyyətinin səməliliyi yüksəlir və ya planlaşdırma zamanı verilmiş parametrlərdən kənaraçıxmalar aradan qaldırılır. Tənzimetmə əks əlaqənin

nəticələri əsasında həyata keçirilir. O ayrı-ayrı əməkdaşların və kollektivlərin qarşılıqlı əlaqələrinin saxlanması, əlaqələndirilməsi, qüvvələrin yenidən bölgüsü, eləcə də motivasiyası və stimullaşdırılması yolu ilə reallaşdırıla bilər.

İdarəetmənin tənzimetmə funksiyasının reallaşdırılması nəzarətin nəticələrinin təhlili; tənzimetmə qərarlarının qəbulu, qərarların vəzifələr şəkilində icraçılara çatdırılması; tənzimetmənin təşkili; tənzimetmənin aparılması; tənzimetmənin təsirinin yoxlanması kimi idarəçilik işlərinin icra edilməsindən ibarətdir.

Uçot funksiyasının mahiyyəti idarə olunan ssitemin cari vəziyyəti haqqında onun hərəkət istiqamətləri və templəri, əldə edilən nəticələr və dəyişən probləmlər haqqənda informasiyanın toplanması, sitemləşdirilməsi və ilkin işlənməsi təşkil edir. Planların yerinə yetirilməsinin düzgünlüyünü, onların icrasının şərait və nəticələrinin necə olduğunu müəyyən etmək üçün nəzarət mövcuddur.

Nəzarət idarəetmənin elə əsas funksiyasıdır ki, onun reallaşdırılması vasitəsilə gömrük orqanlarının vahid sisteminin fəaliyyəti prosesi üzərində müşahidə həyata keçirilir, bu və ya digər zaman momentində tabelikdə olanların fəaliyyətinin gedişi, şəraiti, vəziyyəti və nəticələri haqqında məlumatlar toplanır.

Qarşıya qoyulmuş məqsədlərin əldə edilməsi üçün idarəetmə obyektinə təsis yollarının, üsullarının, vasitələrinin və formalarının məcmusu idarəetmə metodu adlanır.

İdarəetmənin metodları idarəçilik fəaliyyətinin miqyasına və təsir formasına görə təsnif edilir.

Gömrük orqanlarında idarəçilik fəaliyyətinin miqyasına görə ümumi və xüsusi metodlar fərqləndirilir.

İdarəetmənin ümumi metodları gömrük işinin qlobal problemlərinin, strateji məsələlərinin həllinə yönəlmişdir, onlar bütün gömrük sisteminin əsas məqsədlərini və fəaliyyət göstərməsi məsələlərin əldə olunması üsullarını müəyyən edir.

İdarəetmənin xüsusi metodları, başlıca olaraq, operativ və cari idarəetmə sistemlərində istifadə edilir.

Gömrük sistemində təsir formalarından asılı olaraq birbaşa və dolayı təsir metodları tətbiq edilir.

5.İdarəetmə sisteminin mühüm komponenti idadəetmə prosesidir. İdarəetmə prosesi müvafiq metodlarından və prinsiplerindən istifadə edilməklə müəyyən funksiyaları reallaşdırmaq yolu ilə sistemdə birləşdirilmiç idarəetmə subyektlərinin (xətti və funksional rəhbərlərin, eləcə də digər idarəçilik heyətinin) idarə edilən obyektin keyfiyyət vəziyyətlərinin dəyişdirilməsinə, kollektivin məqsərlərinin əldə edilməsinə yönəldilmiş fəaliyyətdir.